**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AUDİOPUBLİSİSTİKADA İFADƏ VASİTƏLƏRİNİN SİNTEZİ PROBLEMİ

İxtisas 5720.01 - Jurnalistika

Elm sahəsi Filologiya

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən

## D İ S S E R T A S İ Y A


**İddiaçı** **Şəlalə Məhyəddin qızı QULİYEVA**

**Elmi rəhbər:** **Nəsir Abbas oğlu ƏHMƏDLİ**
**Filologiya elmləri doktoru, professor**


**Bakı–2021**

**MÜNDƏRİCAT**

GİRİŞ ........ 3

l FƏSİL. Audiopublisistika anlayışı: tarix, nəzəriyyə və təcrübə ........ 14
1.1. Audiopublisistikanın tarixinə baxış ........ 14
1.2. Audiopublisistika nəzəri araşdırmalarda ........ 36

II FƏSİL. Audiopublisistikada ifadə vasitələrinin xarakteristikası ........ 68
2.1. Söz radio dilinin başlıca komponentidir ........ 68
2.2. Səs effektlərinin və fon musiqisinin məzmunun açılmasına təsiri ........ 88

III FƏSİL. Söz, səs effektləri və musiqi uyarlığı audiopublisistikanın əsas atributu kimi ........ 116
3.1. Radiojurnalistikada kontrapunkt anlayışı ........ 116
3.2. Söz səs effektləri-musiqi kontrapunktuna nail olma yolları ........ 134

NƏTİCƏ ........ 158
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ........ 163

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Bəşəriyyətin ədalətli cəmiyyət quruculuğuna və beynəlxalq münasibətlərin daha ədalətli prinsiplər üzərində qurulacağına böyük ümidlər bəslədiyi XXI əsrin ilk iki onilliyi aşkar göstərir ki, bunun əksi olan meyl daha üstündür və getdikcə güclənir. İctimai münasibətlərin bu meylini Azərbaycan Respublikasının dövlət müstəqilliyi yolu ilə irəliləməyə başladığı son dövrün təcrübəsi də əyani təsdiq edir. Digər sovet respublikalarının əksəriyyəti kimi ölkəmiz də hər cəhətdən sıx inteqrasiya olunmuş SSRİ-nin dağılması nəticəsində yeni cəmiyyət quruculuğu sahəsində çətin iqtisadi, hüquqi-siyasi, mədəni-mənəvi problemlərlə üzləşmişdir.

Təbii ki, həmin sahələrdə qarşıya çıxan bütün problemlərin yalnız milli potensial hesabına həlli qeyri-mümkün idi və dövlət müstəqilliyimizin ilk illərindən dərin beynəlxalq inteqrasiya yolunu tutmağımız həyati zərurətə çevrilmişdir. Yenidən ali siyasi hakimiyyətə qayıdan Milli Lider Heydər Əliyevin siyasi təcrübəsi və təşkilatçılıq məharəti sayəsində qısa müddət ərzində ölkədə müxtəlif qüvvələrin hakimiyyət çəkişmələrinə son qoyularaq siyasi sabitlik bərqərar oldu. Milli iqtisadiyyatımızın aparıcı sahəsi olan neft sənayesinin inkişafına böyük təkan verən "Əsrin müqaviləsi"nin imzalanması ilə həm sosial tərəqqimizə əsaslı zəmin yaradıldı, həm də respublikamız beynəlxalq münasibətlərin tamhüquqlu subyektinə çevrilərək fəal beynəlxalq inteqrasiya yoluna qədəm qoydu. Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyət göstərdiyi son on yeddi ilin yekunları tutduğumuz yolun doğru və səmərəli olduğunu, milli mənafelərimizə cavab verdiyini təsdiq edir.

Bununla belə, müasir dünyanın sürətlə qloballaşması, hərtərəfli qarşılıqlı əlaqələrin dərinləşməsi elm tutumlu ən müasir texnologiyalara və qabaqcıl təsərrüfat təcrübəsinə geniş yol açılması kimi aşkar müsbət nəticələri ilə yanaşı, inkişaf etməkdə olan ölkələrin, xüsusən də gənc dövlətlərin milli mənafelərinə heç də cavab verməyən ciddi fəsadlarla da müşayiət olunur. Müasir dünyanın ABŞ, Fransa, Rusiya kimi aparıcı dövlətlərinin də qatılmasına baxmayaraq, Ermənistan-

Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin bizə yeganə vasitə kimi təkidlə təlqin edilən sülh yolu ilə həllini tapmaması, təxribatlara ara verməyən təcavüzkar Ermənistana qarşı münasibətdə aşkar üzgörənlik etmələri müasir beynəlxalq siyasətdə ikili standartların hökm sürdüyünü deməyə əsas verir, cəmiyyətimizdə haqlı narazılıq doğururdu. Odur ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətlə irəli sürdüyü "münaqişənin hərbi həlli yolu var və lazım gələrsə torpaqlarımızı bu yolla azad edəcəyik" formulu cəmiyyətimizdə qızğın müdafiə edildi. 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük ikinci Qarabağ müharibəsi iqtidar-xalq birliyini nümayiş etdirməklə parlaq qələbəmizin mühüm rəhni oldu.

Tədqiqat mövzumuz baxımından, prezident İlham Əliyevin Vətən müharibəsinin davam etdiyi və tarixi qələbəmizdən sonrakı günlərdə müxtəlif ölkələrin KİV təmsilçilərinə çoxsaylı canlı operativ müsahibələrini siyasi audiopublisistikanın gözəl nümunəsi hesab etmək olar. Bunlar ölkəmizə və onun haqq işinə qarşı çıxanlara ən tutarlı cavabdır.

Bura Avropanın müxtəlif qurumları tərəfindən ölkəmizdə "demokratiya və insan hüquqlarının pozulması" adı altında qərəzli qərarların qəbul edilməsini, əsla səngimək bilməyən, əslində ideoloji müharibə həddinə çatan kəskin informasiya mübarizəsini də əlavə etməliyik. Bu amil milli dövlətimizin rəsmi siyasi hakimiyyət orqanları ilə yanaşı ənənəvi olaraq "dördüncü hakimiyyət" adlandırılan kütləvi informasiya vasitələrinin (KİV) üzərinə də mühüm vəzifələr qoyur. Müxtəlif mətbuat vasitələri ilə yanaşı audiojurnalistika, onun televiziya və internet kimi mühüm formaları ilə birlikdə radiojurnalistika da dövlət mənafelərimizin müdafiəsində aparıcı rol oynamağa borcludur. Bütün bunlar KİV-in müxtəlif vasitələrinin fəaliyyətinin elmi əsaslar üzərində qurulmasını, onların ictimai rolu, informasiya yükü və sənətkarlıq məsələləri ilə bağlı problemlərin müasir tələblər səviyyəsində sistemli tədqiqini zəruri edir.

Dissertasiya mövzusu olaraq audio/radiopublisistikanın, daha dəqiq, onun ifadə vasitələri probleminin seçilməsinin aktuallığı bir sıra mühüm amillərlə bağlıdır:

- milli maraqlarımıza qarşı yönələn siyasi informasiya müharibəsinə qarşı mübarizənin gücləndirilməsi bu gün ölkəmizin KİV təmsilçilərinin qarşısında duran mühüm vəzifədir. Mobilliyi və əhatə dairəsinin genişliyi radiojurnalistikanı həmin mübarizənin öncüllərindən birinə çevirir;

- qlobal siyasi informasiya mübarizəsi meydanında radiopublisistikanın imkanları radiojurnalistikanın digər janrlarına nisbətən daha genişdir. Adətən diktor tərəfindən təqdim edilən xəbər-informasiyadan fərqli olaraq jurnalist-publisistin olayın obyektiv faktiki tərəfini çatdırmaqla yanaşı, analitik təhlil aparması, ona fərdi-subyektiv qiymət verə bilməsi radiopublisistikanın təsir gücünü və mübarizliyini daha da artırır;

- KİV-in bir növü olmaq etibarilə bütövlükdə audio/radiojurnalistika, o cümlədən onun radiopublisistika janrı formaca sintetikdir – söz-səsdən ibarət olan mətn səs-küy effektləri və müvafiq musiqi parçası ilə müşayiət olunur, bunun sayəsində dinlənilib adekvat qavranılma imkanı daha da artır. Hər üç elementin sintezinə, daha çox polifonik musiqi barədə işlədilən anlayışla desək, kontrapunktuna (uyarlığına) nail olmaq radiojurnalistika sənətkarlığının və deməli, təsir gücünün artırılmasının mühüm amilidir;

- mövzu seçiminin aktuallığına dəlalət edən daha bir amil milli jurnalistika elmində həmin problemin xüsusi tədqiqat obyekti kimi ətraflı nəzərdən keçirilməməsidir.

Sadalanan bu problemlərin elmi əsaslarla dərki və ölkəmizdə radiojurnalistikanın inkişafına kömək edə bilən müvafiq əməli tövsiyələr hazırlanması yaşadığımız mürəkkəb zamanın tələbidir.

Beləliklə, ölkəmizdə tarixi yüz ilə yaxınlaşan audio/radiojurnalistikanın və onun özəyi olan radiopublisistikanın məzmun və ifadə vasitələrinin vəhdəti probleminin tədqiqi müasir dövrün gerçəklikləri baxımından olduqca aktualdır. Müasir informasiya müharibəsi şəraitində bu, gənc dövlətimizin milli maraqlarının istər daxili siyasi quruculuq sahəsində, istərsə də müasir mürəkkəb beynəlxalq münasibətlər sistemində etibarlı qorunması vəzifəsi ilə sıx bağlıdır.

Audiopublisistikanın, onun xüsusi bir bölməsi kimi radiopublisistikanın ifadə vasitələrinin sintezi problemi indiyədək xüsusi tədqiqat mövzusu kimi araşdırılma-

mışdır. Bununla belə, yüz il əvvəl ABŞ-da ilk dəfə efirə çıxan radio sənətinin müxtəlif aspektləri onun bütün tarixi ərzində təkcə dinləyicilərin deyil, yaradıcı heyətin də diqqət mərkəzində olmuşdur. Onunla radio sahəsində ixtisaslaşan jurnalistlərdən tutmuş verilişlərin hazırlanması, efirdə səsləndirilməsi və dinləyiciyə çatdırılması ilə məşğul olan yardımçı heyət və texniklərədək müvafiq peşə sahibləri ilə yanaşı, rəsmi dövlət qurumları, siyasi partiyalar və ictimai təş-kilatlar da yaxından maraqlanmışlar. Xüsusən, SSRİ məkanında, o cümlədən respublikamızda da radio və sonralar habelə televiziya ən kütləvi təbliğat vasitəsi kimi himayə olunmuş, dövlət komitəsi səviyyəsində rəsmi idarə strukturu yaradılıb fəaliyyət göstərmişdir. Bu dövr ərzində radio sənəti, onun məzmun və forması, fəaliyyətinin üsul və vasitələri və s. məsələlər elmin müxtəlif sahələrinin təmsilçi-lərinin də diqqətindən kənarda qalmamış, onun müxtəlif problemləri tədqiq oluna-raq kifayət qədər elmi baza yaradılmışdır.

Amerika alimlərindən Herbert Qans, Robert Mott, Mişel Hilms və başqaları radiojurnalistika haqqında araşdırmalarında radionun ifadə vasitələri ilə bağlı müəyyən məqamlara toxunublar. Məsələn, Amerika Birləşmiş Ştatlarının sosioloq alimi Herbert Qans (Gans H. J) öz “Xəbər nədir - araşdırma” (Deciding What is the News) kitabında yazır ki, *müəllif xəbər hazırlayarkən və xəbərlə qarşılaşarkən camaat və cəmiyyət əlaqəsinin xəbərdə necə əks olunduğuna nəzər yetirir. Amma dinləyicinin buna diqqət yetirib-yetirmədiyinə əmin deyil. Çünki auditoriyanın çoxu xəbərə araşdırmaçı kimi deyil, öz düşüncə tərzi ilə şəxsi aspektindən yanaşır. Jurnalist dinləyicini xəbərlə maraqlandırmağa çalışmalı, inandırmalıdır, məlumatlı vətəndaş olmağa məcbur etməlidir, xəbər onları maraqlandırmasa belə* [182, s.37].

Robert Mott (Mott R.L) “Radio səs effektləri; bunları kim yaratdı, necə yaratdı, canlı yayımın erası” kitabında müasir radiojurnalistikada keçmiş təcrübənin öyrənilməsi və yaradıcılıqda istifadə edilməsini qənaətbəxş hesab etmir: “*Bugünkü gündə Amerikada radio dinləyiciləri üçün təsvir vermək çətindir. Filmlərdən və qəzetlərdən fərqli olaraq, radio öz dinləyicilərini onların iştirakını tələb etmədən həm əyləndirir, həm də məlumatlandırır*” [188, s.1].

Tobi Miller (Miller T.) yazır: "*Audiojurnalistikada xəbər mətni nəql edilən hadisə ilə əlaqəli olur. Sənədli təqdim olunan bu tip mətnlər səs və təsvirin görüntüsündən ibarət olub sosial və elmi dünyadan real faktları özündə əks etdirməlidir*" [187, s.184].

Audio/radiojurnalistikanın problemləri ilə sovet və rus müəllifləri də yaxından maraqlanmışlar. A.Şerel, V.Smirnov, N.Tolstova, M.Zarva, Y.Klyuev, B.Mixaylov, T.Lebedeva və b. radiojurnalistikanın ayrı-ayrı janrlarını təqdid etmişlər. Prof. A.Şerel yazır ki, "*radio yaradıcılığında "sadəlövh təbiilik" prinsipində alman istiqaməti - "helbird" (səslərin şəkli) üsuluna müraciət olunmalıdır. Radiopyesin mətninin, sözlərin səlist, başadüşülən tərzdə ifası, yəni verbalizm-psixoloji sindromu, danışığın insan şüuruna öz əksini hopdurması müvəffəqiyyətlə icra edilməli, melodik amilə üstünlük verilməli, ritm və ədəbi mövzunun ahəngdarlığı pozulmamalıdır*" [176, s.115]. Yəni, danışıqdan sonra verilən musiqi düzgün seçilməli, hər ikisi bir-biri ilə bağlılıq təşkil etməlidir.

V.V.Smirnovun araşdırmalarında radiopublisistikanın əsasını nitqin təşkil etdiyi, radiomətnlərin bədii danışıq dilinin qanunları əsasında yaradıldığı qeyd olunub: "*Onların süjet xətti, kompozisiyası, strukturu və dil xüsusiyyətləri var. Səsli publisistikanın tarixini öyrənmək üçün radiojanrlar sisteminə nəzər salmaq kifayətdir*"[168, s.35-36].

Y.V.Klyuev "Radiojurnalistika peşəsinin əsasları" kitabında xüsusi önəm kəsb edən ifadə vasitələrinin faktoloji təhlilini verir [144], M.V.Zarva[140], Y.M.Qalperin [133] radioda danışıq dilini mühüm amil hesab edirlər.

Tədqiqatda Azərbaycan müəlliflərindən Ə.Əlibəyli, T.Rüstəmov, A.Axundov, C.Məmmədli, Y.Əlizadə, A.Babayev, E.Quliyev, Q.Yusifzadə, N.Əhmədli, Q.Məhərrəmli, A.Kərimli, A.Dadaşov, N.Xudiyev, Z.Məmmədli, F.Veysəlli, R.Məmmədov, S.Məmmədova, N.Atamoğlanova və s. alimlərin elmi əsərlərinə və radio haqqında yazılmış qəzet məqalələrinə müraciət edilib. Onlar əsərlərində problemə müxtəlif rakurslardan yanaşıb, radiojurnalistikanın bir sıra mühüm məsələlərinə toxunmuşlar.

Y.Əlizadə Azərbaycan radiosunun ilk tədqiqatçısıdır. Prof.N.Əhmədli isə tədqiqatlarında Azərbaycan Beynəlxalq Radiosunu geniş təhlil etmişdir. Xüsusən radionun Cənubi Azərbaycan verilişlərini araşdırıb, radionun danışıq dili haqqında elmi yazıları vardır. Müəllif "Audiodanışıq = fikir (radio verilişlərinin əsasını təşkil edən faktlar) + efir dili" anlayışını konkret prizmadan şərh etmişdir. Alimin fikrincə, "*audiodil" sözlərin (diksiya, intonasiya, pauza və orfoepik normalar daxil olmaqla), musiqinin (jurnalist verilişlərini müşayiət edən tərtibat musiqisi nəzərdə tutulur) və səs effektlərinin sintezidir. Radioya münasibətdə "audiodil" deyəndə bu triadadan danışmaq olar: şifahi nitq+təbii səslər (ətraf aləmdə qulaq eşidən və anlam yaradan küy səslər)+musiqi (fon musiqisi)*" [120, s.234-236].

Prof. Q.Məhərrəmli radio yaradıcılığına aid xeyli sayda dərsliklərin müəllifidir. Onun "Radio dərsləri" kitabında bütün janrlardan bəhs olunmuşdur. Alimin qənaətinə görə, radionun ifadə vasitələri həm illüstrasiya kimi, həm də müstəqil şəkildə işlədilir. "*Radionun akustik təbiətindən doğan bu xüsusiyyət ayrı-ayrı mövzu və janrlarda olan verilişlərin dil materialına, dialoqların quruluşuna, efirdə danışılanların nitqinə, intonasiya-tələffüz çalarlarına, həmçinin fonetik, leksik və sintaktik hadisələrə xüsusi tələblə yanaşmağı şərtləndirir*" [78, s.257].

Bütün bunlara baxmayaraq audio/radiojurnalistikanın, xüsusən də radiopublisistikanın ifadə vasitələri respublika mütəxəssisləri tərəfindən müstəqil tədqiqat obyekti kimi araşdırılmamışdır. Dissertasiya mövzusu kimi bu problemin seçilməsinin məqsədi bu sahədəki boşluğu doldurmaq istəyi ilə bağlıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Beynəlxalq təcrübədə audiopublisistikanın radiojurnalistikanın janrları əsasında inkişafı, qəzet publisistikasından, ədəbiyyata xas olan publisistik elementlərdən ehtiva etdiyi məqamlar, bədii publisistika ilə oxşar və fərqli cəhətləri, efir özəllikləri haqqında xeyli sayda araşdırmalar var. Azərbaycanda isə yarım əsrə yaxındır göstərilən səylərə baxmayaraq, audiopublisistika ilə bağlı tədqiqat işləri zəif aparılıb. Jurnalistika üzrə araşdırmaların və dilçi alimlərin əksəriyyətinin ötəri toxunduğu radiopublisistika problemi tam mahiyyəti ilə tədqiq edilməyib.

Dissertasiya işində əsas məqsəd audiopublisistikanın mahiyyəti və tarixi inkişaf xüsusiyyətlərini, bütövlükdə radiopublisistikada yerini dəqiqləşdirmək, onun ifadə vasitələrinin ayrı-ayrılıqda xarakteristikasını açmaq, söz, səs effektləri və musiqinin birlikdə işlənməsi üçün tələb olunan meyarları müəyyən etməkdir. Bu məqsəd bır sıra vəzifələrin həyata keçirilməsini zəruri edir:

- cəmiyyəti məlumatlandırmaq zəminində radioyayımın müxtəlif illərdə təşəkkül və intibah prosesinin funksional cəhətdən nəzərdən keçirilməsi;

- audiopublisistikanın - radiojurnalistikanın başlıca sahələrindən biri kimi araşdırılması;

- audiopublisistik əsərdə ifadə vasitəsi olan sözün səs effektləri və musiqi ilə işlənməsi mexanizminin tədqiqi;

- problemin daha dolğun dərki üçün yerli və xarici alimlərin mövzuya dair elmi-nəzəri fikirlərinin təhlili;

- informativ məna daşıyan küy səsləri və fon musiqisindən istifadə zamanı internet resurslarından və rəqəmsal texnologiyanın imkanlarından istifadənin əhəmiyyətinin göstərilməsi;

- ifadə vasitələrini sintez edən məqamların aydınlaşdırılması;

- kontrapunkta nail olmaq üçün tövsiyələrin, elmi-nəzəri qənaətlərin, mütərəqqi yeniliklərin təcrübədə tətbiqi və harmonik əlaqələrin qurulmasında əhəmiyyətinin əsaslandırılması və s.

**Tədqiqatın metodları.** Dissertasiya işinin mövzusu radiojurnalistikanın müasir vəziyyəti ilə yanaşı, onun tarixi inkişaf yolunu da ehtiva etdiyindən, onun tədqiqi prosesində məntiqi təfəkkürün sınanmış dialektik idrak metodundan istifadə edilmiş, onu tarixilik prinsipi ilə tamamlamağa çalışılmışdır. Tədqiqatın predmetində mətn-söz, musiqi və küy-səs elementlərinin vəhdəti problemi əsas yer tutduğundan, hermenevtika-mətnşünaslıq, musiqişünaslıq, formalaşmaqda olan gənc elm küyşünaslıq və b. bilik sahələrinin xüsusi elmi metodlarına da yeri gəldikcə müraciət edilmişdir. Əsasən müqayisəli təhlil metodundan istifadə olunmuş, yeri gəldikcə tarixi müqayisəli metoda da müraciət edilmişdir. Xüsusən

dünya radio yayımının və ölkəmizin milli radiosunun keçdiyi inkişaf yolunu araşdırarkən müəllif tarixi müqayisəli metodun prinsiplərindən yararlanmışdır.

Tədqiqatın nəzəri mənbələri anlayışına bütövlükdə jurnalistikaya, xüsusən də audio/radiojurnalistikaya həsr olunmuş mənbələr bilavasitə aiddir. Odur ki, dissertasiya işi yazılarkən müxtəlif dövrlərə xas olan xüsusiyyətlər təhlil olunmuş, yaradıcılıq sferasındakı fərqli baxışlar nəticəsində yaranan verilişlərin məna dəyəri araşdırılmış, onların harmonik əlaqəsi nəzərdən keçirilmişdir.

Elmi araşdırmanın metodoloji və nəzəri əsasları ilə yanaşı, onun faktiki material bazası da qeyd olunmalıdır. Bu, geniş mənada götürdükdə, dünyada radio sənətinin bir əsrlik tarixi ərzində formalaşıb inkişaf edən efir mədəniyyəti, o cümlədən respublikamızın SSRİ-nin tərkibində olduğu dövrdə, xüsusən də dövlət müstəqilliyinin bərpasından sonra toplanmış efir materiallarıdır. Bunların arasında Azərbaycan Teleradiosunun fonoteka-arxivində, habelə veteran radio jurnalistlərimizin şəxsi kolleksiyalarında saxlanılan verilişlər əsas yer tutur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Xarici və milli radiojurnalistikada söz-mətn, musiqi və küy səslərin informasiya daşıyıcılığı məsələləri müstəqil problemdir. Hər bir elementin radiopublisistikada özünəməxsus və əhəmiyyətli yeri vardır. Bu problemin tədqiqində əsas ağırlıq mərkəzi - söz, küy səslər və musiqinin, yəni radio mətninin tərtibi və təqdimində istifadə olunan ifadə vasitələrinin vəhdəti, onların sintezi məsələləridir.

- Radiopublisistikada kontrapunktun, yəni onun ifadə vasitələrinin üzvi uyarlılığının əldə edilməsi kompleks vəzifədir, mətnin hermineftik aspektləri ilə yanaşı verilişin tərtibində istifadə olunan küy səslərin və musiqinin də radiojurnalist tərəfindən nəzəri səviyyədə dərki vacibdir, onun mətnşünaslıq, o cümlədən filologiya elmləri ilə yanaşı musiqişünaslıq və gənc elm sahəsi kimi formalaşmaqda olan küyşünaslığın mühüm tələblərini bilməsi vacibdir. Bu isə jurnalist kadrların hazırlığında göstərilən elm sahələri barədə zəruri bilik verilməsini şərtləndirir.

- Bütün bunları nəzərə alaraq - Azərbaycanın radio tarixi mərhələlərlə internetdə əks olunmalı və xronoloji ardıcıllığa əsasən verilişlərin elektron katoloqu yaradılmalıdır; tanınmış söz sahiblərinin radiodakı xidmətləri öyrənilməli, onların audiopublisistik əsərləri araşdırılmalıdır; danışıq dili bədii nitq elementi kimi dəyərləndirilməli, nitq mədəniyyəti səlis və rəvan olmalı, radionun dil-üslub xüsusiyyəti funksional cəhətdən seçilməlidir; səs effektləri və fon musiqisi arasında harmonik vəhdəti doğuran əlaqə tapılmalıdır; küyşünaslıq bir elm kimi aktual istiqamətlərdən öyrənilməlidir; sözün musiqi ilə uyğunluğunu şərtləndirən amillər düzgün təyin olunmalıdır; kontrapunkta nail olmaq üçün ifadə vasitələrinin hər birinin məna və anlam yaradan xüsusiyyətləri təhlil edilməli və məzmun baxımından sözlə ahəngdarlıq yaradan harmonik birləşmə məqamı tapılmalıdır – kimi konkret tövsiyələr irəli sürülür.

**Tədqiqatın elmi yeniliyi.** Radiojurnalistikanın meydana gəlməsi, tarixi inkişafı, ayrı-ayrı janrların formalaşması və xüsusiyyətləri, ictimai həyatda rolu və s. məsələlər xarici və yerli tədqiqatçıların monoqrafik əsərlərində və elmi məqalələrində, eləcə də bir sıra dissertasiya işlərində nəzərdən keçirilmişdir. Lakin bu tədqiqatların hər birində əldə edilən nəticələrlə yanaşı radiojurnalistikanın inkişafı ilə bağlı meydana gələn yeni problemlər də sadalanır, daha dərindən tədqiqi lüzumu göstərilir. Radiojurnalistikanın mühüm qolu olan radiopublisistika bu cəhətdən daha çevikdir, dəyişən zamanın, qarşıya çıxan yeni vəzifələrin dərki və üzləşdiyimiz problemlərin həlli yollarının axtarışı ümumbəşəri vəzifəyə çevrilir. Bu isə radio jurnalistinin praktiki fəaliyyəti ilə yanaşı, onun nəzəri əsaslarının işlənib hazırlanmasını, araşdırılmasını zəruri edir. Audiopublisistikada ifadə vasitələrinin sintezi probleminin müstəqil tədqiqat mövzusu kimi seçilməsi həmin zərurətdən irəli gəlmişdir. Bu sahədə aparılan araşdırmalar nəticəsində əldə olunan başlıca yeniliklər bunlardır:

- audio/radiopublisistikanın müxtəlif məsələlərinə radiojurnalistikadan yazan müəlliflər daha çox onun məzmunu tərəfdən yanaşmış, ifadə vasitələrinin rolu və sintezi probeminin sistemli həlli məsələsini qoymamışlar. Təqdim olunan dissertasiya işi bu sahədə ilk təşəbbüs olmaq mənasında yenilik hesab edilə bilər;

- xarici və milli radiojurnalistikada söz-mətn, musiqi və küy səslərin informasiya daşıyıcılığı məsələlərinə, əsasən müstəqil problem kimi yanaşılmış, o cümlədən radiopublisistikada bunların rolu və əhəmiyyəti barədə fikirlər söylənmişdir. Lakin söz, küy səslər və musiqinin, yəni radio mətninin tərtibi və təqdimində istifadə olunan ifadə vasitələrinin vəhdəti, onların sintezi məsələləri müxtəlif aspektlər baxımından ətraflı öyrənilmədiyindən, dissertasiya işində bu problem tədqiqatın əsas ağırlıq mərkəzinə keçirilmişdir;

- radiopublisistikada kontrapunktun, yəni onun ifadə vasitələrinin üzvi uyarlığının əldə edilməsi kompleks vəzifədir, mətnin hermenevtik aspektləri ilə yanaşı, verilişin tərtibində istifadə olunan küy səslərin və musiqinin də radiojurnalist tərəfindən nəzəri səviyyədə dərki vacibdir, onun mətnşünaslıq, o cümlədən filologiya elmləri ilə yanaşı, musiqişünaslıq və gənc elm sahəsi kimi formalaşmaqda olan küyşünaslığın mühüm şərtlərini bilməsi tələb olunur. Bu isə jurnalist kadrları hazırlığında göstərilən elm sahələri barədə zəruri bilik verilməsini şərtləndirir. Tədqiqatın məntiqi nəticəsi olaraq ortaya çıxan bu qənaətimiz bir sıra yeni əməli təkliflər irəli sürməyimizə əsas verir ki, həmin təkliflər tədqiqatın nəticəsində təqdim olunur.

**Tədqiqatın nəzəri-praktik əhəmiyyəti.** Tədqiqatın elmi-nəzəri əhəmiyyəti audio/radiopublisistikanın söz, küy səslər və musiqi kimi əsas ifadə vasitələrinin sintezi probleminin ilk dəfə konseptual baxımdan işlənməsi ilə bağlıdır. Tədqiqatın gedişində əldə edilmiş nəticələr bu sahədə yeni elmi tədqiqatlarda gərəkli ola bilər.

Dissertasiyada praktiki materialların elmi cəhətdən araşdırılması həm də əməli əhəmiyyət daşıyır - radiopublisistikanın məna və təsir effektini, efirin səs keyfiyyətini yaxşılaşdırmağa kömək edə bilər. Tədqiqatın başlıca müddəa və tövsiyələrindən istər gənc jurnalist kadrların hazırlanması prosesində, istərsə də onların əməli-praktiki fəaliyyətində nəzəri mənbə kimi istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Araşdırmanın məzmunu Azərbaycanın və müxtəlif xarici ölkələrin elmi toplu və jurnallarında dərc olunmuş məqalə və tezisdə, konfranslarda oxunmuş məruzələrdə əksini tapmışdır. Tədqiqatın nəticələrindən ali təhsil müəssisələrində əlavə vəsait kimi də istifadə oluna bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Bakı Dövlət Universitetinin Televiziya və Radio jurnalistikası kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyanın mövzusu Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin Elmi Şurasının 25 fevral 2013-cü il tarixli iclasında (protokol №5) təsdiq olunmuşdur. Mövzu Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Filologiya problemləri üzrə Elmi Şurasının 11 iyun 2013-cü il tarixli iclasında (protokol № 21) təsdiq olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş (19813), I fəsil (10103), II fəsil (91404), III fəsil (76085), nəticə (7760) və ədəbiyyat sıyahısından (24719) ibarət olmaqla, ümumi həcmi (296094) işarədən ibarətdir.

# I FƏSİL
# AUDİOPUBLİSİSTİKA ANLAYIŞI: TARİX, NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

## 1.1.Audiopublisistikanın tarixinə baxış

Radionun yaradılması ilə bağlı irəli sürülən nəzəriyyələr, onun kəşfi, sınaqdan uğurla keçirilməsi və bütün dünyada tətbiqi təxəyyülün şüurda oyatdığı düşüncələrin nəticəsi olmaqla bəşəriyyətin texnoloji nailiyyətinin ilkin əsası hesab edilir. Radionun meydana gəlməsi ilə elm və texnika aləminin yeni inkişaf dövrünə qədəm qoyuldu.

1894-cü ildə italiyalı mühəndis Q.Markoni və 1895-ci ildə rus mühəndisi A.S.Popov bir-birindən xəbərsiz eyni vaxtda bütün dünyanın diqqətini cəlb edən yeni ixtiraya imza atdılar [207, s.24]. Birinci dünya müharibəsi zamanı radioteleqraf və radiotelefon sözləri ilə yanaşı ədəbi lüğətə “broadcast”- “kütləvi yayım” termini gətirilib [78, s.29; 163, s.18].

İnsan zəkasının məhsulu olan bu yeni tapıntı əvvəllər rabitə və hərbi məqsədlər üçün istifadədə özünü doğruldub. Radiodan insan səsinin eşidilməsi və uzaq məsafələrə yayılması isə bütün dünyanı bir-birinə yaxınlaşdıran qeyri-adi qüvvəyə çevrilib [177, s.328; 219].

Dünya radio yayımında ilk nizamlanmış efirin fəaliyyətə başlaması Frank Konradın adı ilə bağlıdır. 1920-ci il noyabr ayının 2-də ABŞ-da “Vestinqauz” şirkətinin mühəndisi Frank Konrad Pitsburqdan ilk lisenziyalı veriliş yayımlayıb [219].

“Vestinqauz” şirkətinin rəhbəri S.M.Kintner yazır: “*Hər dəfə yayımdan sonra Konrada zəng edənlərin ardı-arası kəsilmirdi. Hamıya cavab verməyə vaxt tapa bilməyən mühəndis insanların marağını nəzərə alaraq belə qərara gəlir ki, efir eyni vaxtda yayımlansın. Məsələn, üçüncü və altıncı gün axşamlar yayımı mütəmadi izləmək mümkün olsun. Bundan sonra radio həvəskarları yayımın növbəti vaxtını əvvəlcədən öyrənməyə müvəffəq oldular. Hətta konsertlər*

*haqqında informasiya da dildən-dilə gəzir, insanlar bir-birilərinə bu barədə məlumat verirdilər*" [219].

1930-1940-cı illər ABŞ radiosunun "qızıl dövrü" adlandırılır. Səbəb bu illərdə efirdə simfonik konsertlərin, tanınmış opera və dram teatrlarından tamaşaların səslənməsidir. 30 oktyabr 1938-ci ildə Orson Vells Amerikanın CBS radiosunda "Dünyalar Müharibəsi" ("War of the Worlds") adlı romanın ssenarisi üzərində hazırlanmış radiotamaşanın sonunda həyəcanlı səslə bu cümləni oxuyub: "Marslılar dünyaya gəldilər və Amerika Birləşmiş Ştatlarını zəbt edirlər". Bu zaman proqramı dinləyən milyonlarla amerikalı bu anonsdan sonra avtomobillərinə minib qaçmağa başlayıb. Həyəcan siqnalı o qədər böyük olub ki, Vellsin proqramı sonlandırarkən "Dünyalar Müharibəsi" adlı romandan hazırlanmış radiotamaşanı dinlədiniz" cümləsini demək olar ki, dinləyicilər eşitməyib. Bu, o zamana görə radionun insanlar üzərində təsirini göstərən ən bariz misallardan biridir [113, s.168 ; 114, s.2; 155, s.343].

ABŞ daxili auditoriyanın başını əyləncə proqramlarına qatsa da, radionun təsir imkanlarının gücünü nəzərə alıb, ondan silah məqsədi ilə istifadə edərək beynəlxalq aləmdə düşünülmüş radiosiyasət gerçəkləşdirib. 1942-ci ildən "Amerikanın səsi" radiostansiyasını maliyyələşdirən ABŞ Mərkəzi Kəşfiyyat idarəsi 1950-ci ildə "Azad Avropa", 1953-cü ildə "Azadlıq" radiostansiyalarını fəaliyyətə gətirib.

Araşdırmalara görə, format anlayışı da ABŞ-da icad olunub. Omaha (ABŞ, Nebraska ştatı) şəhərində yayımlanan kiçik radiostansiyanın 2 əməkdaşı (Storz və Stüart) əyləncə mərkəzində istirahət edərkən dinləyiciləri radioya cəlb etməyin yeni yolları barədə söhbət edirmişlər. Bardakı müştərilərin eyni mahnıya təkrar-təkrar qulaq asmaları onların diqqətini çəkib [54].

1926-cı ildə yaradılan "NBC" ("National Broadcasting Company") bir neçə ildən sonra val musiqisinin əvəzinə Arturo Toskaninin rəhbərlik etdiyi Simfonik orkestrin radioda canlı ifasına nail olub.

1937-ci il, dekabrın 25-də Nyu-Yorkun Rokfeller mərkəzində yerləşən "NBC" (NBC Radio City) studiyasından ilk geniş konsert proqramı ilə çıxış edən

orkestrin ifası birbaşa efirə gedib. Buna misal olaraq Feliks Naytın (Felix Knight) rəhbərlik etdiyi orkestrin həmin illərdə radioda yayımlanan səs yazılarını göstərmək olar [186, s.458].

Amerika televiziyasında şou proqramının ilk qadın aparıcısı olan Qertrud Берг (Gertrude Berg) əvvəllər radioda çalışıb və onun radio haqqında fikirləri çox maraqlıdır. O yazır: *"Mən Sizə kəşf etdiyim Radio Amerika haqqında danışmaq istərdim. Kolumb o vaxt daşlı-qayalı qitə kəşf etdi, amma siz Amerikanın əsl ürəyini görmək istəyirsinizsə havaya baxın. Hansı ki, yayım verilişləri, radio dalğaları Amerikanın ruhunu güzgü kimi, xalqın nə eşitmək istədiyini və nəyi bilmək istədiyini əks etdirirlər"* [185, s.1].

1927-ci ildə Britaniya Yayım Korporasiyasının (BBC) təşkili BBC-nin dünya auditoriyasına təqdim olunması ilə nəticələnib. Dünyada ilk dəfə olaraq poliqlot radionun əsası qoyulub [78, s.34].

Britaniya radiosu ABŞ radiosundan fərqli olaraq kommersiya yolunu seçmədiyi üçün reklamdan ən az gəlir götürüb. "*Müxtəlif ölkələr ictimai Britaniya radiosunun, yaxud kommersiya yönümlü ABŞ radiosunun təcrübəsindən yararlanmağı, hansının daha əhəmiyyətli olduğunu düşünərkən seçim etməyə çətinlik çəkib. Çünki BBC dünyada özəl müəllif proqramı ilə çıxış edən yeganə radiodur ki, onun dinləyici auditoriyası qərəzsiz informasiya almaq hüququna malikdir*" [78, s.209-218].

Böyük Britaniyada başlayan sadə formatlı verilişlər 1923-cü ilin ortalarından maraqlı və aktual mövzularla zənginləşib. Noyabrın 15-də ilk dəfə parlament seçkilərinin nəticələrinə həsr olunan 15 dəqiqəlik verilişdə ölkənin siyasi hadisəsi barəsində ictimaiyyətə geniş və müfəssəl məlumat təqdim olunub. Dekabrda bir sıra proqram, "Uşaq saatı", ilk orkestr çalğısı, ölkənin birinci dini verilişi hazırlanıb. Bu ölkənin radio tarixində ən böyük xidməti tərkibində xəbər, təhlil, simfonik musiqi, radiotamaşalar, debatların təşkil olunduğu, yüksək jurnalistika və efir mədəniyyətinin nümunəsi hesab edilən bir məktəbin özülü hesab edilən BBC kimi universal xarakterli bir verilişin müəllifi olmasıdır [57].

1920-ci illərin sonlarında alman radiosunda informasiya və publisistikaya aid proqramlar hazırlanıb, maarifçilik verilişləri yüksək sənətkarlıqla işlənib. Almanlar "Əsgərin səsi", "Cəbhə xəttində", "Cəbhədən son xəbərlər" və s. proqramlarla SSRİ üzərində qələbə qazanacaqlarına nəinki alman ictimaiyyətini, eləcə də dalğaların köməyi ilə bütün dünyanı inandırmağa çalışıblar [78, s.36].

Almanlar isə öz ölkəsində radioquruculuğunu təbliğat məqsədi ilə sürətləndirib. Alman siyasətçisi, nasist Almaniyasının təbliğat naziri Yozef Gebbels radioya siyasi təbliğat vasitəsi kimi yanaşmasını ilk dəfə olaraq faşist radiosu ilə etiraf edib [221].

Asiya, Afrika və Latın Amerikasının inkişaf etməkdə olan ölkələri üçün radio verilişlərinin təşkilində informasiya və maarifçilik baxımından proqramlara önəm verilib və əhalinin ümumi dünyagörüşünü formalaşdırmaq üçün radio ən əlverişli vasitə hesab edilib. XX əsrin 30-40-cı illərindən müstəqillik dövrünə qədər bu ölkələrdə radioları müstəmləkə administrasiyaları yaratdığından struktur baxımından Avropanın radio şirkətlərinə oxşayıb. Bu səbəbdəndir ki, milli hökumətlər öz radiolarını yaradarkən texniki təminatla yanaşı, proqram siyasətini də diqqətdə saxlayıblar.

Cənub-Şərqi Asiyada isə radio proqramlarının təxminən yarısını milli musiqi təşkil edib, informasiya, ictimai-siyasi, tədris-maarifçilik proqramları qalan vaxt arasında demək olar ki, bərabər bölünüb.

Fransa radiosunda publisistikanın özəlliyi digər ölkələrdən fərqli olaraq bir neçə istiqamətdə hazırlanan verilişlərdə milli mədəniyyətə xüsusi önəm verilməsi olub. Dünya efir təcrübəsində orijinal əsərlərin səhnələşdirilməsi və zövqlü musiqi proqramlarının tərtibində fransızların xidməti yüksək qiymətləndirilir. Bu ölkənin "Klassiklər efirdə" adlı uzunömürlü və populyar radio proqramı mənbələrdə əksini tapıb.

Türkiyə radiosunda publisistikanın inkişafı 1930-40-cı illərdən başlayıb [112, s.32-33]. Bu vaxta kimi əsasən radioquruculuq prosesinə önəm verilib, fransalı mütəxəssislərin köməyi ilə ölkədə ötürücü stansiyalar qurulub və proses başa çatdıqdan sonra söz, fikir meydanına dönüb. "Dövlətin ağzı, millətin qulağı"

adlanan radionun ölkənin hər bir yerində eşidilməsi üçün hökumət zəruri addımlar atıb [78, s.39; 184].

Rusiyada radiopublisistikanın özünəməxsus inkişaf tendensiyası müşahidə edilib. Bu sahənin inkişafı üçün dövlət tərəfindən əlavə tədbirlər görülüb [162, s.158]. Sovetlərə qarşı yönələn xarici təhlükə, daxildəki əksinqilabi düşüncələrin məhvi, vahid dövlətin iqtisadi inkişafının sürətləndirilməsi üçün yerlərdə sosializm yarışlarının təşkili, əmək adamlarının qəhrəmanlıqları, bir sözlə "sovet adamı"nın dolğun portretini yaratmaq radiopublisistikanın ən böyük tələbi olub. [151, s.210-211; 160, s.11].

Müharibə illərində bütün SSRİ ərazisində hərbi radiopublisistika güclü inkişaf edib. Moskva radiosunda müharibə zamanı əsir götürülən alman əsgərlərinin siyahısı oxunub. Veriliş boyu onlardan birinin çıxış edəcəyi anons edilib, bir sözlə intizarda saxladığı almanları proqramı axıradək dinləmək məcburiyyətində qoyub. Bu zaman faşizmin işğalçılıq siyasətini ifşa edən söhbətlər təşkil olunub və beləliklə "silah" hədəfinə tuşlanıb. Efir, radio jurnalistin almanlarda ruh düşkünlüyü yaratmaq və sovetlərin qələbəyə doğru addımladıqlarını hiss etdirmək istəyini asanlıqla həll edib [111, s. 45].

22 və 27 may tarixlərində Avropada ilk konsert proqramı məhz Moskvadan translyasiya olunub. Şəhərin musiqi texniki məktəbinin rəhbəri A.A. Kosyanov, tanınmış bəstəkarlar radiodan birbaşa musiqi parçalarının ifa olunmasını qərara alıblar. Bununla da, Avropada ilk radiokonsertin müəllifi olan Moskvada radiodan səmərəli istifadə yolları düşünülüb, onun siyasi ünsiyyət predmeti olduğu önə çəkilib [126, s.42].

Bakıda radio 1926-cı il, noyabrın 6-da fəaliyyətə başlayıb. Paytaxtın küçələrində və meydanlarda qurulmuş reproduktorlardan ilk dəfə "Danışır Bakı" sözləri eşidilib. Bu hadisə o vaxt Azərbaycan xalqının siyasi və mədəni həyatında böyük bir yenilik idi. Uzun illər Moskvanın nəzarəti altında xidmət göstərən, əsasən rus dilində materialların üstünlük təşkil etdiyi RV-47 stansiyasından yayımlanan Bakı radiosu Şərqin ilk böyük mədəni inqilabı kimi qiymətləndirilir [34, s.5].

Radionun ilk qadın diktoru Raya İmanzadə yazırdı: "*Verilişlərin mövzuları beşillik planlarının yerinə yetirilməsində Azərbaycan zəhmətkeşlərinin qazandığı nailiyyətlərə, əmək qabaqcıllarına, maarif və mədəniyyətin inikişafına, savadsızlıqla mübarizəyə, qadınların ictimai istehsalata cəlb edilməsinə, dövlət təsərrüfatında və artellərdə işləyən qabaqcıl qadınlara həsr olunurdu...*" [36, s.19, 72; 74].

Radionun ilk ictimai-syasi və informasiya verilişi dövrü mətbuatın güzgüsü olan "Radioqəzet" olub. Ədəbi, ictimai-siyasi mövzuda verilişlər, radio qəzeti, son xəbərlər, gündəlik meteoroloji məlumatlar Qubad Qasımovun rəhbərlik etdiyi qrup tərəfindən işlənib. 1933-cü ildə həftədə bir dəfə "Radio saatı" verilişində dinləyici suallarına cavab verilib, istəklər əsasında konsertlər təşkil edilib. "Neft və pambıq uğrunda" adlı bir saatlıq ictimai-siyasi proqramda ölkəyə ilk traktorun gəlişi, istisadi yeniliklər, neft sənayesinin inkişafı barədə söhbətləri, Məmməd Əkbər, Eynulla Ağayev, İsrafil Nəzərov, Yusif Şirvan və s. jurnalistlərin neft mədənlərində çalışan əmək qabaqcılları, sənaye müəssisələrinin əməkdaşları haqqında oçerklər ilk radiojurnalistika nümunələri hesab edilir [56].

1935-ci ildə fəaliyyətə başlayan "Ədəbi dram", "Kolxozçu radiosu", "Qızıl əsgər" və "Gənclər" redaksiyalarında rəngarəng mövzular işlənib, verilişlərin sayında artım müşahidə olunub. Bu redaksiyalarda ictimai-siyasi, ədəbiyyat, musiqi, sənaye, kənd təsərrüfatı, uşaq və gənclərə aid proqramların hazırlanmasına üstünlük verilib.

Ədəbi verilişlər redaksiyasının rəhbəri M.S.Ordubadi radio fəaliyyətində həyatda baş verən hər bir hadisəyə publisistik baxışı ilə seçilib. "Satira atəşiylə", "Ədəbiyyatın vəzifələri", "Yeni həyat uğrunda" və s. verilişlərin müəllifi olub. "Aprel gəlini", "İstiqraz", "Çobanlar", "6 nömrəli otaq", Soltan Nəcəfovun "Təchizat parazitləri", "Rot-front", "Orucunuz qəbul", "Din tacirləri" kimi səhnəciklər radionun ilk sözlü portretləridir.

1950-ci illərdə radioda "Altıncı beşilliyin qabaqcıl adamları" silsilə oçerklər Bayram Bayramov, Vidadi Şıxlı, Həmid Axundov, İmran Qasımov, Rauf İsmayılov, Hacıağa Cümşüdov və s. müəlliflər tərəfindən yazılıb. "Radio

verilişlərinin çoxunda istehsalat qabaqcılları, yazıçılar, alimlər, müəllimlər, təbliğatçılar, jurnalistlər yaxından iştirak edirlər". "Bu güclü təbliğat vasitəsi hər bir adamın qəlbinə, şüuruna güclü təsir göstərərək, ictimai fikrn formalaşmasında, zəhmətkeşlərin kommunist tərbiyəsində, ölkənin qarşısında duran böyük sosial-iqtisadi vəzifələrin yerinə yetirilməsində mühüm rol oynayır" [33;94;95;96;97].

1960-cı illərdə "Dünya həftə ərzində", "Qitədən qitəyə", "Müasirlərimizin radio portreti", "Kənd saatı", "Ədəbiyyat salonu", "Arı", "Axşamınız xeyir", "Ulduz", "Bilik", "Xoruz baba" və s. proqramlar hazırlanıb [47].

"Araz" proqramının yaradıcılarından biri, qocaman jurnalist İlyas Adıgözəlli deyir: "*Təzə yarananda hər yarım saatdan bir informasiya proqramı təqdim etmək elə də asan deyildi. Lakin bunun öhdəsindən gecə-gündüz çalışaraq gəlirdik. Baş redaktorumuz Hacı Hacıyev, Valid Sənani, Bəhram Rəcəbov, Altay Zahidov, Firuz Əhmədli, Qalib Hidayətli və digər əməkdaşlar gündəlik xəbər toplanışında operativlik nümayiş etdirirdilər*" [198].

Əgər 1950-ci ildə Azərbaycan dilində efirə 4 xəbər buraxılışı verilirdisə, 1968-ci ildə bu rəqəm 24-ə qalxıb [11]. Musiqi repertuarında da xeyli irəliləyişlər baş verib. "Bütün redaksiyalarda yaradıcılıq axtarışları davam edir" [102; 104; 105; 106].

1970-80-ci illərdə "Mən fəhləyəm", "Kəndimizin səhəri", "Arzu" musiqi poçtu, "Muğam" radio jurnalı, "Yazıçı və zaman" "Mahnı şəhəri gəzir", "Teatr mikrofon qarşısında", "Sabahınız xeyir", "Axşam görüşləri", "Bulaq", "Natəvan" qızlar klubu, "Lirika dəftərindən", "Muğam saatı" və s. verilişlər radio sənətinin intibah dövrünə qədəm qoyduğunu təsdiq edir [10; 49; 51].

1990-cı illərdə "Respublika", "Dövran", "Tariximizin izi ilə", "Yurd bizi çağırır", "Vətəndaş, "İgidnamə", "Sahibkarlıq", "Açıq-aşkar", "Sözün düzü", "Baxış bucağı", "Dünya", "Pillə", "Çevrə" və s. ictimai-siyasi verilişlər, "Xudafərin" "Radio-atmaca", "Molla Nəsrəddin", "Yol", "Yuva", "Vaxt", "Dan yeri", "Elçi daşı", "Qürbətdə qalan vətən", "Ovqat" kimi bədii-publisistik proqramlar hazırlanıb.

Müstəqillik dövründə radioda Telman Qarayevin rəhbərliyi ilə "Məktublar və publisistika" redaksiyası yaradılıb. Redaksiyanın xətti ilə hazırlanan "Borc", "Dünəndən bugünə", "Ömür yolu", "Dilək ağacı", "Məktub həftəsi", "Yeni ünvanlar", "Uğur", "Qədim yurdun bu günü", "Eldən-elə", "Məktublar", "Dünya bir pəncərədir", "Özümüz sözümüz", "Bölgələrdən səslər", "Bugün doqquzun yarısı", "Musiqimiz doğmalar, yadlar" və s. verilişlər yeni dövrə aid publisistika nümunələridir. Müharibə mövzularında "Ön cəbhə, arxa cəhbə", "Qələbəyə doğru", "Gəzdim gördüm obanı", 20 yanvar haqqında "Yaddaş" silsilə verilişlərinin adlarını çəkmək olar.

20 yanvar faciəsi baş verəndə radio əməkdaşları hadisələrin içərisində olub. Rafiq Rəhimli "Efirin göz yaşları" kitabında həmin dövrdə şahidi olduğu məqamları diqqətə çatdırır, milli faciənin yaradıcı heyətə təsirindən ürək ağrısı ilə söz açır [100, s.168]. Məlum qanlı hadisə radioda publisistik təfəkkürün dəyişməsinə, genişlənməsinə, milli vətənpərvərlik ideyalarının təbliğinə yönələn verilişlərin sayının çoxalmasına səbəb olur.

Uzun illər Gənclik redaksiyasının "Politoloq klubu", "Gənc Diplomat", "Axtarış", "Səbəb", "Çevrə", "Sübhə doğru" və s. verilişlərində müasir gəncliyin yeni publisistik təfəkkürü işıqlandırılıb.

Yeni dövrdə radioda "İctimai-siyasi" proqramlar, "Xəbərlər", "Ədəbiyyat və incəsənət", "Musiqi" verilişləri, "Təhsil və elmi-kütləvi" proqramlar, "Xalq yaradıcılığı", "Gənclik və idman", "Uşaq verilişləri" redaksiyalarının fəaliyyəti nəticəsində xeyli sayda verilişlər hazırlanıb. "Parlament saatı", "Ərəfə", "Dönüş", "Başlanğıc", "Qərar və icra", "Qanun" radio jurnalı, "Gənclik və Demokratiya", "Çərxi-fələk", "Haydı irəli", "Haydı idman", "Yeni üfüqlər", "Sabaha pəncərə", "İmtahan", "Zaman və biz", "Müəllim otağı", "Elm xadimlərimiz", "Azərbaycan elmi XXI əsrdə", "Tarix, faktlar, həqiqətlər", "Dövlətçilik" elmi kütləvi proqram, "Şəxsiyyət və zaman", "Yeni yüz il", "Azərbaycançılıq haqqında düşüncələr" və s. verilişlər yeni düşüncə tərzinin nümayişidir [81; 92, s.5].

Azərbaycan radiosunun sənədli publisistika nümunələri sırasında uzun ömürlü veriliş Rafael Hüseynovun müəllifi olduğu "Axşam görüşləri"dir.

Musiqimizin, incəsənətimizin təbliği, sənət korifeylərinin yaradıcılıq dünyası haqqında müfəssəl məlumatların toplandığı bu verilişdə müəllif radiojurnalistikanın bütün imkanlarından səmərəli istifadə edərək xalqın ruhuna yaxın, zövqünü oxşayan zəngin səs xəzinəsi toplamağa müvəffəq olub.

Milli radiopublisistika incilərindən biri də "Xalq yaradıcılığı" redaksiyasının təqdim etdiyi, dinləyici yaddaşında əbədiləşən "Bulaq" verilişidir. Yazıçı publisist Mövlud Süleymanlının Azərbaycan radiosuna gətirdiyi bu veriliş şifahi xalq ədəbiyyatının nümunələri əsasında hazırlanıb, elin yaddaşında yaşayan duzlu-məzəli söhbətlərə milli maraq kəsb edib [73].

Müasir dövrdə "*texnologyanın sürətli inkişafı, məntiqi təfəkkürün genişlənməsi nəticəsində yeni kommunikasiya üsulları meydana çıxıb. Məsələn, radio dinləyicilərini təmin etmək üçün janrlar inkişaf edib, yayımlar çoxalıb və ən əsası ötürücülərin əhatə dairəsi artırılıb, istənilən məkanda radioya qulaq asmaq imkanları gerçəyə çevrilib*" [187, s.5 ]

1992-ci ilin noyabrın 26-da Azərbaycan Beynəlxalq Radiosunda ingilis, fransız, alman, rus, erməni, talış, kürd, ləzgi, gürcü dillərində proqramlar hazırlanıb və Azərbaycan gerçəklikləri ilə bağlı dünya ictimaiyyətinə dolğun informasiyalar ötürülüb. Bu həmin dövr idi ki, dünyada millətimiz əleyhinə təbliğat kompaniyası aparılır, beynəlxalq ictimaiyyətə yalan məlumatlar sırımaqla məşğul olan ermənilərin anti-azərbaycançılıq əhval-ruhiyyəsi genişləndirilirdi. Qafqazda mövqeyini itirmək təhlükəsi ilə üzləşən rusların himayəyə götürdükləri və beynəlxalq erməni lobbisinin dəstəklədiyi Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü nəticəsində dünya tərəfindən təklənən vaxtımızda Bakıdan müxtəlif xalqların dilində danışan radio verilişləri informasiya blokadasını qırıb və haqqımızın tapdalanmasını dünyaya bəyan edib.

"Ərəb səyyahları və coğrafiyaşünasları Azərbaycan haqqında", "Ədəbi məskəni ərəb ölkələri olan Azərbaycan şairləri", "Ərəb diplomatları qonağımızdır", "İslam sivilizasiyası Qafqazda" silsilə verilişləri, "Dinləyicilərlə bir yerdə", "Bizim müsahibə", "Studiyamızın qonağı", "Soydaşlarımız xaricdə", "Anadilli dərgilərimiz", "Öncə vətəndir", "Tariximiz soykökümüz", "Bir millət,

iki dövlət", "Azərbaycan ədəbiyyatı tarixindən", "Dil xalqın sərvətidir", "Azərbaycan dili" və s. verilişlər beynəlxalq redaksiyanın əməkdaşları tərəfindən hazırlanıb.

Güneyə ünvanlanan düşünülmüş proqramlarda musiqinin gen-bol istifadə olunduğu "Ana dili", "Körpü" "Dalğalarda görüş", "Elin sazı, elin sözü" və s. verilişlərdə ikiyə bölünən bir yurdun sakinləri radio dalğalarında görüşüblər. Dövr radiopublisistdən olduqca diqqətli olmağı, İranla Rusiya arasında ixtilaf yaradacaq fikrə, nüansa yol verməməyi tələb edib. Professional radio əməkdaşları bəzən elə sözsüz, adi bir bayatıyla, həzin musiqiylə, audiopublisistikanın ifadə vasitələri ilə cənubdakı bacı-qardaşlarına "söz"deməyi bacarıb. "*Xalqın milli ruhunun oyanışı üçün verilişlər təşkil olunub*" [25, s.72; 71, s.39].

Radio 2000-ci ildə artıq televiziya ilə müqayisədə öz yerini tuta bilən KİV idi. Qərbi Almaniya futuroloqları X.Baynxauer və E.Şmake "Dünya 2000-ci ildə" adlı yazılarında radio və televiziyanın qarşılıqlı əlaqələrinə ayrıca bir fəsil həsr ediblər. "*Televiziya şəbəkəsinin genişlənməsi və televerilişlərin həcminin artmasını nəzərə almasaq, bu sahədə elə bir ciddi dəyişiklik gözlənilmir. Radioyayımın yeganə güzəşti radioproqramların strukturunun yenidən işlənməsi olacaq*" [121, s. 113].

Alman alimlərinin bu bəyanatı əksər bilik adamlarının radioyayımın qlobal azalması barədə açıqlama verdikləri vaxta təsadüf edir. Onların yanılmadığı televiziya ilə birgə radioyayımın həcminin artması ilə sübut olundu. Radionun strukturu kəskin dəyişdi, dinləyicilərə yetişmiş, tematik palitrası dəyişmiş verilişlər təqdim olundu.

Belə ciddi rəqabət şəraitində radionun auditoriyanın diqqətini çəkmə və rəqabətə davam gətirmə səbəblərləri belə qruplaşdırılır:

- operativliyi;
- mobilliyi;
- psixoloji təsiri - fantaziya yaradaraq hissləri stimullaşdırması və fikirləşməyə şərait yaratması.

Radio yayımının mühüm xüsusiyyətlərindən biri də onun çoxproqramlı olması, başqa sözlə desək, efirdə eyni zamanda bir neçə proqramın paralel səslənməsidir. Doğrudur, həmin proqramlar bir-birindən istər məzmununa, istərsə də formasına görə fərqlənir. Üstəlik, radio dinləyicilərinin müxtəlif maraqları və tələbatı təmin edilir. Efirdə çox proqramlılıq məsələsi təsadüfi göstərici deyil, o müəyyən tarixi məqamda yaranıb və iqtisadi sosial, milli, mədəni şərtlərin çoxşaxəli olmasını əks etdirir. Hazırda radioverilişlərinin kütləviləşməsində və getdikcə cilalanmasında çoxproqramlılıq mühüm rol oynayır. Məsələn, Azərbaycanda radio verilişlərinin müasir proqram strukturu son 30-40 ildə formalaşıb. Şübhəsiz ki, bu məsələdə televiziya amili də önəmli rol oynayıb [28; 29].

Hazırda yeni radio məkanımızda verilişlərin çoxproqramlılıq meylinin daha da artması ilə yanaşı, onun ən müxtəlif istiqamətli, çoxyönlü olması prosesi də özünü biruzə verir. Başqa sözlə desək, həmin tendensiya verilişlərin differensiasiyası, proqramların fərqlənməsində, onların müxtəlif auditoriyaya yönəldilməsində özünü daha qabarıq şəkildə göstərir. Özü də bu zaman kommunikativ şərait (zaman, məkan, verilişin dinlənilməsi şəraiti) əsas götürülür .

Qərb ölkələrində bəzi müəlliflər yayımın proqramlaşdırılmasını "auditoriya-nın qavrayışının idarə edilməsi – mikrorejissura və mikromontaj" adlandırırlar. İlk növbədə, proqramlaşdırmanın mahiyyətini düzgün dərk etmək, onu nəzərdə tutulan fəaliyyətin planı, gerçəkləşdirilən işin düşünülmüş sistemi kimi qavranmaq vacibdir. Günün radio kompozisiyasını qurmaq asan məsələ deyil, kanalın yayım siyasətini əks etdirən səhər, günorta, axşam bloklarını düzgün müəyyənləşdirmək üçün proqram direktorluğunun işinə çox təcrübəli əməkdaşlar cəlb olunmalıdır [24, s. 37]. Yayım təşkilatı kimi kompazisiyası ilə bağlı mürəkkəb vəzifələri həll edərək bütün dünyada auditoriya toplamış BBC radiosunun təcrübəsi çox maraqlıdır. Əməkdaşlar üçün hazırlanan xüsusi təlimatlarda proqram tərtibçilərinə ümumi yaradıcılıq məsələləri ilə yanaşı, etik və psixoloji problemlərin incəlikləri ilə bağlı konkret tövsiyələr verilir. Bu tövsiyələrə görə, ilk növbədə cəmiyyətdə sosial qrupların maraqları nəzərə alınmalıdır. Çünki, demokratik ölkələrdəki

gerçək söz azadlığı və fikir plüralizmi cəmiyyəti "parçalanmışdır" və bütün tərəflərin rəy və əhvalının nəzərə alınması vacibdir. Bu mənada BBC - nin yayımı üç başlıca marağa əsaslanır: 1) proqramın öz marağı;  2) proqramda iştirak edənlərin marağı; 3) auditoriyanın marağı [160, s. 160].

Radionun sutkalıq proqram kompozisiyasında səhər verilişləri forma, mövzu, janr, struktur, ünvanlı  verilişlər, dil amili baxımından fərqlənməlidir. Radiostansiyanı dinləyənlərin sayından asılı olaraq  bu və ya yaxud digər zaman çərçivəsində (səhər, gündüz, axşam və gecə) ən çox sadə quruluşlu veriliş də praym-taymda (praym-taym, radio və televiziya proqramlarını auditoriyanın ən çox hissəsinin izlədiyi saatlar, yəni kütləvi baxış vaxtı) səslənir. Günə səhər verilişləri ilə başlayan radio anlamalıdır ki, hər bir dinləyici öz səhərini onunla aça bilər. Bunu nəzərə alaraq radiolar dinləyici ilə birbaşa əlaqəyə girməli, ona informasiya ilə yanaşı xoş əhval-ruhiyyə də verməlidir. Proqram kompozisiyasında hər zaman dinləyicinin marağı ilə bağlı olan psixoloji məqamlar diqqət mərkəzində saxlanmalıdır. Dinləyici ilə ünsiyyət sırf psixoloji proses olduğundan, media nəzəriyyəsində auditoriyaya yanaşmada psixoloji postulatlara önəm verildiyindən auditoriyaya emosional təsir ön planda olmalıdır. Veriliş mütləq maraqlı mövzusu və forması ilə seçilməli, dinləyiciyə nəsə verməli, onu duyğulandırmalı və müəyən mənada istiqamətləndirməllidir. Dinləyici tələbatını ödəmək hələ ötən əsrin 30-cu illərində Amerika jurnalistikasında  "xidmət" funksiyası adlanırdı. Bu gün isə həmin xidmət kütləvi kommunikasiyanın əsas funksiyalarından sayılır və insanların, əsasən, 4 qrupa bölünən aşağıdakı ehtiyacılarının alınmasını tələb edir: fizioloji tələbat;  təhlükəsizlik - ona dəyər verilməsi;  özünü təsdiq - tələbat; özünün diqqətdə saxlanması.

Burada çox adi nüans var: dinləyici radio proqramlarında onun könlünü, zövqünü oxşayan, onda  özünə inam yaradan, bəzən kədərli sıxıntılı dəqiqələrində müsbət emosional tonus verən bir şey axtarır, tapmayanda dalğanı dəyişir. Əgər televiziya tamaşaçısı proqramlarda daha çox vizual, görüntü ilə bağlı tələblərini ödəməyə çalışırsa, radio dinləyicisi üçün qəlb dünyasının ehtiyaclarını ödəmək onun iç dünyası və ruhu ilə həmsöhbət olacaq məqamlar önəmlidir. Ona görə  də

insanların radioya bir həmsöhbət, könül dostu, onun gərginliyini çıxaran, ovqatına təsir edən vasitə kimi baxmaları təəccüblü deyil.

Radiostansiyalar proqram kompozisiyasını öz məqsədlərinə, formatlarına, maliyyə imkanlarına görə hazırlayırlar. Bütövlükdə stansiyanın yayım siyasətini və ayrılıqda bir sutkanın veriliş şəbəkəsini dolğun əks etdirən bu kompozisiya "proqram təkəri" adlanan sxemdə aydın ifadə olunur [98, s. 37].

Bəzi proqram direktorları günün ayrı-ayrı vaxtları üçün bir neçə təkər hazırlayıb işləyirlər [65]. Məsələn, ayrı-ayrı radiolarda (ANS ÇM, Azad Azərbaycan, İctimai) səhər saatlarına hazırlanmış proqrama diqqət yetirsək görərik ki, bu şəbəkələrdə oxşarlıq mövcuddur:

1. Xəbərlər buraxılışı. Hava haqqında məlumat.
2. Hazırda dəbdə (hit) olan bir neçə mahnı.
3. Saat 8-11 arası müxtəlif səhər verilişləri. Bir neçə saatlıq efir boyunca aparıcının dinləyici ilə ünsiyyəti və müxtəlif informasiyaların auditoriyaya çatdırılması.
4. Reklam bloku anonslar.
5. 70-80 –ci illərin ən yaxşı mahnıları ilə müasir musiqilərdən ibarət mahnılar.
6. Xəbərlər buraxılışı. Hava haqqında məlumat.
7. İqtisadiyyat xəbərləri, İdman xəbərləri . Hava.
8. Cinql : dəbdə olan şlyager və reklamlar.
9. Ən yaxşı mahnılardan, hitlərdən ibarət musiqi toplusu.
10. Xəbərlər buraxılışı.
11. İnstrumental mahnılardan ibarət musiqi çələngi.
12. Reklam bloku anonslar.

Nəzərdən keçirdiyimiz "proqram təkəri"ndən də göründüyü kimi, müasir radiolar daha çox musiqi, informasiya və qismən də mətnli verilişlərin növbələnməsi üzərində dayanır. Radiolar əsasən informasiya və musiqi formatında fəaliyyət göstərir. Digər tərəfdən, radionun təbiəti, müasir statusu, onun imkanları və gerçəkliyi əks etdirmə üsulları ilə bağlı mütəxəssislər arasında müəyyən fikir ayrılığı olsa da, hamı bir məsələdə yekdildir ki, efir musiqi və informasiya yayımı

üçün misilsiz dərəcədə geniş meydan açır. Təbii ki, bu meydandan səmərəli istifadə etmək aparıcıların əsas vəzifələrindən biridir. Radionun hüdudsuz auditoriyası və bu auditoriyaya geniş təsir imkanları var. Auditoriyanı daim maraqlandırmaq, onu cəlb etmək və öz "orbitin"də saxlamaq üçün radio güclü və cəlbedici yaradıcılıq cəbbəxanasına, aydın proqram siyasətinə və parlaq yayım dəst-xəttinə, həm də radio yaradıcılığının əsaslarını yaxşı bilən peşəkar jurnalistlərə, rejissor və prodüsserlərə malik olmalıdır. Redaksiyadan konkret mövzuda tapşırıq alan, yaxud öz seçdiyi mövzu ilə bağlı veriliş hazırlamaq istəyən jurnalist, ilk növbədə, beynində gələcək efir əsərinin formasını müəyyənləşdirir, xəyalında, bir növ, bu verilişin modelini cızmağa çalışır. Bu tələskənlik deyil, əksinə gələcək məhsulun hazırlanması, strukturun müəyyənləşməsi, əsas istiqamətlərin cızılması, lazımi informasiyaların lazımi məqamlarda verilməsi barədə ilkin düşüncələrdir. Belə daxili, virtual hazırlıq olmadan obyektə gəlmək, fakt toplamağa girişmək, müsahiblər axtarmaq, nəyə diqqət yetirmək, hansı faktları qabartmaq, səs elementlərindən necə istifadə etmək problemini həll etmək çox çətindir.

"*Hazırda radio kütləvi informasiya vasitəsi olmaqla, milyonlarla insanı əyləndirir, maarifləndirir və məlumatlandırır*" [101, s.28]. Həssas dinləyicilərə zövqlü, maarifləndirici verilişlər təqdim etmək üçün aparıcı və yaradıcı heyət verilişin dramatruji strukturunu müəyyən etməlidir. Radioda olan bütün verilişlərin öz dramatruji strukturu olmalıdır.

Jurnalist əməyinin əsas məqsədi əldə olunmuş informasiyanı auditoriyaya ötürməkdir. "*Radionu digər bütün informasiya vasitələrindən fərqləndirən, yəni ona üstünlük qazandıran əsas keyfiyyət də elə operativlikdir. Radionu texniki və yayım imkanı elədir ki, o hər hansı informasiyanı digər mətbuat vasitələrindən daha tez kütləviləşdirə bilir* " [42, s. 28-29; 45]. İnsan bu informasiyanı, ifadə olunan fikri və ümumiyyətlə, hər hansı məlumatı, ideyanı obrazı sözlə daha dəqiq ifadə edir. Xüsusi təşkil olunmuş söz sırası jurnalist mətnini, yaxud radioəsərin ədəbi materialını – ssenarisini təşkil edir. Radioda materialın ədəbi əsasını səs

təşkil edir. Səs həlli ilə yanaşı plastik dramaturji keçidlər, dialoqlar, montaj üsulları və digər ifadə vasitələri işlənmə məqamını həll edir [106; 110].

Efirdə səslənəcək verilişin tam dolğun təsəvvür edilməsi radio jurnalistinin məharətindən və ədəbi əsas olan mətnin mükəmməlliyindən çox asılıdır. "*Radionun "söz təsviri" dinləyicinin gözləri önündə "geniş dünya" canlandırır*" [187, s. 247]. "*Effektivlik üçün yaradıcılıq faktoru önəmlidir*"[161, s.315]. Efirdə ardıcıllıqla nələrin olacağını və necə səsləndiriləcəyini, dramaturji qanunlara, əyaniliyə və asan qavrayışa necə əməl olunacağına dəqiqliyi ilə göstərmək əvvəlcədən yazılmış ədəbi materialdan çox asılıdır. Jurnalist əsəri üçün etibarlı bünövrə tükənməz müxtəlifliklərlə zəngin olan həyatın, reallığın özüdür. Həyat materialı dedikdə, ilk növbədə, jurnalistin araşdırıb öyrəndiyi və istinad etdiyi sosial reallıq nəzərdə tutur.

Media araşdırıcısı Canet Fulton yazır ki, "*jurnalistikada kreyativlik dedikdə, məqalənin məzmunu ilə təsvirin uyğunluğunun vəhdəti başa düşülür*" [220].

Bütün sahələrdə, o cümlədən radioda çalışan jurnalistlər həmişə yaradıcılıq problemini necə effektli həll etmək çətinliyi ilə üz-üzə qalırlar. "*Radionun audial olması, görünməzliyi səs effektlərindən düzgün istifadə edilməsini məqbul sayır. Radiopyeslərdə, eləcə də hər bir radio əsərində bir materialın işlənməsi üçün 38 dənə küy və musiqi elementlərinin işlənməsi lazım ola bilər* " [173, s. 96].

Hazırda radioproqramlara nəzər yetirsək, bu problemlərlə qarşılaşa bilərik. Məsələn: "Azad Azərbaycan" radiosu (106.3) səhər verilişlərinə diqqət yetirsək görərik ki, səhər verilişinin ssenarisi yoxdu, sadəcə müəyyən əlaqəsiz materiallar oxunur. Bir az əvvəl qeyd etdiyimiz kimi jurnalist mətnində həyat materialı olmalıdır. Misal gətirdiyimiz radionun səhər proqramlarında insan faktoru olsa da onun önəmlilik dərəcəsi çox aşağıdır. 3 dekabr 2009-cu ildə efirə gedən səhər verilişinə nəzər yetirsək görərik ki, verilişin ssenarisi yoxdur və veriliş sadəcə efir zamanı yaranır. Verilişin pərakəndəliyi onun ssenarisinin olmamasından xəbər verir. Müxtəlif həyat materialını özündə birləşdirən informasiyalarla aparıcı heç tanış deyil. Bəs radiojurnalist həyat materialına hansı meyarlarla yanaşmalı, onu necə işıqlandırmalı, öz seçimini nəyə əsasən müəyyənləşdirməlidir? Təbii ki, bu

məsələdə aktual mövzu seçimi etmək, verilişin ideyasını müəyyənləşdirmək, süjet qurmaq, ümumi kompozisiya problemini həll etmək önəmli rol oynayır.

Digər ədəbiyyat növlərində olduğu kimi dramaturgiyada da dramaturji strukturun əsasında ideya durur. Mürəkkəb strukturlu mükəmməl verilişlər qlobal ziddiyyətləri əks etdirə bilsələr də, təsadüfi və xırda konfliktlərə həsr olunmuş bəsit strukturlu verilişlər sağlam ideyanı formalaşdırmaqda aciz olurlar [9, s. 34]. İdeyanı unudan aparıcı və ya müəlif insanlığın aliliyini önə çəkən bəşəri məqsədlərə xidmət missiyasını itirir. Deməli, yalnız işıqlı fikirlər cəmiyyətə və bəşəriyyətə təlqin edən verilişlər ideyalı hesab olunur. Üzeyir Hacıbəyovun da "ideya" anlayışına münasibəti olduqca maraqlıdır: "*İdeyasız və məqsədsiz yazmaq mümkün deyil. Dükançılar kağızın içinə darçın, istiot, mixək bükən kimi yazar da yazdıqlarının içinə bir ideya bükür*" [201]. Bu ideya eləcə də proqram aparıcısına, müəllifinə də aiddir. Verilişin əsas fikri, konsepsiyası və müəllifin yozumu ideyanı müəyyənləşdirərək dramaturgiyanı formalaşdırır. Təşviqat publisistik xarakterli verilişdə ideya aparıcı mətni ilə birbaşa müraciət kimi meydana çıxır. Hadisələrin ziddiyətli toqquşmasına, personajların münasibətinə, səs həllinə, epizodların montaj prinsipinə nəzarət edən ideyanı peşəkar üsluba malik müəllif ustalıqla gizlədərək dramatruji strukturda əridə bilir. Yalnız bu zaman dramaturji struktur proqramın ali məqsədinə, müəllif yozumuna, sosial sifarişin diqtə etdiyi ideyanın bədii həllinə xidmət edir. Bəzi peşəkarlıqdan uzaq olan müəlliflər verilişlərinin özləri kimi düşünən azsaylı adamlar üçün yazdıqlarını iddia edirlər. Onda belə çıxır ki, bu müəlliflərin verilişləri yalnız onların özlərinə ünvanlanır. Əslində hər hansı bir veriliş yalnız geniş kütlə üçün nəzərdə tutulduqda yüksək ideyalara xidmət etmək missiyasını yerinə yetirmiş olur. İdeya insanın şüurunda gerçəkliyi əks etditən anlayışların, təsəvvürlərin və dünya görüşünün məcmusu, insanın onlara münasibət və yanaşmasının əsas prinsipidir. Yeni veriliş, yaxud film yaratmaq barədə layihə (fikir), məhz bu dünya görüşünün ifadəsidir. Təbii ki, məfkurə, məslək, əqidəni ideyaya aid etmək olar. Jurnalist yazısında ideya bir başa müəllif mövqeyində üzə çıxır. Qısa desək, mövzu – "nə haqqında", ideya isə "nə üçün" sualına cavab verir. Eyni zamanda, belə demək mümkündürsə, həyat

materialı ədəbi materiala nə qədər geniş əks olunursa, mövzu və ideya da bir o qədər dolğun olur. Amma eyni mövzuya bir neçə veriliş (məqalə) də həsr oluna bilər və bu zaman hər verilişin öz ideyası ola bilər.

Hər bir verilişin ideyası olmalıdır. Həm səhər, həm günorta, həm də axşam saatlarına təsadüf edən verilişlərin ideyasının olması vacibdir. "İctimai radio"nun səhər proqramlarına qulaq asdıqda, burada müəyyən ideyanın olduğu duyulur. 7-dən 10-a kimi yayımlanan veriliş xüsusi proqram əsasında fəaliyyət göstərir. Səhər verilişinə xas olan bir neçə elementi özündə birləşdirən bu proqramda müxtəlif rubrikalar da var. Hər bir saat öz ideyası ilə fərqlənir. İkinci saata qulaq assaq görərik ki, burada konkret mövzunun qoyulması onun ideyasının ortaya çıxmasına yardım edir. Məsələn, Qış Olimpiya oyunları zamanı verilişin ikinci saatı "Olimpiya oyunlarında Azərbaycanın qalib gəlmə şansları haqqında" danışılırdı. Studiyaya dəvət olunan qonaqlarla birlikdə müzakirə edilən mövzunun əsas ideyası Azərbaycan idmanı şanslarını bu oyunlarda qiymətləndirmək idi. Ümumiyyətlə, səhər verilişlərinin əsas ideyası günün başlanğıcında insanlara yeni informasiyalar çatdırmaqdır.

Jurnalist mövzunu müəyyənləşdirdikdən, həyat materialını öyrəndikdən, faktları topladıqdan sonra yaradıcılıq işinin birinci mərhələsi sona yetir. Yəni məzmunla bağlı hər şey məlumdur. İndi bu mövzuya uyğun forma seçilməlidir. Bunun üçün formanı təşkil edən kompozisiya və onun elementlərini bilmək vacibdir.

Kompozisiya tərtibetmə, birləşmə, əlaqə - əsərin tərtibatı, birləşdirilməsi, əlaqələndirilməsi, qanunauyğun qurulması, vahid tam təşkil edən ayrı-ayrı hissələrin (elementlərin) nisbəti. Efir (radio) əsərində gerçəkliyin bədii - publisistik inikasının xüsusiyyətindən asılı olaraq zaman və məkana görə ayrı-ayrı düşmüş müxtəlif hadisələrin əlaqələndirilməsi; bu və ya digər təzahürün mahiyyətini açan məna blokları; müxtəliftipli faktlar və müşahidələr; dinləyicilərin rəy və düşüncələri. Amma kompozisiya, sadəcə, ayrı-ayrı hissələrin "yapışdırılması" deyil, o, müxtəlif məzmun daşıyıcılarının elə şəkildə birləşdirilməsini nəzərdə tutur ki, bütöv əsərin yaradılması mümkün olsun. Səs montajına, yaxud mətnin şərhinə

başlamazdan əvvəl müəllif (rejissor) gerçəklik üçün xarakterik olan əlaqə tiplərinə kömək edə biləcək optimal kompozisiya forması seçməli və bu prosesdə zaman və səbəb - nəticə cəhətlərinə üstünlük verməlidir. İstənilən forma əsərin əsas ideyasının dinamik inkişafının və meydana çıxmasının inikasıdır. İstənilən əsərdə, o cümlədən radio verilişində kompozisiya müəllifin əsas fikrinin məntiqi şəkildə açılmasına xidmət edir. Kompozisiya, ilk növbədə, hadisələrin cərəyan etdiyi məkanda müəllifin düşündüyü fikrin, ideyanın açılmasında, konkret hərəkətlərdə və epizodlarda özünü göstərir. Bəzi alimlər kompozisiyanı hər hansı verilişin, tamaşanın, ədəbi materialın təşkili prinsipi kimi də xarekterizə edirlər. Onların fikrincə, sənədli əsərin kompozisiyası, adətən, onun mövzusu və ideyası ilə şərtlənir və müəllifin mövqeyini ifadə edən, ssenarinin ən dərin əlaqələrini açan faktların, hadisələrin birləşməsindən ibarətdir [77, s. 65; 78, s.297].

Jurnalist kompozisiya üzərində işləyərkən, müəyyən mənada, fabuladan asılı vəziyyətə düşür. Fabula bədii əsərdə (kinofilmdə, radiopyesdə, teatr tamaşasında, publisistikada və ədəbi əsərdə) təsvir olunan hadisələrin müəyyən zaman ardıcıllığı ilə nəql olunmasıdır. Ona görə ədəbiyyatşünaslar xronoloji ardıcıllığı fabula, onların bədii düzülüşünü isə süjet adlandırırlar. Beləliklə, jurnalistikada materialın fabula düzülüşü süjet düzülüşündən onunla fərqlənir ki, burada jurnalist hər hansı sosial təzahürü, yaxud problemi açа biləcək daha əlamətdar hadisələri fərqləndirmək iqtidarındadır.

Dramaturji strukturda hərəkətverici qüvvə olan fabula əsas hadisələrin cəmi və fəaliyyət sırası kimi dramaturji hadisəni əks etdirir. Süjet xəttindən fərqli olaraq, fabulanın əlaqələndirici mexanizmi emosiayaya deyil, bilavasitə şüura təsir göstərdiyindən onun ifadə tərzinin, dilinin kükrək, çoxmənalı və təsirli olması təbiidir. Aristotel fabulanı belə səviyyələndirir: "*Fabula hərəkətin təqlid olunmasıdır. Fabula dedikdə, mən əhavalatların əlaqələnməsini, xarakterlər dedikdə, iştirak edən şəxslərin nəyə görə müxtəlif xasiyyətli olmaları, fikir dedikdə isə danışanların müəyyən bir şeyi nə ilə sübuta yetirmələrini və ya sadəcə olaraq öz mülahizələrini söyləmələrini nəzərdə tuturam*" [18, s. 39]. Məsələn: Bir az öncə xatırlatdığım kimi hər bir veriliş süjeti ilə yanaşı fabulasının olmasıda vacibdir.

Veriliş daxilində xronoloji ardıcıllığın gözlənilməsi əsas şərtdir. İctimai radionun səhər verilişlərini nəzər yetirsək görərik ki, burada veriliş daxilində olan "Məşhurların həyatından", "Xalqlar, şəhərlər, ənənələr" adlı rubrikalarda bu xronoloji ardıcıllıq qorunur və rubrikanın ümumi fabulası pozulmur. Hər bir hadisənin xronoloji ardıcıllığı ilə yanaşı onun bədii düzülüşü yəni süjeti də qurulub. Lakin, gəlin "Azad Azərbaycan" radiosunun səhər verilişində olan "Tarixdə və ölkədə bu gün" adlı rubrikaya nəzər salaq. Müxtəlif hadisələr və onların tarixi haqqında danışan aparıcı hadisələrin xronoligiyasını yəni fabulasını gözləmir. 6 dekabr 2009-cu ildə olan verilişdə də eyni səhvi göstərmək olar. Çar senzurası haqqında oxuyan aparıcı müxtəlif hadisələrin xronoloji ardıcıllığına diqqət etmir və bununla da rubrikada bir səliqəsizlik hökm sürür. Təbii, bu təkcə aparıcının yox, redaktorun da səhvidir.

Süjet təhkiyə prosesində dramaturji qaydalar əsasında mövzunun açılması üsuludur. Bədii əsərdə iştirak edən surətlərin xarakterlərini açıb göstərən və əsərin əsas konflikti ilə bağlı olan əhvalat, tarixçə də süjet adlanır. Süjetin strukturu ekran – efir əsərlərində intellektual və emosional konstruksiya kimi qəbul edilir. Jurnalistikada süjet çoxşaxəli deyil, "yığcam"dır. Çünki, jurnalistikada "süjet" dedikdə faktların, hadisələrin, fikirlərin davamiyyəti başa düşülür. İnsanların xarakterləri, talelər, ictimai ziddiyətlər, münaqişələr də burada açılır. Bir qayda olaraq, jurnalistika süjetlərində hadisələrin inkişafı bir-biri ilə bağlı olur, kulminasiya və problemlər süjetinin açılması isə az qala ən inkişaf etmiş hissəyə çevrilir. Süjet hadisənin və ya təzahürün mexaniki surəti, predmetin quruluşunun səthi inkası deyil, o, yaradıcılıq prosesinin nəticəsi kimi meydana çıxır və müəllifin izlədiyi sosial məqsədə uyğun şəkildə qurulur. Süjet məfhumu dramaturgiya anlayışı ilə sıx bağlıdır. Məsələn: 10 Yanvar 2010-cu ildə "Azad Azərbaycan" radiosunun efirində səslənən səhər verilişini nümunə gətirərək, bütünlükdə 106.3 FM-də olan səhər verilişləri haqqında təsəvvür yaratmaq mümkündür. Bu tarixə olan verilişə qulaq asanda bir-biri ilə bağlı olmayan müxtəlif informasiyaların birləşməsindən ibarət olduğunu başa düşərik. Belə ki, verilişdə demək olar ki, heç bir faktın, hadisənin, fikirlərin davamiyyəti yoxdur. Sadəcə əlaqəsiz informasiya-

ların bir-birinin ardınca oxunması ilə müşahidə edilən 2 saatlıq veriliş dinləyicidə heç bir maraq oyatmır. Ən azından bu zaman çərçivəsində verilişdə mövzu müxtəlifliyi olduğu üçün aparıcı verilişdə süjet də yarada bilmirdi. Ümumilikdə müasir dövrdəki səhər verilişlərinə nəzər yetirsək görərik ki, həm “Azad Azərbaycan”da, həm “ANS ÇM”-də, həm də “İctimai radio”da olan səhər verilişlərinin strukturu demək olar ki, eynidir. “ANS ÇM” – də (102 FM) “Hər Səhər” verilişinə nəzər yetirsək və onu “Azad Azərbaycan” radiosu ilə müqayisə etsək aralarında böyük fərq hiss olunmadığını görərik. Lakin, bir fakta da nəzər yetirmək lazımdır. “ANS ÇM” - də üç saat davam edən proqramın konkret sxemi mövcuddur. Birinci saat informasiya və musiqi, ikinci saat konkret mövzuya həsr olunur və bununla bağlı qonaqlar da çağırılır. “ANS ÇM” kimi “İctimai radio”da da ardıcıllıq gözlənilir. Burada olan səhər verilişlərinin konkret sxemi var. Bu sxemə nəzər yetirsək görərik ki, səhər verilişinin ikinci saatı konkret mövzu ətrafinda qurulub. Müzakirəyə qoyulan mövzu bir saat boyunca davam etdirilir. Mövzu ilə bağlı faktlar, hadisələr artan xətlə inkişaf etdirilir. Bununla bağlı qonaqlar da dəvət olunur və müzakirə mövzusu inkişaf etdirilir və kuliminasiya nöqtəsinə çatdırılaraq düyünün açılması ilə nəticələnir. Bu cəhətdən də bu bir saat dinləyicidə maraq oyadır və müzakirəyə qoşulur .

Dramaturgiya həyat materialını müəyyən qanunlar əsasında qurmaq üsuludur və onun əsasında konflikt dayanır. Həm də ən əsası *“hadisələrin dialoq və monoloq hesabına inkişaf etdiyi pyes hər mətləbdən söhbət açıb izah verə bilən nəşrdən fərqli olaraq obrazlı və ifadəli təsvirin meydana çıxmasına əsas verir”* [17, s.14]. Dramaturgiya dedikdə, tamaşa və ya filmin süjet – obraz konsepsiyası, həmçinin dram əsərlərinin quruluş prinsiplərini öyrənən incəsənət nəzəriyyəsi də nəzərdə tutulur. Ancaq bütövlükdə dramaturgiya əsasında konflikt və bu konfliktin hərəkətə gətirdiyi miqyaslı dəyişmələr, dinamika dayanır.

Konflikti ictimai inkişafın təkanverici yayı kimi müəyyən etməyi bacaran jurnalistin peşəkarlığından xəbər verir və belə ustad jurnalistlər verilişlərini dramturji cəhətdən maraqlı qura bilirlər. Mövcud gerçəkliyə yaradıcı münasibət tələb edən sahələr, o cümlədən jurnalistikada həyat faktına – sənədli materiala belə

yanaşma onun yazısının (verilişinin) kompozisiya baxımından uğurlu qurulmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Məhz burada süjet və onun elementləri (ekspozisiya, inkişaf, kulminasiya, peripetiya, final və s.) jurnalistə öz publisistik əsərini oxucu və dinləyiciyə aydın və cazibəli bir tərzdə çatdırmağa kömək edir. Süjetin elementlərindən hansı ardıcıllıqla istifadə etmək isə (məs. kulminasiyanı əvvəldə vermək və s.) jurnalistin öz ixtiyarındadır [78, s. 298].

Radio jurnalistikasında süjet öz sərt kanonları olan kompozisiya düsturu deyildir, yalnız peşəkar jurnalistlərin əlində yaxşı effekt verən yaradıcılıq vasitəsidir. Bu aləti ram etmək, onun incəliklərini bilmək üçün radionun təbiətini, spesifikasını, səs palitrasını ən başlıcası isə radionun dil və üslub özəlliklərini bilmək vacibdir. Radionun səsli təbiətini, şifahi danışığa nizamlanmış ədəbi dil normalarına əsaslanan nitq üslublarını bilmədən, ədəbi tələffüz qaydalarına bələd olmadan yaxşı radio verilişi hazırlamaq mümkünsüzdür. Radio dilinin xüsusiyyətləri və aparıcı işinin özəlliyi də verilişin yaranmasında və keyfiyyətində əsas rol oynayan amillərdəndir.

Medianın başqa sahələrində olduğu kimi, radioda da publisistika məhsulları-verilişlər müxtəlif janrlarda əks etdirilir. Çünki veriliş ümumi anlayışdır və bu adla yayımlanan efir məhsulları müxtəlif forma və janrlarda təqdim olunur. Rusiya alimi T.V.Vasilyeva radioda publisistik janrları ənənəvi jurnalistikaya əsasən qruplaşdırıb. Janrların bölgüsünə diqqət edək. Ənənəvi jurnalistika janrları üç qrupa bölünür: a) informativ; b) analitik; c) bədii-sənədli [129, s.250]. Qərb jurnalistikasının formalaşdırdığı universal jurnalistika isə janrları fakt və fikir bölgüsünə əsaslanaraq media materiallarının üç tipini müəyyənləşdirir: a) xəbər; b) analiz (təhlil); c) fikir (rəy). Önəmli odur ki, bu üç tipi asanlıqla bir-birindən ayırmaq mümkündür. Xəbər hər hansı olayla bağlı dəqiq məlumat verir, olayın niyə və necə baş verməsini analiz açıqlayır. Fikir bildirən materialda ya müəllifin, ya da redaksiyanın olaya baxışı diqqətə yetirilir [98, s. 129].

Radio verlişlərində bu janrların təzahürü necədir? Ümumiyyətlə, canlı insan nitqi, hadisənin akustik əksi, dinləyicini, bir növ, hadisənin iştirakçısına çevrilə bilmək qüdrəti, sözün, səs lövhələrinin, musiqinin və bunların sintezinin köməyi

ilə yaradılan güclü emosiya radio janrını fərqləndirən əsas cəhətdir. Bütün bu cəhətlər bir yerdə radionun ən qiymətli spesifik xüsusiyyətini - onun sənədliliyini təmin etmişdir [35, s. 84; 204, s.62].

Radio janrlarının konkret əlamətləri verilişin konkret sxeminin yaranmasına yardım edir. Müəllifin konkret məqsədi, nəticə və ümumiləşdirmənin əhatə dairəsi, təsvir və ifadə vasitələrinin xarakteri, daha dəqiq desək obyekt, məqsəd, vəzifə, ifadə vasitəsi radio janrlarının daimi əlamətlərini müəyyənləşdirir.

Radiolarda əsasən informasiya janrına daxil olan xəbərdən, analitik janr qrupuna daxil olan diskussiya və icmaldan, rəy janrına aid olan söhbət sorğu və s. janr elementlərindən istifadə olunur. Məsələn: "ANS ÇM" radiosunda səhər proqramlarının birinci saatı bir-biri ilə bağlı olan xəbərlərdən ibarətdir. 2017-ci il, mayın 26-da səhər efirində Aytən Səfərova adlı aparıcı müxtəlif mövzuda və əsasən də Qarabağ problemi ilə bağlı xəbərləri dinləyicinin diqqətinə çatdırırdı. İkinci saatda dinləyiciyə sual verildi ("Səhərlər daha çox hansı mahnılara qulaq asmağı sevirsiz?) və bu barədə dinləyici ilə diskussiya quruldu və fikir mübadiləsi aparıldı. Həmçinin qoyulan sualla bağlı sorğu da keçirilmişdi. Sualla bağlı heç bir ekspertin dəvət olunmaması diskussiyanı yarımçıq edirdi. Lakin bütün bunlara baxmayaraq, aparıcı özü də müzakirəyə qoşulurdu. Bu normaldı, lakin aparıcı öz fikrini dinləyiciyə yeritməməli və dinləyici fikrinə hörmətlə yanaşmalıdır. "ANS ÇM" radiosunun aparıcıları isə fikirlərini irəli sürməklə yanaşı, dinləyiciyə məsləhət də görürdülər. Aparıcı mütləq dinləyici fikrinə qulaq asmağı bacarmalıdır. Bununla da burada diskussiyanın elementlərini pozmuş oldu. Bu, sadəcə olaraq aparıcının dinləyici ilə söhbəti halına gəlmişdi.

Radiolarda üstünlük təşkil edən formalardan biri də dinləyici və aparıcı arasında gedən fikir mübadiləsidir. Ortaya hər hansı yüngül xarakterli sual qoyulur və bununla bağlı dinləyicinin fikri öyrənilir. Bu daha çox əyləncə xarakteri daşıyır desək yanılmarıq.  Hansı janrdan istifadə edilməsinə baxmayaraq, bu janr altında qurulan veriliş mütləq dinləyici marağına səbəb olmalıdır.

Radio demokratiyanın, cəmiyyətin bütün sahələrində aşkarlığın, tənqidin efir tarixini yaradır. Dinləyiciləri iqtisadiyyat, elmi-texniki tərəqqi və digər sahələrdə

baş verən yeniliklər, ölkədə, dünyadakı hadisələrlə tanış edir. Insanların tələblərinə cavab vermək üçün daim yaradıcılıq axtarışları aparılır. Cəmiyyətin mənən zənginləşməsi istiqamətində addımlar atılır. Radioproqramların qavranılması üçün təkcə insanın həyat təcrübəsinin olması vacib deyil, onun təhsili, sənəti, dünyagörüşü, ünsiyyət təcrübəsi və proqramlara münasibəti də əsasdır. Əlaqənin effektiv olması üçün dinləyicinin gözləntisi, emosional vəziyyəti də vacibdir.

Kütləviliyi və unikal qabiliyyəti ilə seçilən radioda yaradıcılığın başlanması, ictimai, siyasi və mədəniyyətə aid verilişlərin yaranması nəticəsində radiojurnalistikanın ictimai həyata fəal müdaxiləsi hər bir ölkənin hakim dairəsində qorxu yaradıb. Ümumdünya məkanında radio siyasətini tənzimləyən xüsusi tədbirlər planı hazırlanıb, cəmiyyətə təsir mexanizmləri haqqında, siyasi baxışları gerçəkləşdirən vasitə kimi ondan necə yararlanmaq barədə düşünülüb.

### 1.2. Audiopublisistika nəzəri araşdırmalarda

Audio - səs (audio) sahəsi ilə bağlı olan bir sıra mürəkkəb sözlərin komponenti; insan qulağının eşidə biləcəyi hər hansı bir səslə əlaqədar olan anlayış; kino, TV və radio yayımının səslə bağlı bölümü deməkdir [75, s. 26].

Audiopublisistika - dinləyicinin radiodan eşitdiyi efir söhbəti, bir qrup sənətkarın (redaktor, montaj operatoru, səs rejissoru, aparıcı və s.) birgə yaradıcılığının nəticəsi olan audioveriliş anlamındadır. Qəzeti oxuyarkən oxucu informasiyanı gözlə beyinə ötürürsə, radiodan dinlədiyi məlumatlar eşitmə duyğusu vasitəsilə qavranılır. Özünəməxsus spesifik xüsusiyyətlərə malik olan audiopublisistikada sözün nöqtəsi, vergülü, durğu işarəsi danışanın ifadə tərzindən hiss edilir. Sözün musiqi və səs lövhələri ilə işlənərək (bəzənərək) - səs elementlərinin vahid məcmusu rolunda dinləyicidə insan xarakteri ilə bağlı təsəvvür assosiasiyası yaratması audiopublisistikanın özəlliyidir [62].

Radionun ilk illərindən radiorejissorlar musiqinin və səs lövhələrinin hadisənin mənasını, atmosferini və sujet xətlərini müstəqil ifadə etmək xüsusiyyətindən məharətlə bəhrələnsələr də, uzun müddət həm yayım praktikasında, həm də nəzəri araşdırmalarda bu iki ifadə vasitəsinə sözə əlavə,

yardımçı kimi münasibət bəslənilib. Prof. Q.Məhərrəmli elmi araşdırmalarında "*efirdə musiqiyə diqqət yetirməyə dəyməz, çünki o, diqqəti sözdən yayındırır*" qənaətinə gələnləri xüsusi qeyd edib. "*Ötən əsrin 30-cu illərində Azərbaycan radiosunun formalaşmasına cddi təsir göstərmiş Rusiya radiosunun bəzi araşdırmaçıları bu mövqeni tam başa düşülən adlandıraraq, qeyd edirlər ki, əvvəla senzura baxımından belə yanaşma salamatlıqdır (kim bilir musiqi dinləyicidə hansı duyğuları doğuracaq), ikincisi bu sayaq daha asandır - söz və musiqini üzvi surətdə uzlaşdırmaq üçün əziyyət çəkmək, səsin obrazını tapmaq, verilişin kompozisiyası üzərində işləmək və s. lazım gəlmir. Bunun nəticəsi idi ki, ilk vaxtlarda bədii verilişlərə, xüsusən də radiotamaşalara quruluş verərkən belə səs sırasının əhəmiyyətinə, bədii ifadə gücünə şübhə ilə yanaşılırdı*" [80, s. 80].

Auditoriyaya pərakəndə şəkildə ötürülən radio materialları sonralar mövzusuna görə ictimai-siyasi və bədii yayım formasında elmi əhəmiyyət kəsb edib. İctimai-siyasi radio yayımında informasiya proqramları, ictimai-siyasi təbliğat, uşaqlar, yeniyetmə və gənclərə həsr olunan verilişlər, bədii yayım növündə isə, milli ədəbiyyatın, incəsənətin bütün sahələrini əks etdirən publisistik verilişlər, radiotamaşalar, musiqi proqramları qruplaşdırılıb. Tematik prinsiplərə əsaslanan bu bölgü sonrakı illərdə bir qədər də differensiasiyaya uğrayaraq ünvanlılıq xarakteri alıb [146]. Yaş qrupları, müxtəlif peşə sahibləri üçün konkret sahələri əhatə edən proqramlar hazırlanıb. Sovet radiosunda verilişlərin yayımı uzun müddət bu istiqamətdə araşdırılıb. M.S.Qleyzerin "SSRİ-də Radio və Televiziya: 1917-1963. Tarix və faktlar" kitabında əks olunan materiallar alimlər üçün geniş mənbə hesab olunur [135, s.230].

Azərbaycan da 70 il ərzində SSRİ-nin sıralarında təmsil olunduğundan radiojurnalistikanın inkişaf prosesi hər iki ölkədə eyni axarda formalaşıb. Radiojurnalistika ilə bağlı sovet tədqiqatçılarının elmi fikirlərinin çox vaxt üst-üstə düşməsinin səbəbi də elə bu amillə bağlıdır [138, s. 99].

Müasir dövrdə yayımın formalarına müxtəlif yanaşmalar var. Bəzi alimlər tematikaya görə verilişləri ictimai-siyasi informasiya, maarifçilk ədəbi-dram və musiqi yayımına, özəl radiolarda isə sadəcə informasiya və musiqi yayımına

ayırırlar. Bəziləri, xüsusilə qərb tədqiqatçıları radioda verilşlərin yayımını "publisistik, bədii və elmi verilişlər" adı ilə qruplaşdırırlar.

Hazırda dünyada yüzlərlə format var. Şərti olaraq formatlar aşağıdakı kimi bölünür:

- Musiqili formatlar - əsas yük musiqiyə düşür;
- Danışıq formatları - əksər verilişlər danışıq üzrində qurulur;
- Xəbər formatları.

Stansiyalar formatlarını tez-tez dəyişir. Adətən bu, daha çox dinləyici cəlb etmək üçündür. Bəzən auditoriyanın maraqları da dəyişir. Və yaxud bu format üzrə rəqabət güclü olduğundan radiostansiya onu dəyişmək qərarına gəlir. "*Radioda hər bir demoqrafik qrupa, onun cavanından tutmuş qocasına qədər, kəndə, şəhərə xidmət edən bir sıra formatlar var. Lakin hər yüksək səviyyədə xüsusiləşmiş formatların hər birinin daxilində nəzərəçarpan oxşarlıqlar reklamçıların arzuladıqları auditoriyanın zəifləməsi, hətta itirilməsi qorxusu var*" [38, s. 271]. Proqram direktorları bu qorxunu aradan qaldırmaq üçün müxtəlif vasitələrə əl atırlar. Bunun üçün proqram çarxları, format disklər hazırlanır. Bütün saatlarda və çarxlarda radioproqramlar arasındakı tarazlığın qorunması şərtdir.

Radio proqramları müxtəlif və fərqli formatda olur:

- Məqsədinə görə;
- Əhatə dairəsinə görə;
- Yaradılma şəkillərinə görə;
- Dinləyici xüsusiyyətlərinə görə [202].

Ancaq bir qrup alimlər radionu reklamçıların əlində saxlamasına etirazını bildirir. Məsələn ABŞ alimləri Tyedor Qlaser və Stefani Kraft deyir ki, "*televiziya və radio reklamçılardan asılı olmalı deyil*" [224]. Onların fikrincə reklamdan asılılıq keyfiyyətin yüksəlməsinə, əsl sənət əsərlərinin meydana gəlməsinə, bir sözlə radio sənətkarlığının inkişafına mane olur.

Məqsədinə görə radio proqramları təhsil, mədəniyyət, dram, musiqi-əyləncə, xəbər, idman və reklam proqramlarına ayrılır. Təhsil proqramlarının məqsədi bilgi

vermək, xəbərdarlıq etmək, öyrətmək, təhlil etmək və inandırmaqdır. Radio bu prosesi yerinə yetirərkən hər şeydən əvvəl obyektiv olmalıdır. Təhsil proqramlarında əsas iş dinləyicinin marağını oyatmaqdır. Bu kimi verilişləri dinləyənlərin müəyyən məqsədi olur. "*Proqram mövzusu öyrənilərkən dinləyici amili mütləq şəkildə nəzərə alınmalıdır*" [101, s.110].

Radioda dram proqramları dedikdə ağıla ilk gələn bir vaxtlar məşhur olan radioteatrlardır. Bu proqramlarda ssenari əvvəlcədən yazılır, bütün detallar planlaşdırılır. Dram proqramının hazırlanmasında mövzu seçimi çox önəmlidir. Mövzu maraqlı olmalı, auditoriyanın problemini dilə gətirməli, həll yolları axtarılmalı və dinləyicini yaşadığı məkandan uzaqlaşdırıb xəyal dünyasına aparmalıdır.

Dram proqramlarının önəmli xüsusiyyətlərindən biri də adi proqramlarda olmayan musiqi və effektlərdən istifadə olunmasıdır. "*Sözün təsvirinə uyğun arxa səs effekti və musiqi radiofilmin məşhurluğunun artmasına gətirib çıxarır*" [196]. Musiqilərdən əsasən girişdə, səhnə keçidlərində və finalda istifadə olunur. Keçidlərdən başqa mətndə hər hansı musiqidən istifadə olunarsa, bu zaman musiqinin başladığı və bitdiyi yer mütləq qeyd olunmalıdır. Bundan başqa oyunda ani sevinc və gərginlik kimi hisslərin dinləyici üzərindəki təsirini artırmaq üçün bir neçə saniyəlik flaş musiqisindən istifadə oluna bilər [149].

Bu gün radiolar keyfiyyəti aşağı olan və az zəhmət tələb edən proqramlarla doludur. Radiolarda dram proqramı hazırlamaq həm maddi, həm mənəvi cəhətdən çətin olmaqla yanaşı uzun zaman tələb edir. Dramlarda önəmli nöqtələrdən biri də komanda işidir. Komandanın duyumlu olması proqramın uğurlu alınmasına təsir edən göstəricilərdəndir. Musiqi, effekt və insan səsi ilə canlandırılan əsərlər radioda milyonlarla insana çatdırılır və onları yeni, xəyali dünyalara aparır. Bu sistem İngiltərədə olduğu kimi ölkəmizdə də insanların kitab oxuma alışqanlığını inkişaf etdirə bilər. Məsələn, Musiqi: Başlayır. Davam edir və fona keçir

Səs 1: Mən Türk gənciyəm!

Nə silahdan, nə minadan, nə də topdan qorxuram.

Meydanda güllələr rəqs edərkən mən düşmən qovalayıram!

Musiqi: Qısa keçid

Effekt: Qapının zəngi

Effekt: Qapının cırıltısı

Ata: Buyurun, kimi axtarırsınız?

Əsgər: (kədərli) Mehmet Yurterin evi buradır?

Ata: Bəli, nə baş verib?

Əsgər: (kədərli) Necə deyəcəyimi bilmirəm, oğlunuz Mehmet...

Musiqi: başlayır/qısa davam edir/bitir

Ata: (təəccüblü) Yox, ola bilməz! Oğlum...[115, s.6].

Bir radioteatr yazarı əsərində yüksəkliyi, soyuğu, boşluq hissini və ya buz üzərində yeriməyin çətinliyini dinləyiciyə çatdırmalı, hətta onu xəyalən görməsinə çalışmalıdır. Məsələn, dağa çıxmağa çalışan bir insanın hekayəsini canlandıraq: Dinləyicinin bu hadisəni öz xəyal dünyasında canlandırmasına nail olmalıyıq. Buna görə də mövzu ilə bağlı müxtəlif sözlərdən istifadə etməliyik, məsələn balta, ip, bel çantası, külək, buz, və s. Dinləyici bu sözlərin ifadə etdiyi əşyaların özünü görməsə də, xəyalında onları canlandıraraq hadisəni daha yaxşı dərk edəcək. Başqa bir misal. Effekt: Ağcaqanad səsi...uzaqdan eşidilir, eşidilməyə davam edir... Bu effekt həmçinin dialoqlarda da öz əksini tapmalıdır. Beləliklə də dinləyici evin şəhərdən kənarda olduğunu və hadisələrin yay aylarında baş verdiyini anlayacaq.

Qeyd etdiyimiz kimi, musiqi radionun  üç əsas qolundan biridir. Musiqini uyğun yerlərdə düzgün istifadə etmək lazımdır. Görülən hər boşluğa musiqi əlavə etmək olmaz. Düzgün seçilmiş və doğru yerdə istifadə olunan musiqi proqrama çox şey qata bilər. Düzgün seçilməyən musiqi isə dinləyicini əsəbləşdirə bilər. Buna görə də musiqi seçimində dinləyicilərin əhval-ruhiyəsi mütləq nəzərə alınmalıdır. Burada diqqət yetirilməli məsələlərdən biri də ölkənin musiqi mədəniyyətidir. Musiqili verilişdə əsas mövzunu bir şəxsiyyət (məşhur bir aparıcı), bir aksiya (kimsəsizlərə yardım), bir musiqi tərzi və ya bir məkan təşkil edə bilər. Əvvəlcə aparıcı bu mövzulara aid ideyalar qurur. Bu mərhələdə istifadə edə biləcəyi qaynaqlar da var. Məsələn, bir bəstəkarın doğum günü, bayramlar, xüsusi günlər və s. Əks təqdirdə bir-biri ilə əlaqəsi olmayan musiqiləri bir araya

gətirməklə musiqi proqramı yaratmaq mümkün deyil. Musiqi proqramlarında tempi canlı tutan önəmli faktorlardan biri də aparıcı və ya aparıcılardır. Fərqli tərzdə musiqiylə məşğul olan sənətkarları müəyyən bir kompozisiya əsasında dinləyiciyə təqdim etmək aparıcının əsas vəzifəsidir. Bundan başqa aparıcı çağırdığı qonaqlara verəcəyi maraqlı və fərqli suallarla proqrama rəng qata bilər. Musiqi proqramlarının vaxtı və proqramın ritmi dinləyicini bezdirməyəcək şəkildə təşkil olunmalıdır. Proqram zamanı musiqi parçaları arasında yerləşdirilən sözlər, ifadələr proqramın axışını sürətləndirəcək tərzdə seçilməlidir. Ən populyar, ən sevilən parçaları proqramın sonuna saxlamaq və ya proqrama qatılmış bütün sənətkarlarla birlikdə hər hansı bir mahnını səsləndirmək musiqi proqramını daha maraqlı və axıcı edə bilər. Musiqi proqramlarında proqramın axıcılığını və bütövlüyünü təşkil etmək aparının əsas vəzifəsidir. Bunun üçün o əvvəlcədən bir proqram mətni hazırlamalıdır. Bu mətndə qonaq çağırdığı sənətkar haqqında maraqlı məlumatlar, onların heç kimə məlum olmayan xüsusiyyətləri, fərqli yönləri qeyd oluna bilər. Məsələn:

"Hər dildən, Hər teldən"

Proqram cınqılı

Musiqi: Yavaşca yüksəlir/fona keçir/davam edir

(Aşıq Veysəlin öz dilindən "Torpaq" adlı şeiri)

Dost dost diye nicesine sarıldım,
Benim sadık yarim kara topraktır.
Beyhude dolandım boşa yoruldum,
Benim sadık yarim kara topraktır.
Nice güzellere bağlandım kaldım.
Ne bir vefa gördüm ne fayda buldum.
Her türlü isteğim topraktan aldım.
Benim sadık yârim kara topraktır.

Səs 1: Salam əziz dinləyicilər, proqramımıza Aşıq Veysəlin öz səsiylə səsləndirdiyi "Torpaq" adlı şeiri ilə başladıq. Bugünkü verilişimizin mövzusu Aşıq Veysəl Şatıroğlunun şeirləri və ədəbiyyatımıza qazandırdığı zənginliklərdir.

Səs 2: Aşıq Veysəl (1894-1973) Sivasın Şarkışla rayonunda Sivrialan kəndində anadan olub. Uşaqlığında yoluxduğu ağır xəstəlikdən sonar görmə qabiliyyətini itirib. Atasının oynamaq məqsədilə ona aldığı sazı zamanla ifa etməyi öyrənib. Kənddə olan aşıqları dinləyərək sənəti öyrənməyə başlayıb.

Səs 1: …

Musiqi: başlayır/davam edir/fona keşid (öz səsindən "Dostlarım məni xatırlasın")

Səs 2: … [115, s.9].

Məlumatların bir və ya iki səslə verildiyi düz proqramlar xəbər proqramlarıdır. Musiqi və effektlərə tək-tək hallarda müraciət edilir. Bu cür verilişlər xəbər bülletenlərindən daha əhatəli, anlaşıqlı, öyrədici olur. Xəbər radionun əsasını təşkil edir. Hər radio kanalının yayım formatına uyğun olaraq uzun və qısa xəbər bülletenləri var. Bütün radio kanallarında gündə 2-3 dəfə uzun xəbər bülletenləri və hər saat başı qısa xəbər bülletenləri verilir. Xəbərə daha çox üstünlük verən və hətta sadəcə xəbər verən radiolar da var. Xəbər proqramlarını hazırlayarkən mövzunu standartlar əsasında dərindən araşdırmaq vacibdir. "*Jurnalistikanın oxuculara xidmət etdiyi cəmiyyətlərdə jurnalistlər ilə oxucular arasında inamın yaranmasına və qalmasına xidmət edən standartlar – universal xəbər standartları dəyişməz olaraq qalır*" [14, s.57]. Faktlılıq, dəqiqlilik, vicdanlılıq və balanslılıq xəbər janrının dəyişməz standartlarıdır. Amerika Birləşmiş Ştatlarının sosioloq alimi Herbert Qans öz "Xəbər nədir - araşdırma" (Deciding What is the News) kitabında yazır ki, *müəllif xəbər hazırlayarkən və xəbərlə qarşılaşarkən camaat və cəmiyyət əlaqəsinin xəbərdə necə əks olunduğuna nəzər yetirir. Amma dinləyicinin buna diqqət yetirib-yetirmədiyinə əmin deyil. Çünki auditoriyanın çoxu xəbərə araşdırmaçı kimi deyil, öz düşüncə tərzi ilə öz aspektindən yanaşır. Jurnalist dinləyicini xəbərlə marağlanmağa inandırmalıdır, onların məlumatlı vətəndaş olmağa məcbur etməlidir xəbər onları maraqlandırmasa da belə* [182, s.37]

Audiojurnalistikada xəbər mətni nəql edilən hadisə ilə əlaqəli olur. Sənədli təqdim olunan bu tip mətnlər səs və təsvirin görüntüsündən ibarət olub sosial və elmi dünyadan real faktları özündə əks etdirməlidir [187, s. 184].

Radio proqramları dinləyici xüsusiyyətinə görə də bölünür: cinsiyyətinə, yaş qruplarına və peşə və ixtisaslara. Tonallıq hər bir formata xas xüsusiyyətdir. Zaman və məkan hər formatda bir cür əks olunur. Format radiosu get-gedə ixtisaslaşır. Dinləyicilərin proqramlara cəlb edilməsi üçün müxəlif yollar düşünülür. Auditoriya ilə yanaşı radioformatlar da yaşa dolur, inkişaf edir.

Verilişlərdə növlərin hər birinə cavab verən əlamətlərin mövcudluğu faktı deməyə əsas verir ki, istənilən radiopublisistika əsəri bədii və elmi cəhətdən bütövləşərək üç növün sintezini nümayiş etdirir. Məhz buna görə də radiopublisistikanın üç növü müəyyən edilib. İnformativ, analitik və bədii publisistika [147].

İnformativ publisistika (reportaj, müsahibə, qeydlər, hesabat, çıxış) - real həyat hadisələrinin lakonik dillə olduğu kimi təsviridir. Burada baş vermiş hadisənin leytmotivləri əsas götürüldüyü üçün olaya jurnalistin şəxsi baxışı, fərdi münasibəti hiss olunmur. Hadisənin bütün təfərrüatları, baş vermə ehtimalları janrlar daxilində konfliktin açılmasına səbəb olur. Reportaj, müsahibə və s. janrlarda konkret fakt diqqət mərkəzində saxlanılır. Rusiya-Amerika Akademik Elmi Mübadilə Assosiasiyasının üzvü, iqtisadçı alim İrina Alyoşinanın təbirincə desək, "*qəzet və radioda televiziyadan fərqli olaraq faktlar və sözlər vasitəsilə hadisənin "şəkli" çəkilir*" [118, s. 30].

Sənədli radio mətnlərinin - radiopublisistikanın informasiya, analitik və bədii hissələrə ayrılması məlumatın strukturuna və funksiyasına əsaslanır[53]. Əgər informasiya janrı fakta əsaslanan xəbərin özəyini təşkil edirsə, analitik publisistikanın funksiyası baş verən fakt və hadisələrin təhlilidir. Bədii publisistikanın məqsədi isə ayrıca götürülmüş faktlar əsasında ümumi və tipik əlamətlərin fonunda bədii obrazın yaradılmasıdır. "*Radioda xəbər proqramları üçün mətn hazırlanırsa, bu, publisistik və rəsmi-işgüzar üslubda tərtib edilir. Çünki publisistik üslub milli ictimai təfəkkürü ifadə edən nitq forması kimi mətbuatda funksionallaşır və olduqca müxtəlif mövqeləri əks etdirir*" [80, s.113].

Analitik və bədii publisistika (söhbət, icmal, şərh, korrespondensiya, oçerk, zarisovka, esse, felyeton, pamflet) janrlarında hazırlanan publisistik əsərlərin strukturunda, süjet və kompozisiyanın quruluşunda müəllifin ideyaları dayanır. Janrın speifik tələblərinə diqqətlə yanaşmaq bütövlükdə sənət əsərinin dolğun əks olunması ilə nəticələnir. Məsələn, analitik publisistikaya aid olan şərh zamanı fakta əsaslanan, müşahidə etdiyi hadisənin səbəblərini aşkar edən, ümumiləşmiş nəticə çıxaran, bir fakta istinad edərək çoxlu məntiqi dəlillər yürüdən, səbəblərin ardıcıllığını çərçivə daxilində, yəni ayrılan efir dəqiqələrinə nizamlayan və onun ictimai əhəmiyyətinə toxunan şərhçi efirdə aktual mövzudan peşəkarlıqla söhbət açа bilər.

Radiojurnalistikanın – informasiya (xronika, xəbər, hesabat, radiomüsahibə, radioreportaj), analitik (müxbir söhbəti, söhbət, şərh, icmal) və bədii-sənədli (radiooşerk, radiohekayə, radiofelyeton) janrları əsasında radiopublisistika təşəkkül tapıb.

Hazırda radioda işlənən bütün janrlar publisistika adlanır. İctimai həyatın mühüm hadisələrini və xarakterik tendensiyalarını təşkil edən bütün cəhətlərinin qavranılması, başa düşülməsi və dəyərləndirilməsi xeyli dərəcədə nəzəri və bədii şüurun inkişaf dərəcəsini göstərir. İctimai fikir çevrədəki hadisələrin dərk edilib dəyərləndirilməsinə, kütlələrin nə dərəcədə hazır olmasından, dərin və dəqiq baş çıxarma bacarığından asılıdır.

Radio sənətkarlığının inkişafı, incəsənətin sahəsinə çevrilməsi, onun özünəməxsus səsli təbiəti bu amillə bağlıdır.

Radiopublisistikada hər bir janrdan xüsusi ustalıqla istifadə edilir. Azərbaycan radiosunda yarım əsrdən çox efir tarixi olan "Axşam görüşləri" verilişini misal çəkək. Veriliş radio yayımının bədii növünə aiddir, radiojanrların hər üç növündən, xronika, radiomüsahibə, müxbir söhbəti, şərh, icmal, radiooçerk, radiohekayə və s. elementlərdən istifadə olunub, publisistikanın növlərinə görə isə bədii publisistikanın dəyərli nümunələrindən biri hesab edilir. Audiopublisistika deyəndə radiojurnalistikanın müxtəlif janrlarında işlənmiş, yayım növlərinə görə publisistik, bədii və elmi verilşlərə aid olan, informativ, analitik və bədii

publisistikanı əks etdirən, publisistik üslub və ünsürlərlə zəngin radio verilişi - efir söhbəti nəzərdə tutulur. "*Sənədli əsərin funksiyası tələb edir ki, yazıçı-publisist hadisələrə ciddi müdaxilə etsin. Bu müdaxilə, açıq tendensiyalılıq, təbiidir ki, əsərin dil-üslubunda öz əksini tapır, deməli sənədli əsər öz ümumiləşdirmə və dil-üslub xüsusiyyətlərinə görə sırf bədii əsərdən fərqlənir*" [68, s.8].

Verilişlərin sənədli olması, faktlara söykənməsi, real aləmi özünəməxsus tərzdə ifadə etməsi onun spesifik xüsusiyyətidr və dinləyicinin informasiya təminatçısı rolunda çıxış edir. Hansı formada yayımlanmasına, hansı janrda işlənməsinə baxmayaraq hər birində publisistik ünsürlərə rast gəlinir. İri həcmli informasiya verilişlərində informativ və analitik publisistika ilə yanaşı, bədii publisistikaya da bərabər şəkildə müraciət olunur.

1989-cu ildə Azərbaycan radiosunda hazırlanan "Səhər" informasiya proqramını nümunə gətirmək olar. Ölkənin radio tarixində mövzuya adekvat yanaşan veriliş olub. Uzun illərin durğunluq illərindən sıxılan təcrübəli radiojurnalistlər müstəqillik illərinin astanasında həsrətində olduqları sərbəst fikir söyləmək fürsətini çoxdan gözləyirmiş kimi, hadisələrə müxtəlif rakurslardan baxır, fərqli aspektlərdən yanaşır, publisistik təhlildən keçirirdilər. Həmin illər televiziyanın deyə bilmədiyini radio çox asanlıqla deyib və xalqın bir nömrəli informasiya mənbəyi rolunda çıxış edib. Bir saat müddətində yayımlanan xəbərlər, şərhlər, siyasi analitik çıxışlar dinləyici üçün ona görə maraqlı olub ki, qarışıq situasiyadan (dünyada erməni lobbisinin Azərbaycan əleyhinə çıxışları, SSRİ-nin başçısı Qorbaçovun ermənilərə havadar çıxması, xalqımıza qarşı məkrli niyyətlər, Qarabağda müharibənin başlanması və s.) narahatlıq keçirən xalq ziyalı mövqeyini öyrənə bilib. "Səhər" informasiya proqramı radiojurnalistikanın yeni nəfəsi, müstəqillik dövrünün ilk radiopublisistikası və Azərbaycanın efir tarixində ilk dönüş nöqtəsi olub. Verilişdə informasiya analitik təhlil olunub, dinləyicinin usanmaması üçün arada musiqi nömrələri səslənib, təbliğat məqsədi güdən informasiyanın şüurlara yeridilməsindən ötrü yeni jurnalist sənətkarlığının məziyyətləri ortaya çıxıb.

Sovet publisistikası haqqında irəli sürülən nəzəriyyələrdə radionun partiya təbliğatçılığında önəmli rolu qeyd edilib [22; 27; 109; 110]. Siyasi proseslərin ictimaiyyətə çatdırılması istiqamətində radionun əsas təsir vasitəsi olduğunu sübut etməyə çalışan alimlərin bu barədə olan düşüncələri dövr dəyişəndən sonra özünü doğrultmayıb. Zamanın siyasi gedişatı publisistikanın hakim bir partiyaya deyil, bütövlükdə cəmiyyət həyatına aid olmasını üzə çıxarıb. Auditoriya ilə sıx əlaqə dinləyicinin eşitmək istədiyi mövzu gündəmə gələndən, SSRİ-nin tərkibində olan ölkələr böyük dövlətdən ayrılaraq müstəqillik qazanandan sonra mümkün olub.

Publisistikanın ədəbiyyata və yaxud jurnalistikaya aid olduğunu iddia edən alimlərin elmi dəlillərindən sonra belə, bu bölgünü etmək çətindir. Bir qrup tədqiqatçılar publisistikanın ədəbiyyatla jurnalistikanın sərhəddində durduğunu, konkret halda hər ikisinin bir-birinə bağlılığını təsdiq etməyə çalışıblar.

Mətbuatın tarixini öyrənərkən yazıçı və şairlərin yaradıcılığında publisistika elementləri axtarılırsa, deməli fikirlərdə həqiqət var. Radiopublisistikanın bədii ədəbiyyatdan fərqli olaraq sənədli olması, faktlar üzərində qurulması əsaslandırılsa da, onun təməlində dayanan sözün ictimai fikrə təlqini üçün yaradıcı şəxslər jurnalistika elmindən daha çox, bədii söz sənətinin incəliklərindən və natiqlik sənətindən yararlanırlar.

Professor Q.Məhərrəmlinin təbirincə desək, "*söz sənətindən, bədii-publisistik yaradıcılıqdan bəhrələnməklə, həmçinin elmi təfəkkürün müqayisə, təhlil, sintez, izahetmə və modelləşdrimə metodlarını məharətlə publisistikaya tətbiq etməklə sənədli verilişi zənginləşdrimək olar*" [78, s. 248].

Radiopublisistika inkişaf mərhələlərində hadisə, analitika, bədii sahələrə bölünərək mövzuya fərqli aspektlərdən yanaşılıb. Siyasi, iqtisadi, əxlaqi-etik, ədəbi-tənqidi mövzular müxtəlif janrlarda polemik, təbliğati, tənqidi-analitik, satirik üslublarla nümayiş olunub. "*Bir qayda olaraq cari hadisələrdən bəhs edən və konkret bir insanın, xalqın, ölkənin müəyyən bir dövrə aid problemlərini, cari həyatda baş verən hadisələri təsvir edən publisistikanı*" emprik səviyyədə jurnalistikanın mövzusu hesab edən professor S. Xəlilov "Baxış bucağı: fəlsəfi

publisistika” [40] və “Həyatın özü və görünən üzü; fəlsəfi və ədəbi-bədii publisistika” [41] kitablarında publisistika anlayışına fəlsəfi diqqət çəkir [16].

Radiopublisistikanın fəlsəfəsi - canlı insan səsləri, zamanın tarixi anlarının əks olunduğu, keşmiş hadisələrin ruhunu yaddaşlarda yaşadan və gələcəyə ötürən səs salnaməsidr.

Radiojurnalistikanın nəzəri problemləri haqqında ilk dəfə Almaniyada şair, rejissor, dramaturq, teatr sahəsində islahatçı Bertolt Brext silsilə məqalələr yazıb [127, s.21]. Onun bədii əsərləri alman radiosunun rejissoru Alfred Braunun diqqətini çəkib. Bertolt Brext əməkdaşlıq üçün efirə dəvət olunub və tez bir zamanda məşhur simalardan birinə çevrilib. Ona şöhrət gətirən radio haqqında, onun texniki imkanlarının üstünlükləri barədə 1927-1930-cu illərdə mətbuatda “Radio nəzəriyyəsi” adlı yazılarını çap etdirib. Radio yaradıcılığının nəzəri problemlərindən bəhs edən bu mənbə alman təcrübəsini öyrənmək baxımından əhəmiyyətlidir.

Alman radiosunun təcrübəli əməkdaşlarının iş prinsipləri hələ ötən əsrin əvvəllərindən nəinki, bütün dünya, həm də keçmiş SSRİ alimlərinin diqqətini cəlb edib. A.Şerel “XX əsrin Audiomədəniyyəti” adlı kitabında yazır: “*Radio nəzəriyyəsinə aid olan Kolbanın kitabı və Lampenin “Radioqavrayış” əsəri o dövrün maraqla izlədiyi nəşrlərdən biri idi. Moskvada çap olunan “Danışır SSRİ” və digər nəşrlərdə Kolbanın radio yaradıcılığı barəsində deyilən fikirlərinə əsaslanaraq radioincəsənətin üç istiqaməti müəyyən edilimişdir. Birincisi, sözlə portret yaratmaq ustalığıdır ki, əsas hadisələr təbii canlanmalı, “sadəlövh təbiilik” prinsipində alman istiqaməti - “helbird” (səslərin şəkili) üsuluna müraciət olunmalıdır. İkinci, radiopyesin mətninin, sözlərin səlist, başadüşülən tərzdə ifası, yəni vebralizm-psixoloji sindromu, danışığın insan şüuruna öz əksini hopdurması müvəffəqiyyətlə icra edilməlidir. Üçüncü isə melodik amilə üstünlük verilməli, ritm və ədəbi mövzunun ahəngdarlığı pozulmamalıdır*” [176, s. 115]. Yəni, danışıqdan sonra verilən musiqi düzgün seçilməli, hər ikisi bir-biri ilə bağlılıq təşkil etməlidir.

1937-ci ildə tanınmış kino rejissoru S. Eyzenşteynin “Filmin tonmontajı” adlı məqaləsində radioda süjetin dolğun olması üçün montajın güclü kompozisiya olduğu, epizodun sintaksisində mühüm əhəmiyyət daşıdığı bildirilir. Onun fikrincə dinləyiciyə təsir və əks-təsir metodları prosesdə əsas götürülməli, kadrları birləşdirən rejissorun yaradıcılığında estetik yanaşması hiss olunmalıdır [178, s. 353].

Rus tədqiqatçılarının fikrincə, 30-cu illərdə sovet rejissoru, aktyor və pedoqoq B. Meyerholdun söz, musiqi və fon səsləri vəhdətinin radioda tətbiqi radio sənətinin inkişafına öz tohfəsini verib [205].

Almaniyalı E.Piskatorla əməkdaşlığı nəticəsində 1931-1934-cü illərdə müxtəlif sənət əsərlərinin radio versiyaları işlənir. 1938-ci ilə A.S.Puşkinin “Su Pərisi” əsəri Meyerhold təcrübəsini sübut edən ən gözəl və orijinal üslubda işlənmiş qiymətli radio işidir [179, s.199].

Ümumittifaq radiosunda 20 il təcrübəsi olan bir sıra verilişlərin yaradıcısı və “Musiqi Mediası” adlı beynəlxalq elmi-tədqiqat elektron jurnalın rəhbəri olan M.V.Bıskonun “Radio verilişlərinin nəzəri əsasları” kitabında tarix və nəzəriyyə, texnoloji inkişaf və musiqi mədəniyyətinin inkişafı, radioreportyor, radiorejissor, proqram və efir direktorları üçün xüsusi təlimatlar öz əksini tapıb [212].

Professor V.P.Oleynikin fikrincə, radiojurnalistika üçün ən gərəklisi, “*radiokompozisiya-franqmentar-mozaik quruluş və radionun bütün ifadə vasitələrindən istifadə edilməklə cəmləşdirilmiş ideya mövzu birliyi ilə xarakterizə edilən səciyyəvi radiopublisistika janrıdır*” [159, s. 159].

Publisistik əsərin ideya-mövzu birliyini mütləq hesab edən alim ssenaridə müxtəlif fraqmentlərin (müəllif mətni, sənədli qeydlər, şeirlər, səs elementləri, musiqi) ciddi məntiqi zəncirdə və montajın köməyi ilə vahid şəkildə birləşdirilməsini zəruri hesab edir. Müasir dövrdə səsyazmanın, bədii montaj imkanlarının təkmilləşməsi və “kollaj üsulunun” tətbiqi (müxtəlif səs elementlərinin birləşməsi) radiopublisistikanın səmərəli inkişafına səbəb olub. Oleynikin kitabı, alimin nəzəriyyələri ilə tanışlıq üçün tədqiqatçılarımıza qiymətli mənbə hesab edilir. [159, s. 191].

Y.V.Klyuev “Radiojurnalistika peşəsinin əsasları” kitabında xüsusi önəm kəsb edən ifadə vasitələrinin faktoloji təhlilini verib [144, s. 54-72].

Ukraynalı alim Y.Baraneviç “Radiopublisistika” kitabında informasiya, publisistika və bədii janrların hər birini iki yerə bölür. Onları ayrı-ayrı növlərdə təsnifləşdirərək, müəyyən qruplarda cəmləşdirən alim ən yaxşı publisistik əsərin hazırlanmasından ötrü bu elementlərə düzgün yanaşma tərzini önə çəkir [122, s. 8-193].

Y.Braneviçin həmkarı B.Kaçkan və Rusiya alimi V.Yaroşenkonun təsnifatında analitik, publisistik informasiya və bədii publisistika janrları təhlil olunur [180, s.4-5].

Dinləyici janrından asılı olmayaraq hər bir radio verilişindən informasiya gözləyir. Publisistin də ustalığı ondadır ki, təqdim etdiyi informasiya yeni, maraqlı, aktual, dolğun və ictimai əhəmiyyət kəsb etsin. Professor V.Y.Zdoroveqa “Jurnalist yaradıcılığı, nəzəriyyə və təcrübə” dərsliyində yazır: “*Müxtəlif auditoriya sahibləri olan oxucu, tamaşaçı və dinləyici üçün jurnalistin hansı janrda yazması maraqlı deyil. İnsanların çoxu janrın nə olduğunu bilmir. Onu əsas maraqlandıran cəhət informasiyanın maraqlı olmasıdır. Xəbər isə o zaman maraqlı olur ki, fakt və hadisələr informasiyanın özəyini təşkil etsin*” [231, s.38-49].

Bolqar tədqiqatçısı K.Stançev radiojurnalistikada 7 əsas komponentin işlənməsini zəruri sayır. Onun fikrincə hadisənin, faktın təsviri, əhəmiyyəti, məsələnin həlli yolları, ədəbi formaya salınması, qeydlərin xarakteri, materialın öyrənmə üsulları, nəzəri işıqlandırma, materialın həcmi və nəhayət yazı keyfiyyəti radio jurnalistini populyarlaşdıra bilər.

Sovet jurnalisti Yuri Letunov araşdırmaların aparılması üçün yayımın mükəmməl öyrənilməsi, proqramlar əsasında janrların əhatəli təhlil olunmasını mühüm hesab edir [152, s.97].

Qazaxıstan alimi M.Barmankulov janrların meydana gəlməsini publisistikanın inkişafında inqilabi hadisə adlandırır. Alimin sözlərinə görə “*hər*

*bir janr get-gedə təkmilləşir və dövrə uyğun olaraq yeni formalar kəsb edir*” [123, s. 13].

Filologiya elmləri namizədi L.V.Qriqorova yazır: “*Hər bir dövrün radiopublisistikasında jurnalistin yaradıcılıq şərtlərini müəyyənləşdirən yeni texnologiyanın mənimsənilməsi prosesi əsas rol oynayıb”*. Onun fikrincə, “*radioreportaj - yayımın bütün xüsusiyyətlərini özündə birləşdirən və radiomətnlərdə istifadə edilən əsas janrdır. Bu janrın operativliyi, sənədli, dəqiq, dinamik, emosional olması, əməkdaşın fərdi yaradıcılıq imkanlarını nümayiş etdirmək bacarığı və auditoriyaya səs effektləri ilə təsir etmək ustalığı radiopublisistikada vacib amildir. Radioreportajın təşəkkül tapması və inkişafı akustik imkanların tədricən mənilmsənilməsi ilə xarakterizə olunan uzunmüddətli prosesdir*” [137, s. 16]. Radioreportajda, jurnalist yaradıcılığında və radiopublisistika əsərlərinin hazırlanması zamanı psixoloji faktora subyektiv cəhətdən xüsusi diqqət yetirmək lazımdır [134, s.31-32].

Müəllif yaradıcılığı xüsusiyyətləri kanalın (kommunikasiyanın) özünəməxsusluğu və səsləndirilən mətnlərin dinləyici psixologiyasına təsiri ilə əlaqələndirilir. V.L.Şerbatyuka görə radioreportaj janrı jurnalistin özünün inkişafı üçün meydan açan yaradıclıq sahəsidir [175, s.4-6].

M.M.Baxtinə görə audiopublisistikada janr problemi tematik məzmun, üslub və kompozisiya quruluşunun birgə bağlılığı olmadıqda baş verir [124, s. 237].

Əgər qəzet, nəşr - zamanın yazılı tarixidirsə, radiopublisistika - böyük, əhəmiyyətli, gündəlik hadisələrin insanın vasitəsi ilə təqdim edilən səsli tarixidir. Hər bir radio publisisti janrlardan lazımınca faydalanır. Mətndə özünüifadənin, özüməxsusluğun təzahürü hiss olunur və publisistika əsərinin təkrarsızlığı, bənzərsizliyi yaradıcı şəxsin mövzuya fərdi yanaşma keyfiyətlərini üzə çıxarır. “*İfadə vasitələri olan söz, musiqi, səs-küylər və montaj bütövlükdə radiopublisistikanın əsasını təşkil edir. Jurnalist yaradıcılıq prosesində bu ifadə vasitələrini bir mövzunun həllinə səfərbər edir. Peşəkar jurnalistin rejissorla yaradıcılıq prosesində fikir və ideyaları üst-üstə düşəndə nəticə gözəl alınır*” [143, s. 259].

Radiopublisistikada birinci yerdə dayanan söz efir danışığının başlıca predmetidir. Söz ictimai fikrə yönələndə, dinləyicinin asanlıqla başa düşdüyü və cəmiyyəti narahat edən mövzunun müzakirəsi onun əhatə dairəsini genişləndirir. B.H.Şein "Belorus radiosu 85 (1925-2010)" adlı kitabında yazır ki, "*radiopublisistikanın yaranması üçün Böyük Vətən müharibəsi illərində stimul yaranmışdır. Həmin vaxt müharibə dövrünün şəraitinə uyğunlaşmalı, ordunun döyüş ruhunun artırılması, ön və arxa cəbhənin birliyini nümayiş etdirən, hərbi əməliyyatlar barədə əhalinin məlumatlanmasına xidmət edən proqram və verilişlərin hazırlanması radioda xüsusi sənətkarlıq tələb edirdi*" [174, s. 22; 211].

Tədqiqatçıların fikirlərinə görə, radiopublisistika tarixində sənədli səs yazılarından ibarət radiofilmlər başlanğıcdır. Lentə yazılan və montaj olunan sənədli səslər radiopublisistikanın mühüm elementinə çevrilir [208].

Prof.A.Şneyder yazırdı ki, şifahi nitqdə olduğu kimi budaq cümlələr radio nitqinin də düşmənidir. Radionitqdə hər cür budaq cümlə müəlliflər üçün bağışlanılmazdır. Azərbaycan alimi prof. Q.Məhərrəmli də eyni kontekstdən çıxış edir: "*Radiopyeslərin dili kommunikasiya prosesində reallaşdığı üçün biz burada cümləyə məhz nitq faktı kimi yanaşır, onun həcmi və quruluş problemini də elə bu baxımdan araşdırırıq. Fikrimizcə, bu nitq faktının dinləyici üçün aydın və anlaşıqlı olmasında əsas prinsipial məsələ cümlələrin quruluşu və həcmi məsələsidir*" [ 79, s.83-85].

Radio üzrə tədqiqatçı alim V.V.Smirnovun araşdırmalarında radiopublisistikanın əsasını nitqin təşkil etdiyi, radiomətnlərin bədii danışıq dilinin qanunları əsasında yaradıldığı qeyd olunub. "*Onların süjet xətti, kompozisiyası, strukturu və dil xüsusiyyətləri var. Səsli publisistikanın tarixini öyrənmək üçün radiojanrlar sisteminə nəzər salmaq kifayətdir*" [168, s.35-36; 209]. V.V.Smirnovun radio verilişlərinə tarixi nəzəri yanaşması radionun erkən yaradıcılıq dövründən başlayıb. Araşdırmada 1917-ci ildən 2001-ci ilə kimi müxtəlif dövrlərdə radiojanrların tarixi kökləri ilə yanaşı bütün sistemin daxili inkişafı əks olunub ki, bu da vacib məzmun və struktur dəyişikliklərini müəyyən etməyə şərait yaradır. Materiala yanaşmada, onun dərk edilməsində radiopublisistika vasitələrinin

köməyi ilə həyata keçirilməsi metoduna toxunan V.V.Smirnov radiojanrların yaradıcılıq prosesinin erkən mərhələsindən bir-birilə əlaqəsini, bir janrın elementinin digər janrlara üzvi olaraq inteqrasiyasını, qarşılıqlı əlaqə zamanı publisistikanın zənginləşməsini, dinamikliyi, dinləyici ilə ünsiyyət səviyyəsinin qurulmasını önə çəkib [166, s.104]. Ölkəsinin təcrübəsini dünya radiopublisistikasına nümunə sayan rus alimi sovet radiojurnalistikasının öz auditoriyası ilə janr ünsiyyəti sahəsində böyük nailiyyət əldə etdiyi fikrindədir: "*Sənədli-bədii radiopublisistikanın peşəkarları yerli yayımın qızıl fondunu təşkil edən parlaq mükəmməl əsərlər yaratmışla*r" [168, s. 36].

Audiopublisistikanın radiojurnalistikanın janrları əsasında inkişafı, qəzet publisistikasından, ədəbiyyata xas olan publisistik ünsürlərdən ehtiva etdiyi məqamlar, bədii publisistika ilə oxşar və fərqli cəhətləri, efir özəllikləri ilə bağlı Azərbaycanda boşluq var. Ədəbiyyatımızın tanınmış əksər söz sahiblərinin Azərbaycan radiosundakı ilk qələm təcrübəsi, onların radiopublisistik fəaliyyəti, dövrün-zamanın tələblərinə uyğun çıxışları tədqiqat predmeti olaraq dərindən öyrənilərsə, radiojurnalistikanın və radiopublisistikanın tarixinə aid sanballı əsərlər meydana gələr.

Bu gün mətbuatın tarixini öyrənmək üçün təkcə yazıçıların deyil, radioda qələm işlədən ünlü simaların publisistik fəaliyyəti də araşdırılmalıdır. Radioda bədii publisistikanın əsasını qoyan M.S.Ordubadinin radiopublisistikası tam mahiyyəti ilə öyrənilməyib. Onunla birgə çalışdığı söz sahiblərinin və yaxud ayrı-ayrı dövrlərdə radioda ədəbi nümunələri ilə seçilən qələm fədailərinin hər hansı bir əsərinə elmi nöqteyi nəzərdən baxılmayıb.

Azərbaycan radiosunda M.S.Ordubadi o dövrdə öz ətrafına görkəmli ədibləri toplamışdı. C.Cabbarlı, H.Cavid, M.Müşfiq, S.Hüseyn, S.Vurğun, S.Rüstəm, M.Rahim, M.Hüseyn, S.Rəhman, M.Paşayev kimi nasir və şairlər çalışırdılar. M.Ə.Sabir, Ü.Hacıbəyov, C.Məmmədquluzadə, Y.V.Çəmənzəminli, Ə.Cavad, R.Rza, S.Rəhman, İ.Əfəndiyev, B.Vahabzadə, İ.Şıxlı, S.Dağlı, S.Qədirzadə, İ.Hüseynov, Anar, Elçin, H.Seyidbəyli, İ.Qasımov, İ.Məlikzadə və digər ədəbiyyat nümayəndələrinin xidmətləri geniş təhlil olunmalı, Azərvbaycan Radiosunun

"Qızıl fond"unda mühafizə olunan 100 mindən artıq səs (veriliş) elmin bütün istiqamətlərində tədqiqat obyektinə çevrilməlidir.

Azərbaycanda radio tarixi XX əsrin 60-cı illərindən öyrənilir. Radio jurnalistikası nəzəriyyəsinin əsasını qoyan prof. T.Rüstəmov tədqiqatlarında nəzəriyyə ilə praktikanı ustalıqla birləşdirə bilib [102, s.190]. Bu, onun efir yaradıcılığına dərindən bələd olması ilə bağlıdır. 1975-ci ildə nəşr olunmuş "Ədəbi redaktənin əsasları" adlı kitabında redaktənin əhəmiyyəti, mətnlərin dinləyici auditoriyasına səmərəli təsirini təmin etməli olan yaradıcılıq prosesi olduğu qeyd edilir [103, s. 5].

Prof. F.Mehdi "Bədii publisistika" kitabında publisistikanın üç növündən biri haqqında bədii publisistikanın məziyyətlərindən geniş bəhs edib. Kitabda əsasən qəzet, radio və televiziya verilişlərinə istinad olunub. Çoxlu sayda nümunənin yer aldığı bu kitabda satiraya aid cəmi bir nümunədən qısa söhbət açılır. Halbuki radioda söz sənətinə vurğunluq bədii publisistikanın ən gözəl nümunələrinin yaranmasına səbəb olub. Tədqiqatçının fikrincə, "*Yumor axşamı" verilişinin tipik qəhrəmanı Rəfi obrazı publisistin uğurlu tapıntısıdı*r [67, s.111]. Müəllif radiosatiranın fonunda publisistik yaradıcılığın geniş imkanlarından danışaraq, onun mətbuatda da geniş işlənməsini zəruri sayıb. Bügünkü dövrdə isə satiraya nəinki mətbuatda, elə radio yaradıcılığında da çox nadir hallarda müraciət olunur.

Radionun sənədli olması o demək deyil ki, faktlar quru-quru, heç bir şərhsiz, təhlilsiz, jurnalist mövqeyi olmadan (xəbərlərə müdaxilə olmaz) auditoriyaya ötürülməlidir. Xəbər saatlarında eşidilən fakt və hadisələrə digər proqramlarda da münasibət olmalıdır. Radioda informasiya quruca faktları çatdırırsa, publisistika bu faktın mahiyyətini açır [78, s. 245].

Prof. Q.Məhərrəmli gerçəkliyi əks etdirən xəbərə münasibətin ictimai faktın mahiyyətini ortaya qoyduğunu qabardır. "*Bu zaman mahiyyət publisistikanı elmə yaxınlaşdırır, obraz isə onu incəsənətlə birləşdirir. Faktların danılmaz gücünə, cazibəsinə əsaslanan, ədəbi-bədii vasitələrlə açan publisistika dərhal dinləyicinin diqqətini cəlb edir və onu müəllifin mövqeyində durmağa, hər hansı məsələdə onunla həmfikir olmağa inandırır. Çünki bütün hallarda dinləyiciyə emosional*

*təsir göstərən seçilmiş forma deyil, jurnalistin bu formadan öz məqsədi üçün necə istifadə etməsidir*" [78, s. 246].

Gercəkliyin bədii inikasının bir çox sahələrində publisistik üslubdan geniş istifadə olunmasını məqbul sayan alim radiopublisistikada onun əvəzedilməzliyini radio sənətinin geniş janr diapazonu ilə əlaqələndirir. Reportyorun faktlara publisistik baxışı, xarakterlərin bədii təsviri, publisistikanın bütün imkanlarından maksimum istifadə "şəkilli təsvir" yaxşı veriliş üçün əsas şərtdir [156, s.18].

Radiopublisistika dilinin funksional-üslub diferensiasiyası prof. N.Xudiyevin "Radio, Televiziya və Ədəbi dil" əsərində təhlilə cəlb olunub [44, s. 149]. Alim radio dilinin publisistik (informativ publisisitik dil, bədii publisistik dil və elmi publisistik dil), bədii, elmi, rəsmi, məişət dili olduğunu və radiopublisistikanın zənginləşməsini publisistik dilin inkişafı ilə əlaqələndirib.

Müasir efir təcrübəsində yayımın formalarını araşdırmaq, radioproqramların təsnifatı və onların tipologiyasını müəyyənləşdirmək radiojurnalistika nəzəriyyəsinin ən az tədqiq olunan mürəkkəb problemlərindən biridir.

Audiopublisistikada ifadə vasitələri mövzunun açılmasına və jurnalistin fikrinin daha dolğun tamamlanmasına xidmət edən əsas amil hesab olunur. Deyilən sözün ekvivalenti kimi səslənən digər bir element hadisənin mahiyyətini təfərrüatı ilə üzə çıxarır [164, s.15]. Bütün səs vasitələri sözün aparıcı rol oynadığı akustik bütövlüyün tərkib hissəsidir. Hərçənd qeyd etmək lazımdır ki, radioоçerk, radiokompozisiya kimi sənədli bədii janrlarda musiqi və küy səslər yalnız köməkçi deyil, sərbəst funksiya da daşıya bilər. Belə olan halda onlar mövzunun, ideyanın məna və emosional cəhətdən açılmasında kömək edir [158, s.34; 167, s.62-65]

Radionun uzunömürlü verilişlərindən biri olan "Bulaq" verilişinin yaradıcısı Mövlud Süleymanlı 60-cı illərin sonunda müsahibə ərəfəsində otaqdakı bülbüllərin səsini lentə alıb [64]. Onun vətən mövzusunda, Güney Azərbaycanı ilə bağlı söhbəti həmin bülbüllərin səsi ilə daha təsirli alınıb. Jurnalistin müsahibi ilə üstörtülü sözlərini məhz bülbülün oxuduğu "ah-nalə" kəsərli edib. O zaman radionun rəhbəri, yazıçı Cəmil Əlibəyov və bir çox söz sahibləri hadisənin mahiyyətinə ciddi yanaşıb. Sözün kəsərini ifadə vasitələri ilə artırmağın

mümkünlüyünün yaradıcılıqda tətbiqi bir qədər də genişlənib. Nəticədə “Bulaq” verilişinin əsası qoyulub. “*Çoxsaylı dinləyiciləri heyrətə gətirən bu verilişin yarandığı vaxtda radio bütün gücü ilə sovet təbliğat maşını rolunu oynayırdı. Xalqın canlı danışıq dili el-obanın içindən kənara çıxa, o cümlədən efirə yol tapa bilmirdi. Xalqla onun öz dilində danışmağa çoxlarının cəsarəti çatmırdı...*” [73]. 1969-cu ildən bu günə kimi bazar günləri milli radioda səslənən “Bulaq” verilişinin hər bir buraxılışı maraqlı faktlarla zəngin radiopublisistika nümunəsi hesab edilir.

Radio sənəti audiopublisistikada elmi fikirlərin tətbiqi, efir əməkdaşlarının peşə səviyyəsi, jurnalist sənətkarlığının xarakterik əlamətləri və ifadə vasitələrinin sintezi məsələləri ilə bağlı ayrı-ayrı illərdə lentə yazılan bir neçə verilişin hazırlanması prosesini nəzərdən keçirək. 1956-cı ildə radionun musiqi redaksiyasında hazırlanmış “Dənizdə gəzinti” film-konserti bir qrup sənətkarın gəmi səyahəti haqqındadır. 57 dəqiqə ərzində maraqlı ssenari əsasında qurulan musiqili proqramda ifadə vasitələrindən ustalıqla istifadə edilib.

Süjet xəttinə görə Azərbaycan aktyorları Xəzərdə Dağıstan gəmisi ilə səyahətə çıxır. Veriliş xalq artisti Gülağa Məmmədovun dənizə aid oxuduğu nəğmə ilə başlayır və eyni sonluqla bitir. Mahnı xüsusu olaraq bu veriliş üşün yazıldığından radionun musiqi redaksiyasının kataloqunda və digər mənbələrdə saxlanılmayıb. Təkcə bu filmdə rast gəlinir. Musiqidən dərhal sonra diktorun səsi eşidilir:

Diktor: (Məxluqə Sadıxova) “Bakının gözəl xoş bir səhəridir: Sahil prospektində limana xas olan bir canlanma var. Şəhər çoxdan oyansa da, Xəzər hələ mışıl-mışıl, şirin-şirin uyuyur. Günəşin şüaları şəhərin tikilməkdə olan yeni binaları üzərinə işıq salır...” .

Diktor: “Bu səhər Dağıstan gəmisinin göyərtəsində sərnişinlərlə bir yerdə Azərbaycan müğənniləri Sara Qədimova, Rəşid Behbudov, Gülağa Məmmədov və başqaları dəniz səyahətinə çıxırlar. Onlar Mahaçkalanı, Həştərxanı, Krasnovodskini, Astaranı, Lənkəranı gəzib Bakıya qayıdacaqlar.” .

Diktorun bu sözlərindən sonra gəminin fit səsi eşidilir və limandakı insan səsləri bir-birinə qarışır... Bir neçə saniyədən sonra gəminin dalğaları yardığı səs

lapaydın hiss olunur. 10 saniyə ərzində diktorun danışığı ilə işlənən səs effektləri uyğunluq təşkil edir.

Diktor: “Dağıstan gəmisi hələ də yuxulu olan Xəzərin sularını yarıb keçir. Yavaş-yavaş körpüdən uzaqlaşır. Mahaçkala tərəfə üz tutur” .

Fonda eşidilən gəminin suları yarması səsi musiqi ilə qarışır. Dəqiqə yarım Tofiq Quliyevin “Vals”ı səslənir və yenidən əvvəlki səs birinci plana keçir.

Diktor: “Gəmi sahidən uzaqlaşdıqca hökumət evi daha uca, şəhər daha geniş, daha qüdrətli görkəm alır. Dağüstü park, gəmilər, nəhəng zavodlar, dənizdə ucalan saysız-hesabsız buruqlar və bütün bu mənzərəni seyr edən sərnişinlərin qəlbində vüqar hissi coşub qaynayır. Kimi şeir deyir, kimi heyrətlə susur, kimi mahnı oxuyur....”.

Bu an fondan Rəşid Behbudovun “eheyyyy” səsi eşidlir, diktorun sözünün qurtaran anında “Bakı” mahnısının sözləri ilə davam edir. Rejissor müğənninin gəmidən oxuduğunu bildirmək üçün həm əvvəldə, həm də sonda musiqini dalğaların səsi ilə qarışdırır. Dənizin sədası fonunda diktor sözünə davam edir.

Diktor: “Şəhər get-gedə gözdən itir. Hər tərəf dənizdir. Bayaqdan Xəzərin suları günəş işığında bərq vururdu, indi isə sərin meh əsir. Dəniz yeli sərnişinlərin ruhunu oxşayır...”.

Səs (qadın): “Yoldaşlar ora baxın, görün qayıqlar nə qəşəng görünürlər...”

Səs (kişi): “Balıqçılardır...”

Səs (qadın): “Bəs niyə onlar haqqında az mahnı yazırlar...”

Səs (kişi): “Bu doğrudan da çox təəccüblüdür. İgidlik desən Xəzər balıqçılarında, özləri də çox namusla işləyirlər. Xəzər kimi coşqun bir dənizlə çarpışıb əlbəyaxa olurlar...”

Səs (qadın): “Belə adamlar haqqında nəinki mahnı, simfoniyalar yazılmalı, filmlər çəkilməlidir. İndi qulaq asın, mən onlar üçün Andrey Babayevin “Pıçıldaşın ləpələr” mahnısını oxuyacam. Bəlkə səsimi eşitdilər...”

Səs (kişi): “Buyurun Sara xanım. Sizdə mikrofon var. Bu dəqiqə sizin səsinizi gücləndirib, onlara çatdırarıq...”

Səs (qadın): “Çox sağolun, yoldaş kapitan...”

Sara Qədimovanın ifası səslənir. Balıqçılara həsr olunmuş nəğmə tapmaqda çətinlik çəkən rejissor dənizdəki buruqların qurulmasında əməyi olan insanların rəşadəti haqqında yazılmış musiqi ilə proqramı davam etdirir. Mahnıda deyilir ki, "...üç gecədir, mənim ömür yoldaşım, buruq qazır qucağında dənizin...".

Diktor: "Dağıstan gəmisi öz yoluna davam edir. Gəminin kənarında ağ qağayılar uçuşur. Onlar qıy vrurub göyün dərinliklərindən dənizə cumur, caynaqları ilə suyu yarıb, yenidən havalanırlar..."

Səs (kişi): "Qağayılar bizi salamlayır. Deməli sahil yaxındadır..."

Gəmidən səs eşidilir: "Mahaçkala..."

10 saniyə ərzində yenə müxtəlif insan səsləri, musiqi parçası...

Diktor: "Dağıstan gəmisi paytaxt Mahaçkala limanına daxil olur. Sahildən qonaqçıl dağıstanlılar əllərini yelləyib gəmini salamlayırlar. Körpüdə qonaqları Dağıstan artistləri qarşılayır..."

Səslər: "Xoş gəlmisiniz..."

Səs: "Lap vaxtında gəlmisiniz. Bu saat mahnı və rəqs ansamblı parkda konsert verir. Gedək qulaq asaq..."

Səslər: "Gedək..."

Qısa keçid musiqi səslənir.

Diktor: "Yaşıl dağların əhatəsində yerləşən Mahaçkala nə qədər səfalıdır. Abad küçələr, xiyabanlar, yaşıl parklar. Azərbaycanlı qonaqların qarşısındakı stollara Dağıstan bağlarının şirin meyvələri düzülmüşdür...". Alqış sədaları səslənir.

Ləzgi xalq mahnısı "Ay Dilbər", balabançılar dəstəsinin ifa etdiyi "Qaytağı" gurultulu alqışlarla qarşılanır. Qonaqlar konsertə görə təşəkkürünü bildirir və onları da Bakıya dəvət edirlər.

Yenidən gəminin yola düşdüyü anın təsviri yaradılır. Fitin səsi, dalğaların yarılması həzin musiqi sədalarına qarışır.

Diktor: "Dağıstan gəmisi Həştərxana tərəf üz tutmuşdur. Sərnişinlərin çoxu şirin yuxudadır. Lakin elə sərnişinlər də var ki, yolda onların gözlərinə yuxu getmir. Budur onlar göyərtədə dayanıb səhərin açılmasını seyr edirlər (pauza).

Üfüq al-qırmızı rəngə boyanmışdır. Buludlar rəngdən-rəngə düşməyə başlayır. Üfüq daha da od tutub yanır və nəhayət sanki dənizin dibindən boylanan günəş çırtlayıb yandırır, dənizi al-qırmızı rəngə boyayırdı. Günəş Xəzərdən aralanıb ucaldıqca dəniz üzərində qızıl kimi parlaq yol salır".

Səslənən rus musiqisi gəminin Rusiya sahillərinə çatdığını işarə verir.

Diktor: "Bayaqdan rəngdən-rəngə düşən təbiət öz adi şəkilini alır. Külək ged-gedə güclənir, Xəzər coşur, nəhəng dalğalar gəmiyə çırpılır, saysız hesabsız şaffaf damcılar ətrafa səpələnir...". Rus mahnısı davam edir.

Göyərtədə olan insanların dialoqu səslənir. Sərnişinlər gəmidə Bakı radiosuna qulaq asırlar. Dağıstan gəmisi Volqa sahillərinə yan alır. Çayın Xəzərə töküldüyü mənzərə ustalıqla vəsf olunur. Həştərxanda rus xorunun konsertini dinləyirlər. Krasnovodsk limanında sahil kranları ilə gəmilərin yüklənməsi və boşaldılması anları, Bakıdan yanacaq daşıyan tankerlər, sahildə bakılı qonaqların qarşılanma səhnəsi və türkmən melodiyalarının səslənməsi, eyni zamanda Azərbaycan sənətçilərinin də ifası məharətlə təsvir edilib.

Gəminin Astaraya çatması, rayonun heyrətamiz gözəlliyi, sitrus bağları, Lənkəranın sapsarı limon meşələri və s. səhnələri redaktorun bədii publisistika elementləri ilə əks olunub. "*Ədəbiyyatdan fərqli olaraq süjetin sənədli olması, real faktlar əsasında qurulması radiopublisistikanın əsas mahiyyətini xarakterizə edir*" [169, s.5].

Rejissor redaktorun qələmə aldığı bütün səhnələri olduğu kimi canlandırıb. Onun mətnə uyğun seçdiyi bütün ifadə vasitələri filmin təsir gücünü artırır və qavrama prosesini asanlaşdırır. Rusiya tədqiqatçısı N.A.Qaaqın düşündüyü kimi "*radio jurnalistləri, rejissorlar, diktorlar, onların hamısı bir proqramın müəllifi hesab olunurlar*" [130, s.28]. Dinləyici özünü gəmidə təsəvvür edir. Səyahətə çıxmış insanların arasında olduğunu hiss edir. Səhərin yer üzünü işıqlandırdığı məqamları, sübh şəfəqinin doğulduğu anları və sonsuz görünən dəniz səhraları gözlərini qamaşdırır, aylı gecənin sərin mehinin xəfif titrəyişi çöhrəsinə toxunur. Başının üstündəki ağ bulud karvanını, iri damcıların göyərtəyə səpələnməsini, nəhəng dalğaların gəminin divalarına çırpılmasını nəinki sözdən,

həm də təbiətin səsindən duyur. Bütün bu işlənən əlavə effektlər filmin yaradıcı heyətinin, rejissorun, səs operatorunun və musiqi tərtibatçısının mətnə qoşduğu əlavə improvizasiyalar nəticəsində reallaşır.

Musiqi tərtibatçısının mətnə uyğun seçdiyi mahnıların əksəriyyətində Xəzər, dəniz mövzusu əsas diqqət çəkir. Qəmbər Hüseynlinin “Ay işığı”nda nəğməsi isə redaktorun vəsf etdiyi gecənin işartısı üçün düşünülüb.

“İctimai-siyasi proqramlar” redaksiyasının işində də sənətkarlıq xüsusiyyətləri əsasdır. “İctimai-siyasi proqramlar” redaksiyasının ayrı-ayrı bölgələrə ezam edilmiş əməkdaşların hazırladıqları materialları sənətkarlıq cəhətdən təhlil edək.

İlk tədqiqat predmetimiz, 40 il əvvəl Azərbaycanda gedən tikinti quruculuq işlərinin canlı şahidi olan, nəhəng su qurğularının tikintisindən, Araz çayı üzərində qonşu İran dövləti ilə birgə inşa olunan su elektrik stansiyasının, Bakıya çəkilən Kür çayının və Şamxor (Şəmkir) su elektrik stansiyasının quruculuğundan reportajlar hazırlayan İlyas Adıgözəllinin 1976-cı ildə lentə aldığı silsilə süjetlərdir.

Diktor: “Sement verin, beton tökün...” - müxbirimiz İlyas Adıgözəlovun Şamxor su elektrik stansiyasının tikintisindən birinci reportajı... Qısa keçid musiqisindən sonra İlyas Adıgözəllinin səsi eşidilr. “Bu yerlərdə Azərbaycanın Gürcüstanla sərhədi yaxınlığında Kür çox narahat axır. Bəlkə də burada olanlar ona “Dəli Kür” deməkdə yanılmırlar. Xüsusən son vaxtlar güclü yağışlardan sonra Ana Kür aşıb daşır, sellər-sular insan iradəsinə tabe olmaq istəmir. Böyük şairimiz Səməd Vurğun deyir ki, “...Sellər, sular qudurmasın! Qurğumuzu uçurmasın! Qayaları sökün! Sökün! Sement verin! Beton tökün! Gənc nəsil Mingəçevir bəndinin qurulması haqqında kitablardan oxumuş, inşaatçı qəhrəmanlardan eşitmiş, söz ustalarımızın ilhamlı misralarından öyrənimişdir. Mingəçevir kimi nəhəng tikintilərin nə demək olduğunu, necə qurulduğunu isə bu gün öz gözləri ilə görür.

Şamxor su elektrik stansiyasının nəhəng inşaat meydançası bunun aydın təcəssümüdür. Tikintidə əl verib dost olduğum ekskavatorun sürücüsü, mühəndis və inşaatçı sanki “Muğan” poemasının qəhrəmanları ilə şəxsi görüşüm idi. Bu insanlar bir ildir ki, burada çalışırlar. Suyu cilovlamaq üçün böyük işlər görür,

çınqıl daşıyır, beton tökür, ev tikirlər. Nəhəng inşaat meydançasında bələdçimiz təcrübəli mühəndis, sahə rəisi Bəşir Quliyevdir. İndi Kürün sahilində dayandığımız yerdən geniş mənzərə açılır. Ekskavatorlar, buldozerlər aramsız işləyirlər...".

Müxbirin söhbətindən sonra çıxışçı Bəşir Quliyev inşaat haqqında qısa məlumat verir və özünün tikinitiyə gəlişindən söhbət açır. Sonra süjet dəyişir. 27 tonluq nəhəng çınqıl daşıyan maşının sükanı arxasında əyləşən sürücü ilə yanaşı oturan müxbirin radio müsahibəsi səslənir. Bu süjet su elektrik stansiyasının tikintisindən birbaşa yazılan reportajdır. Hadisə məkanından hazırlanmış lentdir. Müəllif ictimai-siyasi əhəmiyyət kəsb edən ölkə iqtisadiyyatı üçün gərəkli, böyük bir məsələni işıqlandırır, Azərbaycanın həyatında önəmli yer tutan bir hadisənin reallaşmasını sözlə təsvir edir.

Mövzunu dəyərləndirən əsas amillərdən biri süjetin tikintinin getdiyi yerdən hazırlanmasıdır. Süjetdə tikintinin səsi əks olunur. Bu qarışıq səslərin içərisində insan səsinin təmiz, reportyora aydın yazılışı müxbirdən xüsusi ustalıq tələb edir. Adətən məlumdur ki, ekskavatorlar, traktorlar işləyən yerdə, onların gur səsindən ağız deyəni qulaq eşitmir. Süjetdə isə müəllif sürücünün yanında əyləşib onunla iş başında olduğu məqamda söhbətləşir. Dinləyici traktorun səsini aydın eşidir və gözləri önündə həmin mənzərəni canlandırır. "...Səhərdən tikinti sahəsini gəzirsiniz. Dayandığımız yer əsas bəndin özüdür, Kürün sol sahilidir..." - deyən çıxışçının sözləri hətta müxbirlə meydançanın hansı yerində dayandıqları barədə də auditoriyada təsəvvür yaradır [234].

Süjetdə jurnalistin ustalığına bir neçə istiqamətdən baxmaq mümkündür. Burada radio yaradıcılığı üçün tələb olunan bir neçə amilə xüsusi fikir verilib. Radiopublisistika üçün mühüm əhəmiyyət kəsb edən "sənədlilik" prinsipinə uyğun olaraq, səs-küylər, tikintinin fon səsləri tamamilə reallığa uyğundur. Dinləyici traktoru eşidir, onu sürənin danışığına qulaq asır və əhalinin içməli su ehtuyatının yaradılması istiqamətində görülən bu işi yüksək əhval-ruhiyyə ilə dinləyir. O, radiodan eşitdiyi xəbərin gərəkli olduğunu düşünür. Daha doğrusu süjetin müəllifi onu real faktlarla inandırmağa müvəffəq olur.

Digər məqamlar, məsələn, traktorun səsinin necə yazıldığı dinləyici üçün önəmli deyil. Bu, jurnalistin auditoriyadan sirr saxladığı fərdi peşə xüsusiyyətidir. Radiopublisistikanın yaradıcılıq formalarından biridr. Məsafədən yazılan səs effektinin (traktorun səsi) çıxışçının səsinin alt fonunda işlənməsi mexanizmidir. Həqiqətən traktor işləyən yerdə radio üçün səs lentə almaq mümkün deyil. Reportyor hər iki səsi yüksək keyfiyyətlə götürdüyündən təbii ki, insan səsi texnikanın gur səsi içərisində eşidilməz olacaq. Ancaq süjetin efir emalı zamanı ayrıca yazılan səsin aşağı fonda çıxışçının səsinin altından işlənməsi mövzuya xüsusi effekt verir. Yaxud müxbir müsahibi ilə tikinti meydançasından bir qədər kənarda və uzaqdan eşidilən traktor səsinin sədaları altında söhbət edir. Bu iki haldan hansının istifadə edilməsinə baxmayaraq, reportaj hadisə yerindən alındığı üçün maraqlı, inandırıcı, həm də dövrün nəbzini tutduğu üçün gərəkli hesab olunur.

İlyas Adıgözəlli o dövrləri belə xatırlayır: "*...60-cı illərdə radioda belə bir qayda var idi. Məsələn, redaktora redaksiyadan Leytenant Şmit adına maşınqayırma zavodundan reportaj hazrlamaq tapşırılırdı. Müxbir zavoda gedib, lazım olan insanlarla görüşür, münasib bildiyi çıxışçıları seçir və sakit bir yerdə, boş otaqda səslərini lentə, reportyora yazırdı. Sonra sexləri gəzir, zavoddakı dəzgahların səsini lentə alırdı. Topladığı səsləri radioya gətirirdi. Əvvəlcə çıxışlar montaj olunur, səs operatorları tərəfindən təmizlənirdi. Daha sonra isə bütün səslər bir-birinə uyğunlaşdırılırdı.*" [234; 244].

Ötən illərdə yazılmış verilişlər tarixi dövrlərə aid canlı səs salnaməsidir. Zaman-zaman həmin səslər yenidən emal edilərək dövrə uyğunlaşdırılır və hər hansı məsələnin işıqlandırılması zamanı istifadə olunur. Məsələn, radionun 80 illik yubileyi ilə bağlı fondun silsilə verilişlərindən bəzilərinə nəzər salaq. İlk veriliş əmək qəhrəmanları haqqındadır. Verilişdə müsahibələrin illər sonra yenidən səslənməsi birinci növbədə tarixi məqamların açılması baxımından qiymətlidir. Eyni proqramda müxtəlif cəbhələrdə külüng döyən insanların peşə fəaliyyətindən söz açılması həm də mövzu rəngarəngliyi yaradır.

Neft Daşlarının qurucularından biri olan, dənizdə müxtəlif neft qurğularının tikintisində çalışan Sosialist Əməyi Qəhrəmanı Xanoğlan Bayramovun radio müsahibəsi neft sənayesinin tarixinə aid sənədli səs yazısıdır. Müsahibə buruqların arasında yazılıb. 53 il bu sahədə çalışan neftçinin öz peşəsinə, xüsusilə Xəzərə olan sevgisindən bəhs olunur.

Xanoğlan Bayramovun səsi: "Gənc yaşlarımdan "Neft Daşları"nda işləyirəm. "Neft Daşları"nın çox hissəsinin tikintisində iştirak etmişəm. Xəzərin dərinliyində 45 metr meydança ancaq mənə tapşırıldı. Çox dərin idi. Tikə bilmirdilər, mənə verdilər. Öhdəsindən gəldim. Hazırda "28 may", "Günəşli" adlanan bir yerdə meydança saldım. Birinci meydançanı 84 metr suyun dərinliyində mən qurmuşam. Üç ay dənizdə oldum. Layihə smeta sənədini tərtib edən Haciyev İmranla çiyin-çiyinə işləyib, başa çatdırdıq. Sonra İsrafil Hüseynov orda quyu qazıb. Mənə deyərdi ki, Xanoğlan zəhmət çəkdin, hədər getmədi, mən də gəlib orda iş gördüm, Sosialist Əməyi Qəhrəmanı adına sahib oldum. Mən 1958-ci il Sosialist Əməyi Qəhrəmanı adını alanda 25 yaşım hələ tamam deyildi. Oktyabrın 20-dən, 1949-cu ildən mənim "Neft Daşları"nda fəaliyyətim başlayıb. 1999-cu il oktyabrın 20-də 50 illiyimiz qeyd olundu və yubiley tədbirində prezidentimiz Heydər Əliyev də iştirak etdi." [234].

Radiopublisistikanın özəlliyi də bundadır ki, yaradıcılıq prosesində hər bir səs yazılışı zamanı fərdi keyfiyyətlər hiss edilsin. Əks təqdirdə eyni suallarla müsahiblərə üz tutan jurnalistlərin efir yolu qapanırdı. İctimai-siyasi əhəmiyyətli mövzuları işıqlandırmaq istəyən jurnalist mövzuya əvvəlcədən bələd olduqdan sonra ezam olunduğu obyektə yola düşməli idi.

Verilişdə əməkçilərdən alınmış müsahibələr redaktorun əməyi ilə hasil olunur. Bu radioda verilişin ərsəyə gəlməsinin birinci mərhələsidir. İkinci mərhələdə səs operatorları tərəfindən müsahibələr montaj olunur və sonuncu proses zamanı, yəni əsas mərhələdə məsuliyyət rejissorun üzərinə düşür. Rejissor yaradıcılığı ilə müsahibələrə rəng qatmalıdır. Veriliş üçün ayrılan efir vaxtına görə musiqilər tapılmalı, mövzuya uyğun tərtibat olmalıdır. Rejissor təkbaşına deyil, musiqi tərtibatçısı və səs operatoru ilə birgə çalışır. Əgər neftçidən alınmış

müsahibənin dənizdən yazılması süjetdə hiss edilmirsə, onda fon musiqisi çıxışa əlavə olunmalıdır. Bu işin öhdəsindən müxbir məharətlə gəlibsə, özüylə dənizdən əlavə səslər gətiribsə, onda rejissorun işi rahatlaşır. Əlavə səslər yoxdursa, rejissor tərəfindən həmin səs effektləri axtarılmalıdır.

Audiopublisistikada mənasız və uzun çıxışlar çox vaxt auditoriya tərəfindən sona qədər dinlənilmir. Azərbaycan radiosunun "Qızıl fond"unda saxlanılan "Xalqa bağışlanan ömür" adlı verilişin quruluşunu təhlil edək. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişinin 30 illiyinə həsr olunan veriliş siyasətçinin həyat və fəaliyyəti haqqında yazılan müəllif proqramıdır. 33 dəqiqəlik verilişdə ancaq müəllifin özü danışır. Qadın diktor verilişin adını elan edir. Bir neçə saniyə Heydər Əliyevin səsi eşidilir və qısa keçid musiqisindən sonra müəllifin söhbəti başlayır. Qarşıdakı dəqiqələrdə jurnalist Ulu Öndərin həyat yoluna, siyasi fəaliyyətinə işıq salır, həyata keçirdiyi islahatlardan söhbət açır. Azərbaycan radiosunun səs arxivində Heydər Əliyevin bütün çıxışları olsa da, bu verilişdə mövzu ilə bağlı Milli Liderin səsindən istifadə edilmir. Məsələn "Əsrin müqaviləsi"ndən danışan müxbir Heydər Əliyevin həmin tarixi gündə yazılmış çıxışından bəzi məqamları verilişə əlavə edə bilərdi. Eyni ilə digər siyasi mövzularda da fraqmentlərdən istifadə nəzərdə tutulmayıb. 33 dəqiqə quru söhbəti dinləmək elə də asan deyil. Ulu Öndər haqqında yazılmış nəğmələrdən bir-ikisinin səslənməsi verilişin maraqlı olmasını təmin edərdi. Mətn səsi rəvan olan bir aparıcıya təqdim olunsaydı, musiqilərlə bəzənsə və tez-tez fenomen şəxsiyyətin səsi eşidilsəydi, o zaman sənətkarlıq xüsusiyyətlərindən danışmağa dəyərdi.

İctimai-siyasi verilişlərin işlənilməsi zamanı "radionun ifadə vasitələri"ndən yerində istifadə və süjetlərin bir-birindən ayrılması zamanı oynaq keçidlərin olması, musiqili müşayiət mütləqdir. Müstəqillik illərində Azərbaycan radiosunun efirində səslənən "Respublika" analitik proqramının efir tərtibatına diqqət yetirək. Hər həftənin cümə günü saat 12.00-dən 13.00-dək dinləyicilərə təqdim olunan bir saatlıq proqram gecə 2-3 arası Araz radiosuyla təkrarlanıb. Bu verilişdə həftənin aktual, ölkə üçün əhəmiyyətli hadisələri işıqlandırılıb. Bir neçə redaktorun radioqeydləri əsasında qurulan proqramın əsas süjet xətti bir müəllif tərəfindən

yazılır. Proqramda onun tapşırıqları əsasında işlənmiş süjetlər əks olunur. Veriliş aparıcının qısa salamlaşması və özünün təqdimatı ilə başlayır. Dərhal da eşidiləcək süjetlərin anonsu səslənir. Musiqi ilə müşayət olunan dəqiqə yarımlıq hissədən sonra ardıcıl süjetlərə yer verilir.

Birinci süjetdə "prezidentin iş həftəsi"ndə ölkə başçısının fəaliyyəti təhlil olunur. Bu barədə aparıcının özü danışır. İkinci anons edilən hadisə, məsələn, AŞPA nümayəndə heyətinin respublikaya gəlişi ilə bağlı hazırlanmış süjetdə səfərin məqsədi, keçirilən görüşlər, aparılan danışıqlar və nəticə barədə dinləyiciyə ətraflı məlumat verilir. Digər mövzularla, məsələn, beynəlxalq tədbirdən qayıdan Azərbaycan alimi, ağ ölüm-narkomaniya haqqında süjetlərlə proqram davam etdirilir. Bir saat müddətində verilişdə beş və ya altı mühüm hadisəyə fərqli radiojurnalist mövqeyi nümayiş olunur.

Dinləyicinin "Xəbərlər" proqramından eşitdiyi hadisələr geniş mənada izah edilir. Məsələn kənd təsərrüfatının inkişafı ilə bağlı verilən fərman haqqında daha geniş informasiya "Respublika" analitik proqramında ətraflı şərh olunur. Verilişin strukturuna gəlincə, müxtəlif səs elementləri, keçid musiqiləri, rəngarəng mövzular, ayrı-ayrı müəlliflərin çıxışları, prezidentin fəaliyyətini şərh edən analitikin söhbəti, radiopublisistikanın sənədlilik xüsusiyyətinin canlı bariz nümunəsi olan müsahib səslərinin verilişə daxil edilməsi və s. ünsürlər verilişin xarakterik əlamətləridir. Toxunulan mövzuların faktlar əsasında işlənməsi, az sözlə daha məzmunlu mətn yazmaq bacarığı, müsahiblərin çıxışlarından lazımi məqamların götürülməsi, bir anın içində dinləyicinin marağını oyatmaq, qulağına nə isə pıçıldamaq ustalığı proqramın auditoriyada reytinq qazanmasının vacib şərtləridir.

2006-cı ildə radionun "İctimai-siyasi proqramlar" redaksiyasında saat 12.00-dan 14.00-dək iki saatlıq "Əhatə" proqramı canlı yayımlanırdı. Həm respublika, həm də beynəlxalq əhəmiyyətli hadisələrə nəzər salınan bu proqramın işlənmə mexanizmi digərlərindən efir tərtibatına görə fərqlənirdi. Burada iki aparıcının, qadın və kişi səsinin olması, aparıcı səslərinin bir-birinə uyarlığı, hər ikisinin rəsmi danışıq tonu, savadlı oxu tərzi hiss olunub. 10-ya yaxın müxtəlif mövzuda süjet

hazırlanıb. Süjetlərin ardıcıllığı nizamlı qaydada səsləndirilib. Məsələn kişi səsində olan süjetin təqdimatını qadın aparıcı elan edir, qarşıdakı dəqiqələrdə də eyni prinsipə diqqət yetirilirdi. Prof. A.Dadaşovun sözləri ilə desək, *"radio estetikasına uyğun gələn diktor dueti mətn imkanlarının genişləndirilməsinə şərait yaradırdı*" [19, s.19].

Qadın və kişi səslərinin nəinki bir proqramda, eyni zamanda radio setkasında bir-birini izləməsi proqram tərtibatında da nəzərə alınır. Hətta konsertlərdə qadın diktorun kişi sənətçilərini elan etməsi səs rəngarəngliyi üçün ideal seçim sayılır. Və yaxud əksinə, kişi səsində elan verilir ki, "oxuyur, respublikanın xalq artisti Zeynəb Xanlarova". Danışıq palitrası baxımından diktorun səsinin növbəti səslə fərqlilik təşkil etməsi estetik xüsusiyyətlərdən biridir. "Əhatə" proqramında iki süjetdən sonra musiqi nömrələri səslənirdi. İşlənən musiqi nömrələrinin ümumi dəqiqələri ilə verilən informasiyanın çəkisi eyni tutuma mailk olmalı, veriliş boyu bərabər paylanmalı idi. Dinləyici iki saatda vaxtın necə keçdiyinin fərqinə varmadan, usanmadan ən operativ informasiyaları öyrənmiş olur, həm də könül xoşlandıran seçmə mahnılardan zövq alırdı.

"Qürbətdə qalan vətən" qaçqın vətəndaşlarımızın, erməni işğalçıları tərəfindən torpağından qovulan soydaşlarımızın taleyinə həsr olunan publisistik veriliş bir süjet xətti üzərində qurulsa da, yarım saat səslənən müsahibələr real həyat səhnələrini canlandırdığından aktual mövzu sayılırdı. Yaxud "Xüdafərin" elmi-kütləvi, "Dünya" analitik proqramları, "Ağ ölüm-narkomaniya" və s. verilişlər cəmiyyəti narahat edən məsələlərə aydınlıq gətirirdi.

2009-cu il iyulun 26-da "İctimai-siyasi proqramlar" redaksiyasının bağlanması ilə audiopublisistikanın düşündürücü, sanballı, cəmiyyət üçün gərəkli mövzularının radiojurnalistikada işlənməsinin qarşısı alınıb, radio əyləncə obyektinə çevrilib.

Özəl radiolarda isə bu tip verilişlərə rast gəlinmir. Aktyorların aparıcılığı ilə verilişlərin sayını artırmaqla dinləyici qazanmaq cəhdi geniş vüsət alır. "Space" radiosunda "Mehribanlıq" verilişi aktrisa Mehriban Xanlarovanın təqdimatı ilə aparılan müəllif proqramıdır. Aktrisa "Milli Akademik Dram Teatrı"nın

səhnəsində özünəməxsus parlaq obrazlar yaradan istedadlı sənətkardır. Səs tempi də səhnə üçün olduqca münasibdir. Ancaq aktrisanın səhnə danışığı ilə efir səsi arasında nəzərə çarpacaq dərəcədə fərq hiss olunur. Radio üçün səviyyəli danışığı, ahəngdarlığı, rəvanlığı və ən əsası səsi cəlbedici olmadığına görə aparıcılıq qabiliyyəti aşağıdır, təbii səs imkanları yetərincə deyil. Səhnədən fərqli olaraq radiodakı aparıcılıq obrazına əvvəlcədən hazırlıqlı olmadığı üçün mümkün situasiyalardan çıxa biləcək potensial imkanı yoxdur. Aparıcının verilişlərindən birini, efirdə şairə və aşıqla söhbətini təhlil edək. Bir saatlıq proqramın ilk on dəqiqəsi efirə yenidən dəvət edilən qonaqların aparıcını yersiz tərifi ilə başlayır. Hiss olunur ki, onlar dəfələrlə verilişə gəlirlər və tərifləri də məhz gələcəkdə yeni dəvətlər üçün mədxahlıq məqsədi güdür. Şairə ona yazdığı uzun bir şeiri səsləndirir. Sonra aparıcıcının anası ilə bağlı həssas nöqtəyə toxunur və onu ağladır. Hönkürtüsü eşidilməsin deyə, burnunu çəkə-çəkə aparıcının ağladığını hiss edirik. Bu xoşagəlməz anlar dəqiqələrlə davam edir. Verilişdə pauzalar yaranır, arada aparıcının içini çəkməyi və bir müddətdən sonra dodaqaltı pıçıltıları eşidilir. Guya ki, anasını xatırlayan aparıcı özünü ələ ala bilmir və xeyli əziyyətdən sonra çalışıb sözünə davam edir. Əslində dinləyici bu zaman aparıcının səmimi olmadığının fərqinə varır, bir sözlə onun istedadsız olduğunu duyur. “Aparıcılıq obrazı”nı yarada bilmədiyinə görə onu dinləmək istəmir. Birbaşa efir mədəniyyətinin pozulmasına, etik səliqəsizliyə görə dalğanı dəyişmək məcburiyyətində qalır. Bu, həm də aparıcının verilən imkandan sui-istifadəsidir. Verilişin əvvəlində anons edilən beynəlxalq festivaldan qayıdan aşığın və yeni kitabı çıxan şairənin yaradıcılığından daha çox aparıcı ön plana çəkilir.

Özəl radio məkanında, efir mühitində, yüzlərlə verilişlərdə nitq mədəniyyəti pozulur, aparıcı məfhumu heçə endirilir və radionun sənət olduğu anlamı da şübhə altına düşür. Nitqin fikirlə dilin vəhdəti olduğu unudulur. Nitq mədəniyyətinin həm də fikri beyində düzgün formalaşdırmaq və dil vasitəsilə düzgün ifadə etmək mədəniyyəti olduğu yaddan çıxır [23. s.33]. “*Nitq mədəniyyəti ümumxalq danışıq dilindən, eləcə də dialekt və şivələrdən seçmə və əvəzetmə əsasında götürülmüş və hamıya eyni dərəcədə anlaşıqlı olan söz və ifadələrdən istifadə etməklə ədəbi dilin*

*normaları daxilində düzgün və aydın danışmaq və yazmaqdır, nitqin düzgünlüyü, aydınlığı və dəqiqliyi naminə həm sözlər düzgün tələffüz edilməli, intonasiya, vurğu və fasilələr gözlənilməli, həm də dil vasitələrindən məqsədəuyğun istifadə olunmalıdır*" [39, s.5].

1959-1974-cü illərdə radioda diktor işləyən xalq artisti Ofelya Sənani "Publika.az" saytına müsahibəsində deyir: "*Radioda adam elə bil ki, alim olur - radio adama çox gözəl bilik verir. Radioda hansı mövzuda, hansı janrda desən, söhbət var. Diktor olanda adam həm redaktor, həm aparıcı, həm rejissor olur. Amma indiki radiolar nə edir? Küçədən keçənə, ona-buna, sürücüyə suallar verir. Demək istədiyim odur ki, maarifləndirici heç nə yoxdur...*" [196].

Xəbər aparıcısından daha çox yüksək intellekt, qeyri-adi duyum, dinləyici qəlbini oxşamaq, gözlənilməz situasiyalarla auditoriyanın diqqətini fəallaşdırmaq tələb olunursa, publisistik verilişlərdə bu keyfiyyətlərlə yanaşı jurnalistdən auditoriyanın maraqlarının nəzərə alınması, problemə yanaşmada obyektivlik, plüralist yanaşma – müxtəlif baxışların əks etdirilməsi və peşə cəsarəti tələb edilir. Çünki publisistik verilişlər konkret həyat faktlarına, gerçəkliyə əsaslanmalıdır .

# II FƏSİL
# AUDİOPUBLİSİSTİKANIN İFADƏ VASİTƏLƏRİNİN XARAKTERİSTİKASI

## 2.1. Söz radio dilinin başlıca komponentidir

Radiopublisistikada söz əsas vacib elementlərdən biridir. Qəzet jurnalistikasından fərqli olaraq radioda sözün səsli olması, danışıq yolu ilə auditoriyaya çatdırılması yaradıcılıq prosesində mətnlərin yazılışı və deyilişi zamanı, redaktor və aparıcıdan professional peşə vərdişləri tələb edir.

Radioda işlənən söz vasitəsilə insan hadisənin gerçək tərəfini təxəyyülündə canlandırır. Söz nitqin başlanğıcı və ünsiyyət vasitəsi olduğundan insanları bir-birinə yaxınlaşdıran fövqəltəbii qüvvədir. Daim tərəddüdlər içərisində çabalayan hər hansı bir şüurlu fərdin dünyagörüşü, real aləmdə gördüklərini anlamaq istəyi ünsiyyət zamanı formalaşır. Radiodakı danışıq "insanın insanla" ünsiyyəti sayıldığından, hər hansı səslənən bir fikirə auditoriyada adekvat cavabın olması redaktorun sözə həssas yanaşmasını ehtiva edir. "*Ünsiyyət prosesində danışan şəxs öz nitqini necə qurmaq üzərində uzun müddət düşünə bilmir. Bunun üçün vaxtı və imkanı olmur. Bununla belə o bilir ki, onun nitqi asanlıqla anlaşılmalı, qavranılmalıdır*" [4, s.12-13].

Radio vasitəsi ilə yaradılan ünsiyyət retual ünsiyyət adlanır. "Rete" tor deməkdir. "*Torunu dənizə atan balıqçı konkret olaraq hansı balıqları tutacağını əvvəlcədən bilmir. Məhz, radioda da səslənən nitq ünvansız halda, kütləvi auditoriyaya yönəlmiş olur. Buna görə də radio proqramları elə hazırlanmalıdır ki, onların xəyali auditoriyasını təşkil edən hər kəs anlayıb dərk edə bilsin*" [23, s. 135].

İnformativ, analitik və bədii audiopublisistika verilişlərinin mətnləri söz quruluşuna görə bir-birindən seçilir. Məsələn adi xəbərlə iri həcmli informasiya proqramının mətnləri eyni mövzudan bəhs etdiyi təqdirdə də qısa və geniş yazılış baxımından struktur cəhətdən fərqlənir. Qısa xəbərdə hadisənin əsas özəyi bir neçə cümlə ilə ifadə olunursa, geniş məlumatın təsviri zamanı səbəb və nəticənin də

deyilməsi məsələnin daha geniş aspektdən işıqlandırılması üçün zəmin yaradır. Prof. Q.Məhərrəmli efirdə səslənəcək cümlələri yazmazdan əvvəl ucadan oxumağın vacibliyini qeyd edib. "*Bu, sizə nəinki mətnin necə səslənməsini, hətta səsin bu mətnin öhdəsindən gəlib-gəlməyəcəyini də əvvəlcədən bilməyə kömək edə bilər. Digər tərəfdən bəzi çətin ifadələrdə kəkələmək və ya lazım olmayan anda nəfəsin kəsilməsi kimi halların qarşısını almaq üçün mütləq yazdığınızı ucadan oxuyun*" [80, s. 176].

Ünsiyyətdə vasitələşdirmə müxtəlif səviyyədə və müxtəlif miqyasda ola bilər. Onun dərəcəsi heç bir dəyişikliyə uğramadan keçdiyi sosial məsafənin – pillələrin sayı ilə ölçülə bilər. Bəzi hallarda sosial vasitəçilik minimum dərəcədədir, xəbər ağızdan-ağıza ötürülür. "Birbaşa informasiya əlaqəsinin" yarandığı fərdlərarası ünsiyyət zamanı belə olur [157, s. 31]. Digər hallarda, məsələn mətbuat, radio və televiziyada olduğu kimi vasitələşdirmə maksimaldır: burada mətn tamaşaçıya çatanadək sonsuz sayda ara mərhələlərindən keçməklə ya struktur dəyişikliyinə məruz qalır (redaktə), ya da maddi cəhətdən realizə xarakterini dəyişir (mətnin diktor tərəfindən səsləndirilməsi, səslənən nitqin efirə verilməsi, radio verilişinin efirdən radioqəbuledici vasitəsilə alınması), ya da özünün miqdar və miqyasını dəyişir (qəzet tirajının çapı) – amma məzmun baxımından o hər yerdə dəyişməz qalır.

Jurnalistlər radionun yaranışı dövründən bu günə kimi faydalı şəkildə qəzet materiallarından yararlanırlar. Müasir dövrdə kütləvi informasiya vasitələrinin bolluğundan, internet mənbələrindən istifadə məqbul sayılır. Prof. C.Məmmədli yazır: "*İnternetin tamamlamaqda olduğu konvergensiya prosesində hələlik radio özünü sakit hiss edir. Səs nitqi internet vasitəsi ilə çox asan ötürülür və onu qəbul etmək üçün kompüterin və ona səs platasının əlavəsi kifayət edir*" [86, s. 72]

Mövzu axtarışı ilə bağlı sayt və agentliklərdən məlumatlar əldə edilir. Sənətkarlığın inkişaf mərhələləri dövründə audiopublisistikanın yaradıcılıq prosesi fərdi keyfiyyətlər tələb etdiyindən, həmin yazıların səsli jurnalistikaya çevrilməsi zamanı onun məxsusi olaraq yenidən işlənməsi və radio dilinə salınması lazımdır. Bu məsələdə mütəxəssislər zəngin resurslardan səmərəli bəhrələnir. Bəzi jurnalist-

lərsə efirdəki boşluğu doldurmaq üçün qəzet materialını olduğu kimi səsləndirirlər. Bu məsələ müasir dövrdə radiojurnalistikanın aktual problemlərindən biridir.

Radio danışığı ədəbi dil nümunəsi olmalıdır. Ədəbi dil haqqında prof. A.Axundov yazır: "*Ədəbi dil üçün ən mühüm əlamət onun, üzərində əməliyyat aparılmış bir dil olmasıdır. Ümumiyyətlə ədəbi dildən danışılanda "işlənmiş forma", norma və normalaşdırma anlayışları ön plana çəkilir*" [7, s.7].

Radio dilinin öz qrammatikası var. Radio dili göz üçün yox, qulaq üçün nəzərdə tutulub. Radio dilinin qrammatikası cümlələrin mümkün qədər yığcam olmasını tələb edir [55]. Uzun cümlələr qulaq duyumu üçün yaddaş çətinliyi yaradır. Uzun cümlənin xəbərinə çatınca, bəzən onun mübtədası yaddan çıxır. Qəzet dili üçün xarakter olan gəlmişdir, getmişdir, olmuşdur kimi sözlər bir qayda olaraq gəlib, gedib, olub kimi səslənir. Çünki qulaq üçün belə daha rahatdır. Radio dilində çoxrəqəmli ədədlərin verilməsi də problemsiz olmur. Məsələn 4,5 milyon sözündənsə, radio dili üçün 4 milyon yarım daha münasib variantdır. Radioda mürəkkəb rəqəmlər imkan daxilində yuvarlaqlaşdırılır. Məsələn, dinləyici üçün 499 min sözündənsə, təxmiən 500 min və ya 500 minədək ifadələri daha yaddaqalandır. Ən mürəkkəb mövzuları da sadə dillə ifadə etmək əsas faktorlardan biridir. "*Radioda çalışan hər kəs, eləcə də efir üçün yazan hər bir müəllif audio nitqin xüsusiyyətlərini dəqiq mənimsəməli, efir nitqinin tələblərinə əməl etməlidir. Mikrofon qarşısında səslənən nitqin, hazırlanan və səsləndirilən verilişlərin anlaşıqlı, təsirli alınması qrafik tərtibatdan da çox asılıdır*" [80, s. 173].

Radio dili hansısa müstəqil sistem təşkil edən qapalı və bütöv bir məfhum deyil. Məhz radionun qarşısında duran vəzifələrin gerçəkləşdirilməsi üsuluna görə müxtəlif verilişlərin formaca və dil ifadəsi baxımından fərqləri də böyükdür . Lakin onların hamısı "bizim radionun özəl dili" adlandırdığımız ifadədə birləşərək özünəməxsus fərqli dil işarə sistemini əks etdirir.

Radio dilinin özünəməxsusluğunu iki amil şərtləndirir: birincisi, radionun spesifik təbiətindən irəli gələn, onu digər kommunikasiya vasitələrindən fərqləndirən ümumi cəhətlər, ikincisi, konkret janrlarda (xəbər, müsahibə, reportaj və s.) özünü büruzə verən spesifik dil və nitq hadisələri.

Radio dilinə xas olan ümümi cəhətlər dedikdə: a) onun yazılı deyil məhz səsli şəkildə (akustiklik) mövcud olması; b) birbaşa dinləyiciyə yönəlməsini (nitq ünsiyyətinin birtipliliyi); c) danışanın qulaq asandan xeyli uzaqda olması (məsafəlilik); ç) danışığın baş verdiyi andaca dinlənilməsi (sinxronluq); d)dinləmə və qavrama şəraitinin, əsasən, fərdi olmasını nəzərdə tutmaq lazımdır [140, s.40-42]. Əlbəttə, radionun üstünlüklərinin dilə də şamil edilməsi (səsli sözün üstünlükləri, onun estetik cəhətləri, emosional təsiri və s.), eyni zamanda çatışmayan cəhətlərinin (danışanın görünməməsi, qavrama tempinin zəifliyi, deyilənin tez keçiciliyi və s.), bütövlükdə onun "dil xüsusiyyətləri"nin ayağına yazılması faktı da mövcuddur.

Radiodan kütləvi kommunikasiya vasitəsi kimi istifadə edən jurnalistlər dinləyici ilə "ümumi dil" tapmağa çalışır. Prof. Q.Məhərrəmlinin təbirincə desək "*kütləvi kommunikasiya sistemində dil anlayışının özü iki mənada işlənir birinci bütövlükdə konkret informasiya sahəsinin təbiəti, onun ifadə vastələri ilə bağlı olan dil anlayışı (məs., 'radio dili'-yəni radioya xas olan ifadə vasitələrinin məcmusu və bu vasitənin gerçəkliyi əksetdirmə üsulu), ikincisi isə sırf lingivistik mənada konkret sahənin dil-üslub sistemi, leksik qrammatik xüsusiyyəti nəzərdə tutulur*" [76, s.4].

Buna görə də diapazonu geniş olan müxtəlif janrlardan və onlara uyğun dil-üslub, intonasiya çalarlarından bəhrələnirlər. Məsələn, xəbərin, xronikanın çevik dili şərh dilindən, yaxud hər hansı yenilik barədə müsahibə verən məmurun nitqi uşaq verilşinin dilindən xeyli fərqlənir. Verilişin növü ifadə vasitələrindən (məzmununa, istiqamətinə və s. görə) asılı olmayaraq, təkcə radio səslənməsi onu "kütləvi kommunikasiya"nın digər sahələrindən fərqləndirən dil xüsusiyyətlərini şərtləndirir. Həmin xüsusiyyətlər, məsələn radio verilişinin mətnində çətin tələffüz edilən səs birləşmələrinin arzuolunmazlığında, yaxud həddindən artıq mürəkkəb dil konstruksiyalarının intonasiyanı pozması və tələffüzü çətinləşdirməsindədir. Ən təcrübəli diktorların tələffüzü üzərində müşahidələr göstərir ki, onlar quruluşuna görə mürəkkəb cümlələri, yaxud səslənməsinə görə bir-birinə yaxın, oxşar qonşu sözləri oxuduqda dilləri dolaşır, səhvə yol verirlər. Bu, radionun

semiotika (işarələr Q.M.) sistemi və oxunan mətnin qrafik tərtibatı ilə birbaşa əlaqədardır.

Radio dilinin səciyyəvi cizgiləri özünü səhər verilişlərində göstərir. Səhər proqramlarında səmimilik və inandırıcılıq əsasdırsa, informasiya verilişlərində inandırıcılıq əsasdır. Səhər verilişlərinin dili ən əsası asan və anlaşılan olmalıdır. İnformasiya və əyləncə xarakterli olan proqramlarda dinamiklik əsas olduğu üçün aparıcıların dilində və nitqində bu, hiss olunmalıdır. Dinamikliyi yaradan səbəblərdən biri də sürətli danışıqdır. Lakin bir çoxları bunu səhv anlayaraq intonasiyaya önəm vermədən danışır. Bu da təbii ki, dinləyicini yorur. Məsələn: 2017-ci il fevral ayının 4-də Azad Azərbaycan radiosunda Rüfət Ağayevin təqdimatında efirə gedən səhər verilişinə diqqət edək. Səhər salamlaşmanı normal etdikdən sonra hava haqqında məlumatla tanış edəcəyini söz verən Rüfət dinamik danışığı nəticəsində bir cümlədə üç səhvə yol verir, həm də məntiqi ardıcıllığı pozur. “Bir azdan sizə hava haqqında məlumatı çatdıracam, mənim adım Rüfətdir, sabahınız xeyir” və mahnı gedir. Onun çox bəsit və dili dolaşaraq salamlaşması təbii ki, dinləyicidə nəinki aparıcıya, o cümlədən bütünlükdə həmin efirə qarşı mənfi fikir yaradır .

Radio kütləvi kommunikasiyanın bir növü kimi hansı xüsusiyyətlərə malikdir?

1) Akustiklik və şifahilik. Radio əsas ifadə vasitəsi kimi səsdən və əsas təsir vasitəsi kimi səslənən şifahi sözdən istifadə edir. Bu xüsusiyyət insanın eşitməsinə, yəni şifahi nitqi qəbul edə bilməsinin ən mükəmməl sistemlərindən birinə yiyələnmiş radioda əsas məqamdır. “*Hər bir cümlə kommunikativ cəhətdən müstəqildir, yəni nitqdə ayrıca bir məlumat verən vahidlər kimi işlənir, nitqdə müəyyən məlumatı bildirməyə xidmət edir*” [6, s. 45-46]. Təbii ki, nitqin melodikliyi və emosional təsiri baxımından yazılı və şifahi söz eyni təsir gücünə malik deyildir. Məsələn, müəyyən bir intonasiya ilə ifadə olunan hər bir sözə bu səslənmə prosesində sanki nəsə xüsusi bir qədər çətin izah olunan, amma mühüm məna çalarları əlavə edilir. Yazıdakı söz, anlayış yayğın, cansızdır, amma insan səsi ilə ifadə olunaraq diri söz şəklində ortaya çıxan bu anlayış canlıdır, bu söz

nəinki məntiqi, həm də hissi, özü də fərdi- hissi təəssürat yaradır, belə ki, hər bir adam sözü özünə məxsus tərzdə ifadə edir. Təbii ki, şifahi nitqi, o cümlədən radio nitqini yazılıdan, ilk növbədə, intonasiya fərqləndirir. Verilişin formasının özü məzmunlu olduğuna görə adamın nə dediyinə çevrilir. Məhz bu vəziyyət iddia etməyə əsas verir deyək ki, radio, yalnız yazı nitqi imkanları olan digər kütləvi kommunikasiya növlərinə nisbətən ifadə olunanların incə çalarlarının və onların emosional məzmununun çatdırılmasında böyük üstünlüyə malikdir.

Əgər qəzet nitqinin estetikası sözün kommunikativ funksiyasının maksimum çılpaqlığındadırsa, radio dilinin estetikası kommunikativliklə yanaşı, əlavə mənalara imkan verən intonasiya zənginliyindədir.

2) Nitq aktının məsafəliliyi və ünsiyyətin birtipliliyi. Radioda dinləyici ilə ünsiyyət vasitəlidir. Görmə imkanının istinası şəraitində danışanın dinləyicidən xeyli uzaqda olması, yəni virtual məsafəlilik daim diqqətin fəallaşdırılmasını, dinləyicinin dəqiq tapılmasını tələb edir. Amma bununla yanaşı efirdə səslənən şifahi nitq həmişə konkret olaraq kiməsə ünvanlanır, kimin üçünsə nəzərdə tutulub, hansısa konkret auditoriyaya yönəlir. Daim “həmsöhbətə” isitiqamətlənmək isə (bu halda dinləyiciyə) şifahi nitqin, danışığın formasında, tərzində və strukturunda öz əksini tapmaya bilməz.

3) Kütləvilik. Əslində bu keyfiyyət kütləvi informasiya vasitələrinin hamısının dilinə xas olan xüsusiyyətdir, amma bu, radioda xüsusi həssaslıq tələb edir. Çünki, sosial tərkibinə, yaşına, cinsinə, təhsilinə, mədəni səviyyəsinə və s. görə çox müxtəlif qruplara bölünmüşdür. Məhz bu bölgünün hüdudsuzluğu şəraitində radionun dili mütləq kütləvililik səciyyəsi daşımalı, hər kəs üçün anlaşıqlı olmalıdır. Müasir dövrdə radiolarda istifadə olunan dil əsasən adi danışıq dilidir. Bu üslub dialoq nitqinin məişət növündən və şifahi formada mövcuddur. Adətən, belə forma, belə tərz dərhal qol-qanad açır və danışanlar əvvəlcədən fikirləşmək üçün imkan tapa bilmirlər. Məhz bu halı son zamanlar daha çox eşitmək mümkündür. Məsələn: Azad Azərbaycan radiosunda mayın 7-i , 2010-cu ildə səslənmiş səhər efirinə diqqət edək. Aparıcı yeni yolun salınması ilə bağlı məlumatı oxuduqdan sonra ona şərh verir. Salınan yollardan danışan aparıcı öz-

özünü çaşdıraraq söhbəti uzadıb maşınlara sonra isə təyyarələrə gətirir. Sonluğu vura bilməyən aparıcı öz səhvini anlayaraq “söhbətin hara gedib çıxdığını da heç bilmədim” deyərək oxuduğu informasiyaya dırnaqarası yanaşır. Təbii ki, belə hal dinləyicini qıcıqlandıra bilər və nəticədə radio öz auditoriyasını itirə bilər. Çünki bu aparıcı dəqiq ifadə vasitələrinin seçilməsinə o qədər də cəhd göstərmir.

Danışıq üslubunda deyilən sözlərin əhatəliliyi və dəqiqiliyi nəinki vacib deyil, hətta bəzən tamamilə lüzumsuzdur, belə ki, həmsöhbətlər çox vaxt bir-birini kəlmənin əvvəlində başa düşür. Üstəlik onlar şifahi danışıq zamanı intonasiya kimi məna emosiya çalarlarına malik vasitələrdən də istifadə edə bilirlər.

Prof. C.Məmmədli yazır: “*Sözdən istifadə ilə bağlı bütün deyilənlər mübahisə doğura bilər. Söz bir çox istiqamətdən əziyyət çəkir. Söz qanun tərəfindən zəif qorunur. Söz plagiatın qurbanı ola bilər...*” və s. Alim qeyd edir ki, *bununla belə söz jurnalistin əsas alətidir və En-Bi-Si özünün bütün qaydalarını, əməkdaşlara təqdim etdiyi qaydaların çoxunu sözə həsr etmişdir. Nəticədə hər müəllif özünün yaxşı lüğətini yaratmağa çalışır* [85, s.103].

Danışıq üslubu nitqi son həddə qədər yığcamlaşdırmağa və anlaşıqlı olmağa imkan yaradır. Çox vaxt bu üslub danışığın yığcamlılığını zəruriləşdirir. Danışıq üslubu üçün bütövlükdə mühüm olan başlıca cəhət budur ki, burada fikri ifadə üçün xüsusi vasitələr axtarılmır, nitqin cilalanmasına cəhd göstərilmir. Əgər belə demək mümkünsə, tamaşaçı və dinləyici münasibətində olan həmsöhbətlər deyilən fikrin tam ifadə olunmasına bundan əvvəlki təcrübəsi, konkret şəraitə bələd olması, haqqında söhbət gedilən mövzu barədə təsəvvürlərin genişliyi onlara şifahi danışıqda istənilən qədər ixtisarlar aparmağa imkan yaradır. İ.Məmmədov “Ekran, efir və dilimiz” kitabında yazır: “*Radio və televiziyada sözün təsir qüvvəsi, estetik vəzifəsi, şişirtmə olmasın, bəlkə də bütün təbliğat vasitələrindən üstündür. Burada yüksək estetik ölçü, şüurlara, ağıla, qəlbə son dərəcə həssaslıqla nüfuzetmə məsələsi çox vacibdir*” [88; 91, s. 5].

Radio verilişlərində əsas elementlərdən biri də səsdir. Nitqdə müxtəlif ritmik düzüm, səs tonunun dəyişilməsi, güclənib - zəifləməsi, tempin sürətlənməsi və azalması, pauza məntiqi vurğu və s. geniş tətbiq edilir. Radio işçiləri üçün şifahi

nitqin özünəməxsusluqlarını və xüsusiyyətlərini bilmək birinci dərəcəli əhəmiyyətə malikdir. Çünki bu xüsusiyyətləri bilənlər həm dilin anlaşıqlılığı, həm də emosionallığı və informativ səciyyəsi baxımından güclü təsir göstərə bilər. "*Xüsusən, radio və televiziya verilişlərində ayrı-ayrı ixtisas sahələrinə, müxtəlif dil duyumuna mənsub olan adamlar öz arzu və istəklərini, təklif və tövsiyələrini, xalqın ədəbiyyatı, tarixi, mədəniyyəti, dövlətimizin daxili və xarici siyasəti və s. ilə bağlı söhbətlərini öz ana dilində - Azərbaycan dilində şərh edir, söyləyirlər*" [1, s.6].

Vaxtilə radio dilinin səslənən dil kimi danışıq nitqinə aid olduğunu sübut etməyə cəhdlər göstərilib. Həmin şəxslər iddia edirdilər ki, verilişlərin mətni və efirə ötürülməsini də danışıq nitqinə uyğunlaşdırmaq lazımdır, yəni kitab üslubuna xas sözlərdən istifadə etmək olmaz. Radio dilinin tədqiqatçılarından biri olan K.İ.Belinski tövsiyə edirdi ki, efirdə daha çox təsviri, peşəkar və sadə nitq sözlərinə üstünlük vermək gərəkdir, dəqiq terminlərdən istifadə edərək mətni zənginləşdirmək lazımdır [59].

Prof. A.Axundovun məqalələrində radio dili ilə bağlı maraqlı elmi fikirlər var. Alim radio dilinə müasir şifahi ədəbi dilin mühüm qolu kimi yanaşır: "*Əgər bizdə radiohekayə, radiofilm, radiooçerk, radiopovest, radiopyes yaranırsa, şübhə yoxdur ki, onların ifadə forması olan dilin də yeni cəhətləri meydana çıxmış olur*" [8, s.81].

Bəs efirdə radio nitqi, danışığı necə səciyyələndirmək olar? Əslində məsələnin bu şəkildə qoyuluşu məqbul deyil. Ona görə ki, ayrılıqda nə yazılı nitq, nə də şifahi nitq radio danışığı üçün əsas ola bilməz. Radio dilinin ilk elmi araşdırıcılarından biri olan professor S.Bernşteyn göstərirdi ki, *danışıq dili radio üçün nümunə ola bilməz. Eyni zamanda, təbii ki, yazılı nitq də şifahi məlumat üçün nümunə sayıla bilməz* [125, s.33-35]. Deməli, nə yazılı, nə də şifahi dilin mexaniki şəkildə radioya tətbiqi özünü doğrultmur. Çünki konkret şəraitin məhsulu kimi mimika və jestlərlə ifadə olunmuş informasiyanın itirilməsi deməkdir. Təcrübə göstərir ki, efirdə səslənən nitqin aydın, anlaşıqlı və asan qavranılan olması yalnız yazılı və şifahi nitqin uğurlu sintezi sayəsində mümkündür. Radio dilində məhz bu

proses baş verir, yəni danışacaq hər bir kəs mikrofon qarşısına hazırlıqsız çıxmır, müəyyən mətn yazır, hazır cümlələrdən istifadə edir, ən azı çıxışının qısa tezisini hazırlayır.

XX əsrin tanınmış linqvistiklərindən olan A.Peşkovski hələ ötən əsrin 20 ci illərində ədəbi dil barəsində danışarkən qeyd edir ki, həm yazılı nitqin qanunlarına tam əməl etmək, həm də şifahi nitqin xüsusiyyətlərini nəzərə almaq ədəbi nitqin xüsusi, ayrıca bir növüdür. O, haqqında danışdığı bu  xüsusi növü "yazılı nitqin şifahi təzahürü"  kimi səciyyələndirirdi. Bu fikir sanki bütün radio dili haqqında deyilmişdir. Çünki radio danışığı struktur-konstruksiya baxımından yazılı, intonasiya, tələffüz baxımından isə şifahi nitqin xüsusiyyətlərini özündə əks etdirir. Radio aparıcısı, jurnalisti, reportyor, bir sözlə, mikrofon qarşısında çıxış edən hər kəs bunu bilməli, düzgün  deyim qaydalarına, xüsusən orfoepiya prinsiplərinə əməl etməlidir [78, s. 291].  Doğrudur, bəzi mütəxəssislər radio dilinin sadə, anlaşıqlı olması üçün onun yalnız danışıq dilinə yaxınlaşdırılmasının vacib olduğunu deyirlər. Hətta bu günün belə "radio mahiyyəti özü danışıq növüdür", "səslənən nitq dinləyici də danışıq nitqi təəssüratı oyatmalıdır" kimi qəti hökm səslənir. Amma bu məqamda işlədilən "danışıq nitqi" bir qədər mücərrəd xarakter daşıyır və onun linqvistik məzmunu tam açıqlanmır. Məsələn, əgər "danışıq nitqi" dedikdə, danışıq üslubunun, şifahi formanın, dialoq növünün, nitqin məişət, yaxud neytral tipinin səciyyəvi olduğu nitq nəzərdə tutulursa, məlum olur ki, radio dili qətiyyən bu çərçivəyə sığmır.

Radio dilində normal danışıq dili ilə yanaşı aparıcının intonasiyası da önəmli rol oynayır. Çatdırılan informasiyanın dinləyicidə maraq oyatması üçün məlumatın intonasiya ilə oxunması aparıcının nitqinə verilən tələblər sırasına daxildir. "*Əgər söhbət danışıq üslubundan, şifahi formanın, dialoq növlərinin məişət və ya neytral tipinin aid edildiyi danışıq nitqindən gedirsə aydın olur ki, radio dili qətiyyən onun çərçivəsinə sığmır*" [43, s. 21]. Radio danışığında intonasiyanın  hansısa akustik əlamətləri nitqin üslubi xüsusiyyətləri üçün fərqləndirici əlamət rolunu oynayır. Təbii ki, bu məqam daha çox şifahi söz ustalarının nitqində hiss olunur. Məsələn, Yuri Levitan yüksək vətəndaşlıq hissləri̇lə rəsmi məlumatları oxuyarkən səs

tembrinin özü, artikulyasiyası, ifadəni işlətmək tərzi, intonasiyası, hər bir sözün çaları fövqəladə məlumatın əhəmiyyətindən xəbər verirdi. Yaxud Aydın Qaradağlı kimi yüksək peşəkar diktor öz səsi, oxu tərzi və intonasiyası ilə nitqdəki sözləri sanki qanadlandırır, dinləyici təxəyyülündə zəngin lövhələr və obrazlar yarada bilirdi. O deyirdi ki, oxunan material nə qədər "quru" olursa- olsun, diktor vəcdə gətirməlidir. Sakit, laqeyd diktorun intonasiyası boş və mənasızdır.

Danışıq üslubu radio nitqində aparıcı rol oynayır və o özünü həm frazeologizmlərlə, həm də çox xəlqi-qrammatik formalara meyildə, həm də danışıq üslubunun sistaksisində göstərir. Bütövlükdə isə danışıq üslubu üçün başlıca səciyyəvi cəhət sərbəstlik, fikri ifadə etmək üçün sözlərin düşünülüb seçilməsi, nitqin səlisliyi naminə mükəmməlikdən uzaqlaşmaqdır. Başqa cür deyilərsə, şəxsi, bilavasitə ünsiyyətə istinad edən danışıq nitqində "kommunikativ məqsədəuyğunluq" qanuni qüvvədə olur. Bu halda danışan şəxslər "konkret dil şəraitində optimal varianta" gətirib çıxaran birləşmələrdən istifadə edir, kitab nitqi normalarından fərqlənən xüsusi vəsitələri canlandırırlar. Buradan belə çıxır ki, radioda "təmiz" danışıq nitqindən yalnız məhdud çərçivədə - canlı məişət dilini əks etdirən bədii, ədəbi dram verilişlərində, eləcə də əsl danışıq nitqinin mətnsiz, sənədli yazılışında istifadə etmək mümkündür və məqbuldur. Bəs bütün bu nəzəri müddəalar radio verilişlərində necə əks etdirilir? Əgər müasir dövrdəki radio proqramları ilə daha əvvəl ki, radio proqramlarını müqayisə etsək onların arasındakı fərqi hiss etmək olar. Bu fərq həm dil- üslub, həm aparıcı, həm də digər məsələlərdə özünü biruzə verir. Çünki, müasir proqramlarda aparıcıların danışıq üslubuna diqqət etsək görərik ki, onların əksəriyyəti daha çox məişət danışığından istifadə edir. Daha əvvəlki aparıcılar öz nitqlərində danışıqlarına daha böyük məsuliyyətlə yanaşırdılar. Lakin bir faktı da unutmaq olmaz ki, zaman dəyişdikcə dinləyicilərin zövqü, baxış tərzləri də dəyişir. Professional aparıcı həmişə öz üzərində məsuliyyəti hiss etməlidir. Azərbaycan radiosunun bir sıra publisistik və ədəbi-bədii proqramları sübut etdi ki, bu şifahi xalq tribunası təkcə dilin spesifikliyini inkişaf etdirmək yox, həm də onun təmizliyini, xəlqi xarakterini və dil-nitq normalarını qoruyub saxlamaq, təbliğ etmək baxımından çox faydalı iş

görüb. Daha öncə olan səhər proqramlarının strukturu, hal-hazırda mövcud olan səhər proqramlarından öz xəlqiliyi ilə də fərqlənirdi. Hal-hazırda bir çox radiolarda aparıcı yox DJ- lərin olması bu fərqi isbat edən amilərdən biridir. Danışıq dilinin daha dinamik, sürətli olması indiki səhər proqramları üçün xas əlamətdir. Lakin nitqin dinamikliyi heç də ona dəlalət etmir ki, aparıcı ədəbi danışıq dilinin normalarını pozaraq dinləyicini qıcıqlandırmalı və zövqsüzlüyə sürükləməlidir. Azərbaycan radiosunda adi danışıq dilinin, canlı söhbətin, nitqin intonasiyanı bütövlükdə özündə qoruyub saxlayan " Bulaq" və "Nitq mədəniyyəti", " Ana dili", "Sabahınız xeyir", "Səhər görüşləri" verilişlərini bu baxımdan misal gətirmək olar. Bu verilişlərin təcrübəsi də göstərdi ki, radioda çıxış eləyən hər kəs – istər jurnalist olsun, istərsə də aparıcı, ya yazıçı, ya da adi bir insan olsun, nitqini xalq dilinə, canlı danışıq dilinə yaxın tərzdə qurmağa çalışır. "*Efir aparıcısı sistemli təlimlər nəticəsində öz elit danışıq tərzini sabit şəkildə tənzimləyə, tələblərə uyğun formalaşdıra bilər"* və yaxud *"tez-tez seçilmiş qısa parçalardan ibarət monoloqu təkrar-təkrar ifa edən təlimçi özünü dinləmə zamanı söz, intonasiyada yeni keyfiyyətlərə yiyələnir*" [131, s. 158-171; 141, s.34].

Müasir dövrdə dilçilik elmi daha bir problemlə üzləşib. Elmi texniki tərəqqinin inkişafı ilə əlaqədar dilimizə yad sözlərin kütləvi halda daxil olması düşündürücü mövzulardan ən aktualıdır.

Qonşu Türkiyə Respublikasında hər bir terminin əvəzləyici sözü, sinonimi tapılır və dil leksikonuna daxil edilir. Rəsmi şəxslərin 10 dəqiqəlik çıxışında yüzə yaxın türk sözü işlənir. Çağdaş türk dilində 2 milyona yaxın söz var. Ölkəmizdə isə bu cəhətdən problemlər yaşanır. Dilçilər neologizmlərin dilə gəlişini leksikonun zənginləşməsində müsbət hal kimi dəyərləndirirlər. Ancaq bir halda ki, bu sözlər dilin etnik quruluşuna sirayət edə, əks halda onun mümkün variantını tapmaq şərtdir [199]. İnteqrasiya, mesaj, devalvasiya, proklomasiya, reklamasiya və s. yüzlərlə mövcud olan yeni sözləri türklər kimi özəlləşdirmək, milliləşdirmək mümkün deyilmi? [63].

Sosial şəbəkələrdə "fərdi yaradıcılıq" nəticəsində ictimailəşən belə sözlər radio jurnalstlərinin də dilinə düşür, verilişlərdə vaxtaşırı işlənən yad deyimlərə

qulaqlar alışır və dilin işlək sözlərindən birinə çevrilir. 50 il Azərbaycan radiosunda publisistika ilə məşğul olan İntiqam Mehdizadənin sözlərinə görə, Azərbaycan dilində cəmi 2500 sözdən istifadə olunur. Dilimizin söz ehtiyatı tükənməyib, sadəcə istifadə edilmir. Uzun müddət "Bulaq" verilişini yazan, dil coğrafiyasının tədqiqi məqsədi ilə dilimizin zəgin lüğəti haqqında geniş bilgi toplayan sənətkarın araşdırmalarına görə, elə sözlər var ki, onların qarşılıqlı ifadəsi məlumdur və bəzilərinə də tərcüməyə uyğun müfaviq sözlər tapmaq olar.

"Bulaq"da bəzi müəlliflər diektoloji lüğətdən istifadə edərək hafizədən silinən sözlərin mənasını da səsləndirirlər. Dilçi alim F.Veysəlli yazır. "*Dil insanların həyatda qazandığı yeganə mənəvi sərvətdir ki, bununla o, cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq, həmişə fəxr edir. Dil hər bir fərdi məxsus olduğu cəmiyyətə, xalqa, millətə bağlayan bütün ictimai təsisatların ən birincisi və ən mühümüdür*" [107, s.7].

"*Radio və televiziya ölkədə dilin inkişafina müəyyən təsir göstərir. Efirdə tələffüz edilən və ya ekranda səslənən yeni sözlər və ifadələr tez dəbə minir və auditoriyada populyarlıq qazanır. Bu, televiziya və radio jurnalistlərinin boynuna böyük məsuliyyət qoyur. Onlar qəbul olunmuş normalara əməl etməli, nitq mədəniyyətini qorumalı, ədəbi dilin daşıyıcıları olmağa can atmalıdırlar*" [37, s. 130-131].

Verilişin efirdə daha uzunömürlü olması sözün əhəmiyyətindən, seçilən uğurlu addan asılıdır. "Ad tapıntısı" özü yüksək istedad tələb edir. "Dan yeri", "Yuva", "Çərxi-fələk", "Mövqe", "Gün keçdi", "Ovqat", "Axtarış", "Şəbəkə", "Sözün düzü", "Səslər muzeyi" və s. onlarla veriliş hər bir dövrə uyğun olaraq işlənilə bilər.

Tədqiqatçılar çağdaş Azərbaycan radio publisistikasının müstəqillik illərində inkişaf etdiyini söyləyirlər. Bu fikirlərlə razılaşmayan radiojurnalistlər də az deyil. Uzun illər efir təcrübəsi olan, "Gənclik və idman" redaksiyasına bir neçə il rəhbərlik etmiş Aybəniz Məmmədəliyeva sovet vaxtı dinlədiyi radiofelyetonlara qulaq asanda sözün nə qədər kəsərli olduğunu deyir. "*İndiki dövr radiopublisistikada söz ictimai əhəmiyyətini, təsir gücünü itirmək üzrədir*" [241].

2004-cü ilin iyunundan Azadlıq Radiosunun efirində səslənən "İz" proqramı Azərbaycanda və bütövlükdə dünyada baş verən mədəniyyət olaylarının izinə düşür. "İz" yalnız ədəbiyyat və incəsənət xəbərləri ilə kifayətlənmir və mədəni yaddaşı vərəqləməklə, önəmli olayları tarixi kontekstdə yenidən canlandırmaqla öz auditoriyası ilə daimi dialoqa can atır. Zaman-zaman "radio dastanı" formatından da yararlanan proqramda Azərbaycanın ictimai-siyasi və mədəni həyatının az bilinən, sanki unudulan epizodlarına üz tutulur. Beləcə, sənəd və canlı şahidlərin diliylə, üstəlik, dinləyicilərin gözü önündəcə haqqında söz açılan dönəmin özəllik və gizlinləri üzə çıxır. 2016-cı il dekabrın 8-də efirə gedən "İz" verilişini təhlil edək. "21 Azər" hərəkatının 70 illiyi münasibətilə tarixin səhifələri vərəqlənən bu veriliş əsl publisistika nümunəsidir, desək yanılmarıq. Hər il Milli Hökumətin yaranış və süqut günü-1945-ci ilin 12 dekabrından 1946-cı ilin 12 dekabrınadək yaşananlar yaddaşlarda təzələnir, müzakirə mövzusuna çevrilir. Həmin illərin ruhunda olan musiqi fonunda verilişin anonsu verildikdən sonra Cənubi Azərbaycan Milli hökumətinin müdafiə naziri Cəfər Kavianın Bakıda yaşayan oğlu Marks Kavianla müsahibə başlayır. Ara musiqiləri söhbəti daha maraqlı edir. Söhbətin fonunda adı çəkilən şəxslərin səslərinin getməsi isə verilişə tarixilik və sənədlilik gətirir.

... "*1946-cı ilin 12 dekabrı... Axşam saat 7 civarında bir maşın gəldi. Bizi o maşına mindirdilər. Yerə 3-4 yorğan saldılar. Atamı, anamı, bacılarımı, məni gətirdilər Culfaya. Soyuq bir gün idi. Mən maşının barmaqlıqlarından baxırdım. Sərhədə çatanda qışqırıq səsləri eşitdim: "Kavian gəldi! Kavian gəldi!.". Ruslar qapını açdılar. Atam sərhəddi keçdi. 10 dəqiqə kiminləsə söhbətləşdi. Sonra geri qayıdıb bizi adbaad səslədi: "Səkinə, Məlahət, Turan, Marks... düşün!". Hamımızı sərhəddən keçirdi... Gəldik Naxçıvana. Baş prokuror Tağı Qəhrəmanovun evində 15 gün qaldıq. Yanvarda Bakıya gəldik...*".

Bu sözlər 1945-ci ildə qurulmuş, düz bir il ömür sürmüş Cənubi Azərbaycan Milli hökumətinin müdafiə naziri Cəfər Kavianın Bakıda yaşayan oğlu Marks Kavianın Azadlıq Radiosuna dediklərindəndir. Verilişdə "21 Azər" nədən yarandı və niyə yenildi?, Pişəvəri öldü və ya öldürüldü?, Bu inqilab nə qədər insanın canı

bahasına başa gəldi? ...və s. bu kimi suallara cavab axtarılır, maraqlı faktlar açıqlanır [194].

Hazırda fəaliyyət göstərən dünya efir məkanını yaxından izləsək, görərik ki, xəbər buraxılışları sensasiya yaradacaq informasiyalarla doldurulub. İqnasio Ramone (Ignasio Ramonet) bununla bağlı araşdırmasında bildirir: "*Amerikan xəbər proqramlarında təqdim edilən xarici gündəlik hadisələrin faizi 80-ci illərin ortalarındakı ən sıxıntılı dövrlə belə müqayisə ediləndə aşağı düşdüyü məlum olur. Siyasət mövzusunda xəbər hazırlayanların sayının azalmasının müqabilində istehlak mütəxəssislərinin sayı sürətlə artır. Hadisələrin içinə girmək, hadisələri təqib etmək formasında fərqlər nəzərə çarpır. Bunun bir nümunəsini O.J.Simpson hadisəsi ortaya çıxarır: keçmiş arvadını öldürməkdə günahlandırılan bu sabiq amerikalı futbolçuya mətbuatın göstərdiyi diqqət ağlagəlməz dərəcədə böyük oldu*" [117, s. 97-98].

Prof. Hokan Hvitfeldtin gəldiyi qənaət fərqlidir. "*Əgər informasiya məlumatı ənənəvi müzakirə predmetinə, yaxın məsafədən sensasion hadisələrə əsaslanırsa, insanlar üçün əhəmiyyət daşıyırsa və ənənəvi mənbələrdən daxil olursa, o xəbər dəyər qazana bilər"* [37, s. 19].

Media eksperti Z.Məmmədlinin fikrincə, söz və fikir azadlığını, müxtəlif baxış və əqidələri əks etdirməyə yönəlmiş, doğru məzmunlu, tarazlaşdırılmış informasiyalar hazırlamaq, bu informasiyaları müasir texniki və keyfiyyət standartlarına uyğun şəkildə yayımlamaq jurnalistin əsas qayəsi olmalıdır. Alimin sözlərinə görə "*mövzunu olaya çevirməsən və ya olayı görüntüləyə bilməsən, bütün əməyin batacaq*" [89, s.20].

Radioda işıqlandırılan bir xəbərin süjet xəttinə diqqət yetirək. Yol qəzası haqqında xəbər verilir və hadisənin baş verdiyi məkandan söhbət açılır. Jurnalist faktların köməyi ilə israr edir ki, yolda heç bir işarə qoyulmayıb, hər iki tərəfi dərədən ibarət döngəli yolun kənar hissələri dəmirlərlə əhatələnməyib, ona görə də sürücülər sərt döngəyə daxil oduqlarını bilmədiyi üçün burada qəza hallarının olması labüddür. Xəbərin müəllifi əraziyə camaat arasında "qanlı dərə" deyilməsini diqqətə çatdırmaqla aidiyyatı təşkilatlar qarşısında məsələ qaldırır və

bu yolda baş verən çoxlu ölüm hallarını misal çəkərək, hadisəni qabartmaqla, vacib bir situasiyadan danışır. Jurnalistin mövzunu nəzarətdə saxlaması sonda məsələnin müsbət həlli ilə nəticələnir.

Filologiya elmləri doktoru R.Əliyevin fikrincə, *televiziya, radio və mətbuat dili müasir cəmiyyətlərdə ədəbi dilin hakim olması ilə, yazı və danışıq dili arasında fərqlərin silinməsi ilə nəticələnir* [32, s. 119]. Alimin sözlərindəki həqiqət çox vaxt mətndə həmin danışığın olduğu kimi əks edilməsi faktıdır və ya əksinə yazının eyni ilə səslənməsi mexanizminin tətbiqidir. Hər iki amilin pozulması halları dilə, xüsusilə nitq mədəniyyətinə ciddi təsir göstərir.

Yazılı nitqin şifahi ifasından ibarət olan radio nitqinin tədqiqatı üzrə dilçilər az sayda araşdırmalar aparıblar. Prof. Q.Məhərrəmli nitqin, intonasiyanın, pauzanın, musiqili mətnin fraqmentlərinin, siqnalların və diktor səsinin fərdi xüsusiyyətlərinin xüsusi transklipsiyasını yaratmağın çətinliyini radionun semiotikasının əsas problemi hesab edir. Digər bir problem isə oxu zamanı mətni məhdud zaman şəraitində yazılı sözlə şifahi ifanı birləşdirmək səriştəsizliyinin həm yazılı sözün, həm də şifahi ifanın imkanlarını azaltmasıdır. Operativ xəbər oxunuşunda diktorun məlumatı qəfil çatdırması zamanı tələffüzdə müəyyən problemlər yaranır. "*İnformasiya verilişlərini təkmilləşdirmək üçün sadəcə olaraq diktorların nitq hazırlığını artırmaq yox, həm də radioda oxunmaq üçün diktora verilən yazılı mətnin tərtibatının yeni və daha müasir qaydalarını hazırlamaq lazımdır*" [70, s. 59].

Xəbər aparıcısının emosional durumu informasiyanın özü qədər dəyərli və əhəmiyyətli hesab edilir. Aparıcının hadisəyə ilkin emosional psixoloji münasibəti informasiyanı tamamlayır və mətnin özü tərəfindən tərtibi təəssüratını yaradır. Aktyorluq məharəti ilə hadisəni işıqlandırır, sanki xəbəri yaşayırmış kimi danışır, bir sözlə dinləyicini inandırmağa çalışır. Radiopublisistika üçün önəmli olan sənədlilik xüsusiyyətini özündə ehtiva edir. "*İnformasiya təminatının dolğunluğu üçün radioda effektiv cəhətdən yayımın keyfiyyət üsullarının təkmilləşdirməsi zərurəti*" vacib rol oynayır [153, s. 59]. Xəbəri eşidən dinləyicinin gözü önünə real

mənzərə gəlir, beynində hadisənin təxəyyülü yaranır, fikirdən xəyali görüntü doğur.

Radionun “Şərhçi otağı”nda 52 il siyasi icmalçı olan Y.Qaraməmmədli xarici aləmdə baş verən siyasi hadisələri şərh edir. Əlində bir-iki qeyd edilmiş balaca bir kağızla canlı efirə çıxan beynəlxalq icmalçı sadə dillə, anlaşılan tərzdə dinləyiciyə günün olayını, hadisənin təfərrüatlarını çatdırır. Baş vermə səbəblərini izah edir və hadisədən qaynaqlanacaq bəzi ehtimalları xatırladır. Şərhçi efirdə olduğu müddətdə təkrarçılığa yol vermir, düşünülmüş nitq söyləyir və efir tələblərinə uyğun natiqlik nitqinin bir nümunəsini təqdim edir. Məhz Yasin Qaraməmmədli kimi təcrübəli əməkdaşların nitqi gənclərə örnək olmalı, onların ustad dərsləri təşkil edilməlidir [83; 248].

Semiotik baxımdan anlamın başa düşülməsi vacibdir. Bu da mətni olduğu kimi qəbul etməyə imkan verir (sintaqmatik fərqlənməyə görə, yəni kontekstdəki müxtəlifliyi, sonra paradiqmatik - onun yerində nə gələ bilərdi). Başqa sözlə, əsas və yardımçı fərziyyələrin şəbəkəsi müəyyən edilir. Bunun özülündə təcrübə, heyranolma, yəni fəlsəfi əsas durur ki, bunun da təsir prinsipini relevantlıq, kontekstdə nəzərə çarpmalıq, yəni tipikləşmiş eyniləşdirmə və fərqləndirmə təşkil edir. Bütün mətnlər dil kodları əsasında qurulur və gerçəklik haqqında bilikləri ehtiva edir ki, bunlar da adresata məlum olmalıdır [108, s.31].

İki və daha artıq şəxsin dialoqu zamanı fikrin aydın olması üçün anlaşılan ifadə tərzi radio mətnlərində də eyniyyət təşkil etməlidir. Elmi cümlələr, kitab mətnləri, mürəkkəb fikirlər efir dilinə ağırlıq gətirir. Qəzetdən fərqli olaraq dinləyicinin radioda deyilən cümlənin təkrarını izləmək imkanı yoxdur. Radio üçün aydın və nüfuzlu şəkildə yazmaq üçün iki mühüm məqama diqqət etmək lazımdır: birincisi, deməyə sözün olsun, ikincisi isə dediyini sadə şəkildə de. Yaxşı yazmaq üçün çox oxumaq və oxuduqlarının dili barədə düşünmək lazımdır. Nə uğurlu alınıb, nə yox. Reportaj hazırlamağın, nəql etməyin, ab-hava yaratmağın - bunların hər birinin öz üslubu var.

Milli radionun fondunda saxlanılan, “İctimai siyasi” proqramlar redaksiya-sında 1980-ci ildə lentə alınmış “Ana” radio jurnalının 10-cu buraxılışında yazıçı

Əzizə Cəfərzadənin çıxışı ilə tanış olaq. Radioya gələn məktubları şərh edən yazıçı söhbətini konkret bir mövzu üzərində qurub. Əvvəlcə süjetin adı anons edilir.

Diktor (kişi səsi): "Bütün analarla üzbəüz oturub soruşardım. Oğlunu, qızını gələcək ailə həyatı üçün necə hazırlamısan? Ona evdarlıq, biş-düş, bazar dükan işləri öyrətmisənmi? Yazıçı Əzizə xanım Cəfərzadə..."

(Qısa musiqi) Əzizə Cəfərzadə: "Xoş gördük, əziz analar...Bu gün mən gənclərimizin gələcəyi üçün narahat olanları düşündürən məsələlər haqqında danışmaq istəyirəm. Bəzən mən təzəcə evlənib ayrılan ailələri görəndə belə bir qənaətə gəlirəm ki, bəzi valideynlər övladlarının tərbiyəsi ilə kortəbii məşğul olurlar. Məsələn, xalq hakimi olan bir ana mənə danışdı ki, cavan ər-arvad ayrılanda mənə çox ağır təsir bağışlayır. Lap bu yaxınlarda körpəsi qucağında məhkəməyə gəlmiş gəlinin üzünə əri elə sözlər deyirdi ki, gəlinin anasının yerinə mən, necə deyərlər, əriyib yerə girirdim. Cavan ər deyirdi, "nə qədər ki, uşağımız olmamışdı, mən onun heç bir evdarlıq təcrübəsi olmamasına dözürdüm. Birtəhər öyrənər, elə mən də onun kimi öyrənməyə çalışırdım. Xörək bişirməyəndə gah onun, gah da mənim anamgildə keçinərdik. Yeməkxanalarda, kafelərdə otururdum. Tez-tez deyirdi, mən bunu eleməmişəm, mən bunu bilmirəm. Öyrənmək də istəmirdi. Qoy özü desin. Nə bacarırdım, kömək də eləyirdim. Uşağımız olandan sonra lap ağı çıxdı. Bələyə bilmirəm, yedizdirə bilmirəm, gedək anamgildə qalaq. Əlbəttə anagildə qalmaq ən asan yoldur. Amma haçanacan? Axı biz də ailəyik, biz də evik". Bu söhbətin əksinə olan bir məsələ yadıma düşdü. Bu dəfə cavan gəlin öz cavan ərindən şikayətlənirdi. Deyirdi ki, "heç bir işə yaramır. Allahın bazarlığı nədir ki, onu da etmirdi. Bazardakı sırtıq alverçilərin əlindən cana gəlmişəm. Ər olan bəndə bir düşünmür ki, axı bu bizim evimizdir. Bir kran xarab oldu, bir şüşə qırıldı, məcbur olub, ya usta dalınca özüm qaçıram, ya da əlimə çəkic, mismar alıb özüm düzəldirəm. İşdən qayıdan kimi xarici havaları, başımı gicəlləndirən musiqiləri oxudur. Di gəl, işdən, bazardan yorğun arğın gəldiyimdən gəl, indi bu miqsiqiyə qulaq as görüm, necə asırsan. Xörək də bir balaca gecikdimi, qanımı qaraltmağı bir yana, durub gedir kafeyə dostlarının, yoldaşlarının yanına. Elə bil mən canlı adam deyiləm" [236].

Bu çıxışda diqqət çəkən məqamlardan biri yazıçının dinləyici ilə açıq söhbət etməsidir. Cəmiyyətdə nüfuz qazanmış söz sahibinin ürəkdən səsləndirdiyi fikirlərdir. Bu zaman sözün ictimai təsir dairəsi daha da genişlənir, onun etibarlılığı hiss olunur. Sözün kim tərəfindən deyildiyi gərəkli amildir. Şəxsi həyatından çəkdiyi nümunələr yazıçını el içində başını bir qədər də uca edir. Məqsəd cəmiyyəti narahat edən, düşündürən bir məsələnin qabardılaraq ictimailəşdirilməsidir. Radionu dinləyən adi bir evdar qadın yazıçının çıxışına qulaq asandan sonra fikirləşir ki, belə bir hörmətli xanım, bu məşhur qadın ailənin bütövlüyünü müqəddəs hesab edirsə, hər cür zəhmətə qatlaşırsa, deməli, hər bir qadın bunun öhdəsindən asanlıqla gələ bilər. Bu çıxış hər bir dövr, xüsusilə müasir cəmiyyət üçün daha aktualdır.

Müasir dövrdə radiolarda tərbiyəvi çıxışlara rast gəlinmir. Əksinə ailə anlayışından bixəbər olan şou-biznes nümayəndələrinin efirdəki çıxışları gənclərin mənəviyyatına bilavasitə mənfi təsir göstərir. Əzizə Cəfərzadənin radio çıxışında başqa bir məqam isə odur ki, yazıçı öz mətnini əvvəlcədən hazırladığına baxmayaraq onu məharətlə ifa edir. Oxunuş yazıda olduğu kimi deyil, təbii danışıq fonunda, söhbət əsnasında verilir. Suallar verilərkən, müraciət əsnasında hiss və həyəcanını nümayiş etdirir. Bu çıxış əsl radiopublisistika nümunəsidir. Əfsuslar olsun ki, belə çıxışların əksəriyyəti fonddan silinib. Elə bu lentin qutusu üstündə də "pozulsun" sözləri yazıldığından bir müddətdən sonra fondda tapılmayacağı reallığı var. Lentləri nəzərdən keçirərkən mətnlərdə "sovet", "kommunizm", "SSRİ", "Lenin", "sosializm" və s. köhnə quruluşa aid sözlərə rast gəlinən kimi çıxışların yararsızlığı qənaəti ortaya çıxır və fonddan silinməsi, yandırılması üçün qərar verilir. Halbuki lentləri səbrlə dinləyib, oradakı mənalı söhbətləri zərgər dəqiqliyi ilə analiz etmək, səs tariximizi qorumaq və yaşatmaq naminə lazımdır.

Müasir dövrdə xəbər proqramları başlığı altında sənədli proqramlar daha çox televiziya sahəsində yer alır. Çünki radioda sənədli proqram hazırlamaq üçün gərgin və geniş araşdırma aparmaq lazımdır. Sənədli filmlər öz mövzularını gerçək hadisələrdən, şəxslərdən və təbiətdən alır. Radioda sənədli film hazırlamaq üçün geniş araşdırma aparmaq lazımdır [195].

Müasir dövrdə efir sərbəstliyi, özəl yayımların səriştəsiz kollektivi, bayağı ifadələr, efirə ictimai çəkisi olan insanların dəvət edilməməsi, çıxışların azalması, reportaj, oçerk janrının işlənməməsi radioda sözün kəsərini qüvvədən salıb. Format dəyişiklikləri, informasiyanın istənilən təqdimatda səslənməsi, diktorların aparıcılarla, diceylərlə əvəzlənməsi, artıq dəb halını alan müəlliflərin özlərinin, "səsi oldu, olmadı", efirdən eşidilməsi danışıq fərqliliyi yaradır. Belə hallar nitq mədəniyyətinə təsirsiz ötüşmür. Akad.R.Mehdiyev yazır: "*Bir çox hallarda aparıcıların peşəkarlıq səviyyəsi, nitqi standartlara uyğun gəlmir. Bəzi proqramların, əsasən də əyləncə xarakterli verilişlərin aparıcıları jurnalistikadan uzaq, efir mədəniyyəti, peşəkarlığı aşağı olan şəxslərdir*" [69].

Radio jurnalistikasında problem mövzulardan biri efirdə ləhcələrin geniş yayılması, hərflərin düzgün tələffüz olunmaması, xarici dillərdən keçmə sözlərin səhv deyilməsidi. 50 il radioda çalışan tanınmış diktor Əli Məhəmmədoğlu deyir: "*Jurnalist "tokarçı" sözünü işlədir. O sözün Azərbaycan dilində tərcüməsi "torna"dır, "torna dəzgahı". Orda işləyən adama da "tornaçı" deyirlər. Rus dilində "tokar", "tokarnıy stanok". Yaxud, yol polisində çalışan podpolkovnik dəfələrlə müxtəlif efirlərdə müsahibə zamanı deyir ki, "piyadaçı" yol hərəkəti qaydalarını pozub. "Piyadaçı" səhv deyilişdir, burada "çı" şəkilçisi artıqdır*" [82; 192].

Özəl radiolarda verilişlərin ortasında ara-sıra rus sözləri eşidilir, axırda da ingilis dilində "ok" deyilir. Əyləncəli verilişlərin üstünlük təşkil etdiyi özəl kanalların dinləyiciləri daha çox gənclər, yeniyetmələrdir və onlara gördükləri, eşitdikləri tez təsir edir. DJ-lər (dicey) qəribə danışıq tərzi ilə efirdə "hökmranlıq" edirlər. Özəl efirlərdə təkcə dil qaydaları deyil, radiojurnalistikanın bütün tələbləri, canlı ünsiyyət zamanı aparıcılar, həm də efirə qoşulan dinləyicilər tərəfindən pozulur. Rəvan nitq bir andaca məişətdə işlənən loru danışığa çevrilir. Canlı yayıma çıxarılacaq aparıcının seçiminə düzgün əməl edilərsə, bu məsələdə problemi qismən həll etmək olar. Digər FM-lərdən fərqli olaraq milli radioda canlı verilişlərə məhz bu nöqteyi nəzərdən az yer verilir.

Mətnlə tanışlıq zamanı diktorun önəm verdiyi ən vacib məsələ vurğuların düzgün səslənməsidir. Məntiq və məna vurğuları yerində olmalı, fikirlər bir-birini tamamlamalıdır. Şifahi və ya yazılı nitqdə məna aydınlığının, fikir dəqiqliyinin zəruriliyini önə çəkən F.Köçərlinin sözləri ilə desək "*dili dolaşıq şəxsin fikri də dolaşıq olar*". Məntiq qanunlarının pozulması, leksik, qrammatik üslubi, morfoloji və sintaktik səhvlər mətnin anlaşıqlı olmasını çətinləşdirir [190].

2009-cu ildə Azərbaycan radiosunda "xüsusi komissiya" yaradılır. Uzunmüddət radioda və televiziyada çalışan, efir qaydalarını yaxşı bilən təcrübəli mütəxəssislər, qocaman jurnalistlər verilişlərə efirdən əvvəl qulaq asırlar. Radionun dinləyici auditoriyasında şöhrət qazanması üçün gənclərin peşəkarlardan dərs götürməsi məqsədilə yaradılan komissiya üzvləri gün ərzində bütün verilişlərə efirdən öncə nəzarət edir, hansı məqamlarda dil normaları pozulubsa, düzgün tələffüz olunmayıbsa, yaxud verilişin süjet xəttində anlaşılmazlıq varsa, yenidən işlənilməsi üçün redaksiyaya qaytarır. Bu mənada Azərbaycan radiosu dilçi alimlərin çox ehtiramla adını çəkdiyi və nümunə göstərdiyi FM-lərdən biridir.

Bu gün ölkəmizdə dilçiliyin bütün sahələri dəqiqliklə araşdırılmalıdır. Zaman-zaman təqiblərə məruz qalan və müstəqillik qazandıqdan sonra inkişaf mərhələsini yaşayan doğma ana dilini qorumaq, yaşatmaq və onu təbliğ etmək sahəsində dövlət tərəfindən "dil siyasəti" həyata keçirilir [60]. 1995-ci ildə qəbul edilən ölkə konstitusiyasında Azərbaycan dilinin milli dövlətçiliyimizin rəmzlərindən biri olaraq təsbit edilməsi, 2001-ci ildə Ümummilli Lider Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanı, 30 sentyabr 2002-ci ildə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunu, hər il avqustun 1-i respublikamızda "Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" kimi qeyd edilməsi, Prezident İlham Əliyevin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamı, 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan yeni nəşrlərin həyata keçirilməsi, Azərbaycan Milli Ensiklopediyasının nəşri, 2013-cü il aprelin 9-da "Azərbaycan dilinin qloballaşma

şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" haqqında Sərəncamın icrası, 2018-ci il iyulun 17-də "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı və s. tədbirlər dilçiliyin bütün istiqamətlərində tədqiqatlar aparılması üçün alimlərin üzərinə böyük məsuliyyət qoyur.

## 2.2. Səs effektlərinin və fon musiqisinin məzmunun açılmasına təsiri

Audiopublisistikada "söz"ün "küy səslər"lə işlənməsi radio sənətkarlığının əsasını təşkil edir. Hər hansı səs elementinin mexaniki şəkildə efirə gətirilməsi radio sənətinin estetik təbiətinə ziddir. Radioda hər kiçik səs dinləyicinin diqqətini məzmundan yayındıra bilər. Radiojurnalist dediyi sözə adekvat cavab verən əlavə səsin efirə verilməsinə cavabdehdir. Süjetinin dolğunluğu üçün sübuta söykənilməlidir [181, s.6].. Hər səs effektinin semantik və informativ yükü olmalıdır. "*Dramaturji mətni mexaniki şəkildə illüstrasiya etməyin, "akustik dekorasiyalar" yaratmağın, personajların daxili aləmini ifadə etməyin heç bir konkret emosional və bədii əhəmiyyəti yoxdur*" [78, s.359]. Bunun üçün jurnalistikanın sənətkarlığını dərindən bilmək, çalışdığı efirin tələblərini mükəmməl şəkildə yerinə yetirmək, estetik xüsusiyyətləri nəzərdə saxlamaq lazımdır. Jurnalist işləyəcəyi mövzunu, çalışacağı obyekti tam şəkildə qavramalıdır ki, gözlə müşahidə etdiyi mənzərənin real görüntüsünün "səs" və "küylər" vasitəsilə xəyali gerçəkliyini yaratsın. Media mütəxəssisi Z.Məmmədli yazır ki, "*sırf radio xəbərini TV-yə qohumlaşdıran ən danılmaz özəllik məxsusi müsahibələrdən daha çox təbii səslər-interküydür*" [89, s.21].

"Səs effektləri və səs hədəflərinin görüntü və audio quraşdırmaya təsiri" adlı məqaləsində ispaniyalı professor Emma Rodero qeyd edir ki, radio yayımı dinləyiciyə tanış olan təsvirləri özündə əks etdirməlidir. Onun apardığı araşdırmaya əsasən "*radioda elan edilən fikirlər nəticəsində yarana bilən təsvir həm də vizual görüntü yaradır*" [227].

“Medianın anlaşılması” əsərində M.Maklüen fərdi ünsiyyət təcrübəsi adlandırdığı radionun təkbətək ünsiyyət məqamında dinləyicisinə güclü təsir göstərmək qüdrətində olduğunu qeyd edir. “*Radionun təsiri insanda vizual görüntü yaradır*” [155, s.77].

Radio üçün səsin yazılışı bir neçə üsulla həyata keçirilir:

- Səsin studiyada yazılışı - mövzu ilə bağlı qonaqların, çıxışçıların efirə dəvət edilməsi, qabaqcadan planlaşdırılmış söhbətin təşkili;
- Səsin studiyadan kənar yazılışı - müxtəlif radiojanrlarda işlənən materiallar. Tədbirlərdən hazırlanan efir məhsulları, jurnalistin sərbəst istəyi və ya redaksiyanın tələbi ilə obyektdən yazılan səslər.

Studiya şəraitində səsin keyfiyyətli yazılışını səs operatoru və rejissor həyata keçirir. Səsin, danışığın eyni xətt üzrə səviyyəsini efir rejissoru pultda mikşerlə tənzimləyir. Hazırlıq zamanı mikrofonla ara məsafəsi düzgün qurulmalıdır ki, ağız boşluğunun neqativ ünsürləri (nəfəs yollarının səsi, udqunma, marçıltılar, mikrofonun əks-sədası və s.) nitqə əngəl törətməsin.

Rejissorun köməyi ilə yazılan səslərdə bütöv bir komanda heyəti çalışırsa, səsin obyektdən alınmasında jurnalist bilavasitə təkbaşına fəaliyyət göstərir. Onun yeganə köməyi daima üzərində gəzdirdiyi səs yazı aparatıdır.

Radio jurnalisti yaradıcılıq prosesində 3 meyarı diqqətdə saxlamalıdır:

- Xidmət etdiyi dalğanın mənafeyini yüksək tutmalı, səsləndirdiyi fikrin tək özünün deyil, məxsusi olaraq çalışdığı məkanın adından deyildiyini, radionun sözü olduğunu dərk etməlidir. Hər bir əməkdaş təmsil etdiyi qurumun “sifəti” hesab olunur.
- Jurnalist müsahibə aldığı şəxsin mənafeyini düşünməlidir. Ünsiyyətcil olmalı, qarşı tərəflə söhbətində etik qaydaları gözləməli, ilk dəfə gördüyü adamı sanki çoxdan tanıyırmış kimi, illərin dostu kimi danışdırmalıdır. Hətta müsahibi kobud olsa belə, onunla incə qaydada davranmalıdır. “*Cəmiyyət qarşısında məsuliyyətini nəzərə alaraq, jurnalist elə davranmalıdır ki, maraqların münaqişəsinə yol verməsin*” [87, s.256]

•Dinləyicinin istəyi nəzərə alınmalıdır. Jurnalist söhbəti zamanı müsahibinə auditoriyanın maraq dairəsindən yanaşmalı, nəyi eşitmək istədiyini hiss etməli, gözlərinin qarşısına onu eşidən insanların xəyali görüntüsünü gətirməlidir.

BBC, CNN kanalında 17 il jurnalist kimi çalışan Liz Corc yazır ki, "*radio, televizor bizim köhnə dostlarımızdır. Hara gediriksə, kafenin küncündə qoyulan televizora, evdə, soyuducunun üstündə olan radioya biganə qala bilmirik. İstər-istəməz onu açıb nə isə eşimək marağında oluruq. Aparıcılar tez-tez söndürmə düyməsini xatırlamalıdır ki, kimsə onun səsindən bezəndə, məcbur olub səni tərk etməsin. Auditoriya sənə güvənməsə, səni dinləməyəcək, qulaq asmayacaq və radionu asanlıqla söndürəcək*" [214].

Yaxşı radiojurnalist olmaq, maraqlı müsahib tapmaq, məzmunlu söhbət yazmaq üçün peşəkarlıq və ən əsası səmimi ünsiyyət lazımdır. "*Xəbər materialından ibarət olan müstəqil səs sənədi subyekt emosional və ya yetərincə tanınmış olduğu halda xüsusilə güclü alınır*" [15, s.122].

Yenə də İ.Mehdizadənin efir təcrübəsindən bir misal çəkək. Jurnalistə komandirlərin məktəbində keçiriləcək hərbi paraddan reportaj hazırlamaq tapşırılır. O tədbirin keçirildiyi yerə vaxtında çatır. Əvvəlcədən də təxmin etdiyi kimi açıq havada kütləvi tədbir olduğundan təbii ki, "səs-küy"lə müşahidə olunan və radio üçün təmiz səsin yazılışı üçün münasib hesab edilməyən məkanda çalışmalıdır. Bu zaman jurnalist nə etməlidir? Obyektdən əliboş qayıtmamaq üçün kimdənsə paraddan qabaq müsahibə almaq məcburiyyətindədir. Tədbir başlamamış yazılan hər hansı bir çıxışda danışanın emosional durumu jurnalisti qane edə bilərmi? Axı radio çıxışlarında təbiilik, hiss, həyəcan olmalı və iştirakçı daxilindəki ovqatı söhbətində biruzə verməlidir. Bu ovqatı isə tədbirin keçirildiyi an və ondan sonra qısa bir zamanda hiss etmək mümkündür. Məkandakı şəraiti qiymətləndirən müxbir hər ehtimala qarşı əvvəlcədən bir neçə nəfərin söhbətini lentə alır. Orkestrin müşayiəti ilə əsgərlərin addım səslərinin reportyora yazılması prosesi də vacibdir. Professional radio jurnalisti maksimum çalışmalıdır ki, tədbirdə gördüyü ən maraqlı insanlardan biri və ya bir neçəsi ilə söhbətləşə bilsin. Verilişin reytinq qazanması və redaksiyanın səmərəli fəaliyyəti üçün bu, çox önəmli amildir. Paradı

qəbul edəcək şəxslər arasında Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovu görəndə ondan müsahibə almağın gərəkli olduğunu düşünür. Parad bir neçə saat davam edir, qızmar günəş altında əsgərlərin də, kürsüdə duran hərbi heyətin də yorğunluğu hiss olunur. Təbii ki, tədbir qurtaran kimi hamı dağılışmağa başlayır. Bu an jurnalistin radio üçün müsahibə almaq istəyi reallığa çevrilməyə bilər. "Olarmı sizdən Azərbaycan radiosu üçün müsahibə alım?" sualına həmin an qarşı tərəfdən "yox", "indi yorğunam", "qalsın başqa vaxta" və s. bəhanələr səslənər. Ona görə də təcrübəli jurnalist belə məqamlarda müsahibə bu formada və buna oxşar suallarla yaxınlaşmır. Axı Ziya Bünyadovun mikrofona elə də həvəsli olmaması, xasiyyətindəki ötkəmlik, sözünü kobud şəkildə birbaşa deməsi jurnalistin fəaliyyətinə mane törədəcək real faktlardır. Tədbir zamanı lazımi fürsət axtaran jurnalist müsahibinə daha yaxın yerdə dayanır və nəzərlərini ona dikir. Baxışlarından istəyini hiss etdirməyə çalışır. Tədbir bitən an isə tələsik yaxınlaşıb akademikdən soruşur: "Ziya müəllim, bu gənclərə baxanda yəqin ki, gəncliyinizi xatırladınız, mən hiss eləyirəm ki, sizin keçmişiniz yadınıza düşdü....". Deyilən sözlər müharibə qəhrəmanına anındaca təsir edir. Ziya Bünyadov ayaq saxlayır və kövrəlir, ötənləri yada salır. Beləliklə, müxbirin gözlədiyi məqam yetişir və qəhrəmanla iki saat ərzində söhbətləşir, sual-sualın dalınca ünvanlanır. Nəticədə yazılan çıxış müxbirin arxivində sonralar qiymətli səslərdən birinə çevrilir. Çünki günün tədbirindən başqa həmin lent yazısında dünəndən, qəhrəmanın yaşantılarını əks etdirən keçmişdən maraqlı söhbətlər, almanlarla mübarizədə öz həmyerliləri ilə keçirdiyi eyni səngər həyatının unudulmaz məqamları, cəbhə xatirələri şahidin öz dili ilə nəql olunur. Bu çıxış gələcək nəsillərə ötürülən səs salnaməsidir. Bütün yaradıcılıq boyu jurnalistin ayrı-ayrı vaxtlarda, lazımi məqamlarda istifadə edəcəyi sənədli materialdır, bugünlə bərabər sabaha düşüncəsinin əməli fəaliyyətidir [199].

Bu mövzuda daha bir peşəkarın təcrübəsini nəzərdən keçirək. Y.M.Qalperin yazır ki, *bir müharibə veteranından müsahibə alır. O radio mikrofonu önündə dərindən bir ah çəkib sonra fikrini ifadə edir. Həmin səs, müsahibin nələr yaşadıqlarını, ağır günlər keçirdiyini ifadə edən dəyərli element kimi süjetə xüsusi*

*məna gətirir və sonralar həmin məqam radiorepartyorun səs arxivində saxlanılır* [133, s. 108]

Radio üçün unikal səslər toplayan Rəfael Hüseynovun səs arxivi də dəyərli səs yazıları ilə, nadir çıxışlarla zəngindir. Alimin gənc yaşlarından elm aləmində gərgin axtarışlar aparmaqla yanaşı, radiodakı fəaliyyəti də təqdirəlayiqdir. 40 ildən artıqdır ki, ana radioda "Axşam görüşləri" verilişinin müəllifi və aparıcısıdır. Maraqlı faktlardan biri də budur ki, bu günə kimi bir dəfə də olsun efirdə verilişin təkrarı səslənməyib. Hər həftənin bazar günü yeni mətnlər əsasında orijinal süjetlər təqdim edir. Musiqi aləminin, milli sənət dünyasının tanınmış simaları ilə müsahibələr və toplanan səs yazılarına həssaslıq radiojurnalist fəaliyyətinin nəticəsidir. Muğam ifaçısı Şövkət Ələkbərovanın xəstə yatdığı vaxtlarda Rəfael Hüseynovun onunla söhbəti faktlarla zəngindir. Sənətkarın haqq dünyasına köçəcəyini hiss edən müəllif onu daha çox danışdırmağa çalışıb. Sənətkarın ömür yolunu öz dilindən, öz səsində dinləmək, onun səs mirasına sahib olmaq Azərbaycan radiosu dinləyicisinə müvəffəq olub. Xalq artisti Rübabə Muradova ilə söhbətini izləyən yaxın dostu radiojurnalist İntiqam Mehdizadə deyir ki, veriliş efirə veriləndə ustalıqla edilən montajın şahidi olub [84]. Yaxud, Yavər Kələntərli ilə söhbətini sovet hakimiyəti illərində olduğu kimi üzə çıxarmaq mümkünsüz görünürdüsə, bugünkü gündə sənətkarın ömür yolu, Üzeyir Hacıbəyovla bağlı xatirələri sənədli materiallardır. Rəfael Hüseynovun müsahibələrində radiojurnalistikaya professional yanaşma var. Sırf efir estetikasına cavab verən nüanslarla zəngin yaradıcılıq ampulası nəticəsində "Axşam görüşləri"nin hər buraxılışı "Qızıl Fond"da saxlanılır, nadir səslər milli incəsənət sahəsinin tədqiqində sənədli radiopublisistika mənbələridir.

Azərbaycanda sənədli audiopublisistikanın inkişafında jurnalist Telman Qarayevin də xidmətləri danılmazdır. Şəxsi arxivində 5 mindən artıq səs yazısı toplanıb. Ölkədə müstəqil audio/radiojurnalistikanın formalaşdığı illərdə radioda "Məktublar və publisistika şöbəsi"nə rəhbərlik edib və hər ay 13 orijinal verilişin müəllifi olub. Sənətşünaslıq elmləri doktoru, professor Ramiz Zöhrabov yazır: "*Telman Qarayevin həm səs dəryasında, həm də 50 illik fəaliyyəti dövründə*

*mətbuatda dərc olunan yazılarında dövrün mədəniyyət salnaməsi toplanıb. Orada onlarla namizədlik və doktorluq elmi işlərinin məhsulu var. Tədqiqatçı alimlər, musiqi nəzəriyyəsi və elmi işlə məşğul olan gənclər bu xəzinədən heç olmasa bir damla götürməlidir. Telman Qarayev radio, televiziya çıxışlarında, müsahibələrində dəfələrlə deyib ki, bu sərvəti xalqı üçün toplayıb*" [48, s.4].

Radio üçün yazılmış səslər, çıxışlar radiojurnalistin səs arxivini zənginləşdirdiyi kimi, toplanan "səs lövhələri", "küy səslər" rejissorun səs bazası palitrasının çeşidini artırır. Bütöv bir akustik radioəsərin yaradılması bədii yaradıcılıq prosesidir. Yaradıcılığın təbiəti və xüsusiyyəti nöqteyi-nəzərindən radiojurnalistin bu və ya digər material üzərində işi onun əlindəki imkanlarla müəyyənləşdirilir. Radiopublisistikanın əsas üslübyaradıcı və ifadəedici vasitələri söz, musiqi, küy və montajdan asılıdır. Yaradıcılıqda bu məsələlərə diqqət yönəlməlidir. Konkret bir əsərdə ideya yaradıcılığının və fikrin stilistik xüsisiyyətləri jurnaistin və rejissorun peşəkarlığı ilə müəyyən olunur [209].

"Səs effektləri" danışanın nitqinə əlavə olaraq səslənən və onun məna yükünü özündə əks etdirən mühüm amil hesab olunur. "*Əgər əsas ifadə vasitəsi olan söz, bütövlükdə ideyaların aparıcısı kimi məzmunu ifadə edirsə, musiqi və səs effektləri bu vəzifənin həyata keçirilməsində sözə hətta yardımçı olur, bəzən konkret məqamlarda onun ekvivalenti səviyyəsinə yüksələ bilir*" [21, s.152].

Radiojurnalistikada "küy səslər" "bədii təsvir" elementləri fonunda çıxış edir. İnformativ əhəmiyyət daşıyan "səs-küylər" mətnlərə, müxbirin, aparıcının, diktorun, bir sözlə danışanın söhbətinə uyğun olaraq efir məhsuluna əlavə edilir. Sənədli radiopublisistikanın əsas əlamətlərindən biri kimi deyilən fikrə, qoyulan mövzuya, ən əsası danışılan sözə "qüvvət" rolunu oynayır. Radiojurnalistikanın bütün janrlarında "küy"lərdən istifadə, hadisənin təsviri "səs effektləri" vasitəsilə göz önündə canlanır. Məsələn, gecədən söhbət açılırsa və yaxud hadisə ilin hansısa fəslinə aiddirsə, həmin verilişdə təbiətin o ana uyğun səsinin eşidilməsi radio nitqini inandırıcı edir. Radioda istifadə edilən "küy səslər" olayı aydınlaşdırmaq baxımından məxsusi xüsisiyyətlərə malikdir. Yəni, xəbərlə gerçək arasında əlaqənin bağlılığını təmin edən vasitədir [148].

Radio üçün yazılmış səsin nizamlanması prosesi montaj otağında həllini tapır. Səs operatoru geniş söhbətin içərisindən redaktorun süjetinə uyğun günün tədbiri ilə bağlı hissələri götürür. Montaj ustalıqla həyata keçirilməlidir [172, s.48]. Mövzu tam əhatə olunmalı, cümlələr arasındakı əlaqələr qırılmamalı, fikirlər haçalanmamalı və nəfəsalmalarda belə səsin ahəngi pozulmamalıdır. Yalnız təcrübəli səs texniklərinin peşəkarlığı ilə uzun söhbətlərdən lazımı məqamlar istənilən an bitkin süjetə, tam bütövləşən radioəsərə  çevrilir. Mövzunun veriləcəyi proqramdan asılı olaraq, məsələn, "Xəbərlər" proqramında iki, üç dəqiqəlik, yaxud əsgərlərə aid publisistik verilişlərdə 10-15 dəqiqəlik, lazım olduğu halda yarım və bir saatlıq həcmə salınır. Səsin montajı düzgün aparılmadıqda radioefirdə ciddi nöqsanlar hiss olunur.

Diqqətsizlik mövzunu yarımçıq edə bilər. Məsələn, müsahib bir fikri əsaslandırarkən mövzuya geniş aspektdən yanaşır. Montaj prosesində çıxışa axıra kimi qulaq asmadıqda fikirlər "adda-budda" götürülür. Cümlələrin bir-birinə bağlılığı qırılır və məntiqi əlaqə kəsilir. Fikir anlaşılmır. Müsahib bunu özünə qarşı hörmətsizlik kimi qəbul edir və radio əməkdaşına, efirə inamı itir. Növbəti dəfə efir təklifini rədd edir. Bu məsələ həm də auditoriyanı narahat edir. Çıxışçının cavabı dinləyicini qane etmədikdə, noqsanı danışıqda görür, səsin keyfiyyətsiz montaj olunduğunu ağlına belə gətirmir.

Çıxışlara düşən kənar səslər mövzuya aiddiyatı olmadıqda efirdə nöqsan hesab edilir. Bunun üçün müxbir səs yazısı zamanı akusitik fonu özü tənzimləməlidir. Tədqiqatçı Mark Briqs yazır: "*Əgər mümkün olsa, müsahibə üçün elə yer seçin ki, sakit və yaxşı akustika olsun. Müsahibənin bayırda olması tələb edilirsə, elə edin ki, mümkün olduqca nəqliyyatın səsindən və insan kütlələrindən uzaq olsun*" [15, s.123].

Arzuolunmaz səslər mikrofona düşdüyü təqdirdə, istifadə edilməməlidir. Bəzən səs operatorları həmin küy səslərin danışanın səsi ilə eyni nöqtəyə düşməsini səbəb göstərirlər. Məsələn, çay kənarında bir insandan müsahibə almaq olar. Suyun şırıltısı çıxışın səs tonunu korlamır, əksinə danışığa bir az da polifonik səs qatır. Ancaq danışıq zamanı gurultu ilə gələn yük maşınının qulaq batırıcı səsi

eşidilirsə, bu da efir üçün nəzərdə tutulmuş səsin üzərinə düşürsə, materialın səs keyfiyyətinə təsir göstərir [61].

Montaj radiojurnalistikada üslubyaradıcı ifadə vasitələri qurupuna aiddir. Prof. A.Dadaşovun sözləri ilə desək "*montajın yaratdığı fotoqrafik poeziya, ədəbiyyatdan gələn və artıq radioda möhkəmlənən ədəbi teatra bənzədi*" [20, s.24]. Radioda akustik, paralel, ardıcıl montajlardan istifadə olunur. Məzmun və səs strukturunun qarşılıqlı əlaqə sistemi akustik montajla həyata keçirilir. Müxtəlif zamanlarda yazılmış səslərin redaktorun istəyi ilə işlənməsi prosesi paralel montaj növünə aid edilir. Ardıcıl montajda isə hər iki növün iştirakı ilə səsin təmizlənməsi prosesi ardıcıl xətt üzrə gerçəkləşir.

Radiojurnalistikada "akustik kollaj"dan fərqli xassəyə malik olan səs elementlərinin bir süjetdə əks olunması metodundan geniş istifadə olunur. Bir az əvvəl misal çəkdiyimiz müxbirin hərbi paraddan yazdığı çıxış və "küy səslər" montaj prosesindən sonra rejissora ötürülür. Rejissor mətnə, müsahibəyə uyğun olaraq "küy səslər"i çıxışın fonuna salır. Danışığın fonunda orkestrin ifası və addım səsləri eşidilir. Birinci səs yüksəkdən, ikinci səs isə çox aşağıdan səslənir. Bir bitkin süjetdə müxbirin müsahiblə söhbəti, orkestr, addım səsləri, paraddan keçən dəstələri təqdim edən şəxsin səsi duyulur. Dinləyiciyə artıq parad barədə danışmaq lazım deyil. Fondakı səslərdən mövzu aydın olur. Müharibə, kursant hazırlığı ilə bağlı hadisə yerindən yazılmış və montaj olunmuş müsahibə ilə studiyada üzərinə işlənmiş zəif fonda paralel səslənən ikinci səsin (parad səsi) əsas səslə (müsahibin səsi) bağlılığı hadisənin mahiyyətini üzə çıxarır.

Zavoddan, fabriklərdən, səsi gur çıxan dəzgahların çalışdığı obyektlərdən müsahibə alarkən jurnalist mühitlə əvvəlcədən tanış olmalı, yazılış üçün real imkanlar axtarmalı, yəni bir qədər sakit guşə seçməli, yüksək səslə işləyən mexanizmlərdən uzaq durmalıdır. Bir sözlə, səsləri seçməyi, eşitməyi və dinləməyi öyrənməlidir. Səsin rənglərini öz işində bacarıqla tətbiq etmək üçün onları mükəmməl duymaq qabiliyyəti lazımdır. Aparılan araşdırmalara görə "*auditoriyanın 45 faizi dinləyərək informasiya əldə edir*" [145, s.62].

Prof. F.Veysəllinin elmi qənaətinə görə, "*işarə insanın sensor üzvləri ilə qavranılan və cübəcür maddi varlıqda reallaşan elə bir əlaqə formasıdır ki, bu əlaqə insanların qarşılıqlı ünsiyyətində müəyyən məlumatların ötürülməsinə və qəbul edilməsinə xidmət etməklə ətraf aləmdəki predmet və hadisələr haqqında intelektual və emosional xarakterli hisslər oyadır. İşarə nəyinsə yerində işlənir, nəyisə təmsil edir, ancaq o, predmetin və ya hadisənin özü deyildir*" [108, s.171].

Efirdə səslənən "küy səs"ləri sözün istiqamətləndirilməsində xüsusi işarələr sistemi kimi səciyyələndirmək olar. Verilişin uğurlu alınması yazılmış mətnin üslubundan, dolğunluğundan, aparıcının yüksək səviyyədə təqdimatından və məntiqlə istifadə edilən küy-səslərdən asılıdır. Beləliklə, radioda "küy-səslər"i belə qruplaşdırmaq olar:

- Təbii səslər - obyektdən müsahibə alınarkən ümumi fona düşən küylərdir. Bunlara təbii səs lövhələri də deyilir. Jurnalistin mikrofonuna müsahibin səsi ilə eyni anda həkk olunan kənar səslər, məsələn səsli-küylü tədbirlərdən hazırlanan reportajlar, hadisə yerindən müsahibələr, yanğın hadisəsindən danışılırsa, yanğınsöndürən və təcili yardım maşınının səsi. Yaxud kənd mühitində yazılan söhbətlərə quşların, toyuq-cücənin, mal-qaranın, qoyun-quzunun və s. səslərin düşməsi.
- Sənədli səslər - əvvəlcədən yazılmış və çeşidlənmiş səs elementlərinin radioəsərə tətbiqi, yəni studiya şəraitində konkret mövzuya uyğunlaşdırılması.

Radio haqqında danışılan hadisələr elə "cərəyan" etməli, dil materialı elə qurulmalıdır, musiqi və səs lövhələri elə işlədilməlidir ki, baş verən hadisə, məkan, həmin hadisənin qəhrəmanları-obrazlar dinləyiciyə aydın şəkildə təqdim olunsun [78, s.261].

Radioda küy səslərin tətbiqinə ilk dəfə radiotamaşalarda rast gəlinir. Ilk radiotamaşa Riçard Xyüzenin "Təhlükə" əsəri 1924-cü ildə BBC radiosu ilə səsləndirilib. Müəllif onu teatr üçün yox, məhz mikrofon qarşısında "oynanılmaq" üçün yazıb. İlk dəfə radionun spesifik xüsusiyyətlərinə uyğun əsər dinləyicilərə təqdim edilib [77, s.203]. Radiotamaşalarda zəngin səs çalarları, aktyor nitqi, müxtəlif akustik effektlərin rolu radiorejussorluğun spesifikasını müəyyən edir.

1971-ci ildə Azərbaycan radiosunun “Gənclik” redaksiyasında lentə alınmış “Füruzə” tələbə teatrının “Aqronom” radiohekayəsində səs elementlərindən istifadəyə nəzər salaq. Kiçik tamaşada kino aktyorları kursunda təhsil alan tələbələr iştirak ediblər. Lentin əvvəli lirik musiqi ilə başlayır və diktor hekayənin adını səsləndirir. Birinci fonda səslənən diktor səsinin altından işlənən “küy səslər” ikinci fondan yüksələrək əsas səs elementinə çevrilir:

Küy:Vağzal səsi...

Səs:(oğlan) Bağışlayın bu avtobus Əmirli kəndinə gedir?

Səs: (qız) Bəli.

Səs: (sürücü) Tez olun əyləşin, yola düşürük.

Küy: Avtobusun qapıları örtülür və mühərriki işə düşür, lirik və həzin musiqi səslənir....

Səs: (oğlan) Siz də Əmirliyə gedirsinz?

Səs: (qız) Bəli.

Səs: (oğlan) Xeyirdimi?

Səs (qız): Atam o kənddə işləyir, gedirəm ona baş çəkməyə.

Küy: Gənclər söhbətləşə-söhbətləşə kənddə çatırlar. Avtobusun yol boyu şütüməsi, yolüstü dayanacağı, sərnişinlərinin dialoqları səslənir. Avtobusdan enmə anının təsviri kəndin spesifik səs fonunun eşidilməsi ilə tamamlanır. İlk olaraq qaz və ördək səsləri gəlir.

Kəndə gələn oğlanın aqronom olması, təyinatla yeni iş yerinə gəlişi, yolda tanış olduğu qızın atasının yerinə onun göndərilməsi, böyük-kiçik yanında hörməti olan el ağsaqqalının təcrübəsindən faydalanmaq, yararlanmaq istəyi, tez-tez köhnə həmkarının evində qonaq olması, qocaman aqronomun arvadının ərinin yerinə işləməyə gələn yeni mütəxəssislə kinli davranışı, gənclərin sevgi macəraları və s. maraqlı səhnələr səs lövhələri ilə müşayət olunur. Məsələn, yaşlı kişinin səhər tezdən oyanması səhnəsi quşların səsi, naxırın örüşə ötürülməsi, əmlik quzunun mələməsi ilə işlənib. “Xeyir ola ay kişi, sübh tezdən bu təlaş nədir?” sözündən və işarələrdən səhərin yeni açıldığı radiosəhnədə rejissor ustalığı ilə verilib.

Radiohekayədə kəndin bir neçə təsərrüfat fəaliyyətindən, üzüm, pambıq və taxıl sahələrinə qulluqdan söhbət açılır. İki aqronomun sahələri gəzməsi fondakı səslərdən aydınlaşır. Pambıq yığan maşının səsindən onların hansı tarlada olması, kombaynlarla taxıl sahələrini gəzməsi və s. səs ünsürlərindən istifadə ayrı-ayrılıqda gerçək təsvirlər formalaşdırır. Əgər əvvəldə dinləyici gənclərin avtobusla yol getdiyini eşidirdisə, sonda kənddən gedən dəmir yolunun taqqıltıları, qatar səsi hekayənin maraqlı alınmasını təmin edir. On beş dəqiqəlik hekayədə aktyorların səsinə ciddi sənətkarlıq nöqteyi nəzərindən yanaşılıb. Baxmayaraq ki, iştirakçılar ikinci kurs tələbələridir və hamısı da gəncdir, onların səs diapozonu, rollarını məharətlə ifası rejissorun düzgün seçimi nəticəsində uğurlu alınıb. Təbii ki, yaşlı qocanın obrazını da gənc tələbə oynayır. Ancaq onun səs imkanı rejissor tərəfindən o qədər düzgün qiymətləndirilib ki, radiohekayədə ağsaqqal surətini yaradanın gənc olduğu hiss edilmir. Məsələn radionun əbədiyaşar nümunələrindən biri olan "Bulaq" verilişinin aparıcısı Səməndər Rzayevin yaşı az olmasına baxmayaraq, ağsaqqal kimi danışması, aktyorun qeyri-adi nitqi, unikal səsi, el dili ilə desək, "oturuşmuş", "bişmiş" səslərdən sayılırdı.

Radiohekayə studiya şəraitində lentə alınıb və səs lövhələri vasitəsilə kənd həyatının reallığı təsvir edilib. Rejissorun küy səslərdən məharətlə istifadəsi dinləyicidə fərqli təəssürat yaradır və kənddə cərəyan edən hadisəni təxəyyülündə canlandırır [243].

Səsləri forma və xarakterinə görə, səs zərbələri (səs dalğaları), gurultular, musiqili səslər və ya tonlar halında qruplaşdırmaq olar. Radionun akustik təbiətində bütün səsləri orijinal olaraq canlandırmaq və dinləyici şüuruna təlqin etmək mümkündür. Zəruri səslərdən istifadə edərək qeyri-adi məkan effekti yaratmaq və tamaşalarda tətbiq etmək sənətin təşəkkülü dövründə də, radioteatrın inkişafı illərində də xüsusi əhəmiyyət kəsb edirdi. V.V.Smirnovun sözləri ilə desək, səs lövhələri "*ədəbi kontekstdə simvolik məna yaradır, obrazlı xarakteristika üçün istinad olunur*" [165, s.25]. Yəni onlar müstəqil estetik məsələni həll edir, bədii detal səs rəngi rolunu oynayır. Küylər radiomətnin ifadəli və təsviredici çalarlarını

ortaya çıxarır. Alimin elmi qənaətinə görə, radiojurnalistikanın reportaj, oçerk və hekayə janrlarında küylərdən istifadə səciyyəvidir.

Küylə birlikdə yazılan sinxron səs ünsiyyətin vəhdətidir, bu zaman mətn daha da aydınlaşır və həcmi artır. Bunu 20 yanvar faciəsi haqqında hazırlanmış qısa bir süjetin nümunəsində nəzərdən keçirək:

Müəllif: 1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə Bakı şəhərində dinc əhalinin üzərinə tanklar yeridi. Günahsız insanlar qatil gülləsinə tuş gəldilər. Bakı güllə yağışına tutuldu. Şəhərin küçələri qan gölünə döndü.

Küy: tankların səsi eşidilir və güllələr açılır...

Müəllif: Həmin gecə atılan güllələr körpə fidanlardan, azyaşlı şəhər sakinlərindən, yaralıların köməyinə gələn təcili yardım maşınlarından, ağ xalatlı həkimlərdən də yan keçmədi. Atası ilə yol gələn məktəbli qız Larisanın bağrını dəldi. Balaca İlqarın ömür dünyasına nöqtə qoydu.

Küy: Təcil yardım maşınına atəş açılır, uşaq çığırtıları eşidilir və rekviyem...

Müəllif söhbətini davam etdirərək hadisəyə səbəb olan siyasi prosesləri xatırladır, ölkədə gərginləşən ictimai-siyasi vəziyyət barədə məlumat verir və sonda baş verən faciənin acı nəticələrindən söhbət açır. Bəzi məqamlarda müəllif düşünərək bilərəkdən fikirini əsaslandırmaq məqsədi ilə danışığına pauza verir, söhbətin fonunda aşağı tonda səslənən qarışıq səslər - gecənin vahiməli bağırtıları, insan qışqırıqları - bir neçə saniyəlik ön plana keçir. Pauza kəsilən kimi yenə nitqin fonuna düşür. Fonda küy səslərlə bərabər eyni anda matəm ruhunda musiqi parçası da eşidilir. Süjetin qurtarmasına 30 saniyə qalmış küy səslər tamam yığışdırılır və rekviyemin sədaları yavaş-yavaş yüksəlir. Nitq kəsilən an səs rejissoru mikşeri artırır. 20 saniyə əsas planda səslənən musiqi parçası (rekviyem) yavaş-yavaş digər bir mahnının musiqisi ilə qarışdırılır. Az müddətdən sonra efirdə Zeynəb Xanlarovanın yanğılı səsi, "Şəhidlər" mahnısı eşidilir... [237].

Beş dəqiqəlik süjetdə müxtəlif səs elementləri, istifadə olunan küylər, səs effektləri cümlələrə uyğun olaraq dəyişir. Qanlı terroru reallaşdıran əsgərlərin addım səsləri, milli heysiyyata toxunan qəhqəhəli gülüşləri, güllə, atəş, tank səsləri,

tankın tırtılların altında qalan əşyaların əzilməsi, od, yanğın səsi və s. küy səslər mətnin emosional təsir gücünü daha da artırır.

İnsan təbiətin ayrılmaz parçası və ən ali varlığıdır. Ətraf aləmdə qulağı çalan hər hansı bir səsə özünün hiss və duyğular kontekstindən yanaşır. Prof. N.Xudiyev yazır: "*Qədim dünyanın insanları göy gurultusuna, yağışın, küləyin səsinə, çayların, sellərin, suların, şəlalələrin, meşələrin, yarpaqların xışıltısına-qısası, təbiətin səsinə yaradanın nidası "Özünün yaratdıqlarına xatırlatmasıdı"-deyə səcdə edərlərmiş. Qəribə olsa da, XX yüzilliyin insanı da radio dalğalarından süzülən hər kəlmədə, hər sözdə, hər ifadədə qeybdən gələn səs sayağı ilahi bir məna axtarır. Bu isə heç şübhəsiz ki, radio mikrofonları önündə dayanan hər bir kəsin məsuliyyətini birə on artırır*" [44, s.142].

Əgər təbii səsləri qeyd etmək üçün imkan varsa, bir neçə dəqiqə vaxt ayırıb kimsənin müdaxiləsi olmadan həmin səsləri yazmaq lazımdır. Milli İctimai Radionun Sietl və Takomadakı filialı olan KPLU radiosunun reportyoru və səhər proqramının aparıcısı Kirsten Kendrikin də fikirləri eynidir. "*Əlbəttə ki, açıq havada mikrofonu əlinizdə tutub səs yazarkən axmaq kimi görünə bilərsiniz, ancaq yazdıqlarınızı redaktə edərkən çox sevinəcəksiniz ki, təbiətin səsini də yazmısınız. Siz təbiət səslərini hərəsi 15 saniyə olmaqla müdaxiləsiz yazmalısınız. Bu yolla da redaktə zamanı qarşınıza çıxa biləcək problemləriniz aradan qalxmış olacaq*" [15, s.78].

Tədqiqatçılar küy səslər haqqında müəyyən elmi fikirlər səsləndirsə də, hələlik geniş mənada araşdırma aparan tək bir alimin adına rast gəlmək mümkündür. Moskvada çap olunan Avropa və Rusiyada ilk elmi multimediya jurnalı "Musiqi mediası" elmi elektron jurnalın baş redaktoru, radiojurnalist M.V.Bıskonun "Müasir informativ radioefirin səsləri" (Звуки современного информационного радиоэфира) məqaləsində küy səslərə geniş aspektdən yanaşılıb. Onun "Шумология", Azərbaycan dilində "Küyşünaslıq" kimi tərcümə olunan əsərində yeni bir elm sahəsinin yaranışından, "küy səslər"in əhatəli öyrənilməsindən bəhs edilir [128, s.12].

Radio materialının təqdimatında səs lövhələri ilə yanaşı, musiqi də müstəqil element kimi çıxış edir. Audiopublisistikada fon musiqisi mətnin məzmununu açan, onun bədii cəhətdən izahına yönələn vasitədir. "*Materialın bədii təşkili prosesində musiqi verilən semantik informasiya sayəsində sujet konstruksiyasının müstəqil hissəsi kimi təmsil oluna bilər*" [80, s. 84]. Radio yaradıcılığında küy səslər ətraf aləmdən götürülən, təbiətdən eşidilən qeyri-musiqili səslər adlanırsa, hadisə barədə təxəyyüldə obrazlar yaradırsa, əsl musiqi insan düşüncəsinin məhsulu olaraq not üzərində yazıya alınan sənət əsəri hesab olunur. Qeyri və əsl musiqili səslərin sintezi ilə yaradılan audiopublisistik məhsul insanın duyğusal aləminə bilavasitə artakustik (səslərlə yaranan obrazlar) təsir gücünə malikdir.

1997-cü ildə "Səhər" informasiya proqramında səslənən süjetdə musiqi tərtibatını təhlil edək. Radiojurnalist şəhidin doğum günündə onun ailəsi ilə görüşür. Yeganə oğullarını itirən valideynlər jurnalistə xeyli informasiya versələr də, müxbir şəhidin ailəsi ilə maraqlanır. Məlum olur ki, havanın soyuq olmasına baxmayaraq, şəhidin yoldaşı uşaqlarla birlikdə Şəhidlər Xiyabanına gedib. Müəllif artıq beynində süjet xəttini cızır. Şəhidlər Xiyabanında olan gəlinin soyuq məzar daşına və lal baxışlarla sevgilisinə dikilmiş gözləri xəyalında canlanır..."Görəsən iki körpəsinin bağrına basan qız soyuq məzara nələri pıçıldayır?"

Beş dəqiqəlik süjet ərsəyə gəlir. Xəbərlər redaksiyasında işlənən süjetlərin dəqiqəsi qısa olmalı, beş dəqiqəni ötməməlidir. Müəllif bədii mövzuda faktlarla əhatələnmiş mətn qurur. Şəhidin döyüş şücaətindən danışır və sonda onun sevgilisinin iki körpə ilə qışın qarlı-boranlı günündə məzar başında olduğunu söyləyir, küy elementi kimi çovğun səsi verməklə mətni daha təsirli edir. Bu səs effekti iki anlamda dinləycini düşündürə bilər: taleyi daşa dəyən qızın qəlbindəki təlatüm mənasında və bayırda qış havasına işarə kimi. Sonluq isə belə olur: "Görəsən sevgilisinin doğum günündə balalarını sinəsinə sıxıb, həyatın gözü yaşlı qoyduğu tənha gəlin məzara nələri pıçıldayır!!!".

Müəllifin səsi bitən an fondan eşidilən çovğun səsi və musiqi başlayır (Xalq artisti Məmmədbağır Bağırzadənin ifasında "Axtarır gözüm səni" mahnısından bir məqam, sinxron hissə).

...Sən asiman, mən dəniz

Ayrılmışıq  niyə biz?,

Yenə səndən xəbərsiz

Axtarır gözüm səni.

Axtarırır, axtarır, axtarır gözüm səni...

Axtarırır, axtarır, axtarır gözüm səni... [245].

Süjetin həcmi ilə verilən musiqinin vaxtı elə bölünməlidir ki, balans pozulmasın. Musiqinin dəqiqəsi qısa olarsa, axıra kimi səslənməlidr. Əgər mahnı çox genişdirsə və ya içərisində kiçik muğam parçası varsa, adətən informasiya yönümlü proqramlarda səhər-səhər ritmik musiqilərə üstünlük verilir, muğamatın səslənməsi düzgün sayılmır, rejissor mahnını yığmaq məcburiyyətində qalarsa, onda montajda ortadakı hissə çıxarılır, əvvəlki və sonuncu nəqarət eyni not üzərində birləşdirilir. Vaxtilə radioda bu prosesi musiqi tərtibatçıları, səs operatorları ilə birlikdə lent üzərində həyata keçirilirdisə, müasir dövrdə musiqi savadı olan səs rejissoru kompüter vasitəsi ilə asanlıqla işinin öhdəsindən gəlir. Yəni həcmi böyük əsərlərdən bitkin, qısa parçalar götürülə bilir. Musiqinin qısa verilməsi deyilən fikirdən uzaqlaşmamaq üçündür. 5 dəqiqəlik süjetdə iki dəqiqəlik mahnı dinləyicini bir müddət həmin mövzu barədə düşünməyə vadar edir.

Süjetin sonluğunda müğənninin qadın olması əsas şərtdir. Mətndə qoyulan sualı, şəhid xanımının nələr fikirləşdiyini rejissor mahnının dili ilə tamamlayırsa, ifaçı sanki mətndəki obraz rolunda çıxış edir. Rejissorun sonda seçdiyi mahnının sözlərində peşmanlıq hisləri verilsə, mətnlə rabitə qırıla bilər. Belə təsəvvür yaranar ki, guya Şəhidlər Xiyabanında gəlin öz taleyini lənətləyir və ya uşaqlar ona həyatda ən ağır yükdür.

Radioverilişlərin musiqi düzümünə həssaslıqla yanaşılmalıdır. Xəbər proqramında işlənən keçid musiqilərlə bədii-publisistik proqramlarda işlənən muqisi parçaları arasında fərq var. İnformasiya buraxılışlarında qısa xəbərlərarası səslənən qonq musiqilərlə (iki, üç saniyəlik) sanki hər xəbərə nöqtə qoyulur. Süjetləri bir-birindən ayıran musiqili keçidlərin həcmi isə 10-15 saniyə olur və

mövzunun qayəsinə uyğunluğu nəzərə alınır. Dinləyici musiqinin gedişindən söhbətin hansı məcraya yönəldiyini hiss edir.

Almaniyanın Göttinqen universitetinin elmi əməkdaşı İnna Klause "1920-ci illərdən 1950-ci illərə qədər sovet islah əmək düşərgələrində musiqi və musiqiçilər" mövzusunda araşdırmasında radiomusiqini böyük təsir vasitəsi kimi xarakterizə edir. "Kulak dövründə radioyayımda musiqi" ("Music in Radio Broadcasts in the Gulag") məqaləsində repressiya düşərgələrində bir-birindən fərqli proqramlarla hər bir kazarma üçün xüsusi radioların fəaliyyətini araşdırıb. "*Məhbuslara yeni düşüncə tərzi aşılamaq, onların əqidəsini dəyişmək və bir növ onları məqsədəuyğun marafləndirmək siyasəti güdən bu radiolar eyni düşərgədə fərqli formalarda tətbiq olunub. Səsləndirilən musiqinin məhbusa təsiri, onu hiddətləndirmək, qəzəbləndirmək əsas məqsəd olub. Nəticədə onun reaksiyasına ciddi diqqət yetirilib. Siyasi məqsədlər üçün nəzərdə tutlan radiomusiqidən tək islah müəssisələrində deyil, həm də məhkəməyə qədər həbs olunanlar arasında, onların nəqliyyatla daşınması zamanı da istifadə olunub. İşgəncə forması kimi tətbiq edilən musiqilər məhbusların narazılığına səbəb olurdu. "Soyuq vaxtlarda, aşağı temperaturda gecə-gündüz susmaq bilməyən radiolar, bəzi kazarmalarda radioları söndürmək qadağan olunmuşdu, onları qıcıqlandırır, acı xatirələr oyadır və sonda dözülməz hal yaradır, etirazlara səbəb olurdu. Dustaqlar radionu dinləməkdən imtina edirdilər. Bəziləri hətta radioötürücüləri dağıltmağa cəhd edirdilər. Ancaq yenə də təzyiqlərlə ən ağır işgəncəyə - radiodakı musiqini dinləməyə məruz qalırdılar*" [184, s.13; 211].

Buradan da aydın görünür ki, radioda səslənən sözün və musiqinin geniş anlamı var. Əksər radio tədqiqatçıları kimi professor Şerel də haqlı olaraq insanın psixikasında, şüuraltında, idrakında səsli məlumatların elm aləmində axıra qədər öyrənilmədiyi, gizli daxili effektləri hərəkətə gətirmək gücünə malik olduğu fikrindədirlər [177, s.140].

Düzgün tapılan və yerində işlədilən səs lövhəsi söz və şərh olmadan da böyük informativ təsirə mailkdir. 1941-44-cü illərdə Leninqradın mühasirəsi zamanı musiqi səsləndirmək üçün vahid ritmdə işləyən cihaz olan metronomdan verilən

musiqini şəhər sakinləri ilə yanaşı bütün dünya izləyib. Antihitler koalisiyasının rəhbərlərindən biri, Böyük Britaniyanın baş naziri Çörçil kabinetində, hətta yataq otağında Leninqrad dalğasına köklənmiş radionu tez-tez açıb, Neva çayı üzərindəki şəhərdən metronomun səsinin efirdə eşidilib-eşidilmədiyini yoxlayırmış. "*Metronomun taqqıltısı o demək idi ki, şəhərdə elektrik enerjisi var, deməli hərbi texnikanı təmir edən zavodlar işləyə bilir...., şəhər bu gün də faşistlərə təslim edilməyib, həyat öz axarındadır*" [ 78, s. 270; 154, s.183].

Bir çox hallarda rejissorlar verilişə aidiyyatı olmayan neytral musiqi səsləndirir. Məsələn, Azərbaycan radiosunun efirində professor Vaqif Abbasov radiomüxbirlə ictimaiyyəti düşündürən aktual bir məsələ ətrafında, ölkədəki təhsil sistemi və pedoqoji kadr məsələsi ilə bağlı söhbət edir. Alimin səlis nitqi, mövzuya daha geniş aspektdən yanaşması 15 dəqiqəlik süjetdə dolğun şəkildə öz əksini tapır. Studiyadan kənar səsyazısı akustik məkandan bəlli olduğu üçün təqdimat zamanı efir tərtibatına ciddi fikir verilməlidir. "Gəl Səhərim" musiqi informasiya proqramında auditoriyaya təqdim olunan süjetin fonunda eyni vaxtda 15 dəqiqə lirik bir musiqi parçası verilir. Bununla da radiosüjetin ictimai əhəmiyyəti itir. Burada söhbətin yazılışı zamanı diktofona düşən səs fonu ilə musiqi fonu arasında texniki baxımdan da uyğunsuzluq hiss olunur [247].

Hər söhbətin fonuna musiqi salmağı düşünən rejissorlar səhvə yol verirlər. Bu məsələ son illər radiojurnalistikada aydın nəzərə çarpır. Diskussiya, radiomusahibə, radioşərh, aktual söhbət, radioicmal və s. janrlarda, ictimai-siyasi mövzulara aid verilişlərdə fon musiqisi yerində işlənməsə, diqqəti yayındırır [150, s.165]. Süjetlərarası səslənən mahnılarda da problemlər olur. Bəzən müxbirin, aparıcının, diktorun səsi ilə aşağı fonda işlənən musiqinin sinxron hissəsi üst-üstə düşür. Belə məqamlarda hər iki sözü eşitmək mümkün olmur. Danışıq qurtaran zaman mahnının bəndi səslənməlidir. Bunun üçün həcm tutumu düzgün bölünməldir. Rejissor əvvəlcədən mahnının musiqi və sinxron hissəsi arasında olan vaxtı ölçməlidir. Aparıcının, diktorun danışığının sonuna yaxın musiqini aşağı səslə fona əlavə etməli və mətn qurtaran anda mikşerlə səsi yuxarı qaldırmalı, sinxron başlamalıdır. Elektron texnologiya dövründə canlı efir zamanı professional rejissor

tərəfindən mövzu ilə bağlı fon musiqisinin anındaca tapılması və efir danışığına uyğun tənzimlənməsi olduqca rahatdır.

Canlı yayımda musiqidən istifadə ilə bağlı milli radioda 2015-ci ilin qışında səslənmiş "Gəl səhərim" musiqili informasiya prorqamının bir buraxılışını təhlil edək. Verilişin çağırış musiqisi Şövkət Ələkbərovanın səsləndirdiyi eyni adlı mahnı üzərində qurulub. Ümumiyyətlə, radionun daimi dinləyiciləri verilişi musiqisi ilə tanıyırlar. Məsələn, "Axşam görüşləri", "Bulaq", "Xəbərlər", "Dan yeri", "Ovqat" və s. xeyli sayda verilişlərin "musiqili başlanğıc"ı yaddaşlarda əbədiləşib. "Gəl səhərim" proqramında iki saat ərzində aparıcılar günün ovqatına uyğun olaraq xoş əhvali-ruhiyyə ilə salamlaşdıqdan sonra efirə dəvət edilən qonaq barədə qısa məlumat verirlər. Rejissorun bu məqamda müraciət etdiyi "Xoş gəldin, gülüm" mahnısının nəqarətinə nəzər salaq.

... Xoş gəldin gülüm dünyama, suyu qurumuş dəryama, xoş gəldin gülüm...

... Hər yarpaq səni qoxan, çiçək bağıma, günəş kimi doğan işıqlı sabahıma...

... Xoş gəldin gülüm ...

Səhər saatlarında səsləndirilən musiqilər ritmik, dinamik olmalı və emosional duruma müsbət təsir etməlidir. Günə yeni başlayan yaradıcı heyətin və auditoriyanın qanını coşduran nikbin əhvali-ruhiyyəli musiqilərə üstünlük verilməlidir.

Aparıcı: (kişi) Bu günkü söhbətimiz vətənpərvərlik mövzusundadır. Biz hər gün qadınlarla kişilərin müxtəlif aspektlərdən müqayisə edildiyinin şahidi oluruq, amma birdəfəlik başa düşməliyik ki, əslində bu iki varlıq əbədi olaraq bir-birnə yoldaş, həmdəm yaradılıb. İstər elmi tərəfdən yanaşsa, istərsə də dini yönümdən fərqi yoxdur, qadın və kişi anlayışı bir insan, bir şəxsiyyət olaraq bütövdür və bu bütövü təşkil edən hər iki fərd önəmlidir.

Qısa keçid musiqisi: (Lirik melodiya parçası)

Aparıcı: (qadın) Ona görə də qadını heç zaman kişidən bir addım geridə də görmək lazım deyil. Tarix və təcrübə göstərir ki, qadın zərifdir, amma zəif deyil, asan və çətin iş olmasına baxmayaraq, qadın da kişilərin bacardığını bacarır. Diqqətlə baxsaq, biz hər yerdə analıqdan, evdarlıqdan, döyüşçüyə qədər qadın

əməyini görə bilərik. Elə verilişimizin bugünkü qonağı Aidə Şirinova da kişilərimiz kimi polis mundiri geyinib. Aidə xanım bir vaxtlar döyüşçü paltarı da geyinib və bu adı da ləyaqətlə daşıyıb. Polis mayoru, keçmiş döyüşçü, Qarabağ uğrunda döyüşlərdə iştirak edən, ər igidlərimizlə çiyin-çiyinə vuruşan Aidə xanım sabah - sabah bizimlə bərabər olacaq.

Aparıcı: (kişi) Bu gün sizin kimilərin söhbətinə çox böyük ehtiyacımız var. 20 ildən çoxdur ki, ölkəmiz müharibə şəraitində yaşayır və belə bir dönəmdə kişili - qadınlı, uşaqlı - böyüklü fərqi yoxdur, vətənini sevən hər kəs onun əsgəri olmalıdır, lazım gələndə silaha sarılmağı bacarmalıdır.

Aidə Şirinova: (təşəkkür edir) Siz belə bir söz dediniz ki, biz 20 ildir müharibə şəraitində yaşayırıq, amma mən elə fikirləşmirəm, əslində tarixə baxanda biz elə yüz illərdir ki, müharibə şəraitində yaşayırmışıq... Biz Bərdə ərazi müdafiə batalyonu yaratdıq və mən də hərbi biletimi götürüb hərbi komissarlığa müraciət elədim. İnstitutu bitirəndə bir tibb diplomum da var idi. Onu da təqdim elədim, dedim ki, mən müharibəyə getmək istəyirəm. Məmnuniyyətlə qəbul elədilər. Batalyonda da yaxşı qarşıladılar. Qadınların müharibədə olmağına mən həmişə yaxşı baxmışam, o nöqteyi-nəzərdən ki, orada gənclərə psixoloji mənəvi dayaq, əsl örnəkdir. Gənc əsgərlər xüsusilə fikirləşir ki, bizim içərimizdə qadın var, qabağa gedir və mən niyə dala qalmalıyam. Ona görə də radioda, televiziyada belə örnək insanları tanıtmaq, yeniyetmələrimizə göstərmək lazımdır. Mənim döyüş yolum Tərtərdən və sonra Ağdərənin əvvəllər Marquşavan adlanan kəndindən başlayıb.

Aparıcı: Bu gün bu verilişin rejissoru Kamranın atası da o 3 körpə övladının qoyub döyüşə gedib və şəhid olub.

Rejissor Kamran Nadir oğlu “Azərbaycan” mahnısını səsləndirir:

Azərbaycan gözlərimin qarası,
Azərbaycan həyatımın mənası,
Nə deyim ki, layiq olsun vəsfinə,
O vətənim, varlığımın anası,
Azərbaycan anaların anası,

Bir ağacsan, mən də sənə budaqam,
Bir budaqsan mən də sənə bir yarpağam,
Bir nəğməsən mən də sənə hər zaman,
O nəğməyə möhtac olan dodağam...

Rejissorun bu mahnını qəfil səsləndirməsi sanki studiyanın içərisində gedən söhbətə kənardan, yəni pult önündən müdaxiləsidir. O atasının vətən, torpaq uğrunda Azərbaycan naminə ölümə atıldığını demək istəyir və buna nail də olur. Verilən musiqi aparıcının sözünə nöqtə qoyur.

Dörd nəfərin səsində oranjiman olunan Azərbaycan mahnısının musiqisi fonunda döyüşçü Aidə Şirinova şirin ləhcəsi ilə özü yazdığı şeirin dörd bəndini ifa edir:

Daha sizə gələmmirəm
Dərdlərimi böləmmirəm
Sizlə deyib güləmmirəm
Dostlarım sirdaşlarım
Ey şəhid qardaşlarım... [233].

"Gəl səhərim" audiopublisistika nümunəsində rejissor 50 dəqiqə ərzində səkkiz mahnı verib. Səhər ovqatında, torpaq sevgisi, vətən eşqi, dost, qadın ürəyi, ana məhəbbəti, poeziya lövhələri və s. açar sözlərə uyğun nəğmələr seçilib. Müsahibənin fonunda fon musiqisinin verilməsi adətən qəbul edilmir və danışığın mahiyyətinə təsir edir. Bu müsahibə çox fərqli olduğundan və hər üç nəfərin sakit, təsvir elemenləri ilə əhatələnmiş söhbətində fon musiqisinə böyük ehtiyac duyulur. Rejissor düzgün olaraq qeyri-adi fon musiqisi seçir. Dinləyici danışığın fonunda sanki ürək döyüntüsünü xatırladan lirik musiqi sədaları eşidir. Müsahib ilk dəfə iştirak etdiyi döyüşü, müharibədəki bir gününü yada salır. Radioda görünməsə də, onun səsinin titrəyişindən səmimiyyəti hiss olunur, göz önünə hadisələrin real təsviri gəlir. İnandırıcı danışır və sanki həmin günün hisslərini yaşayır. Bəzən studiyadakı söhbətin fonundakı "ürək döyüntüsü" öz yerini səssizliyə verir, qonağa ürəyini daha da boşaltmaq üçün sərbəst şərait yaradılır...

Günorta vaxtı gecəni, ay işığını vəsf edən nəğmələrin səslənməsi düzgün sayılmır. Gecə konsert proqramlarında da eyni problem yaşanır. Radioda gün boyu xeyli sayda konsert proqramı və müxtəlif verilişlərdə mahnılar səslənir. Bəzən bir verilişdə səslənən musiqi 10 dəqiqə sonra konsert proqramında yenidən verilir. Belə halların qarşısını almaq məqsədilə veriliş hazırlanan gün rejissorlar musiqi redaksiyasının əməkdaşları ilə əlaqə yaratmalı, günün konsert proqramında verilən mahnıların, musiqi nömrələrinin siyahısına baxaraq ona uyğun hərəkət edilməlidir. Vasif Adıgözəlov haqqında veriliş hazırlanırsa, onun "Qərənfil" mahnısı günün konsert proqramında varsa, həmin vaxt bəstəkarın digər bir əsərinə müraciət edilməlidir. Eyni gündə bir mahnı bir neçə dəfə səslənməsin deyə, yaradıcılıq zamanı bu məsələyə ciddi yanaşılmalıdır. Bu da efirin səslər palitrasını zənginləşdirmək, efir incəliklərini düşünmək baxımından önəmli amildir.

Özəl radiolarda daha çox diqqət çəkən bir məqam var. Aparıcı elan edir: "İndi Rəşiddən bir ifa gələcək". "Ana" mahnısı oxunur. Rəşid Behbudov kimi azman bir sənətkarı belə cılız, adi şəkildə təqdim etmək doğru deyil. Səriştəsiz aparıcılar böyük sənətkarın hörmətini nüfuz altında qoyurlar. Elə təbliğ etmək lazımdır ki, yeniyetmələr qüdrətli sənətkarı tanısın. Bu möhtəşəm əsərin müəllifi və bəstəkarı da deyilmir. Şair İslam Səfərlinin, bəstəkar Cahangir Cahangirovun adı çəkilmir.

Milli radioda "sənət məbədi, söz yaddaşı, mənim radiom" ifadəsinin işlədilməsi də məntiqə uyğun deyil. "Söz yaddaşı" əvəzinə "səs yaddaşı" deyilsə, daha düz səslənər. Musiqi redaksiyasında hazırlanan "Musiqi çələngi" konsert proqramının adında da uyğunsuzluq var. Radio başdan-başa musiqi deməkdir, gün boyu təqdim olunan nömrələr bütövlükdə çələng mənasındadır. Günün yarım saatını bu ad altında təqdim etmək efirin özünə diqqətsizlik kimi yozulur.

Başqa bir misal çəkək. Diktor proqram oxunuşu zamanı deyir: "Saat 17.10-da gedən musiqi nömrələri zövqünüzü oxşayacaq". Gün ərzində səslənən musiqlər zövqsüz hazırlanıb? Buraxılış şöbəsi, proqram əməkdaşları elanların effektli alınması üçün məsuliyyət daşımalıdır.

XX-XXI əsrlərdə bədii yaradıcılıqda və mediada səslərin rolu mühüm əhəmiyyət kəsb edir. Məsələn, biz simfonik musiqidə zərbli səslərin

harmoniyasını, kinoda səsli sauntrek avanqard musiqini, radioverilişlərdə artakustika (səslərlə obraz yaratmaq) küylərinin get-gedə vüsət aldığını görürük. Radioverilişlərdə, bədii əsərlərdə istifadə edilən küylər universal element olaraq tərcümə və ya izahat tələb etmir. Küy səslər həmişə son dərəcə konkretdir və əşyanı, hadisəni olduğu kimi ifadə edir, nitq və musiqidəki kimi yalnız simvolik əhəmiyyət daşımır, dəqiq məna bildirir. Küy səslərin əsas xüsusiyyəti də elə budur.

M.V.Bısko bütün həyatı boyu müxtəlif səslərin əhatəsində olan insanın eşitdiyi və anladığı küyləri 3 qrupda, təbii, süni və fon səsləri halında cəmləşdirir. Musiqi və nitqdən başqa yerdə qalan səsləri gündəlik həyatda təsadüfi, çox zaman fəaliyyətin arzuolunmayan məhsulu sayır. “Küyşünaslıq” kitabında “audiologiya” haqqında da ətraflı məlumat verilir. Hər iki terminin ayrı-ayrılıqda izahı göstərilir, fərqli elm sahələri olduğunu dəlillərlə əsaslandırır. Audiologiya - səslər haqqında elmdir. Səsin vəziyyətini, bəm və zilinin səbəblərini öyrənir, həmçinin səsin diaqnostikasının, profilaktikasının metodlarını müəyyənləşdiir. “Küyşünaslıq” elmi isə kənar səslərin xarakterik xüsusiyyətlərini açır, konkret əşya və hadisənin dəqiq ifadəsi ilə bağlı olduğunu əsaslandırır [128].

Küy ətraf aləm və onun səs vasitəsilə qavranılması barədə tam təsəvvür yaradır. İnsan bu səsləri yalnız həyatda deyil, eyni zamanda küylə - reallığın əlaqəsinin mövcudluğunu təsdiqləyən idraki fəaliyyətdə - incəsənətdə dərk etməyə çalışır. Küyşünaslıq elmi üç mərkəzi hissəni araşdırır:

- Küy səslərin psixoakustikası - idraka akusitik təsiri öyrənilir;
- Küy səslərin semiotikası - təsəvvür yaradan küy səslərin, kodlaşdırılmış yeni küy elementlərinin əhəmiyyəti araşdırılır;
- Küy səslərin ifadəliyi və musiqiliyi - bədii yükü, musiqi keyfiyyətinin intonasiyası təhlil olunur.

M.V.Bıskonun elmə təqdim etdiyi hər üç istiqamətin araşdırılması üçün böyük fəaliyyət sahəsi tələb olunur. Ayrılıqda hissələr kifayət qədər həcmli hesab edilsə də, bir-biri ilə sıx əlaqəli olan bölmələrin tədqiqində fizika, texnika, psixologiya, dil elmləri, sənətşünaslıq və kulturologiya sahələrində kifayət qədər məlumatlı olmaq gərəkdir. Küyşünaslığa mediamusiqi ilə anologiya təşkil edən

istiqamət kimi də baxmaq olar. Lakin burada musiqi deyil, mediadakı küy tədqiq olunmalıdır. “Radio dili” termini sözlə bərabər həm də istifadə edilən səs effeklərinin, musiqinin birgə vəhdəti olaraq bir tamlıq halında birləşən audiopublisistik əsərin ərsəyə gəlməsi kimi xarakterizə edilməlidir. Bizim gündəlik həyatımız, əhatəmiz alışdığımız səslərlə doludur. Biz uzun müddət onlara fikir verməsək də, qulağımızın iştirak etmədiyi heç bir əşyanı gözümüz qəbul etmir.

“Küy səslər”in radio verilişlərində tətbiqi üçün rejissorların əlinin altında kifayət qədər müxtəlif səslər olmalıdır. Radionun fəlsəfi mahiyyətini ustalıqla qavrayan əsl rejissor geniş həcmli fond yaratmalı, zəruri məqamlarda yararlanmaq üçün qruplaşdırılmış nümunələrdən istifadə etməlidir. Müasir dövrdə internetdə çoxlu sayda belə fondlar mövcuddur. “Küy səslər”lə bağlı zəngin resurslar var [222]. Xüsusən audiomateriallarda tətbiqi üçün nəzərdə tutulan səs elementlərinin daha da zənginləşməsi məqsədi ilə sayt tərtibçiləri tərəfindən hər bir internet istifadəçisinə onların əhəməyyəti izah edilərək müxtəlif səslərin portallara yerləşdirilməsindən ötrü asan imkanlar yaradılır. Bir vaxtlar radiojurnalist küy səslərinin axtarışına özü çıxırdısa, bugünkü gündə milyonlarla küy səsi internetdən əldə etmək olur.

Elmi işi araşdırarkən noisefx.ru, wav-library.net, givemp3.com və s. saytlarda “küy səslər”in toplandığı mənbələr diqqət çəkdi. Saytlarda bütün audiotexnologiyanın rahat şəkildə dəstəklədiyi MP3 formatına uyğun yazılan səslər müxtəlif adlar altında qruplaşdırılıb. Eyni zamanda radioda səs effektlərindən istifadə metodları ilə bağlı ustad dərsləri də verilib. Amerika prodüseri Aleks Van Ossun 6 hissədən ibarət radiossenariləri, müəllifin “küy səslər”dən məharətlə istifadə təcrübəsi tədris məqsədi ilə yerləşdirilib.

Bir milyondan çox səs effektinin toplandığı mənbələrdən biri də http://findsounds.com saytıdır. Saytda 10 min fayl yaradılıb, hər bir faylın içərisində təxminən 250 minə yaxın səs effekti var. Faylar adına, bölündüyü kateqoriyaya, götürüldüyü mənbəyə açar sözlərlə, vaxtına, formatına və tipinə görə ayrılıb. Saytda eyni səsin müxtəlif versiyalarını dinləmək mümkündür. İnternetdə yeganə saytdır ki, yalnız səs effektlərinin audio tətbiqi üçün nəzərdə tutulub.

Hollivud səs rejissorlarının yaradıcılıq məhsulu olan saytda onların əməli fəaliyyəti, audio faylların sürətini dəyişməklə alınan maraqlı və faydalı səs effektləri də nümayiş etdirilir. Bu saytda bir audiosəsin 25 müxtəlif sürətli dəyişkən formasını görmək olur. Səs effektləri heyvanlar, quşlar, bayramlar, evdə, məişətdə işlənən əşyaların səsi (blender, yumurtanın qaynaması, saat, çaydan, açar, kibrit, radio, qayçı və. s.), həşəratlar, musiqi alətləri, təbiət hadisələri, ofis (printer, kağız, telefon, klaviatura və s.), insan (dişləmək, ağlamaq, gülmək, körpə, öskürək, kişi, qadın, asqırmaq, əsnəmək), idman növləri, alətləri, nəqliyyat vasitələri, kino, cizgi qəhrəmanları və s. bölmələrdə qruplaşdırılıb.

http://freesound.org saytı 2005-ci ildə İspaniyanın Barselona şəhərində (Music Technology Group - Universitat Pompeu Fabra) yaradılıb. Buradan hər bir insan istədiyi səsi sayta əlavə etmək və yükləmək üçün axtarış bölməsindən faydalana bilər. http://www.soundboard.com saytı 2007-ci ildə istifadəyə verilib. Sayt yaradıcılarının əsas məqsədi dünyanın zəngin səs kolleksiyasını toplamaqdır. Bu mənbə vasitəsilə radiorejissorlar deyilən fikirləri asanlıqla müxtəlif səslər vasitəsi ilə ifadə etməyi bacarırlar. İstənilən "küy səslər"in asanlıqla axtarışı üçün səslər müxtəlif qruplar üzrə bölüşdürülüb. Digər saytlardan fərqli olaraq burada tarixi şəxsiyyətlərin də səsləri toplanıb. Məsələn, Adolf Hitlerin müxtəlif illərdəki çıxışları - müharibə elan edilən gün, yəhudilər əleyhinə etdiyi çıxış və s. http://soundbible.com saytı da audioverilişlər üçün nəzərdə tutulub [218]. Fərqlilik ondadır ki, bu saytda tərtib olunan qruplar müəyyən əlamətlərinə görə əlavə konkret sahələrə bölünüb. Gülməli, qorxulu, təbiət hadisələri, okean, dəniz səsləri, müharibə - silah, bomba və s. Saytın radio adlı xüsusi bölməsində efirdə ən çox istifadə olunan musiqi parçaları, yayım səsləri mövcuddur. http://www.soundsnap.com və https://soundcloud.com, saytlarının isə bir milyondan çox istifadəçisi var [216; 226; 228; 229].

Əfsuslar olsun ki, "küy səslər"ə aid Azərbaycanda heç bir internet resursu yoxdur. Zəngin təbii səslərin əhatəsində yaşasaq da, meşə, su, quş və s. fon səsləri bolluğunda olsaq da, onların virtual mühitdə sistemli toplanışı üçün heç bir cəhd edilməyib. Müasir informasiya texnologiyaları, informasiya münasibətləri, KİV

sahəsinin çoxlu sayda problemlərinin aradan qaldırılmasına imkan verir, informasiyanın həm istehsalçıları, həm də istehlakçıları üçün əlverişli şərait yaradır.

Elmi axtarışlar zamanı internetdə Rusiya da daxil omaqla inkişaf etmiş ölkələrdə audiopublisistikanın inkişafı mərhələsinə uyğun olaraq sistemli arxiv materiallarına, radio verilişlərinə rast gəldik. "Köhnə Radio" adlı elektron mənbədə - www.staroeradio.ru [210] saytında Rusiyanın radio mühitinin dolğun əks olunması, SSRİ dövründəki bütün inkişaf tarixini əks etdirən materialların toplanması, verilişlərin illər üzrə siyahısı və audio variantı, efirdə səslənmiş tanınmış insanların çıxışlarının ayrıca fayl şəklində qruplaşdırılması, elmi araşdrıma aparan istifadəçilərin ixtiyarına verilməsi texnologiyanın nailiyyəti hesab olunmaqla bərabər, həm də radionun fəaliyyətinə olan diqqətin bariz göstəricisidir. Səs salnaməsinin əsası qoyulan radionun vaxtilə önəmli əhəmiyyət daşıdığını xatırlatmaq baxımından onun inkişaf prosesinə nəzər salmaq və televiziyanın mövcud olmadığı dövrdə radiolarda getmiş mühüm səs kadrlarının qorunması üçün hər bir ölkədə radiomaterialların mühafizəsinə ciddi fikir verilir. Bu baxımdan əhəmiyyətli olan daha bir mənbəni - mükəmməl hazırlanmış www.tvmuseum.ru saytını nümunə kimi göstərə bilərik [206]. "Radio, televiziya verilişlərinin internet muzeyi"ndə yaranışdan üzü bəri yaradıcı və texniki heyətin bütün üzvləri haqqında informasiyalar, onların yaradıcılıq prosesində tətbiq etdiyi yenilklər, malik olduğu şəxsi keyfiyyətlər, fərdi sənətkarlıq xüsusiyyətləri və təqdim etdikləri radioproqramların orjinal məhsulları əks olunub. Bu internet resursunda müxtəlif aspektlərdən tədqiqatlar aparmaq üçün kifayət qədər audiomaterial var.

CNN, BBC, Euronews və başqa radioların fəaliyyətini araşdıranlar üçün də virtual aləmdə kifayət qədər audioresurs var. Hətta Amerika radiosunun ilk serialı, 1920-50-ci illərdə səslənmiş "AMOS`n` Andy"-nin 15 dəqiqəlik verilişlərinin hər bir nömrəsi internetdə yerləşdirilib [213; 185, s.81-87; 188, s.21].

Azərbaycanda da bu istiqamətdə işlərin görülməsi mütləqdir. Şərqin ilk radiosu olan Azərbaycan radiosunun ötən illərdəki verilişlərinin heç biri internetdə

yoxdur. Radionun tarixi ilə bağlı məlumatlar yalnız Azərbaycan Televiziya və Radio verilişləri QSC-nin aztv.az saytında verilmiş informasiya xarakterli məqalələrdən əldə etmək mümkündür. Yeganə mənbə olan bu saytı təkmilləşdirmək, digər xarici təcrübələrdən istifadə edərək fond verilişlərinin internet resurslarını yaratmaq lazımdır. "*Radio televiziya verilişlərini informasiya daşıyıcılarında xüsusi yazılış aparılmadan təkrar izləmək mümkün deyil. Amma internet mediaya çap mətbuatı kimi istənilən vaxt müraciət etmək olar*" [30, s.11]. Araşdırmamız zamanı müstəqilliyin ilk illərində radionun fondundan dövrə yararsız minlərlə səs nümunələrinin məhv edildiyinin şahidi olduq. Mahiyyətinə varmadan, sadəcə yer tutduğu üçün səs yazılarının fonddan silinməsi Azərbaycanın səs tarixinin məhvinə aparmaqla yanaşı, araşdırmaçılar üçün də problemlər yaradır. Hər bir radio verilişi internetə yüklənməlidir. Dünya radiolarının bu təcrübəsindən, yəni radioəsərə sənədli fakt-əşyayi dəlil kimi yanaşılmasından yararlanmaq, dəyərli audioresursların itib-batmasının qarşısını almaq ümumi işin xeyrinədir.

Uzun müddətdir ki, ənənəvi texnologiyalar əsasında fəaliyyət göstərən radio, televiziya yayım qurumları "Qızıl fond", "fonoteka", "filmoteka" və s. adlar altında çox az verilişləri yadda saxlaya bilir və elə indinin özündə də əksəriyyəti itib gedir.

Radionun fondunda vaxtilə Azərbaycanda məşhur olan "Natəvan" qızlar klubunun heç bir nümunəsi qalmayıb. Müasir dövrdə radioda işlənən süjetlər, iri həcmli verilişlər bəzi müəlliflərin şəxsi təşəbbüsü ilə internetdə, pərakəndə halda sosial şəbəkələrdə yerləşdirilir. Bu gün belə, radionun ən qiymətli verilişlərinin mühafizəsi gündəmdə deyil. Auditoriyada dinlənilən "İgidnamə" (Azərbaycan Radiosu) bu verilişlər sırasındadır. Müxtəlif müəlliflər tərəfindən yazılan verilişdə xalqın qəhrəmanlıq tarixindən söhbət açılır. Verilişin tanınmış müəlliflərindən biri Nəsibə Balabəylinin vaxtsız vəfatı ilə şəxsi arxivində olan verilişlərinin taleyi də qaranlıq qaldı. Ömrünün axırına kimi darısqal bir otaqda yaşadı. Bakıda yataqxanada qaçqın kimi məskunlaşdığı kiçik mənzilinə bəlkə də heç bir verilişini daşımayıb...

50 il radio üçün səs toplayan Telman Qarayevin arxivində olan 5 min səs nünunəsinin içərisində kimlərin səsi yoxdur ki? Bu xam materialları, radio dili ilə desək, emal edilməmiş səsləri qruplaşdırıb, internetə yerləşdirmək virtual dünyada azərbaycanlıların səsinin artımıdır. Maqnit lentlərin sıradan çıxmaq üzrə olduğu vaxtlarda müəllif həmin səsləri şəxsi istəyi ilə maqnitofon kassetlərində toplayıb. Texnoloji nailiyətlərin inkişaf etdiyi müasir dövrdə isə həmin kassetlərin zəruri disklərə, radio formatına uyğun olaraq elektron daşıyıcılara köçürülməsi qeyri mümkün görünür. Kassetlərdəki unikal səslərin qiyməti artsa da, texniki baxımdan keyfiyyəti aşağı düşür. Müəllifin yaşlaşması (2021-ci ildə 87 yaşı tamam olub), "qlaukoma"dan gözlərinin tutulması 5 min səsin taleyini sual altında qoyur. 1987-ci ildə Bakıda Qlinka adına XII Ümumittifaq müsabiqəsini işıqlandıran Telman Qarayev yazır: "*Bu tədbirdə bir neçə gün çalışmışam. Bakıya qonaq gələn musiqiçilər ölkəmiz haqqında radioya müsahibələr veriblər. Bu gün o səslərin heç biri fondda yoxdur. Hamısı silinib. Bizim böyük bəstəkarların çıxışları var idi. Onların hamısı səs arxivinə verilməli idi ki, o səslər itib-getməsin. Səsyazma arxivində bircə yekun konserti var*" [242].

"*Son zamanlar böyük həcmli yaddaş tutumuna və emal imkanlarına malik sistemlərin və qurğuların, informasiyanın həyat tsiklinin idarə olunması, informasiyanin yadda saxlanması şəbəkələri, informasiyanın avtomatik miqrasiyası və s. kimi mütərəqqi texnologiyaların meydana gəlməsi radio və televiziya kanallarında yayımlanan bütün verilişləri tam şəkildə və istənilən müddətə saxlamağa imkan verir*" [31, s.16-18]. İnformasiya texnologiyaları üzrə araşdırmaçı, prof. R.Əliquliyev fikirlərini belə əsaslandırır: "*Bu qurumların yaddaş sistemlərində toplanmış informasiyaların müxtəlif əlamətlərə görə təsnifatını və intellektual analizini aparmaq üçün mövcud analitik informasiya texnologiyaları (OLAP, Data mining, Web mining, Text mining və s.) jurnalistlər üçün olduqca mühüm dəstəkdir. Jurnalistikanın ən çətin istiqaməti olan analitika sahəsində bu texnologiyaların tətbiqi ilə istənilən mövzu çərçivəsində çox böyük həcmə malik olan məlumatları sistemləşdirmək, strukturlaşdırmaq, tendensiyaları aşkarlamaq, yeni biliklər əldə etmək və bu kimi digər intellektual işləri xüsusi aparat-proqram*

*sistemləri vasitəsi ilə həyata keçirmək mümkündür. Dünyanın aparıcı radio və televiziya yayımı şirkətləri (CNN, BBC, Euronews və s.) bu texnologiyalardan geniş istifadə edirlər*” [31, s. 22].

Adobe Audition (bir çox radio peşəkarlarının işlətdiyi proqram), Audacity, JetAudio kimi audioproqramlardan istifadə, səsin WAV formatında (sıxılmamış) yazılması, onların MP3 formatına çevrilməsi, audioproqramların bir-birindən fərqli və üstün cəhətlərinin izahı, ən geniş yayılmış MP3, WMA (Windows Media), Real (Real Audio), MPEG-4 (QuickTime), MPEG-4 AAC (iTunes), WAV (“veyv” kimi tələffüz olunur), AIFF (Apple-in standart formatı) kimi rəqəmli audioformatlar radiojurnalistikada geniş tələb olunur. Bu formatlardan ən mükəmməli MP3 formatında təqdim edilləndir. “*Çünki virtual olaraq hər bir kompüter MP3 formatını ifa edə bilər. iTunes, Windows Media Player və ya Real Player kimi proqramlar da onları ifa edə bilər. Ancaq onlar başqa özəl formatları ifa edə bilməz. Misal üçün, siz Windows Media formatında olan sənədi iTunes-da, yaxud da Real Media formatındakını Windows Media Playerdə ifa edə bilməzsiniz. Ancaq MP3 formatında olanı onların hamısında ifa etmək mümkündür*” [15, s.74]. Müasir dövrdə audioslaydların hazırlanması və internetde yerləşdirilməsinə də maraq güclüdür. “*Audioslaydların əsas gözəlliyi, bir çox ekspertlərin də fikrinə görə, onu izləyicini düşündərəcək formaya gətirməsidir. Bu zaman istifadə olunan səs effektləri mühüm rol oynayır*” [225]. Radioda səslənən süjetin təkrar eşidilməsi üçün “görüntüsünü canlandırmaq” məqsədi ilə internet versiyası hazırlanır və şəbəkələrdə, müxtəlif saytlarda paylaşılır. Bu amil radionun reklamı, auditoriyanın marağını kəsb etmək baxımından faydalıdır.

# III FƏSİL
# SÖZ, SƏS EFFEKTLƏRİ VƏ MUSİQİ UYARLIĞI AUDİOPUBLİSİSTİKANIN ƏSAS ATRİBUTU KİMİ

## 3.1. Radiojurnalistikada kontrapunkt anlayışı

Yaşamın ani mənzərəsini göz önündə canlandıran, xəbərləri hadisə yerindən ictimaiyyətə çatdıran, cəmiyyəti məlumatlandıran, maarifləndirən, əyləndirən radio dinləyicilərin estetik dünyagörüşünün formalaşmasında mühüm rol oynayır. Radio yarandığı dövrdən bir neçə dəfə auditoriyasını itirmək təhlükəsi ilə üzləşib. Lakin mobilliyi, hər yerdə - evdə, işdə, maşında belə dinləmə imkanı onun KİV sırasında unikallığıdır.

Radioyayım sosial informasiyanın əks olunmasında insan təcrübəsinin təbii davamıdır. Radio müxtəlif səslərin - nitq incəsənətinin, yaradıcı fəaliyyətin ötürülməsinə xidmət edir, emosional vəziyyətin yaradılması üçün çox əlverişlidir. Fasiləsiz məlumat axını, bəyanatlar, təxmini qiymətlər, fikirlər bir tərəfdən məntiqi düşüncəni çətinləşdir, digər tərəfdən müəyyən emosional əhval-ruhiyyə yaradır. Mətnin məntiqi, ədəbi materialların parçaları arasındakı əlaqələr nitq qanunlarına tabe olmalıdır. Qavramanın psixoloji xüsusiyyətlərinə etinasız yanaşılsa, o zaman radiojurnalistikanın rolu bumeranq xarakterli olacaq, informasiya itkisi yaranacaq.

Audiopublisistikada ifadə vasitələrinin (söz, səs, musiqi) sintezi, hər üç elementin harmonik vəhdəti radioəsərin kontrapunktu üçün vacib amil hesab edilir. Bəzən hadisənin baş verdiyi məkanı və şəraiti "təsvir" etməkdə, situasiyanın xarakterini müəyyənləşdirməkdə, əlavə məna çalarları yaratmaqda sözlə yanaşı, efirdə səslənən səs lövhələri və musiqi də önəmli rol oynayır. Bundan əlavə, səs lövhələri və musiqi hər hansı verilişin, xüsusən bədii parçanın ideya məzmununun açılmasında, hadisələrin reallaşdırılması və inkişafında da mühümdür. Prof. Q.Məhərrəmlinin sözləri ilə desək, radionun bu ifadə vasitələri həm illustrasiya kimi, həm də müstəqil şəkildə işlədilir. "*Radionun akustik təbiətindən doğan bu xüsusiyyət ayrı-ayrı mövzu və janrlarda olan verilişlərin dil materialına, dialoqların quruluşuna, efirdə danışılanların nitqinə, intonasiya-tələffüz*

*çalarlarına, həmçinin fonetik, leksik və sintaktik hadisələrə xüsusi tələblə yanaşmağı şərtləndirir*" [78, s.257].

Söz ali təfəkkürün obrazlı ifadəsi, məntiqi fikir, səs onun həyatdakı ekvivalenti, real aləmdəki təsdiqi, musiqi isə insanın emosional durumuna təsir edən əsas vasitə, şüura təqlin olunan yaradıcılıq məhsuludur. Radioəsərin fonunda istifadə olunan hər bir səs effektinin və musiqi parçasının ayrı-ayrı funksional məna dəyəri olsa da, onları bir-birinə bağlayan məqamların vacibliyi mütləqdir. Nəzəriyyədə məqam anlayışı müxtəlif səslər, pərdələr məcmusunun bir vahid əsas kök ətrafında birləşməsi deməkdir. Kontrapunkt amilinin alınması üçün nəzərdə tutulan ifadə vasitələrindəki məqamlar da birləşəndə əmələ gələn radiopublisistik əsər dolğun məzmun kəsb edir [66].

Sənədli-bədii janrlarda (radioocerk, radiokompozisiya, radiofilm) ötən illərin bədii publisistik ənənələrinin get-gedə sıradan çıxmasına baxmayaraq, böyük ifadə imkanlarına malik elementlər bu gün də qalmaqdadır. Nitq fraqmentlərindəki intonasiya, hadisələrin səs fonu, müxtəlif musiqi və səs effektləri – bütün bunlar dinləyici auditoriyasına emosional məna təsiri baxımından faktiki olaraq həddən artıq təsir edir. Paul Bradşau audiojurnalistikanın beş əsas cəhətini qeyd edir: aktuallıq, müzakirə, emosiya, fon musiqi, podkast (podkastinq - səs (mp3 və s.) və ya video kimi media formatında materialların hazırlanma və internetdə yayılma prosesi – Ş.M). "*Əgər jurnalistin məqsədi xəbəri düzgün çatdırmaqdırsa, onda o danışıq və səsi, fon musiqisini elə uyğunlaşdırmalıdır ki, həmin xəbər dinləyiciyə sanki nağıl kimi, sadə bir dildə çatsın. Jurnalistin danışığı tam və montaj oluna bilər, əsas odur ki, seçilən musiqi yerini tapsın*" [217] .

Audiopublisistikada kontrapunkt problemi necə həll olunmalıdır? Musiqisiz radionu təsəvvür etmək qeyri-mümkündür. Ona görə də sözün musiqi ilə müşayətini izləmək üçün hər iki sahənin qanunauyğunluqlarını və onlar arasındakı bağlılığı nəzərdən keçirmək lazımdır. Musiqi səsli bədii obrazların təsvirində əks olunan, insanların psixoloji aləminə güclü təsir göstərən, verilişlərin emosional təsirini artıran, fikrin daha da yaxşı qavranılmasına kömək edən, mətnlə həmahəng olan və radiojurnalistikanın müvəqqəti xarakterinə çox yaxın incəsənət növüdür.

Musiqi canlı nitq kimi dinləyicinin emosiyalarına təsir edir, radio verilişlərinin formalaşmasında iştirak edən əsas faktorlardandır. Təsadüfi deyil ki, Qərbdə yayımın bu funksiyasını krandan axan suya bənzədirlər.

Radiojurnalistikada musiqinin müşayiəti ilə mətnin ardınca mexaniki gedilmir, müxtəlif janrların fomalaşmasında mətn və musiqi aktiv iştirak edir. Musiqi müxtəlif funksiyaları yerinə yetirir və aşağıdakı formalarda istifadə olunur:

- Bir verilişin müxtəlif blokları arasında birləşdirici;
- Hər bir verilişin efirdə tanınması üçün musiqili başlıqlar;
- Musiqili bəzək, dekorasiya – hərəkətin tarixi mənzərəsini yaradır;
- Musiqili ton – canlı nitqi qabartmaq məqsədilə istifadə edilir. Ən çox xəbərlər proqramlarında rast gəlinir;
- Musiqili atmosfer – jurnalistə qəhrəmanının vəziyyətini və hadisələrin gedişatını, dinləyiciyə isə baş verənləri təsvir etməyə kömək edir;
- Musiqidən mətn parçalarının sürətini və ritmini müəyyən etmək üçün istifadə olunur;
- Musiqi tam səsli obrazın yaradılması üçün bədii vasitədir.

Qərb jurnalistikasında radioəsərin parlaq, həcmli və emosional alınması üçün sənədli publisistik materialın musiqili olması və səslərlə vəhdət təşkil etməsi şərtdir.

Audiopublisistik əsərlərdə musiqini və müxtəllif səs effektlərini iki istiqamətdə istifadə etmək olar. Əvvəlcə sözün tamamlanması, sonra isə süjet strukturunun müstəqil hissəsi kimi tətbiqi. Sənədli bədii janrlarda əhəmiyyətli rol oynayan fon musiqisi ən çox kompleks şəkildə radiooçerklərdə işlənir. "*Musiqi əsəri və ya onun bir hissəsi bütöv bir hekayə üçün fon rolunu oynaya bilər. Bu zaman musiqinin mövzusu radiooçerkin mövzusu ilə üst-üstə düşməli, uyğun gəlməlidir. Oçerklərdə musiqidən qəhrəmanın xarakterini müəyyənləşdirmək üçün də istifadə olunur. Bu zaman musiqi onun obrazına uyğun olmalıdır. Bir sözlə, oçerkdə musiqi konkret vəziyyətlərin (lirik, qəhrəmanlıq, dramatik) xarakteristikası kimi istifadə oluna bilər*"[176, s.114].

“Kontrapunkt” - eyni zamanda səslənən iki və ya bir neçə müstəqil səsi, havanı, melodiyanı çoxsəsli musiqi əsərində harmonik birləşdirmə sənətidir. İlk dəfə musiqi nəzəriyyəsində işlədildiyindən bu sahənin terminologiyasına aiddir. Musiqi nəzəriyyəsi belə birləşmələri, onların xüsusiyyətlərini öyrənir. Bir neçə müstəqil melodik xətlərin uzlaşması deməkdir. Latın dilində “punctum contra punctum” - nöqtəyə qarşı nöqtə, musiqidə nota qarşı not və ya melodiyaya qarşı melodiya mənasında tətbiq olunur. Bəzi hallarda bir melodiyanın bir neçə xanə gecikdirmə ilə səsləndirilərək ona qarşı qoyulmasını da nəzərdə tutur [13, s.234; 193].

Çoxsəsli polifonik musiqidə kontrapunkt əmələ gətirən melodiyalar kontrast olur və bədii ifadəliyinə görə bir-birindən fərqlənir. Musiqi nəzəriyəsində səslərin sintezini öyrənən kontrapunkt anlayışı digər yaradıcılıq sahələrində də mövcuddur.

Musiqi ilə yanaşı, televiziya verilişlərində, kino sənətkarlığında olduğu kimi audiopublisistikada da kontrapunkta nail olmaq mümkündür. Bu barədə radio nəzəriyyəsində hələlik geniş araşdırma aparan tədqiqatçılara, audioverilişlərin kontrapunkt təhlilinə aid elmi əsərlərə rast gəlinmir. Prof. N.Əhmədli beynəlxalq və yerli elmi jurnallarda audial jurnalistikada kontrapunkt probleminin araşdırlması ilə bağlı çıxışlar edib. Kontrapunkt bir neçə müstəqil melodiyanın, səsin eyni vaxtda eşidilməsi ilə ahəng bütövlüyü yaratmaq deməkdir. Audiojurnalistikada kontrapunkt dedikdə buradakı dil anlayışına daxil olan komponentlər arasında əlverişli funksiya bölgüsü nəzərdə tutulur. Yəni həmin komponentlər bir-birini təkrarlamamalı, hərəsi məzmunun bir tərəfini açmaqla kompleks yaratmalıdır [23, s.32]. Kontrapunkt radioda nöqtə, fərqli səslik, yəni sözlə səsin fərqli mənalar ifadə etməsi anlamındadır. [75, s.149].

Audiopublisistikada ifadə edilən fikir səs effektləri və musiqi ilə vəhdət halında qoşalaşanda dolğun süjet əmələ gəlir. Söz, səs effekti və musiqi vahid tamlıq yaradır. Hər üç komponentin vahid məzmun – harmoniya yaratması müxtəlif mənaları (informasiyaları) ifadə etməsi kontrapunkt adlanır. Bu ifadə vasitələrinin hər biri mükəmməl şəkildə icra olunmalı, bir-birinə bağlı şəkildə qurulsa da, ayrı-ayrı müstəqil element fonunda nəzərə çarpmalıdır.

Bəzən radiomətnlərin təqdimatında zəiflik sözlərin mahiyyətini, məna dəyərini itirir. Mərhum sənətkar, nadir səs sahiblərindən biri, Azərbaycan radiosunda 30 il diktor işləyən Yusif Muxtarov yeni yaradılan efirlərdə, xüsusən özəl radiolarda belə səslərə rast gələndə deyirdi: "*Efir cılız səslərlə doludur. Hətta bəzi aparıcıların cümləni tamamlamağa nəfəsi belə çatmır, eləcə sözləri necə gəldi, necə ürəyi istədi, bəlkə dəqiq olar deyim, necə qabiliyyəti yetdisə, elə o boyda da yağdırır dinləyicinin üstünə. Di gəl başa düş görüm, nə başa düşdün, nə anladın onun dediklərindən. Belə əcayib dil olmaz, belə cümlə qurmaq, bu sürətlə danışmaq, xəbər oxumaq olmaz. Yazılan mətnlərdə bir saf cümlə, bir salamat fikir, işıqlı söz tapmaq olmur*" [93, s.32].

Audial jurnalistikada diktor, aparıcı, müxbir danışığında "heca vurğusu", "söz vurğusu", "cümlə vurğusu", "pauza", "intonasiya", "temp" və s. vacib ünsürlərə fikir verməlidir. "*Ümumiyyətlə, vurğu mahiyyət etibarilə sözün bütövlüyünə xidmət edir və onun formalaşdırıcı elementlərindən biri kimi çıxış edir*" [5, s.5]. Bunların hər biri ayrılıqda mühüm əhəmiyyət kəsb edir. Sovet dövründə radio dilinin düzgün inkişafı üçün diktorlara kömək məqsədi ilə "Sözlərin vurğusu" adlı kitab çap olunaraq mərkəzi və bütün respublika radiolarında diktorların stolüstü kitabına çevrilmişdi [139, s.476].

Aparıcı öz sözünü dili, dodaqları ilə deyil, həmçinin hiss və həyəcanı ilə ifadə etməli, ürəyi, duyğuları ilə bildirməlidir. Məhz o zaman mətnin qayəsi aparıcının şüuruna həkk edilir. İnformasiyanın ötürücüsü rolunda kommunikativ funksiyanın daşıyıcısı ola bilər. Fikir əvvəlcə onun öz beyninə təlqin olunur və şüurda olan təsəvvürlər zəminində tələffüz edilir, assosiasiyalar doğurur. "*Ünsiyyət və ya kommunikativ məlumatı yaratmaq, informasiya saxlamaq, ötürmək və qəbul etmək, dünyanı dərk edib, şərhini vermək, baş verən hadisələrə münasibət bildirmək, mövqe sərgiləmək deməkdir"* [108, s.11].

Cümlədə vurğuların yerində işlənməməsi, xüsusən efir danışığı zamanı səhvlərə yol verilməsi audionitqin səviyyəsini aşağı salır. Bütün vurğu növləri və digər elementlərinin tamlıq halında bütövləşməsi isə audiodanışıqda kontrapunkta nail olmaq anlamındadır. Mövlanəya görə "*dünya bir dağ, bizim etdiklərimiz isə*

*səsdir. Səslərin əks-sədası yenə də bizim səsimizə, yenə də bizim tərəfimizə qayıdır*" [2, s.115]. Təsirli, cazibəli səsdə sözün, kəlmənin mənası, ritmi, harmoniyası duyulur.

Radio verilişlərini araşdırarkən, efir təcrübəsi olan əməkdaşlarla aparılan söhbətlər zamanı məlum oldu ki, vaxtilə diktorların əksəriyyəti hətta zəif mətnləri oxumaqdan imtina edirmişlər. Uzun müddət radio üzrə sədr müavini işləmiş, prof. A.Babayevin xatirələrində redaktorların dəfələrlə ona yaxınlaşıb mətni oxumaqdan imtina edən diktorlardan şikayətləndikləri haqqında geniş məlumatlar var. "Bəzi diktorlar müəlliflərin yazılarını haqlı olaraq bəyənmirdilər. Ona görə də ana radio-da professional diktor məktəbi inkişaf etmişdi" [93, s.37].

Prof. G.Əlibəyli radionu canlı orqanizm adlandırıb. "*Radionun öz dili, öz səsi, öz ritmi var. Radioda işləyən hər kəs gərək Azərbaycan və yayımın aparıldığı dili gözəl bilə, onun orfoqrafiyası və orfoepiyasından xəbərdar ola. Gərək səs sahibinin-diktorun, aparıcının səsi öz ahəngdarlığı, musiqiliyi, lokonikliyi ilə seçilə. Onun vurğunu düzgün vurmamaq, sözü yanlış demək və ya cümləni səhv oxumaq şansı yoxdur, illahdakı, birbaşa efirdə, canlı yayımda*" [93, s.127].

Uzun illər radiojurnalistikada təcrübəsi olan Zərxanım Əhmədlinin fikrincə isə, radioda danışan istər diktor olsun, istər aparıcı, natiq deyil. "*Amma gözəl danışıq qabiliyyətinə malikdir. Nədir bu gözəllik? Bu gözəllik dilə mükəmməl bələd olmaq deməkdir. Dilimizin bütün incəliklərini bilmək, onun saflığını, axarlığını ifadə etmək bacarığına malik olmaq deməkdir*" [26, s.10].

Milli radioda 1990-ci illərə aid olan "Dilək ağacı" verilişindən bir fraqmentə nəzər salaq:

Aparıcı: Novruzlu bir gün idi. Lap tezdən durmuşdum. Bir atımız vardı, yedəyimə alıb, kəndin başına çıxmışdım. Balaca əl radiosunu da özümlə götürmüşdüm. Qəribə bir görkəmimi deyim, nigarançılığımı deyim, hisslərin içində üzü yuxarı, göz işlədikcə üzüyuxarılara baxdım. Elə bil möcüzə baş vermişdi. Tez-tez yuxularda gördüyüm dağlara söykəndiyi Ağdamın buludları ovuc içi kimi görünürdü. Tər-təmiz ayna kimi. Davasız-şavasız, düşmənsiz-filansız. Gözlərim önündə açılan səhər Novruz qüdrətli idimi? Yoxsa, doğrudanmı,

işğal altında olan torpaqlarımız öz baharını yad nəfəsindən uzaq qoruyub saxlaya bilmişdi. Doğrudanmı, hər səhər beləcə tezdən durub baxsaq, Şahbulağından tutmuş üzü Ağdama doğru, Atçılıq zavodundan tutmuş üzü Uzundərəyə qədər, Ətyeməzlidən tutmuş Seyidli, Sarhacılı bağlarınadək, bir az da yuxarılara - Qarqaradək, Şelliyə, Abdal-Gülablıyadək göz işləyəcək? Bir az da hündürlərdə dayanıb boylansaq, Ağdamın qoşa minarələrini görmək mümkün olacaq? Özümdən asılı olmayaraq atın belinə necə qalxdımsa, ona bir qamçı çəkib, yalmanına necə yatdımsa, bunu ancaq o anı yaşayan bilər. Bir də gördüm qulağıma səs gəlir. Səhər yaylımına çıxan kənd adamlarının səsi idi bu səs. Sən demə, minalanan əraziyə çatmışdım. Bir anlığa qollarım yanıma düşdü. Gözlərim qaraldı. Başımı qaldırıb, üzü yuxarılara boylandım. Heç nə anlaya bilmədim. Yenə o torana bürünmüş, işğal altında olan diyarın xəyal tablosu...”.

Bu radio mətninin müəllifi Telman Qarayevin keçidriyi hiss və həyəcanı hər hansı bir aparıcı onun kimi yaşaya bilərmi? Əgər yaşayarsa, gözlərini yumarkən işığı sönən bir yurd yerinin sakini olduğunu düşünərsə, özünü o cümlələrin sahibinin yerində hiss edərsə, həmin duyğulu anları dinləyici ilə bölüşməkdə acizlik çəkməz. Ən yaxşı halda müəllifin özünün bu hissləri efirdən təqdim etməsi daha inandırıcı görünür. Ancaq əksər müəlliflərin diktorlar kimi nadir və fonem səs tempinin olmaması, radiojurnalistikada yazının ikinci şəxs (diktor) tərəfindən ifasını tələb edir. Deməli, diktor istənilən üslubda yazılan mətnlərin ifası zamanı elə bir oxu tərzi nümayiş etdirməlidir ki, teatrlardan, kinolardan fərqli olaraq publisistik obrazın yaradıcısı kimi çıxış edə bilsin. Audiopublisistikanın əsasını təşkil edən sənədlilik, canlılıq və real həyatdan götürülən faktların təqdimatında, dinləyici ilə ünsiyyətdə elə əsl obraz yaradılmalıdır ki, qarşı tərəf aktyor kimi rol oynadığının fərqinə varmadan, onu kövrək hisslərin qəhrəmanı kimi tanısın.

Danışığın fərdiliyi, tələffüz xüsusiyyətlərinin fərqli olması, əhvala və psixoloji duruma işarə edən intonasiya söz və cümlələrin müxtəlif cür səslənməsinə səbəb olur. Bu amil aparıcı məfhumuna şamil edilmir. Baxmayaraq ki, o da insandır, hissləri, duyğuları və özəl həyatı var. Şəxsi taleyində baş verən hər bir hadisədən kədərləndiyi və sevindiyi nüanslar çoxdur. Efirdə aparıcı verilən

mətnlərə uyğun olaraq obrazlar yaratmaq məcburiyyətindədir. Ovqatının hansı əhval-ruhiyyədə olmasından asılı olmayaraq, daxili gərginliyini mikrofon önündə büruzə verməməlidir. Efir praktikasında da bunun dəfələrlə şahidi olmuşuq. Diktorlar efiri şəxsi həyatlarından daha önəmli hesab ediblər. Diktorlar ən ağır itkinin qarşısında belə səsindəki narahatlığı, ovqatını təlx edən fikirləri özlərindən uzaqlaşdırmağı bacarmalıdırlar. Aktyorlar kimi ağrı-acını efir otağının qapısında qoyub içəri daxil olmaq lazımdır.

"*...Mən mikrofon qarşısında oturanda özümü rahat hiss edirəm. Çünki həmin an qarşımda əyləşib mənə qulaq asan insanların üzünü görməsəm də, nəfəsini hiss edirəm, elə bilirəm ki, onlarla həmsöhbətəm. Diktorlar sözünün tutumu, çəkisi təsəvvür edilməz dərəcədə böyükdür, onda qəribə bir sirr var, cazibə va*r" (Xalq artisti, diktor Yusif Muxtarov) [93, s.211].

Radiojurnalist, Əməkdar incəsənət xadimi Şəfəq Əlixanlı deyir: "*Radioda çalışmaq, hər dəfə efirdə mikrofonun düyməsinə bir toxunuşla milyonların, azman bir auditoriyanın önünə çıxmaq kimi böyük bir həyəcanı hədsiz sevgi və zövqlə yaşamaq nə qədər ecazkar səadət olsa da, bir o qədər çətin, ağır və insandan fədakarlıq tələb edən bir məqamdır* [93, s.174].

Diktorların sənətə sevgisindən, səsləndirdiyi fikirlərdən çox misallar çəkmək mümkündür. Əməkdar telejurnalist Telli Pənahqızı yazır: "*Diktor səmimiyyət və inam deməkdir. Dinləyici efirdə səsini eşitdiyi diktorun səsini dinləyərkən əvvəlcə o adama qəlbində hüsn-rəğbət hiss edir, onun dediklərinə inanır. Tamaşaçı, dinləyici bu insandan eşitdiklərini həqiqət kimi qəbul edir. Çünki diktor rəsmi şəxsdir, "ölkənin danışan dilidir", o səhv edə bilməz*" [93, s.154-155].

Ölkəmizdə diktorlar məktəbinin əsası Azərbaycan radiosunda 1930-cu illərdə qoyulub. Aydın Qaradağlı, Yusif Muxtarov, Ramiz Mustafayev, Sabutay Quliyev, Züleyxa Hacıyeva, Gültəkin Cabbarlı, Ofelya Sənani, Fatma Cabbarova, Sevda Məmmədzadə (Sevda Saleh), Qara Tağızadə, Əli Məhəmmədoğlu, Eldost Bayram, Sevil Hüseynli, İradə Ələkbərqızı və s. diktorların səsində minlərlə veriliş "Qızıl Fond"da saxlanılır.

Azərbaycanda peşəkar diktorluq məktəbinin yaradıcısı Aydın Qaradağlı deyirdi: "*Diktor hər şeyi tez qavramağı bacarmalıdır. Hətta qaça-qaça materialın məzmununu, üslubunu belə tutmalıdır. Onda oxuduğu mətnə düzgün ton verər, mikrofona səlis oxuya bilər. Səhvlər o vaxt buraxılır, effekt o vaxt itir ki, diktor materialla yaxından tanış olmur. Diqqətsizlik, laqeydlik göstərir. Mikrofon qarşısında dayanarkən sözləri oxumaq lazım deyil. Yalnız fikri çatdırmaq üçün oxumaq lazımdır. Bunun üçün ahəng, məntiqi vurğu, aramla oxuma halları olduqca vacibdir. Hər şeydən əvvəl, burdakı müəllif fikri düzgün açılmalıdır. Belə olduqda sən həmin materialın müəllifinə çevrilirsən, sanki hər şeyi öz adından danışırsan...*" [48, s.224].

Bəzi diktorların təcrübəsindən sitatlar çəkilməsinin səbəbi onların illərlə təcrübəyə yiyələnməsi və özünəməxsus ifadəli oxu tərzinin olmasıdır. Əsl diktorlar sözün deyiliş qaydasını yaxşı bildikləri üçün mətn üzərində redaktə işinin də peşəkar ustası olmalıdırlar. Ümumiyyətlə, bədii redaktə jurnalist yaradıcılığının əsasını təşkil edir.

Ümumittifaq radiosunun ilk diktorlarından olan O.Abdulov diktorları 2 yerə ayırır: həddindən artıq öz güclərinə inananlar və "mən" ifadəsini ön plana çəkənlər. Birincilər əllərinə nə düşdü oxuyurlar, ikincilərin isə xüsusi verilişləri olur. "*Onlar yalnız bu verilişlə yaşayırlar. Təəssüf ki, belə verilişləri axıra qədər dinləmək mümkün deyil, yorucudur. Təsəvvürümüzə gətirməliyik ki, hardasa səni dinləyirlər. Həmsöhbət olmaq və sadə oxumaq lazımdır ki, səni başa düşsünlər*" [48, s.224].

2013-cü ildə imzalanmış "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın icrası ilə əlaqədar hər il olduğu kimi 2015-ci ildə də ekran və efirdə ədəbi dilin qorunması məqsədi ilə bir sıra seminarlar, konfranslar və monitorinqlər keçirilib. "Azərbaycan media məkanı: mövcud durum və perspektiv vəzifələr" mövzusunda keçirilən tədbirdə Milli Televiziya və Radio Şurasının sədri Nuşirəvan Məhərrəmli aparıcıların Azərbaycan dilini səlis və aydın bilməli olduğu tələbi ilə çıxış edib. O radiolarda küçə danışığının geniş yayılmasını ana dilinə laqeydlik, hörmətsizlik əlaməti adlandırıb. "*Fikir çatdırmaq baxımından*

*Azərbaycan dili çox zəngindir. Ona görə də radiolarda problemi həll etmək üçün "Bədii Şura"lar yaradılacaq*" [197].

Əfsuslar olsun ki, bu müsahibədən sonra da heç bir adekvat tədbirlər görülmədi. Doğma ana dilimizə etinasız münasibət sonrakı illərdə də nəzərə çarpmağa başladı [52]. Azərbaycanda ədəbi dil normalarına riayət edilməsi sahəsində 2018-ci ilin avqust-sentyabr aylarında aparılan teleradio proqramlarının (verilişlərinin) monitorinqlərinin nəticələri zamanı radiolarda da ciddi nöqsanlar aşkarlandı. "*12 adda yayımlanan (İctimai radio, Azad Azərbaycan, Antenn, 105.5 FM, Jazz FM, Space, Xəzər, Media FM, Araz FM, Avto FM, ASAN) radio verilişlərinin dili monitorinqə cəlb olunub. Yayımlanan verilişlər mövzu istiqamətinə görə təhlil edilib. Ədəbi dil normaları dilin bütün səviyyələri üzrə - istər fonetik, istər leksik, istər qrammatik, istərsə də üslubi səviyyədə pozulur. Radioların dilinin monitorinqi zamanı 1017 (o cümlədən 219-u xəbər, 796-sı qeyri-xəbər olmaqla) norma pozuntusu faktı qeydə alınıb ki, bunlardan 692-si fonetik, 102-si leksik, 144-ü qrammatik, 79-u üslubi səviyyəyə aiddir*" [200].

Radiopublisistikada kontapunkt üçün sözün əsas funksional dəyər daşıdığını qismən aydınlatsaq da, etiraf etməliyik ki, efirdə musiqisiz, əlavə yardımçı səslər olmadan təkcə sözlə məqsədə nail olmaq mümkün deyil. Hər üç amilin bərabər səviyyədə bir-birinə uzlaşması nəticəsində kontrapunkt reallaşa bilər.

Diktorlar müəllif tərəfindən yazılmış mətnə doğma münasibətini öz praktiki təcrübələrinə əsaslanaraq izah edirlərsə, audiodanışığın konkret hansı müstəvidə olması ilə bağlı alimlərin qənaəti məsələnin tam elmi mahiyyətinə söykənir. Prof. N.Əhmədli "Audiodanışıq = fikir (radio verilişlərinin əsasını təşkil edən faktlar) + efir dili" anlayışını konkret prizmadan şərh edir. Alimin fikrincə, *audiodil sözlərin (diksiya, intonasiya, pauza və orfoepik normalar daxil olmaqla), musiqinin (jurnalist verilişlərinin müşayət edən tərtibat musiqisi nəzərdə tutulur) və səs effektlərinin sintezidir. Radioya münasibətdə "audiodil" deyəndə bu triadadan danışmaq olar: şifahi nitq+təbii səslər (ətraf aləmdə qulaq eşidən və anlam yaradan küy səslər)+musiqi (fon musiqisi)* [119, s.39; 120, s.234-236].

Nümunə gətirdiyimiz radio mətninə hansı effektləri tətbiq etmək olar? Əgər televiziya üçün yazılsaydı, təbii ki, o dağın, dərənin, hündürlükdə dayanan bir şəxsin görüntüsü hər şeyi həll edərdi. Vüzuallıq olmadığı üçün radioda sözü mətnin efir səslənməsi zamanı əlavə təsir vasitələri ilə qüvvətləndirmək lazımdır ki, onun təsviri beyinlərdə xəyali gerçəkliyi əks etdirsin. Daha doğrusu, işlədilən effektlər deyilən fikri qüvvətləndirəcək işarə rolunu oynasın. Həmin səs effekti rejissor təxəyyülünün məhsulu olaraq ortaya qoyulur. Bu səs effekti tamamilə yeni məzmun kəsb edə bilər və yaxud həqiqətdə olduğu kimi elə mətndə deyilən sözün adekvatı fonunda ahəng yaradar. Məsələn, "Novruzlu bir gün idi. Lap tezdən durmuşdum. Bir atımız var, yedəyimə alıb, kəndin başına çıxmışdım. Balaca əl radiosunu da özümlə götürmüşdüm" deyəndə, bu cümlələrin altından ikinci səs quşların baharda cikkildəşməsi, səhərçağının spesifik fonu, at kişnərtisi eşidilir. Aşağı tempdə verilən ikinci səs birinci səsin tamamlanması üçün nəzərdə tutulur. Bütün bu komponentlər birlikdə gerçək fraqmentin təsvirini yaradır. Dinləyici hər iki səsi aydın eşitməlidir. Bəzən bunun üçün rejissor pauzalardan da istifadə edərək alt səsi bir qədər də qabardır. Mətnin xarakterik mahiyyətini açmaq üçün bu detalları şüurlara yeritmək, yəni diqqət çəkməkdən ötrü arada effektləri önə çıxararaq diktorun, aparıcının nitqini pauzalarla verir. Qarşı tərəf pauzaların kim tərəfindən verildiyinin fərqinə varmadan, eşitdiyi səslərin təsirinə düşür, qavramağa başlayır və intizarla çıxışın ardını izləyir.

Bəzən rejissorlar, səs operatorları çıxışların montajı zamanı pauzaları yığışdırır. Bu, canlı danışıq dilinə xələl gətirən amildir. İnsan robot deyil, həyatda necə danışırsa, ünsiyyət qurursa, efirdə də həmin səmimiyyəti ədəbi dilin normaları səviyyəsində nümayiş etdirməlidir.

Radiojurnalist Yuriy Qalperin radioreportajın təqdimatında xarakterik səsi başlıca amil hesab edir. Onun qənaətinə görə "*məhz o zaman əsl radioreportaj alına bilər. Belə reportajlarda hadisələrin dinamik inkişafı səs effektləri vasitəsilə aydınlaşır*" [132, s.55].

Rejissor Rövşən Abdullayev deyirdi: "*Mətni oxuyan canlı insandır, o nəfəsini də dərməlidir, yeri gələndə bir isti zarafat da etməlidir, məqamında lap gülməlidir*

*də. Verilişi qurudub, rəsmi iclasa oxşatmaq olmaz. Məncə dinləyicini efirə bağlamaq üçün belə canlı ünsiyyət daha vacibdir, qulaq asan bilməlidir ki, səsini eşidib, üzünü görməsə də, onunla müsahib olan da canlı insandır, robot deyil*" [93, s.260].

İnsan eşitdiyi səslər vasitəsilə, gördüyü əşyalar və duyğu üzvləri ilə ətraf aləmdə baş verənlərdən hali olur. Radioda da belədir ki, cəmiyyət həyatına aid müxtəlif informasiyalar insandan insana kommunikasiya yolu ilə ötürülür. Ünsiyyət informasiya haqqında anlam və məna yaradır. [170, s.10]. "*Danışıq formasında olan məqalələrin yazılması yeni növ yaradıcılığın vüsət almasına, audiopublisistikanın inkişafına meydan açdı"* [171, s.31]. Y.S. Maslovun fikrincə, işarə eksponenti, maddi varlığı (sözün fonem və qrafem ardıcıllığı) olmasa, işarə öz informativ funksiyasını, geniş mənada kommunikativ funksiyasını yerinə yetirə bilməz. Akustik obraz, danışıq-motor hərəkəti (eşitmə və onun təəssüratlarını yaradan hərəkətlər) eksponentin şüurda inikasıdır, ona görə də təbii ki, o ikincidir.

Adiopublisitikada fikir adresata, yəni dinləyiciyə ünvanlanan müasir sözlə ifadə etsək, bir mesajdır. Bu mesajı alan şəxs fərdi dünyagörüşü nəticəsində onu anlamağa, mənasını dərk etməyə çalışır. Eşitdiyi səsə qarşı reaksiyası olur. Mətndə işlədilən at səsi, quşların səhərçağı civildəşməsi və s. anlam yaratmaq məqsədi ilə işlənən effektlərdir. Əsas informasiyadakı məna yükünün açılmasıdır. Həmin anlamlar sonda bir məna yaratmalıdır ki, fikir tam məziyyəti ilə aydın olsun. İşlənən sözün mahiyyətinə işarə verən anlam və mənanın düzgün tapılması və təsir effekti yaratması süjetin kontrapunktuna nail olmaq deməkdir. Audiopublisistikada müxtəlif sənətkarlıq xüsusiyyətlərinin (radiojurnalist, aparıcı, operator, rejissor) bir ortaq məxrəcdə tətbiqi kontrapunktla nəticələnir.

Audiopublisistikada kontrapunktun necə alındığını konkretləşdirmək üçün əvvəlcə radionun semiotikasına bələd olmaq lazımdır. Semiotika yunanca işarə, əlamət deməkdir. Radionun semiotikası deyəndə söz, səs effektləri və musiqi başa düşülür. Məzmunla ifadə arasında əlaqə semiotika elmində işarə əlaqəsi kimi izah edilir. Semiotiklər bunu siqnifikat (məzmun), siqnifikant (ifadə) adlandırırlar. Ola bilər ki, bir siqnifikatda həm siqnifikant, həm də siqnifikat yerləşsin. Bu zaman

kommunikativ məzmunun ötürülməsində, ünsiyyət zamanı münasibətlərin qurulmasında söhbətin necə davam etdirilməsi üçün nəzərə tutulan işarələrdən bəhs edilir. Audiopublisistikada buna səsin tonu, musiqili şərhlər və s. aiddir. Platon "Kratil" əsərində danışığın mahiyyətinə toxunaraq söz və səs arasında daxili bağlılıq olduğunu yazıb. "Sonralar get-gedə o qədər düzəlmə sözlər meydana gəlib ki, mənaca müxtəlif olur, nəticədə ilkin bağlılıq, yəni motivasiya itir" [3, s.847-848].

Aristotel "Orqanon" əsərində mənalı işarə birləşmələrinin məna daşıyan işarələrdən alındığını qeyd edib [108, s.46].

İbn Sina isə işarələr komponentində insanlar tərəfindən yaradılmış dilin şifahi formasını yazıda əksini, fikrin sözlərlə ifadəsinin məntiqi əlaqəsini əqli işarələr sistemində qruplaşdırır [108, s.62-65].

Semiotika elmi isbatlayır ki, cəmiyyətin iştirakı ilə yaradılmış işarələr (söz, söz birləşmələri, söyləm, cümlə və s.) real gerçəkliyin dildə əks olunmasıdır. Burdan da məntiqi nəticə hasil olur ki, söz, səs birlikdə, yəni eyni kompleksdən çıxış edəndə bir dolğun məna yaradır.

Dilin mənalı elementləri düşüncə və təfəkkürün təkamülü nəticəsində formalaşıb. "*Sözlər arasında məna əlaqəsi dedikdə, sözlərin əlaqəsi nəticəsində yaranan leksik semantika deyil, ümumiləşmiş qrammatik semantika nəzərdə tutulur. Məna əlaqəsi obyektiv aləmdəki əşya və hadisələrlə onların müxtəlif əlamət və xüsusiyyətləri arasındakı real əlaqələrdən doğur*" [46, s.9]. Çünki əsl düşüncə dilsiz mümkün olmadığı kimi dil təfəkkürlə qarşılıqlı təsir nəticəsində fikrin əməklə bağlılığı şəraitində inkişaf edib. İnsanlarda səsli və ya auditiv (eşitmə) işarələr informasiyanı gözdən sonra ikinci dərk etmə kanalıdır. Kamil insanda, yəni təfəkkürü inkişaf edən fərddə dillə yanaşı metadil də inkişaf edir. Nədir metadil? "*Metadil eşidilən səslərə qulaq asıb, onların yaranmasını nizamlamaq deməkdir. Fonematik eşitmə elə metadil eşitməsidir ki, insan eşitdiyinin düzgünlüyünü müəyyənləşdirə bilir*" [108, s.135].

L.R.Zinder intonasiyanı hər bir dilin ən xarakterik fonetik əlaməti hesab edir. İntonasiya emosional olduqda həyəcanı, linqvistik halda isə normal psixoloji

vəziyyəti bildirir. "*Cümlənin sonunda qoyulan nida nifrətin ifadəsinə işarədirsə, şüurlu olaraq adresata yönələn kinemalar davranış hərəkətlərinə aiddir*" [142, s. 10].

Mediada küy danışığı əvəz edir və küy işarələr küy simvollarla vəhdət təşkil edir və müstəqil olaraq da yeni məzmun kəsb edir. Mediada sintetik küy musiqisi daha çətin ifadə olunur. Belə ki, burada kadr arxası və kadrdaxili səs qatqıları, səs layları kateqoriyası əlavə olunur ki, bunlar da kəsişə, bir-birini tamamlaya və biri digərinə keçə bilir [165, s.23].

Prof. N.Xudiyev isə hesab edir ki, *elektron qurğuların yaratdığı nitq, musiqi və müxtəlif növ teleradio səs siqnalları kütləvi informasiyanın özünəməxsus sahəsinə çevrilmişdir. Nitq, musiqi və siqnallar onları müşayiət edən jestlərlə, mimika və digər əlavə ünsiyyət vasitələri ilə daha sıx birləşərək getdikcə cilalanan dil mənzərəsi yaradır. Hər iki elektron informasiya vasitəsi verilişlərin hazırlanması prosesində incə differensasiya, ifadə vasitələrinin daha intensiv təkmilləşməsi istiqamətində inkişaf etməkdədir* [44, s.14].

"*Radio üçün nə isə yazmağa başlayarkən eyni vaxtda ona uyğun səsi də axtarmaq lazımdır*" – deyən rus yazıçısı İ.A.Bunin fikrini belə əsaslandırır: "*Nə qədər ki, onu tez tapırsan, bir o qədər də hər şey asan başa gəlirdi. Həmin səs onun üçün nə dərəcədə vacibdir və hansı mahiyyət, önəm daşıyır. Bəlkə də düzünü demək, tempi və ritmi, əsas səslənməni, əsərin hissələrinin ölçüsünü tapmağa kömək edirdi. Axı şeir, musiqi kimi nəsrin də öz daxili melodiyası olur və səs harmoniyasının qanunlarına tabedir*" [177, s.111].

Yuxarıda verilən radiomətndən bəzi cümlələrin efir səslənməsinə nəzər salaq. "...Özümdən asılı olmayaraq atın belinə necə qalxdımsa, ona bir qamçı çəkib, yalmanına necə yatdımsa, bunu ancaq o anı yaşayan bilər. Bir də gördüm qulağıma səs gəlir. Səhər yaylımına çıxan kənd adamlarının səsi idi bu səs. Sən demə, minalanan əraziyə çatmışam. Bir anlığa qollarım yanıma düşdü. Gözlərim qaraldı. Başımı qaldırıb, üzü yuxarılara boylandım. Heç nə anlaya bilmədim. Yenə o torana bürünmüş, işğal altında olan diyarın xəyal tablosu..." cümlələrində isə fon dəyişikliyi labüddür. Artıq bir məyusluq, müəllifin ağrı-acını dilə gətirməsi rejissor

tərəfindən uyğun ab-hava ilə təsdiqlənməlidir. Ola bilər ki, lazımi məqamda silah səsləri seçilsin, şəhidlər haqqında yazılmış musiqilərə üstünlük verilsin, yaxud qəmli bir hekayənin motivləri əsasında yazılmış ağır simfonik lövhələrdən fraqmentlər əksini tapsın. Nəzərə almaq lazımdır ki, müəllifin nostalji hisslərini musiqinin dili ilə daha da ağırlaşdırmaq əvəzinə, dinləyicidə, eləcə də müəllifin düşüncəsinin əksi olaraq bir inam aşılayan motivlərə də toxunmaq gərəkdir. Əgər mətndə sual verilirsə, rejissor ona seçimi ilə, cavabını düşünülmüş faktoloji materiallarla verməli, yəni tətbiq etdiyi səs effekti ilə nöqtəsini qoymalıdır.

Dil səsləri deyilməli, tələffüz edilməli və eşidilməlidir. Musiqi də ifa olunur, çalınır və eşidilir, ancaq o heç vaxt dili əvəz edə bilməz, çünki musiqidəki tonları və ton ardıcıllığını adi adam başa düşə bilmir. Adi adam musiqini bütöv, hissələrə parçalanmayan melodiya kimi dərk edir [108, s. 8].

Audiopublisitikada fon musiqisi danışıqla birgə işlənsə də, əsas səsə, fikrə yardımçı məqsədi daşıyır. Bəzən bədii ifadəliyinə görə fon səslə nitq arasında fərqlilik hiss edilir. Hansı işarə daşıdığını və nə üçün süjetin fonunda verildiyini ayırd etmək üçün psixoloji anlayışlar müxtəlifdir.

1937-38-ci illərdə repressiyaya uğrayan ziyalılarımız haqqında Azərbaycan radiosunda arxiv sənədləri əsasında yazılan Rövşən Ramazanlının müəllifi olduğu “Gecə döyülən qapılar” verilişi zəngin rejissor təxəyyülü ilə hasilə gələn audiopublisistik mənbədir. Veriliş belə başlayır:

Küy: küçədən addım səsləri gəlir, bir neçə nəfərin ayaq səsləri eşidilir, onlar sürətlə irəliləyirlər....

Diktor: (Əməkdar artist Bəxtiyar Şərifzadənin təqdimatında, qalın və əsəbi, emosional (həyəcanlı səs): “Gecə döyülən qapılar!!!!”

... Qısa musiqi parçası...

Diktor: Veriliş dünya şöhrətli göz cərrahı, beynəlxalq aləmdə ilk dəfə olaraq anadan kor doğulan uşağın gözünü cərrahiyə əməliyyatı ilə açan oftalmoloq alim Ümnisə Musabəylinin ömür yoldaşı, Azərbaycanda dermatovenerologiyanın banisi professor İbrahim İsmayılzadənin həyatına həsr olunub.

... Musiqi davam edir...

Küy: Bərkdən qapı döyülür və qorxulu musiqi səslənir.

Verilişin başlanğıcından anlaşılır ki, gecə qapının bu cür bərkdən döyülməsi bəd xəbərə və dəhşətli hadisəyə işarədir...

Diktor: Gecə birə işləyirdi. Şəhər bəlkə də çoxdan yuxuya getmişdi. Bərkdən döyülən qəfil qapı səsi gecənin sakitliyində əks-səda yaratdı. Səsə qonşular da diksindi. Xeyir ola, bu vaxt? Ümnisə xanım dodaqaltı pıçıldadı: Kimdir görəsən? Çevrilib professora baxdı. Həmişə gülərüzlü olan həyat yoldaşını elə bil ilk dəfə görürdü. Ərinin rəngi bəyazımış çöhrəsi və nigaran baxışları onu ildırım kimi vurdu. Dağdan ağır sandığı kişinin birdən-birə yazıqlaşan görkəmi nəzərindən qaçmadı. Hərəkətsiz qaldığını görüb, özü qapıya yaxınlaşdı. İçəri daxil olan bir neçə şəxs bircə kəlmə soruşdu:

Zəhmli kişi səsi: İsmayılzadə İbrahim?

Professor: (asta səslə) Bəli.

Zəhmli kişi səsi: Yığışın, bizimlə getməlisiniz.

Professor: (tərəddüdlə)  Hara?

... Bir neçə saniyəlik həyəcanlı musiqi parçası

Diktor: Susmuş və zəhmli baxışlardan, dilindən qəfil çıxan sualdan İbrahim müəllim daha da pərt oldu. Həmişə cəsarəti, dilavərliyi ilə seçilən Ümnisə xanım da susmuşdu. Bu sualın cavabı yox idi. Ötən il minlərlə qapısı döyülən insanlar nəyin qurbanı olduğunu bilmədikləri halda gedər-gəlməzə yola salınmışdılar. Tanıdıqları bu insanların aqibəti hamının başına gələ bilərdi. Xüsusilə ziyalıların, milləti canı-qanı qədər sevdiyi şəxslərin alın yazısına çevrilirdi. Bu dəfə İbrahim İsmayılzadə hədəfə alınmışdı. Almaniyada birgə oxuduqları, ən yaxın dostu Əlirzanın tutulması xəbərini eşidəndən sonra bu anı hər gün gözləyirdi. Sorğu-suala tutulacağı şübhəsiz idi. Güclü tufanın, amansız fırtınanın caynağından xilas olmağa çalışan iri gövdəli ağactək o da yıxılmamağa çalışdı. Yerdən ayağının üzüldüyünü hiss eləsə də, təmkinini pozmadan, taqətdən düşən dizlərini, keyləşmiş qollarını güclə açaraq körpə qızını bağrına basdı. Səs-küyə yuxudan oyanan, qorxu içərisində çaş-baş qalan, gələn “dayılar”ı tanımayan balaca Dilarə nə baş verdiyini anlamasa da, atasının öpüşlərindən məmnun halda həmişəki kimi nazlanmağa

başladı. “Qonaq”larla evdən çıxan atasının arxası ilə baxan anasını ağlayan görəndə isə dodaqlarını büzdü. Ana-bala bir-birlərinə sarmaşdılar. Hər dəfə ağlayan qızını sakitləşdirən ananın bu gün özünün hıçqırması balacanı heyrətdə qoydu. Donuq gözlərini mat-məəttəl ona dikdi. Kiçik ovucları ilə anasının islanmış üzünü, göz yaşlarını silməyə başladı, əllərini boynuna dolayıb, bərk-bərk qucaqladı.

... Qəmli musiqi...

Diktor: Həmin gün Ümnisə xanımın həyatına yazılan ən dəhşətli gecə oldu. Yoldaşının taleyindən nigaran qaldı, onun başına nə gələcəyini bilmirdi. Tanış olduqları günü, tələbəlik illərini xatırladı. Hər ikisi həkim idi. Ən yaxşı təbib olmaq uğrunda mübarizə aparırdılar, təkcə sənətləri ilə yox, həm də alimlik səviyyəsi ilə öyünürdülər. Birdən onu da güllələyərlər?!. Qorxu, təlaş ürəyinə soxuldu, vücudunu titrətdi, həyatı qədər sevdiyi, ən əziz bir insanı itirmək təhlükəsiylə üzləşdiyini hiss etdi...

... Musiqi...

Diktor: Professor İbrahim İsmayılzadə həmkarları kimi 1938-ci ildə həbsə alındı. Müxtəlif bəhanələr səsləndi. Təqsirkar olduğunu isbatlamağa çalışdılar. Axırda əlacsız qalıb, onu “Trotskinin tərəfdarı” adlandırdılar. Tutarlı dəlil olmadığından istintaq prosesi iki il çəkdi. Məhkəməsi isə 15 dəqiqə. Bu müddət ərzində, dəmir barmaqlıqlar arasında yaşayan Azərbaycan alimi, nəhayət, Sibirə sürgünə göndərildi. Həyatının növbəti 10 ilini ailəsindən, doğmalarından, el-obasından ayrı yaşamağa məhkum edildi. İbrahim İsmayılzadənin repressiyaya məruz qalmasına səbəb onun vaxtilə Azərbaycan Demokratik Respublikasında Parlamentin deputatı seçilməsi idi. Millətini azad görmək istəyən insanların sırasında adı çəkilən ziyalı olduğu üçün qara siyahıya salınmışdı... Uşaqlıq dostu Əlirza Atayevlə Almaniyaya oxumağa göndərilən İbrahim İsmayılzadə repressiyanın neçə-neçə günahsız qurbanlarından biri idi. Sürgün həyatında da hər an ölümünü gözləyən minlərlə insanlardan biri...

...Musiqi...

Verilişdə istifadə olunan musiqi və əlavə səs effektləri, diktor mətni, aktyorların ifasında real həyat səhnələrinin canlandırılması, obrazların müxtəlifliyi, Xalq Daxili İşlər Komissarlığı (rus dilində NKVD-Народный Комиссариат Внутренних Дел СССР) əməkdaşının zəhmli danışığı, sonradan istintaqı aparan cavan müstəntiqin professoru sorğu-suala tutması, yersiz ittihamlar və bütün radiosəhnələrin fonunda səslənən musiqi milli əqidəsinə görə məhvə məhkum edilən Azərbaycan ziyalısının ölümə gedən yoluna bələdçilik edir. Bu, audiopublisistik verilişdir və yazılan ssenarinin bəzi məqamları rejissor tərəfindən radiohekayə formasında təqdim olunur.

Azərbaycan professorunun Sibirə sürgün edilməsi, qatarla aparılması, vaqonlardakı sərnişinlərin hay-küyü, dəmir yolu relsinin səsi, yol üstündə əsgərlərin onunla kobud davranışı, soyuq hava şəraitini büruzə vermək üçün çovğun, fırtına və s. səs effektləri, musiqilər audiosüjetin, həyatdan götürülən real faktoloji materialın ayrı-ayrı komponentləridir. Bu verilişin kontrapunktu sadalanan müxtəlif elementlərin sonda vahid məzmun doğurması və qoşalaşan səslərin, sözlərin ifadə mahiyyətini açmaq  məqsədi ilə tətbiqidir.

Radioda musiqi hər dövrdə böyük təsir gücünə malikdir. Xüsusən anlam və məna yaratmaq, siyasi düşüncə formalaşdırmaq və ya müəyyən ab-hava hiss etdirmək baxımından musiqidən məqsədli şəkildə istifadə olunur. Kolumbiya universitetində tədqiqatlar aparmış Byu Botvel “Yaxın Şərqdə Amerika radioverilişlərində musiqi siyasəti” adlı doktorluq işində ölkə gənclərinə təsir etmək baxımından radiosiyasətdə musiqiyə böyük önəm verildiyini qeyd edib [230].

11 sentyabr hadisələrindən sonra 2002-ci ildə ABŞ-da “Radio Sawa” adlı qrup yaradıb. Corc Buş administrasiyası tərəfindən Yaxın Şərq ölkələrinin xalqlarına ünvanlanan xəbərlərin təqdimatında ingilis və ərəb musiqisindən istifadə edilib. Gəncləri terrorla bağlı məlumatlandırmaq məqsədi ilə mütəmadi verilən danışıqlar auditoriyaya yerli musiqi sədaları altında təlqin edilib. Tədqiqatçı bildirir ki, Buş siyasətinin bu addımına səbəb kütlənin verilişə marağını cəlb etmək məqsədi daşıyır. Hər bir xalqın öz musiqisi özünə doğmadır və psixololoji təsir

effektinə malik olaraq şüurlara asanlıqla yol tapır. Tədqiqatçılar musiqinin qavranılmasında radionun müasir dövrdə də böyük əhəmiyyət daşıdığını bildirilər. Bu məqamda Zərxanım Əhmədlinin sözləri yerinə düşür: "*Ən məşhur musiqi əsərlərinin, muğamların, simfonik lövhələrin radio ilə dinlənilməsi ilə televiziya versiyası tam başqa effektə malikdir. Bir çox hallarda görüntü insanın fikrini əsas mahiyyətdən ayırır*" [26, s. 14].

Audiopublisistikada süjetin axırı musiqi ilə, danışıq prosesini müşayət edən melodik parça ilə tamamlanır. Radiojurnalistikada əsas problemlərdən biri də publisistik verilişin sonluğunun natamam qurtarmasıdır. Veriliş üçün ayrılan efir vaxtının düzgün bölüşdürülməməsi, oxunan mətnlə musiqili dəqiqənin bir-birinə tarazlaşdırılmaması, birinin digərini üstələməsi radiosənətdə nöqsan kmi dəyərləndirilməlidir. Müəllif montaj olunmuş söhbətin radioda tam səslənməsində israrlıdırsa, rejissor da eynən musiqili bəzək-düzəyin lazımi qaydada tərtibini düşünməlidir. Veriliş sona çatanda musiqiyə yer qalmadığı üçün əksər hallarda sonluq çox qısa parça ilə yekunlaşır. N.Əhmədlinin sözləri ilə desək "*duzu, istiotu, ədəvası lazımi qaydada olmayan yemək dadsız olduğu kimi, verilişin də maraqlı olması hazırlandığı zaman istifadə edilən effektlərdən, fonun havasından asılıdır*" [25, s. 51].

Efirin sonuna iki dəqiqə qalmış rejissor lazımi məqamda danışığı, sözü kəsməyi planlaşdırmalı, bağlanış musiqisini nəzərə almalıdır. Söhbətin fonuna həmin musiqini elə ustalıqla salmalıdır ki, artıq bitməsi ilə bağlı xəbərdarlıq dinləyiciyə aydın olsun. Sağollaşmadan sonra sonluq tək musiqi ilə bağlanmalıdır.

### 3.2. Söz-səs effektləri-musiqi kontrapunktuna nailolma yolları

Radiodan əvvəl səs effektlərindən tamaşalarda, şəxsi film evlərində, vodevillərdə (vodevil-fransız sözü olub, bədii ədəbiyyatın dram növünə aid janr, yüngül məişət mövzusunda komediya deməkdir) istifadə olunub. 1931-ci ildən sonra müxtəlif ölkə radiolarında auditoriyada maraq oyatmaq məqsədilə sözün alternativi kimi tətbiqinə başlanılıb. İlk dəfə CBS radiosunda (ABŞ) Artur və Ora Nikolların şəxsi arxivində toplanmış səslərdən faydalanıblar. Çütlüyün radioya

cəlbi böyük sensasiyaya səbəb olub. İnsanlar efirdən həyatdakı səsləri təəccüblə, heyrət içində dinləyiblər.  Ora Nikol təkcə radioda istedadlı səs effekti mühəndisi deyil, həm də dünyada bu işlə məşğul olan ilk və yeganə qadın kimi tarixə düşüb. "Radionun ən nüfuzlu qadını" statusunu alan ilk xanımdır. Radioda cazibədar səs effektlərinin yaradıcısı Ora və əri Artur qrup olaraq illərlə CBS və NBC-də sərbəst çalışıblar. Daha sonra bu cütlük Henri Qotye (Henry Gauthiere) və Corc O`Donnel (George O`Donnel) öyrədib. Beləliklə, dünyada ilk dəfə səs effektləri şəbəkəsi heyəti yaradılıb. Bu sahə yeni yarandığı vaxtlarda səs mühəndisi əvvəlcə cihaz qurur və efir boyu onu idarə edirdi. Nəzərdə tutulan səs effektləri efirdən öncə rejissor tərəfindən yoxlanılır və sonra səs mühəndisi bir daha dəqiqləşdirirdi. Səs effektlərindən zaman keçdikcə komediya verilişlərində, hətta xəbərlərdə istifadə edilməyə başlanılıb [188, s.16-21; 222].

Səs effektlərinin radioda tətbiqi görünən informasiya anlamı yaratdığından efirdəki pauzanı, ara məsafələrdəki boşluğu doldurmaq məqsədi ilə müxtəlif səs çalarlarından istifadə düşünüldüyü kimi səmərəli nəticə verib. Filmlərdə səs effektlərinin işlədilməsi Mişel Çion (Michel Chion) adı ilə bağlıdır. Sonralar təcrübəsini radioda həyata keçirən bəstəkar, Parisdə "Sorbonne Nouvelle" universitetində audiovizual münasibətləri tədris edən professor Mişel Çion "Audio-görmə: ekranda səs" ("Audio-vision: sound on screen") əsərində danışıqla musqinin əlaqəsindən söhbət açıb. Filmlərdə, musiqi çıxışlarında olduğu kimi efirdə də səslər arasında uyğunluq, tərkibcə bağlılıq mütləq amildir. Düzgün səs effekti, söz və hissiyat vəhdət təşkil etməlidir. "*Hər bir səs effekti mətnin hissələrinə uyğun gəlməli, izah etməli, bir-biri ilə əlaqəli olmalıdır*" [181, s.79].

Nümunə üçün milli radionun fondunda saxlanılan verlişlərdən birinə, "Ana" radiojurnalının (1980) onuncu efir buraxılışının giriş hissəsindəki səs düzümünə diqqət yetirək:

... Qara Zurnada "Cəngi" çalınır...

Qadın diktor: Əziz dinləyicilər, "Ana" sizinlə qızıl payızın bu gözəl, uğurlu, qələbəli, bol məhsullu, xoş müjdəli bir günündə görüşə gəlib.

... Bir neçə saniyə “Cəngi”nin səsi yüksəlir və digər əsərlə əvəz olunmağa başlayır...

... Payız toylarına, məhsul bayramına, qələbə sevinclərinə qərq olmusan zəfər ulduzlu, qələbə ulduzlu Azərbaycanım...

... Yavaş-yavaş “Cəngi”ni əvəzləyən Azərbaycan mahnısının sədaları yüksəlir..

Kişi diktor: Milindən, Muğanından, Şirvanından, Qarabağından sinənə sevinc, fərəh süzülür, ağ qızıl tayalarından, kəhrəba şanılarından qüdrətin yaranır, şöhrətin yaranır, Tərlanlar, Qızqayıtlar, Sərdarlar (əmək qəhrəmanları) vətəni Azərbaycanım...

... Şövkət Məmmədovanın ifasında “Azərbaycan” mahnısından bir parçanın sinxron hissəsi...

Verilişin əvvəlindəki musiqinin mətnlə əlaqəsi, sintezi sözün və musiqinin bir amaldan, xalqın birliyindən, el gücündən danışılmasındadır. Hər iki element eyni məna dəyərini aşılayır. Xalqımızın tarixi, milli özəlliklərini, məişət həyatını özündə əks etdirən Azərbaycan milli musiqisi – “Cəngi” igidlərin əzmini, döyüşə çağırışı ifadə edir. “Cəngi” Qara zurnanın düşmən səsi batıran əzəmətli, ruhlandırıcı gur sədası, qəhrəmanlıq güc numayişini özündə əks etdirən rəqsdir.

Üzeyir Hacıbəyli yazır: “*Əfsanələrdən məlum olur ki, “Cəngi” hələ Koroğlu dövründə zurnanın əzəmətli səsi və təbilin gur sədası ilə düşmənləri sarsıdarmış, döyüşçülərdə cəngavərlik əhval-ruhiyyəsi doğurar, onları qəhrəmanlıq şücaəti göstərməyə və düşmən üzərində qələbəyə çağırardı*” [191]. İnsanda ruh yüksəkliyi, döyüş əzəməti, qəhrəmanlıq hissi yaradan və mübarizəyə səsləyən bu musiqi xalqımızın daxilindən gələn bir rəqsdir.

Radio verilişində Azərbaycanın əmək tarlalarında alın təri ilə bol məhsul əldə edən xalqın işgüzarlığından, oğlan və qızların igidliyindən danışılırsa, verilişin bu anında belə bir musiqinin seçilməsi radioəsərin kontrapunktu deməkdir. Sözün ifadəsi düzgün düşünülən musiqi ilə yekunlaşır. “Cəngi” rəqsinin böyük olmasına baxmayaraq ondan lazımi bir məqam, kiçik parça istifadə olunub. Danışığın pafos hissəsini əks etdirən sözlərə uyğun yeri seçilib və radioəsərə əlavə edilib. Bu

musiqinin istənilən hissəsini mətndə işlətmək, danışığa kortəbii uyğunlaşdırmaq mümkün deyil. Musiqi nəzəriyyəsində olduğu kimi, bir melodiyanın bir neçə xanə gecikdirmə ilə səsləndirilərək ona qarşı qoyulması kontrapunktu nümunə çəkdiyimiz radioəsərdə də eyni formada tətbiq edilib. Birinci melodik səs diktorların, fondakı "Gəngi" səsi isə ikinci səs xəttinin üzərində qurularaq bir məqamda uzlaşıb çoxsəsli süjet (polifonik) əmələ gətirib.

30 illik efir təcrübəsi olan, yayımla bağlı biliklərini tövsiyə etmək məqsədi ilə yaratdığı "Gellerin Beynəlxalq Media Mərkəzi"nin prezidenti, efir yaradıcılığına aid 10-yaxın kitabın müəllifi Valerie Geller güclü radio yaratmağın yollarını düzgün səs effektlərinin tətbiqində görür. "Güclü radio yaratmağın yolları: Əldə etmək, saxlamaq və dinləyicinin xəbərləri artırmaq, danışmaq, məlumat və şəxsi yayım, HD, Peyk və internet" adlı əsəri böyük reytinq qazanıb [183, s. 368]. Müasir dövrdə təbii səslərin əldə edilməsini kommunikativ inkişafla əlaqələndirərək bu sahədə dünyada lider radio yaratmağın mümkünlüyündən bəhs edən elmi kitablarında və həmçinin çalışdığı mərkəz tərəfindən təşkil edilən seminarlarda yayımın inkişafı üçün üçün gərəkli təcrübələrdən, efirin heyrətamiz gücündən danışıb.

Böyük Britaniyanın Uels şəhərində ən məşhur yerli radio olan "Radio Pembrokeshire"nin əməkdaşı Keri Jons yazır: "Bu kitab mənə Britaniyaynın ən uğurlu yerli radiosunu yaratmaqda kömək etdi. Bu ölkədə birinci radiodur. Bu kitabı alın, həqiqətən işə yarıyır". Gellerin dördüncü kitabı "Kənarda güclü radio-kommunikatorun internet əsrinə şahidliyi" adlanır. 2011-ci ildə Focal Press tərəfindən İngiltərədə çapdan çıxıb [58].

Radio verilişində səs effekti ilə işləyərkən dialoqu, arxa hissəni, dialoqun daxilini, xüsusən də üstünlük təmin edən hissəni nəzərə almaq lazımdır. Nümunə üçün Hüseyn Cavidlə bağlı milli radioda səslənmiş bir radiosüjeti nəzərdən keçirək.

... Fonda instrumental musiqi səslənir...

Diktor: Ölkə başçısı İlham Əliyev 2015-ci ildə Azərbaycan milli mətbuatının 140 illik yublileyinin dövlət səviyyəsində keçirilməsi haqqında Sərəncam

imzalayıb. 22 iyul milli mətbuat günü ilə əlaqədar ölkədə müxtəlif tədbirlər təşkil olunur. Milli mətbuatın inkişafında ədəbiyatımızın görkəmli nümayəndəsi Hüseyn Cavidin də misilsiz xidmətləri var. Müxbirimizin "Hüseyn Cavid və Azərbaycan milli mətbuatının aktual problemləri" mövzusunda elmi araşdırmalar aparan dosent Sevil Həsənova ilə söhbətini dinləyək.

... Musiqi....

Müxbir: Sevil xanım Hüseyn Cavid yaradıcılığına müxtəlif istiqamətlərdən baxılıb. Ancaq Cavidin mətbuatdakı fəaliyyətini indiyə kimi araşdıran, təhlil edən olmayıb. Siz, bu missiyanı üzərinizə götürmüsünüz. Hüseyn Cavidin mətbuatda xidmətləri ilə bağlı ilkin nələri söyləyə bilərsiniz?

Sevil Həsənova: "...Cavidin ədəbi fəaliyyəti, əsərlərinin fəlsəfi mahiyyəti, teatrşünaslıq fonundakı əməyi və s. cəhətlər yetərincə tədqiq edilib. Onun pedoqoji cəhətdən öyrənilməsi və milli mətbuatdakı fikirləri ilə bağlı elmi tədqiqatlar aparmaq isə mənə həvalə olunub...".

Söhbətin ardı Cavidin düşüncələri və mətbuatdakı mövzuları ilə bağlıdır. Rejissorun fona bəsit musiqi parçası əlavə etməsi bədii cəhətdən mükəmməl olan söhbətin dinləmə ehtimalını azaldır. Baxmayaraq ki, müsahib mövzuya kifayət qədər hazırdır və fonomelodik səs tembrinə malikdir. Əgər rejissor müsahibəyə əvvəlcədən nəzər salsaydı, ədibin radio tamaşalarından və yaxud musiqinin bilavasitə onunla bağlı olduğuna dəlalət edən parçalardan istifadə edərdi. Bu situasiyada isə fon musiqisi nəinki boşluğu doldurur, əksinə tamlığı pozur. Süjet bitən kimi fondakı fikri yayındıran musiqi daha da yüksəlir. Sual-cavab üzərində qurulan dialoqun daxili strukturu, arxa hissəsi, sözlərdəki məna dərinliyinin fərqinə fikir verilməyib. Əfsuslar olsun ki, son dövrlər radiojurnalistikada süjetlərin belə tələsik işlənməsi adi hala çevrilib.

Ümumiyyətlə, müsahibənin gedişində musiqidən istifadə mümkündürmü? 40 ilə yaxın Azərbaycan Beynəlxalq radiosunda efir rejissoru işləyən, uzun müddət rejissor qrupuna rəhbərlik edən Əminə Əfəndiyevanın fikrincə, radioda kompozisiyanın, ədəbi-bədii verilişlərin düzgün qurulmasında, diktor oxunuşunun ifadəli və bədii cəhətdən mükəmməl olması əsas rol oynadığı kimi, musiqi

tərtibatının da çox böyük rolu var. Mətnə uyğun düzgün seçilən musiqi müəllifin fikirlərinin daha effektli, daha qabarıq verilməsinə kömək edir. Rejissor musiqinin köməyi ilə dinləyicinin bütün düşüncələrini, fikrini verilişə yönəltməli, onu verilişin rtimində saxlamağı bacarmalıdır. Musiqi gözəl və mətnə uyğundursa, rejissor işi düzgün qurulubsa, dinləyici uzun müddət o verilişin təsirindən çıxa bilməyəcək. Elə mətnlər var ki, onlar təmiz səslənməlidir, musiqisiz efirə getməlidir. Rejissor işinin incəliklərindən biri də musiqdən mətnə uyğun, verilişin bədii cəhətdən təsirli və effektli alınması üçün düzgün istifadə etməyi bacarmasıdır. Nümunə üçün rejissorun bir əsərini təhlil edək.

Diktor: (Simfonik lövhə) "Qarabağ! Azərbaycanın qədim əzəli yurd yeri, tarixən təbiətinin füsunkarlığı ilə görənləri heyrətdə qoyan gözəl diyar. Qeyri-adi təbiəti ilə, gözəlliyi ilə düşmənlərə od qoyan Qarabağ. Son 20 idir ki, ayrı düşmüşük bu yurd yerimizdən. Bu ayrılıq müvəqqəti də olsa, çox qübarlıdır. Həsrətlə qovuşacağımız günü gözləyiirk. Könlümüz hər gün, hər an Qarabağ adlı vətəndən keçir (Qürurla qeyd edim ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi müzəffər Azərbaycan ordusu 2020-ci il noyabrın 8-də Şuşa şəhərini erməni işğalından azad etdi. Ş.Q.)".

"Qarabağ Bülbülləri"ndən Tacir Şahmaroğlunun uşaq vaxtı oxuduğu zəngulə...

Diktor:

"Kölüm keçir Qarabağda
Gah bu dağdan, gah o dağdan
Axşamüstü qoy uzaqdan
Havalansın Xanın səsi
Qarabağın Şikəstəsi.".

Xan Şuşinskinin ifasında eşidlən "Qarabağ Şikəstəsi" yavaş-yavaş simfonik əsərlə əvəz olunur. Həyəcan, narahatlıq, təlatüm hissləri aşılayan fon musiqisi danışığı müşayət edir.

Diktor: "Qarabağın ən dilbər güşələrindən biri də Şuşadır. Bu gün düşmən tapdağında olan Qədim Şuşa".

...Bu an Şuşaya aid mahnının sözlərindən bircə cümlənin ifası pauzanı əvəzləyir: ... "Həsrətin gözümü dağladı mənim, niyə şirinləşmir bu acım Şuşa?"...

Diktor: "Şuşa Azərbaycanın ən qədim şəhərlərindən biridir. Bu şəhərin adını bildirən Şuşa sözü bu diyarın saf, (fonda xəyallar doğuran sakit musiqi parçası gedir) qeyri-adi dərəcədə şəffaf dağ havasının rəmzi olan şüşə sözündəndir. Təbiət Şuşaya gözəl bulaqlar və mineral sular bəxş edib...".

Küy: su səsi, bulaq şırıltısı musiqiyə qarışır...

Diktor: "Turşsu, İsa bulağı, Səkinə bulağı, Soyuqbulaq, Saxsıbulaq. Şuşa dedikdə, göz önünə qədim Şuşa qalası gəlir".

... Fonda sakit ney səsi eşidilir...

Diktor: "Tarix boyu heç bir düşmənə baş əyməyən Şuşa qalası".

.... Azərbaycan muğamının "Zəmin-xara" şöbəsindən balaca bir hissə fona düşür.

Diktor: "Bu sözün mənası farsca qayalıq yer, tikanlı torpaq deməkdir. Şəhər iki tərəfdən güclü qala divarları ilə əhatə olunmuşdu. Şuşanın yaranması Qarabağ xanlığının mövcudluğu və onun qüdrətinin artması ilə bağlıdır".

"Xarı Bülbül"ün musiqisi fona keçir...

Diktor Şuşanın tarixindən danışır.

"Şuşanın Dağları" mahnısından bir parça səslənir...

Şuşanın tarixi şəxsiyyətlərindən söhbət açılan digər süjetin musiqi düzümü, səs çalarları da mətnin qayəsinə uyğun tərtibatı ilə diqqət çəkir. Sonuncu məqamda Şuşanın işğalı haqqında danışılanda isə seçilən musiqilər mətnlə əks-görkəm təsiri bağışlayır. Rejissorun redaktora zidd düşüncəsinin real obrazı formalaşır. Düşmən tapdağında qalan yurd yerinin iniltisinə qəmli musiqi, inilti, kədərli notlarla deyil, mübarizə ruhunda musiqilərlə yenidən Şuşaya qayıdacağımız günü vəd edir.

...Döyüşə çağırış tonunda hərbi marş oxunur...

Sonluq üçün seçilən musiqidə vətənin azad edilməsinin, onun xilasının yalnız milli birlik sayəsində mümkünlüyü diqqətə çatdırılır. Verilişin təhlili zamanı sözlərə, fikirlərə uyğun musiqi düzümlərinin şahidi oluruq. Bir neçə məqamda fondakı səslərin uyğunluq və məna əlaqələri yaratması hiss edilir. Xüsusən qala

sözünə "Zəmin-xara"nın işlənməsi bu sözün mahiyyətini anlayan bir qrup insan üçün anlam yaradırsa, auditoriyanın digər hissəsində muğamın şöbəsinə fərqli düşüncə ilə, məsələn qaya başına çıxan insanın yüksəkliklərdən boylanaraq özünü xöşbəxt hiss etməsi, içindən gələn bağırmaq və keçirdiyi hissləri ucadan səsləndirmək istəyi və s. kimi yanaşmalar ola bilər.

İnsan hisslərini ifadə etmək üçün musiqi incəsənətin ən həssas psixoloji təsir vasitəsi hesab olunur. Alimlər sübut edirlər ki, musiqinin gücü ilə hətta dünyanın sirlərini açmaq mümkündür. Ən əsası odur ki, o insan hissiyatının dərinliyinə enməyi bacarır. Musiqinin öz semantik vahidləri (lüğət), kombinasiya qanunları (sintaksis), ayrıca musiqiləri (mətn) və onların konkret reallaşdırma imkanları var. Deməli, musiqinin semiotikliyi onun məzmununu, vahidini (musiqi dilinin işarəsi), onun morfologiyasını və sintaksisini necə açmaqdan ibarətdir [108, s. 207]. Eyni ilə sözlərin düzülüşündə tələb olunan qanunlar da musiqi ilə oxşar olduğundan hər ikisinin sintezi bədii ifadənin imkanlarını gücləndirir. Bu vasitələrin radiomәkanda istənilən formada tətbiqi, insan düşüncəsinə müxtəlif aspektlərdən təlqini fikir və ideyanın konkret ünvana ötürülməsində ən unikal üsul hesab olunur. Radionun əlçatmaz imkanları sayəsində, fəza boşluğunda insan təxəyyülünün əks təsirini azaltmaq müşkülə çevrilir.

Afina Universitetinin doktoru Elli Çaramis "Müharibə zamanı (1940-50 illərdə) yunan radioyayımında musiqi: qarışıqlıq və müqavimət" (Music in Greek Radio Broadcasting in Wartime (1940-1950): Complicity and Resistance) adlı məqaləsində ikinci dünya müharibəsi ərəfəsində, almanların işğalı dövründə radionun hərbi qüvvələrə məxsus olmasını və təbliğat məqsədi ilə istifadə edilməsini araşdırıb. Yazılı mətnlər nəzarət altında olduğundan, yunanlar almanların musiqilərin mənasını bilməmələrindən ustalıqla istifadə edərək milli mahnılar vasitəsilə xalqa mesajlarını çatdırıblar. Bu dövrdə yunan bəstəkarları, Dimitri Levidis kimi şəxslər milli mənafeyə xidmət edən əsərlər üzərində işləyərək gizli məna daşıyan musiqilərin efirdə səsləndirilməsinə səy göstəriblər [184, s. 75].

Dünya radio tarixinin inkişaf mərhələlərini nəzərdən keçirən zaman radiodan siyasi təbliğat məqsədi ilə musiqidən silah kimi istifadə edilməsi faktlarını əks

etdirən xronoloji materiallardan bəlli olur ki, milli musiqi hər bir xalqa məxsus daxili təlatüm yaratmaqla bərabər, ecazkar gücü ilə sərhədləri açmaq qabiliyyətinə də malikdir. Musiqiyə məqsədli yanaşılarsa, yerində və vaxtında müraiciət edilərsə, daha təsirli olar.

Heydelberq Universitetinin sənətşünaslıq doktoru Mauro Fosco Bertola "1920-30-cu illərdə millitarizmin təbliğində alman və italyan radiolarında musiqi siyasəti" (Defining a European 'New Order' through Music: Ancient Music in Italian Radio Broadcasting during the Fascist Period) adlı doktorluq işində hər iki ölkənin musiqiyə bir siyasi düşüncə formalaşdırmaq məqsədi ilə eyni vaxtda müraciət etməsi ilə bağlı maraqlı araşdırma aparıb. Alim "Müharibə dövründə adət və ənənələrin rolu: İtalyanın faşizm dövründə radioda musiqi siyasəti" məqaləsində xalqa nəzarət altında verilən verilişlərdə aparıcıların musiqi ilə müharibəyə qalib gəlməsi əzmini aşıladığını xüsusi vurğulayıb. "*1924-30-cu illərdə qədim italyan musiqisi, xüsusilə instrumental əsərlər radio proqramların əsas parçası idi. Bu proses faşist hakimiyyətinin siyasi məqsədlərinə xidmət edən amil idi, maarifləndirmə məqsədi güdürdü. Ancaq aparıcıların milli musiqinin fonunda söylədiyi fikirlər, sözün musiqiyə uyğun məharətlə təqdimatı, radioda səslənən İtaliyanın qədim musiqisi efirdə əks-təbliğat məqsədi daşıyırdı. Onlar əvvəlcə qədim Böyük Roma imperiyasının mövcudluğundan söhbət açır, əzəmətli olduqlarından danışır və qədim milli musiqi sədaları ilə insanların şüuruna təlqin edirdilər ki, tarixdə böyük olan xalq qədimdə olduğu kimi bu gün də əzəmətli gücə, yekdil hakimiyyətə mailik ola bilər. Bununla da millitarizmin təbliğinə cəhd edirdilər* " [184, s.25].

Ölkəmizin efir təcrübəsində də bu üsuldan vaxtilə məharətlə, səmərəli istifadə edilib. Güney Azərbaycana ötürülən verilişlərdə ayrılıq mövzusu, qürbət, vətən həsrəti musiqi ilə, mahnılarla ifadə olunub. Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində sədr işləyən Elşad Quliyev 1983-cü ildə "Kommunist" qəzetindəki məqalələrindən birində radionun ünvanına gələn namələrdən bəhs edir: O bildirir ki, cənub qonşumuz İrandan göndərilmiş məktublar minlərlə əcnəbi dinləyicinin ürək səsidir. Dinləyicilərdən biri yazır: "*İlk*

*dəfədir qələm götürüb sizə məktub yazıram. Sovet Azərbaycanı haqqında xoş xəbərlər eşitmək, maraqlı verilişlərə qulaq asmaq mənim üçün olduqca xoşdur*" [50].

Müasir dövrdə Cənubi Azərbaycan üçün hazırlanan əksər verilişlərin başlığı Üzeyir Hacıbəylinin Koroğlu Uvertürası ilə başlayır. Musiqi nəzəriyyəsində diqqəti ideya-məzmuna yönəldən, emosional mühütə kökləyən bu musiqinin radioverilişlərdə təqdimatının özünəməxsus anlamı var. Sovet hakimiyyəti illərində bəzi xalq mahnıları məqsədli şəkildə proqramlarda təbliğ olunub. "Gəl bizə yar" mahnısının sözlərinin, "...ay dağlar, səndə gözüm var, ay məndə dərdə dözüm var" kimi misraların böyük məna yükü var idi. "Qaragilə", "Elə Bəndəm", Rübabə Muradovanın ifasında "Nədən oldu" və sairə neçə-neçə mahnıların mətnləri nəyə işarə edildiyini xəbər verirdi. Yazıçı publisist A.Babayevin ideyası olan "Körpü" verilişində və yaxud dinləyicilərin çox sevdiyi proqramlardan biri olan "Sözlü nəğməli sətirlər"də, bir sözlə onlarla efir məhsullarında əsas qayə musiqilərlə çatdırılırdı. Yazıçının radiodakı yaradıcılığı "Səhnə, ekran, efir" adlı kitabında geniş təcəssüm olunub və bu dramaturqun janr müasirliyindən xəbər verir [12, s.436].

Virciniya Universitetində çap olunan elmi mənbədə yazılır ki, milyonlarla insanın eyni anda dinlədiyi fikir vahid bir düşüncə formalaşdırır. Dinləyicini inandırmaq üçün radioda insanlara 1927-30-cu illərdə çoxlu "təsvir"lər veriblər. Ona görə də ünsiyyət zamanı auditoriyada təsəvvürlər yaratmaq üçün səs aktyorları səs effektləri üzərində ciddi çalışıblar. Əsasən danışıqla əlaqəli effektlər üzərində düşünüblər. Efir səs effektlərinin köməyi ilə dünyanın dərk olunması, həyatın bir parçası, macərası, melodraması kimi təsir bağışlayıb. Radio səs effektlərinin yardımı ilə insanların güvəndiyi inanc mərkəzidir və radio yarandığı gündən etibarən insanları doğru yola aparır [222].

Rejissorun laqeydliyi, bəsit tapıntısı dinləyicini əsas məqsəddən yayındıra bilər. İncə duyum, sözə həssaslıq və musiqi biliyinin olması zəruri şərtdir.

Çoxsəsli polifonik musiqidə kontrapunkt əmələ gətirən melodiyalar bədii ifadəliyinə görə bir-birindən fərqlənir. Onların bütövləşməsi üçün lazım olan

çalarlar birləşəndə vahid məzmun yaranır. Radio verilişində də ayrı-ayrı elementlərin kontrapunktu üçün nəzərdə tutulan fon musiqi hər bir cümlənin nöqtəsi kimi vacib funksiyanı yerinə yetirir.

Milli radioda əsgərlər üçün hazırlanan "Vətən yaşasın" verilişinin bir buraxılışında şəhidin düşmən tərəfindən öldürülməsi anı olduğu kimi təsvir edilib [235]. Onun canvermə "səhnə"si bədii ifadə vasitələri ilə qabardılıb. Rejissor mətni yazıldığı kimi reallaşdırmağa çalışıb. Bu zaman dinləyici amili, onun valideynlərinin, sevgilisinin, yaxud düşmənlə üzbəüz dayanan Azərbaycan əsgərinin keçirdiyi hiss və həyəcan nəzərə alınmayıb. Burda iki insanın (müəllif və rejissor) fikirləri eyni fonda cəmləşib. Üçüncü tərəfin auditoriyanın psixoloji durumu düşünülməyib. Halbuki radioda verilişin adından da göründüyü kimi mövzunu bu aspektdən işıqlandırmaq düzgün deyil. Şəhidin qanlı köynəyindən danışılan anda fonda səslənən ağır templi musiqi insanın döyüş əzmini, mübarizliyini söndürür, onun ruhunu öldürür, məğlub təsiri aşılayır. Şəhidin qurban getdiyi "VƏTƏN" məfhumu da heçə enir. Bu tip mətnləri işləyən zaman rejissor öz düşüncəsi ilə çalışmalı, təxəyyülünü canlandırmalı, elə musiqi düzümü etməlidir ki, hər bir dinləyicidə qalib gəlmək əzmi, döyüşə atılmaq cəsarəti, inam hissləri aşılansın. Belə verilişləri dinləyən zaman cəbhədə övladı olan valideyn nigarançılıq keçirməməlidir. Əksinə onun ürəyinə ümid toxumu səpməli, inandırmağa çalışmalıdır ki, müharibədə qalib tərəf Azərbaycan olacaq. Radio əməkdaşı sadə bir məntiqi anlamalıdır ki, belə mətnlərdə dinləyicinin daxili aləminə nüfuz etmək ustalığı mütləqdir.

Prof. Şerelin sözləri ilə desək, mətndə və musiqidə sürətlərin bir-birlərinə zidd fikirləri, müxtəlif intonasiya xarakterləri, səslərin toqquşması, məna məzmununun və musiqinin xarakterinin kontrapunktundan irəli gəlir. Alimin gəldiyi qənaətə görə, ardıcıl akustik montajda dinləyicinin fantaziyasının hisslərini və idrakını canlandıran səs kontrapunktu xüsusi əhəmiyyət daşıyır [177, s. 145].

Psixoloqlar musiqidəki semantik informasiyanın həcminin faktiki olaraq nitq məlumatının məzmunu ilə eyniyyət təşkil etdiyini həm nəzəri, həm də təcrübi yolla sübut ediblər. Musiqi və səslər sözlə deyilmiş həm ideya, həm də estetik

informasiyanı dəqiqləşdirmək, tamamlamaq imkanına malik müstəqil kompozisiya elementləri qismində çıxış edir. Bundan əlavə süjetin məntiqi və emosional yükünü üzərinə götürür. Şerel 1950-70-ci illərdə işlədilən verilişin "musiqi və səs tərtibatı" terminini yalnış hesab edərək, alternativ variant kimi bütov "musiqi-səs həlli" deyilişini düzgün hesab edir. Hər bir musiqinin, səs fraqmentinin yerinin və funksional təyinatının müəyyən edilməsi prosesi verilişin məzmununu təşkil edən ilkin faktiki həllində və ədəbi materialın təşkilində son dərəcə məsuliyyətli vəzifədir.

Azərbaycan radiosunun əksər publisistik verilişlərində fon musiqisi kimi musiqinin bütün janrlarından - vokal, instrumental mahnı, simfoniya, opera, operetta, marş, sonata, suita, klassik və xalq musiqisi və s. - istifadə olunur. Bu janrların kiçik bir hissəsi ilə ümumiləşdirilmiş planın ideyası, konkret məsələ aydınlaşır, qəhrəmanların, aparıcının hiss-həyəcanı, daxili aləminin emosional vəziyyəti əks olunur. Verilişin musiqi bəzəyi redaktorun düşüncəsini tam açmağa kömək edir. Audiopublisitik materialda musiqinin əsas ifadə vasitələri olan lad-müxtəlif yüksəkliklərdə yerləşən səslərin bir-birinə tərəf meyl edərək, eyni zamanda bir sabit səs ətrafında birləşməsi, metr-musiqiçinin və dinləyicilərin təxəyyülündə mövcud olan vurğulu və vurğusuz təqtilərin müntəzəm sürətdə ardıcıl növbələşməsi, ritm- eyni və ya müxtəlif ölçülü notların müəyyən ardıcıllıqla birləşərək ritmik qruplar əmələ gətirməsi, tembr-musiqi əsərinin ifa sürəti və s. elementlərin cəmləşməsi, radioincəsənətin ümumi qanunauyğunluqları ilə bir müstəvi üzərində yerləşməsi materialın "efir kontrapunkt"u üçün real sintez rolunu oynayır.

Radioda aqrar mövzuda yazılmış bir mətni təhlil edək.

Diktor: "Bütün sahələrdə olduğu kimi Azərbaycanda aqrar siyasətin də uğurlu nəticələri göz qabağındadır. Bu gün ölkədə aqrar islahatlar nəticəsində həyata keçirilən dövlət tədbirləri əhalinin məşğuliyyət problemlərini həll etməklə yanaşı, həm də ərzaq təminatının gerçəkləşməsi üçün düşünülmüş siyasətin tərkib hissəsidir. Torpaqlarımızda məhsul bolluğu ilbəil vüsət alır. Ağcabədi və Beyləqan rayonlarının ərazilərində 4800 hektar sahədə özəl pilot taxılçılıq təsərrüfatlarının

yaradılması kənd təsərrüfatının zəruri sahələrinin, xüsusən də taxılçılığın inkişafına göstərilən dövlət dəstəyinin bariz nümunəsidir. Bu il müasir texnologiyaların tətbiqi ilə təsərrüfatda ildə 25 min tondan artıq taxıl istehsalı gözlənilir. İstehsal olunacaq taxıl məhsullarının itkisiz və uzun müddət keyfiyyətli saxlanılması üçün layihə çərçivəsində ümumi tutumu 30 min ton olan müasir taxıl anbarının, eləcə də min başlıq müasir heyvandarlıq kompleksinin, bitki yağları istehsalı zavodunun inşası, özəl "Aqrotexservis"in yaradılması Azərbaycanı yaxın gələcəkdə taxıl idxal edən ölkəyə çevirəcək. Beləliklə, qarşıdakı illərdə ölkəmizin ərzaq buğdası ilə özünü təmin etməsi və bu məqsədlə ölkə ərazisində 50-dək iri taxılçılıq təsərrüfatının yaradılması dövlətin əsas prioritet məsələlərindən biridir...".

.... "Kürdovşarı" simfonik muğamı...

Fonda simfonik muğamın giriş hissəsindən istifadə edilir. Mətnlə musiqi bir neçə cəhətə görə əlaqələndirilib. Ölkənin aqrar təəsərrüfatında həyata keçirilən möhtəşəm bir layihənin gerçəkləşməsi diqqətə çatdırılır. Musiqinin ayrıca dinlənilməsi zamanı da eyni mənzərə göz önündə canlanır. Yaşıl tarlalar, bol zəmilər, yurdun ucsuz-bucaqsız münbit torpaqları və bu izdihama tamaşa edən uca dağların vüqarlı baxışı, ana təbiətin füsunkarlığı və s. xəyali anlar yada düşür. Musiqinin əzəməti süjetin dəyərini daha da artırır. Qüdrətli musiqi ilə müşayət olunan mətn adi iqtisadiyyat xəbəri hesab edilsə də, əsas mahiyyətinə nəzər salanda rejissor seçdiyi böyük musiqi ilə bu xəbərin məğzində Azərbaycanın sabahı üçün düşünülən siyasətin gerçək tərəfini "göstərməyə" çalışır.

Kommunikativ informasiyada musiqi insan psixologiyasına aktiv təsir edən, bədii səs obrazlarının həqiqiliyini əks etdirən incəsənət sahəsi kimi dəyərləndirilir. Əsas məsələ, süjetin efir dəqiqəsi ilə fon musiqisinin bir xətt üzərində düzgün yerləşdirilməsi zamanı, sözün, musiqinin hər bir notuna uyğun verilməsi məqamı diqqətdə saxlanmalıdır. "*Əgər zaman amili maksimum dərəcədə istifadə olunmuşdursa, süjetin bədii həlli tapılmışdırsa, o zaman bu iki komponentin uyğunluğu - vəhdəti müsbət nəticə verməyə bilməz*" [136, s. 5].

Radionun səs palitrasının zənginliyi nitqin fasilələrlə verilməsi zamanı aradakı məsafə boşluğunu təmin etməklə yanaşı, kontrapunkta nail olmaq üçün

çatışmayan çaları bərpa edir. Efirin ifadə vasitələri olan söz, musiqi və səslər qarşılıqlı əlaqələrin vəhdəti kimi və ayrılıqda müxtəlif, müstəqil komponent halında istifadə edilə bilər. Müasir dövrdə səslərin kompüter texnologiyası ilə asanlıqla uyğunlaşdırılması radionun səslər obrazını daha mükəmməl səviyyədə qurmağa imkan verir. Radioməkanın genişləndiyi rəqabət dövründə səmərəli fəaliyyət üçün yeni forma və üslublar axtarılır. Proqram oxunuşunun yeni musiqili tərtibatı verilişin auditoriyada yeni formatda təqdimatı üçün maraqlı tapıntı hesab edilə bilər. Nümunə üçün iki verilişin səs düzümü ilə tanış olaq.

...Musiqi...

Aktyor: (Həsən Əbluc)

Nağıl istəyirəm, bilmirəm nədən
Gün dağdan əyilib qaş qaralınca
Xəyal dünyamıza dar gəlir zaman
Qaçırıq həmişə nağıl dalınca.

... Musiqi...

Diktor:(İradə Ələkbərqızı) "Şair öz səsində"

Şair: (İslam Səfərli)

Ürəyimdə söz yatır, suyunca
Dinlə məni, dinlə sən, doyunca

Diktor:(Eldost Bayram) Milli radiomuzda...

Diktor:(İradə Ələkbərqızı) Həftənin hər günü...

Diktor:(Eldost Bayram) Poeziya dəqiqələrində...

Diktor:(İradə Ələkbərqızı) Klassik poeziya heyranları, siz də hər gecə saat 12-dən on dəqiqə keçmiş lirika dəftərini bizimlə vərəqləyin.

Aktyor: (Füzulinin qəzəlindən iki misra ifa olunur)...

... Musiqi...

Bir dəqiqə 30 saniyəlik musiqili anonsda bir neçə insanın səsi və müxtəlif fon musiqisi uyğunlaşdırılıb. Başlanğıc, orta və sonda verilən musiqilər səslərin arasına elə yerləşdirilib ki, hər nəfəs dəyişdikcə, musiqinin də, ifa tərzinin də axarı başqa səmtə yönəlir. Sonda səslənən ud səsi "klassik poeziya" sözü ilə barabər xəttə

düşür. Bu cür musiqili tərtibat dinləyicinin radioya cəlb olunması, auditoriyanın diqqətini çəkmək üçün nəzərdə tutulub. Efir yaradıcılığının bu formada təşkili radiojurnalistika ilə paralel radioincəsənətin inkişafına, akustik imkanların genişlənməsinə səbəb olur.

... Həzin musiqi...

Diktor:(Ofelya Sabirqızı) Dədələrimiz dünyanı bir pəncərə sandılar. Bu pəncərədən nə gördük, gördüklərimizdən nə götürdük. Yaşadıqlarımız, görüb götürdüklərimiz bir-birinə calandı, nağıla döndü.

... Mahnıdan qısa parça....

... Bu dünyada nağıl çoxdur, hamısı da belə başlar, bir vardır, bir yoxdur...

Diktor: (Əli Məhəmmədoğlu) "Ömrümüzun o başından geri boylananda dünya özü bir nağıl donunda göründü.

Diktor: (Ofelya Sabirqızı) "Dünya bir nağıldırrr, nağıldırrr, nağıldırrr (Səs mikşerlə reverberasiya edilib)

Diktor: (Əli Məhəmmədoğlu) ...Sən demə, dünya özü boyda bir nağıl dünyasıymış...

... Fonda udda qədim folklor musiqisi...

Diktor: (Ofelya Sabirqızı) Hörmətli dinləyicilərimiz, milli adət-ənənələrimiz, inam və yaşam tərzimizdən maraqlı söhbətləri ilə görüşünüzə gələcək.

Diktor: (Əli Məhəmmədoğlu) "Dünya bir nağıldır" verilişi...

Diktor: (Ofelya Sabirqızı) Hər ayın üçüncü həftəsi saat 23.00-da efirə çıxacaq.

Mahnıdan bir cümlə - "Bu dünyanı nağıl bilək" və musiqi dəyişir...

Anonsun fonunda verilən müxtəlif səs obrazlarının hər biri əsas fon səsi kimi eşidilir. Qısa növbələşmədən sonra biri digərini əvəzləyir. Birinci, ikinci, üçüncü dərəcəli fon səsləri müasir formatda təqdim olunan efir elanlarında xüsusi effektlərlə işlənib və anında dəyişərək akustik mənzərəni mükəmməlləşdirir. Efir yaradıcılığının başlıca amili olan söz, musiqi və səs effektləri mahiyyəti açmaq üçün dinləyiciyə yol göstərən bələdçi rolunda çıxış edir.

Radioda istənilən mövzunu səsləndirmək olarmı? Müasir dövrdə efirin imkanları nəzərə alınmalıdır. Elə mövzular var ki, onun qulaqla yox, gözlə qəbul edilməsi mütləqdir, yəni televiziyada işlənməsi daha məqsədəuyğun hesab olunur. Milli radioda qadın saç modaları və ya qədim xalq milli geyimləri ilə bağlı verilən silsilə süjetlərə nəzər salaq:

Müxbir: Azərbayanda qədim qadın libaslarının maraqlı tarixcəsi var. Çəpkəndi, güləcə, baharı, eşmək, tuman, cütbalaq, çaxçur, qaba, çuxa, arxalıq və s. üst geyimlərimiz mövcud olub... [239].

Başqa bir süjetdə isə baş örtüklərindən söhbət açılır.

Müxbir: Qədim Odlar yurdunda müxtəlif baş örtüklərindən istifadə edilib. Bunlardan ən maraqlısı təsəkdir. Təsəyin üstündə naxışlarla müxtəlif işləmələr əks olunurdu. Həmin naxışların növlərinə görə, təsəyin "mirvari papaq", "qızıl papaq", "ayulduz" kimi adları olub. Təsəkdən başqa, naznazı, qazqazı, çalma, dingə, ləçək, çadra və sairə. Məşhur baş geyimlərinin bəziləri ilə yaşlı nəslin nümayəndələri müasir dövrdə başlarını örtürlər [238].

Bu süjetlərdə adları çəkilən tikmə növlərini, geyim və baş örtüklərini səs effektləri ilə canlandırmaq radionun imkanları xaricindədir. Televiziyada görüntü hər şeyi həll etdiyi halda belə mövzuların vizuallığı tələb olunduğundan efirdə səslənməsi auditoriyada maraq doğurmur. Birinci süjetin sonluğunda Qədir Rüstəmovin ifasında "Reyhan", ikincidə isə Gülağa Məmmədovun səsində "Örpəyini bağla" mahnıları ilə kontrapunkt əldə edilsə də, süjetlərin daxili fonu, mətni qüvvətləndirmək imkanı məhduddur.

Robert L.Mott "Radio səs effektləri; Bunları kim yaratdı necə yaratdı, canlı yayımın erası" kitabında radionun qızıl dövrünü, ötən illəri yada salıb. Televiziyanın yaranışınadək radioda təsvir doğuran nümunələri, səs effektlərini sadədən mürəkkəbə doğru xronoloji ardıcıllıqla toplayan müəllif müasir radiojurnalistikada keçmiş təcrübənin öyrənilməsi və yaradıcılıqda istifadə edilməsini qənaətbəxş hesab etmir. "*Bugünkü gündə Amerikada radio dinləyiciləri üçün təsvir vermək çətindir. Filmlərdən və qəzetlərdən fərqli olaraq, radio dinləyicilərini onların iştirakını tələb etmədən həm əyləndirir, həm də*

*məlumatlandırır*" [188, s. 1]. Radioda uğurun bir hissəsi səs effektlərinin yaradıcılıqda əks olunmasından asılıdır. Yəni keyfiyyətli səs effekti olsa, radioda veriliş yaxşı dinlənilər. Kitabda həm də radionun texniki imkanlarının inkişafı müxtəlif cəhətdən əks olunub.

Radio verilişlərində səs effektlərinin vaxt bölgüsü ilə bağlı nümunə:

Milli radioda səslənən bir süjeti təhlil edək.

Müxbir: ABŞ 16-cı prezidenti Abraam Linkoln oğlunu ilk dəfə məktəbə göndərən zaman məktubla müəlimə bu cür müraciət edib:

"Hörmətli müəllim, oğlumu sizə əmanət etdiyimə görə, bu məktubu sizə yazmağı  vacib bildim. Ona deyin ki, hamı dürüst və ədalətli deyil".

... Fonda klassik və ritmik musiqi...

..."Ona öyrədin ki, qazanılan bir dollar tapılan 5 dollardan daha dəyərlidir. İtirməkdən, həm də qazanmaqdan həzz almağı öyrədin ona. Ona qısqanclıqdan kənar olmağı öyrədin, ona səssiz gülüşün sirlərini öyrədin. Əgər bacara bilsəz, ona kitabların möcüzəli bir nemət olduğunu öyrədin".

... Musiqi 5 saniyə yüksəlir...

..."Ona səssizlikdə göydəki quşların, arıların, günəşin, çəmənliklərdəki güllərin (quş səsləri, çırcırama, arı) daxili sehrinə enməyi öyrədin..."

... 3 saniyə uşaq səsləri..

..."Öyrənsin ki, məktəbdə səhv etmək hiylə gəlməkdən daha şərəflidir. Hamı onun səhv olduğunu desə də, öz fikirlərinə inanmağı, nəzakətli insanlara qarşı nəzakətli, kobudlara qarşı kobud olmağı öyrədin. Hamı bir-biri ilə bəhs edəndə, kütləyə qoşulmayıb öz yolu ilə getmə gücü verin oğluma".

... 2 saniyə kütlənin səsi...

.... "Bütün insanlara qulaq asıb, dinlədiklərini həqiqət ələyindən keçirib ancaq yaxşıları özünə götürməyi öyrədin. Bacarsanız kədərləndiyi zaman necə gülə biləcəyini öyrədin ona. Ağlamaqdan utanmamaq..."

... 2 saniyə için-için ağlamaq səsi...

.... "gücünü və beynini ən yüksək qiymət təklif edənə satmaq, ancaq ürəyinə və ruhuna qiymət etiketi qoymamağı, pis danışan insanlara qulağını tıxamalı, əgər

haqlı olduğuna əmin olarsa, dimdik ayaq üstündə dayanıb mübarizə aparmağı öyrədin ona. Ona qarşı mehriban olun...”

... 6 saniyə asta musiqi səsi ...

..... “amma qucaqlamayın. Çünki ancaq odun qığılcımı poladı saflaşdırır. İmkan yaradın ki, səbrsiz olacaq qədər cəsarətə sahib olsun. Və icazə verin cəsur olacaq qədər səbrli olsun”.

... 4 saniyə təlatüm doğuran musiqi....

... “Həmişə özünə inanmağı öyrədin. Bu yolla onun bəşəriyyətə inamı da daimi olacaq...”

... Fon dəyişir...

.... “Bütün bu sadaladıqlarım bəlkə də çox böyük tələbdir. Lakin özünüz baxın, nə qədərini bacarırsınız”.

... Fonda gedən musiqi insanda inam hissi yaradır. 5 saniyə özünə güvən hissi yaradan musiqi...

... Sonluqda süjet Azərbaycan manhısı ilə tamamlanır. “Ay, alagöz balam”, “Dərdimin dərmanı ay alagöz balam, ömrümün fərmanı ay alagöz balam” [232].

Süjetdə hər söz arası, fikir ayrıcında, nöqtə tamamında dəyişən musiqi parçaları çox qısa vaxt ərzində sözlə ahəngdarlıq təşkil edir. Nümunə gətirdiyimiz süjetdə yerli-yersiz, uzun-uzadı musiqilər sözlər arasındakı əlaqəni poza bilərdi. Fona daxil olan musiqi qısa olmalı, bir fikirdən digərinə keçid zamanı saniyələrlə müşaiyət edilməlidir. Bu, müxbirin süjetdəki fikirinin tamamlanması üçün vacib məqamdır. Süjetin daxili strukturuna əsasən tərtib edilən bu qısa bölgüyə süjetlər arası keçid zamanı tam fərqli prizmadan yanaşılır. Bu zaman bir-iki saniyəlik deyil, nisbətən daha çox saniyələrlə keçid musiqisi verilməlidir. Vaxt bölgüsü düzgün nəzərə alınmalıdır. “*İstənilən verilişdə musiqini 15-20 saniyədən artıq səsləndirmək məqsədəuyğun deyil. Bundan sonra musiqini ya fona keçirmək ya da ümumiyyətlə kəsmək, yığışdırmaq lazımdır* [177, s.127].

Vaxtilə mətnlərin oxunuşu zamanı fonda musiqilərin səslənməsini şübhə altına alan tədqiqatçılar fikirlərini onunla əsaslandırırdılar ki, ikinici səs əsas fikri dağıdır və dinləyicinin şuruna məhz həmin səs daha çox təsir edir. Araşdırmaçı

Şerel müxtəlif ölkə alimlərinin bu yanaşmalarının yalnış olduğunu elmi əsaslarla sübuta yetirib. “*Musiqinin şüura təsir imkanları böyük əhəmiyyət daşıyır. Radio verilişlərində musiqi və səs verilişə məna strukturu əmələ gətirən təkcə məna elementi kimi daxil olmur*” [177, s. 128].

Materialın bədii təşkili prosesində bu iki ünsür onlarda olan semantik informasiyaya görə, süjet konstruksiyasının müstəqil hissələrini təşkil edə bilər. Bir çox hallarda musiqi fraqmentləri və səslər məntiqi təsdiqin sinoniminə çevrilir. Nümunə ilə əsaslandıraq: [240].

Diktor: “Vətəni sevmək imandandır, deyiblər. Bu dəfə sizi dağlar qoynunda yerləşən Xızı rayonuna səyahətə dəvət edirik”.

... Fonda “Xızı dağları” mahnısının instrumental hissəsindən bir parça ...

... Diktor: “Xızı deyəndə, göz önünə ilk növbədə dağlar gəlir. Xızı dağları. Dağların arasından keçən yolla irəliləmək, əsrarəngiz gözəlliyi seyr eləmək o qədər böyük zövq verir ki, Xızının iqlimi o qədər dəyişkəndir ki, insan burda ilin hansı fəslinin olduğunu o qədər də müəyyənləşdirə bilmir. Yolun bir tərəfində günəşin ılıq şüaları adamı isindirir, digər tərəfində hava tutqun olur. Temperatur, demək olar ki, hər yüz, iki yüz metrdən bir dəyişir. Bütün bunların seyrinə daldıqca, adam istər-istəməz F.Dostayevskinin məşhur “dünyanı gözəllik xilas edəcək” fikrini xatırlayır. Məşhur mahnıda boşuna deyilmir ki, məni heyran etdi, Xızı dağları”...

Pauza

“Ana təbiətin seyrinə dalıb,
Min dəfə gəzmişəm azı dağları,
Könlümdə əbədi bir məskən salıb,
Məni heyran etdi Xızı dağları, dağları.
Məni heyran etdi Xızı dağları, dağları.”

Diktor: “Xızıya gələsən, Müşfiqin, Cəfərin muzeyini ziyarət etməyəsən, bu, günah olar. Nakam şairimiz Mikayıl Müşfiqin ev muzeyi üzük qaşı kimi dağlarla əhatələnib. O an adama elə gəlir ki, bir vaxtlar qoruya bilmədiyimiz, repressiya qurbanı olan Müşfiqi, onun ruhunu sanki indi bu dağlar qoruyur. Həyətdə Müşfiqin yadigarı olan, öz əli ilə əkdiyi iki balaca qovaq ağacının sanki bir neçə il yaşı var.

Bəlkə də o ağaclar heç vaxt böyümək istəməyəcək. Axı Müşfiq də 29 il yaşayıb. Evlə üzbəüz dağın üstündə böyük bir tar var. Və onun yuxarı hissəsində böyük hərflərlə yazılmış "Oxu tar" sözləri də diqqətdən yayınmır."

... "Oxu tar" (Gülağa Məmmədov oxuyur)...

... Fon dəyişir....

Diktor: "İçində böyük ideyalar gəzdirən, bəşəriyyətin vicdan işığını yandırmağa çalışan, ömrünü teatr yollarında əridən Cəfər Cabbarlının ev muzeyi..."

... Fonda "Azad bir quşdum" manhnısının musiqisi pauza anında sözlərlə ifa olunur...

Diktor: "Cəfər mühiti, balaca otaqlardan ibarət köhnə ev... İçində Cəfərin anası Şahbikə xanımın istifadə etdiyi məişət əşyaları, yerdə Cəfərdən qalan balaca xalça və ədibin yadigarı olan mürəkkəb qurutmaq üçün istifadə olunan balaca bir əşya da var. Böyük Cəfərdən yadigar qalan hər bir əşyaya toxunduqca, adam qəribə sözlə ifa edilməsi mümkün olmayan hisslər keçirir..."

... Mahnının sinxron hissəsindən bir bənd...

Bu süjetdə verilən fon musiqilər və pauzalar arası səslənən mahnıların heç biri efir danışığını üstələmədiyi üçün mətnin qayəsi adresata məlumdur. Dinləyicinin təsəvvürü söz vastəsi ilə reallaşır. Musiqi onun ruhuna, sümüyünə işlədiyi kimi, eyni zamanda eşitdiyi sözün də təsirində qalır. Xızını daha yaxından görmək, tanımaq üçün daha diqqətlə sözün axarını izləyir. Mətn üç dəqiqə, süjetarası musiqi isə 5 dəqiqə olsaydı, simmetriya pozulardı. Süjetdəki fikrin ardıcıllığı təmin olunmazdı.

Audiopublisistikanın daxili sturktunda əks olunan effektlərin kəsb etdiyi məna ilə bağlı ayrı-ayrı elementlərin, səs və musiqinin, vahid məzmuna təsiri mexanizmini elmi araşdırmalar zamanı metodoloji üsulla öyrənmək səmərəli nəticə verə bilər. Nümunə üçün radioəsərin səs elementlərinin təhlili haqqında cədvəl tərtib edək:

| | | | |
|---|---|---|---|
| Səs tərtibatının təhlili | Səs effektlərinin və musiqilərin qruplaşdırılması | Səs effektlərinin fondakı yeri (süjetdaxili və mövzuarası) | Səslərin məna və anlamına görə əlaqələndirilməsi |
| Hər hansı bir verilişə qulaq asdıqdan sonra danışıqla yanaşı eşidilən digər səslərin qeydi | Nitq (diktor, aparıcı, müəllif, müsahib, çıxışçı, aktyor və s.), küy səslərin və fon musiqilərinin sayı | Mətnin daxili strukturunda təyin olunmuş yerinin aydınlaşdırılması | Sözlərlə bağlılığı və nitqə edilən əlavədə kəsb etdiyi əhəmiyyət |
| Səslər arasında vaxt bölgüsünün təxmini ölçüsü | Nitqə, səs effektlərinə və fon musiqisinə ayrılan dəqiqələrin hesablanması | Daha çox üstünlük verilən səs elementlərinin ahəngdarlıq harmoniyası | Verilişin musiqi həllində kontrapunktun alınması mexanizmi |

Radiodrama və filmlərdə oxşar texniki vasitələrlə tətbiq edilən səs effektləri hər iki halda boşluğun musiqili həllinə xidmət edir. Hər iki halda danışıq əsasdır. Xüsusi ilə radioda dialoqlardan istifadə səs effektləri vasitəsi ilə daha cəlbedici, efirdə daha  anlaşıqlı olur. Texnologiya eynidir və eşitmə zövqünün nəticəsi qarşılıqlıdır. Fərdi baxılır və qulaq asılır. Filmdə səslə şəkil birlikdə işlənir, bəzən sinxron, bəzən də kontrapunkt şəklində olur. Səs effekti ekrandakı boşluğu doldurmağa kömək edir. Radioda isə ancaq səslə məhdudlaşır. “Kor media anlamında olan radio” film qədər keyfiyyətli olmalıdır. Radioda boşluq elə doldurulmalıdır ki, insanlara xüsusi zövq versin. Radio dinləyiciləri sanki onlara təqdim edilən əsərin ən gözəl hissələrini  görməlidirlər. Əsərin ideyası onların beynində formalaşmalı, aktiv şəkildə dinləyiciyə çatmalıdır [223].

Dinləyiciyə səs effektləri vasitəsi ilə hansısa bir hadisəni izah etməyin yolları “Transposing Drama” əsərində dəqiq göstərilib. “Görüntülü hərəkət görüntüsüz

hərəkətə qarşı durur. Radioda təsəvvür səslərdən yaranır”. Səsin məkanın içərisindən və yaxud kənardan eşidilməsi məsələsi ilə bağlı BBC radiosunda mütəxəssislər fərqli mülahizələr irəli sürüblər. Eqil Tornqvist araşdırmalarında səs effektinin öz perspektvi və akustikası olduğunu qeyd edib [189, s. 14-15].

Hər bir mənzərənin akustikasını yaratmaq üçün səslər mikrofonla (səs ya uducu, ya da əks-təsirli ola bilər) uzlaşmalı, tələb olunan mühitə uyğun olmalıdır. Eqil Tornqvistin fikrincə, səs görüntüsü obrazın özünü onun içində təsəvvür etməsidir. Məsələn, otaqda ayaq səsləri eşidilir, it hürür və qışqırıq səsləri gəlir. İkinici mərhələdə qadın qışqırır və deyir, ay it, çəkil kənara. Bunları eşidən dinləyicinin gözü önündə hadisənin xəyali görüntüsü yaranır. Birinci, qapalı yerdə itin hürməsi bilinir. Səs effekti vasitəsi ilə görüntü yaranır. Daha sonra sürətlərin qışqırtısı ikinici səhnənin təsəvvürünü formalaşdırır, ikinci səs effekti birinci səs effektini izləyir. Göründüyü kimi birinci mərhələdə olan səs effekti ikinci mərhələdəki səsə qarşı durur. Dinləyici itin yaxında olmasını hiss edir. Ayaq səslərindən həmin şəxsin otaqda olduğu başa düşülür. Radioda hər bir səs akustika ilə bağlantı tələb edir. Bu nümunədə səs effektinin akustikası, perspektivi və semiotikası (mənası) hürən itin və qışqıran insanın görüntüsüdür. Bunlar içəridə olan səs effektləri hesab edilir.

İkinci nümunədə isə səs effekti  görüntünün kənarından hiss olunur, eşidilir. Qadın bunları görmür. Bu boşluğu doldurmaq üçün qadın “mən itdən qorxuram” deyir. Burda səs effekti növbələşmir. Görüntüdə görünməsə də, dinləyiciyə itlə bağlı işarə verilir. Burada əsas məsələ qadının itdən qorxması xofunu yaratmaqdır. Radiodan eşidilən səsin, küylərin və musiqinin hər birinin ayrı-ayrılıqda öz mənası olur. Yağış səsi verilirsə, demək nə isə anlamı var.

